# NAXÇIVAN MUXTAR RESPUBLİKASI KONSTİTUSİYALARDA

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI KONSTİTUSİYALARDA

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ YARADILMASININ 90 İLLİK YUBİLEYİNƏ İTHAF OLUNUR

"Elm və təhsil"
BAKI – 2014

*Kitabın tərtibçisi, oçerk və mətnlərin müəllifi:*
**Elman Yusif oğlu CƏFƏRLİ**
tarix üzrə fəlsəfə doktoru, dosent

*Elmi məsləhətçi:* **İsmayıl Muxtar oğlu HACIYEV**
Akademik, Əməkdar elm xadimi

*Redaktoru:* **Fəxrəddin Yəhya oğlu SƏFƏRLİ**
AMEA-nın müxbir üzvü

**Naxçıvan Muxtar Respublikası konstitusiyalarda.**
**Bakı, "Elm və təhsil", 2014, 208 səh.**

*Kitabdakı ayrı-ayrı oçerklər və mətnlər Naxçıvan Muxtar Respublikasının yaradılması, müstəqillik dövründə Naxçıvan MR-in timsalında muxtar dövlətin optimal siyasi idarəçilik modelinin təşəkkül tapması, onun siyasi-hüquqi statusunu, Azərbaycana bağlılığını təmin edən konstitusion sənədlərin – muxtariyyətin öz konstitusiyalarının, Azərbaycan konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı hüquqi normaların və SSRİ konstitusiyalarında muxtariyyətlərin fəaliyyəti ilə əlaqəli müddəaların təhlilinə həsr edilmişdir. Əsərə Naxçıvan Muxtar Respublikasının 1924-cü ildə qəbul edilmiş Əsasnaməsinin, 1926-cı, 1937-ci, 1978-ci və 1998-ci illərdə qəbul olunmuş konstitusiyalarının tam mətni, Azərbaycan konstitusiyalarından isə muxtariyyətlə bağlı çıxarışlar daxil edilmişdir. Muxtar dövlətin rəmzləri, onların qəbulu və təsvir nümunələrinin şərhi və muxtar respublikanın ərazisi ilə bağlı xəritələrin əsərə daxil edilməsi ilə Naxçıvan Muxtar Respublikasının ötən 90 ildə siyasi-hüquqi inkişafı və ərazi bütövlüyü məsələləri ilə bağlı dolğun məlumat bazası yaradılmışdır.*

*Kitab elmi ictimaiyyət və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**ISBN 978-9952-8142-2-4**

**© «Elm və təhsil», 2014**



**NAXÇIVANIN MUXTARİYYƏTİ TARİXİ NAİLİYYƏTDİR, BİZ BUNU QORUYUB SAXLAMALIYIQ. NAXÇIVANIN MUXTARİYYƏTİ NAXÇIVANIN ƏLDƏN GETMİŞ BAŞQA TORPAQLARININ QAYTARILMASI ÜÇÜN ONA XİDMƏT EDƏN ÇOX BÖYÜK BİR AMİLDİR. BİZ BU AMİLİ QORUYUB SAXLAMALIYIQ.**

**HEYDƏR ƏLİYEV,**
**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

**MİLLİ İSTİQLALİYYƏT UĞRUNDA NAXÇIVANIN ATDIĞI CƏSARƏTLİ ADDIMLAR BÜTÜN AZƏRBAYCAN XALQI TƏRƏFİNDƏN RƏĞBƏTLƏ QARŞILANMIŞ, RESPUBLİKADA CƏRƏYAN EDƏN İCTİMAİ-SİYASİ PROSESLƏRƏ ÖZ MÜSBƏT VƏ HƏLLEDİCİ TƏSİRİNİ GÖSTƏRMİŞDİR. NAXÇIVAN MUXTAR RESPUBLİKASI BU GÜN MİLLİ DÖVLƏT QURUCULUĞU PROSESİNİN FƏAL İŞTİRAKÇISI OLUB, ÖLKƏMİZİN İQTİSADİ QÜDRƏTİNİN ARTIRILMASINA VƏ İNTELLEKTUAL POTENSİALININ GÜCLƏNDİRİLMƏSİNƏ DƏYƏRLİ TÖHFƏLƏR VERİR.**

**İLHAM ƏLİYEV,**
**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ**

**BU GÜN İNKİŞAF ETMİŞ AZƏRBAYCAN VƏ ONUN NAXÇIVAN MUXTAR RESPUBLİKASI ÜMUMMİLLİ LİDERİMİZİN YARADICI TƏLİMİNƏ, İNKİŞAF MODELİNƏ SANBALLI TÖHFƏDİR.**

**VASİF TALIBOV,**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN SƏDRİ**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ-SİYASİ ƏSASLARININ KONSTİTUSİYALARDA ƏKSİ

Naxçıvan Muxtar Respublikası çətin, mürəkkəb, lakin şərəfli inkişaf yolu keçmişdir. Naxçıvan qədim tarixi və dövlətçilik ənənələri ilə həmişə diqqəti cəlb etmişdir. Naxçıvan Naxçıvan şahlığı, Azərbaycan Atabəyləri dövləti, Naxçıvan tüməni, Naxçıvan xanlığı, Araz-Türk Respublikası kimi dövlət qurumlarının yaranıb fəaliyyət göstərdiyi məkandır. Bu qurumların hər biri öz fəaliyyəti ilə Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yer tutmuşdur.

1918-1920-ci illərdə Naxçıvanda baş verən ictimai-siyasi hadisələr, böyük dövlətlərin ikili standartlar siyasəti (indiki dövrdə olduğu kimi), məkrli erməni daşnaklarının Naxçıvana sahib olmaq iddiaları və bu istiqamətdəki fəaliyyətləri bölgə əhalisini çətin vəziyyətə salmışdı. Lakin bütün bunlara baxmayaraq Naxçıvanın müsəlman əhalisi inadla mübarizə aparmış, Naxçıvanın işğalına imkan verməmiş və Azərbaycanla birləşmək üçün bütün vasitələrdən istifadə etmişlər. Bunu nəzərə alan Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri N.B.Yusifbəyli 1919-cu il dekabrın 22-də Azərbaycan parlamentindəki çıxışında bu məsələdən bəhs edərək demişdir: "İgid naxçıvanlılar, şərurlular və vedibasarlılar bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa – vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar...".

Naxçıvanlıların qəhrəmancasına mübarizəsi, yerli ziyalıların, hakimiyyət nümayəndələrinin və dövlət strukturlarında çalışan milli ruhlu bolşeviklərin qətiyyətli mövqeyi, Rusiya-Türkiyə yaxınlaşması, Naxçıvanda keçirilən ümumxalq səsverməsinin nəticəsi Naxçıvanın Azərbaycanın tərkibində muxtariyyət statusu əldə etməsinə gətirib çıxarmışdır. Moskva və Qars beynəlxalq müqavilələrini imzalayan Rusiya, Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan dövlətləri Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə razılaşmış, Cənubi Qafqaz respublikalarının sərhədləri dəqiqləşdirilmişdir. 1923-cü ildə müəyyən niyyətlər əsas götürülərək Naxçıvanın hüquqi-siyasi statusu azaldılsa da, 1924-cü ildə Naxçıvan MSSR təşkil edilmişdir. Həmin il "Naxçıvan SSR haqqında Əsasnamə" (Naxçıvan MSSR 1936-cı ilə qədər Naxçıvan SSR kimi ifadə edilmişdir – red.) qəbul edilmişdi. Bu Əsasnamə Naxçıvan muxtariyyətinin ilk konstitusiyası statusunda idi. Sonrakı illərdə qəbul edilən dörd konstitusiya Naxçıvan Muxtar Respublikasının hüquqi-siyasi əsaslarını özündə ehtiva etmişdir.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Naxçıvan Muxtar Respublikası konstitusiyalarda" adlı əsərində muxtar respublikanın hüquqi-siyasi əsaslarının bu tarixi sənədlərdə necə əks olunmasını ilk dəfə olaraq əsaslandırmışdır. Müəllif əsərin əvvəlində qarşıya qoyduğu başlıca vəzifə və əsas məqsədi göstərmişdir: bu məqsəd "...Naxçıvanın muxtariyyət statusu ilə bağlı mövcud olan bütün konstitusion normaları – muxtariyyətin öz konstitusiyalarını, Azərbaycan konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı hüquqi normaları, habelə keçmiş SSRİ konstitusiyalarında muxtariyyətlə bağlı hüquqi göstərişləri vahid bir kitabda toplamaq olmuşdur".

E.Cəfərli “Muxtariyyətə doğru gələn yol” adlı oçerkdə XVII əsrdən başlayaraq ermənilərin ayrı-ayrı rus hökmdarları ilə apardığı danışıqlar, XIX əsrin əvvəllərində baş vermiş rus-İran müharibələri, Gülüstan və Türkmənçay müqavilələri, ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsinə xüsusi diqqət yetirir. Ermənilərin Naxçıvan, İrəvan, Qarabağ, Zəngəzur və başqa Azərbaycan torpaqlarında məskunlaşdırma siyasəti “Böyük Ermənistan” yaratmaq yolunda bir mərhələ idi. Daşnaksütyun partiyasının xəyali planına əsasən bu ərazilər “Böyük Ermənistan”ın tərkib hissəsi hesab edilirdi.

1918-1920-ci illərdə baş verən hadisələr faktik materiallar və sənədlər əsasında təhlil edilmiş, ingilis və amerikan əsgərlərinin bölgədə olmaları, Naxçıvanı Ermənistana vermək istiqamətində gördükləri işlər, apardıqları ikili siyasət əsaslandırılmışdır. Rusiyanın Ermənistanla apardığı danışıqlar, bağladığı müqavilələr, Naxçıvanı Ermənistan ərazisi kimi qəbul etmələri, bu yöndə rus siyasətçilərinin oynadığı oyunlar, Ermənistanın xeyrinə atdığı addımlar çox tutarlı faktlarla verilmişdir.

Oçerkdə ciddi maraq doğuran məsələlərdən biri, bu həm də kitabın adına daha çox uyğundur, Naxçıvanın muxtariyyət statusu qazanması, nəticədə Naxçıvan MSSR-in yaradılması ilə yekunlaşan məsələlərdir. Bu məsələlərin təhlili zamanı Moskva, Qars müqavilələri, onların tarixi əhəmiyyəti əsaslandırılmışdır.

“Naxçıvan SSR haqqında Əsasnamə” Naxçıvan SSR-in 1926, 1937, 1978 və 1998-ci il konstitusiyaları, 1995-ci il Azərbaycan Respublikasının Konstitusiyası və bu tarixi sənədlərdə Naxçıvanın muxtariyyət statusu və muxtar respublikanın yaradılması kimi məsələlərə geniş yer vermiş, vacib müddəalar önə çəkilmişdir.

Müəllif “Müstəqillik dövründə Naxçıvanda muxtar dövlət quruculuğu prinsipləri və idarəetmə modeli” adlı oçerkində Naxçıvan Muxtar Respublikasının 1995-ci ildən başlanan müasir intibah tarixini yalnız sosial-iqtisadi yüksəliş, elmi-mədəni dirçəliş dövrü kimi xarakterizə etməmiş, bu dövrü həm də demokratik, dünyəvi, hüquqi muxtar dövlət quruculuğu prosesinin konstitusion əsaslarının yaradılması və həmin hüquqi normaların tətbiqinə başlanması dövrü kimi də əsaslandırmışdır.

Müəllif haqlı olaraq göstərir ki, Naxçıvan muxtariyyətinin milli dövlətçilik təcrübəsi, siyasi-hüquqi sistemi artıq Avropa təcrübəsinin üstün modeli kimi qəbul edilir. Təsadüfi deyildir ki, Naxçıvan Muxtar Respublikası öz siyasi idarəçilik sistemi ilə digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malik olması, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası muxtariyyətin idarə edilməsi üçün normal hüquqi əsaslar yaratması baxımından qitə miqyasında model kimi çıxış edir.

2014-cü ildə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi ilə bağlı ölkəmizdə müxtəlif tədbirlər həyata keçirilir, bununla əlaqədar kitab, monoqrafiya və elmi məqalələr yazılır, elmi konfranslarda məruzələr dinlənilir. Tədqiqatçı E.Cəfərlinin haqqında bəhs olunan kitabı qeyd olunan istiqamətdə atılan uğurlu addım kimi qeyd edilməlidir.

E.Cəfərli ilk növbədə Moskva və Qars müqavilələrindən Naxçıvanla, onun müəyyən olunmuş ərazisi ilə bağlı çıxarışları oxucuların diqqətinə çatdırır. “Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə”dən bəhs edir. Əsasnamənin quruluşunu və mahiyyətini təhlil edən müəllif onun üstün və çatışmayan cəhətlərini

təhlil edir, göstərir ki, Əsasnamənin qəbul olunmasında başlıca məqsəd 1924-cü il fevralın 9-da son hüquqi statusu müəyyən edilmiş Naxçıvanda sovet hakimiyyəti orqanlarının və sosialist cəmiyyətinin təşəkkülünün nəzəri-hüquqi əsaslarının yaradılması idi. Lakin Əsasnamədə Naxçıvanın Azərbaycan ərazisi olduğu göstərilməmişdir.

Müəllif Əsasnamənin özünü kitaba daxil etmiş, onu və muxtariyyətin ilk Konstitusiyasını rus dilindən dilimizə çevirmişdir. Kitabda Əsasnamənin və ilk Konstitusiyanın mətni hər iki dildə təqdim edilir.

Əsərdə Naxçıvan MSSR-in 1926, 1937, 1978 və 1998-ci il konstitusiyalarının geniş təhlili verilmiş, Naxçıvanın hüquqi-siyasi statusunun bu sənədlərdə necə əks olunması göstərilmişdir. 1926-cı il Konstitusiyasından bəhs edən müəllif qeyd edir ki, Əsasnamədən fərqli olaraq bu Konstitusiyada Naxçıvan SSR-in Azərbaycanın tərkib hissəsi olduğu göstərilmişdir.

Əsərdə 1936-cı ildə qəbul edilmiş SSRİ Konstitusiyasından, Azərbaycan SSR-in 1921-ci, 1927 və 1937-ci il Əsas Qanunlarından, Naxçıvan MSSR Konstitusiyasından (1937) bəhs olunur, Naxçıvanla bağlı məsələlərin bu sənədlərdə əks olunması müqayisəli şəkildə təhlil edilir. Məlum olur ki, 1937-ci il Konstitusiyasında ilk dəfə olaraq konstitusion səviyyədə Naxçıvan muxtariyyətinin rəsmi adı "Naxçıvan Sosialist Sovet Respublikası" əvəzinə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" kimi işlədilmiş, Naxçıvanın Azərbaycana bağlılığı "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası muxtar respublika hüququ ilə Azərbaycan SSR-in tərkibinə daxildir" formasında verilmişdir. Konstitusiyada Naxçıvan MSSR-in inzibati ərazisi, qanunverici, icraiyyə və sərəncam orqanı, məhkəmə hakimiyyəti, prokurorluq sistemi, vətəndaşların əsas hüquq və vəzifələri (ilk dəfə) də öz əksini tapmışdı.

Müəllif Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsindən sonra qəbul edilmiş 1978-ci il Azərbaycan Konstitusiyasından, burada Naxçıvan MSSR barədə ayrı-ayrı maddələrdə hüquqi normaların olmasından, bu Əsas Qanunun 8-ci, 15-16-cı fəsillərində "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası", "Naxçıvan MSSR-in dövlət hakimiyyəti və idarə orqanları" kimi məsələlərin əks olunmasından bəhs etmişdir.

1978-ci ildə Naxçıvan MSSR-in növbəti Konstitusiyası da qəbul edilmişdi. Müəllif yazır ki, muxtar respublikanın üçüncü Konstitusiyası əvvəlki Əsas Qanunlardan həm strukturuna, həm də dövlət idarəçiliyinin ən müxtəlif sahələrinin əhatə olunduğu hüquqi normaların məzmununa görə daha təkmil idi. İlk dəfə olaraq buraya "Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublikadır" adlı fəsil artırılmışdı. Tədqiqatçı bu Əsas Qanunun geniş təhlilini vermiş, üstün cəhətlərini göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyası da tədqiqata cəlb edilmiş, onun geniş təhlili aparılmış, bu Əsas Qanunun müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olan muxtar dövlətin Konstitusiyası olduğu göstərilmişdir. İlk dəfə olaraq bu Konstitusiyada muxtariyyətin əsaslarının hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulduğu, həmin müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasının bəyan edildiyi və Naxçıvanın ərazisinin dəqiqləşdirildiyi öz əksini

tapmışdır. Konstitusiyaya görə, Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır.

Əsas Qanunun üstünlükləri, mükəmməl hazırlanması, hakimiyyət strukturu, onun bölünməsi prinsipi, "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi" institutunun təsis edilməsi və b. hüquqi-siyasi normaların əks olunması bütün cəhətləri ilə təhlil edilir.

Əsərin elmi dəyərini artıran məsələlərdən biri də Azərbaycan Sosialist Sovet Respublikasının 1927, Azərbaycan Sovet Sosialist Respublikasının 1937, 1978 və Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyalarının təhlilə cəlb edilməsi, həmin konistitusiyalarda Naxçıvanla bağlı əks olunmuş konstitusion normalardan çıxarışların verilməsidir. Bütün bunlar oxucuya imkan verir ki, Naxçıvanın muxtariyyət statusunu, muxtar respublikanın yaradılmasını və onun inkişaf yolunu Əsas Qanunlarda ardıcıl olaraq izləyə bilsin.

Kitabın sonunda Naxçıvanla bağlı dövlət bayrağının, gerb və himnin olması, onların müxtəlif vaxtlarda qəbul edilməsi də izlənilmiş, nümunələr verilmişdir. Müəllifin gəldiyi nəticə ondan ibarətdir ki, Əsasnamədə, 1926, 1937 və 1978-ci il Konstitusiyalarda muxtariyyətin Dövlət gerbi və Dövlət bayrağı haqqında hüquqi müddəalar olmuş, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı və Dövlət gerbi ilə yanaşı, Dövlət himni də təsbit edilmişdir.

Naxçıvan SSR-in, Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı və Dövlət gerbinin təhlilləri aparılmış və şəkillərin nümunələri verilmişdir.

Müəllif tərəfindən tədqiqatın əhatə dairəsi bir qədər də genişləndirilərək SSRİ Konstitusiyalarında muxtar respublikalarla bağlı hüquqi normalar ətraflı təhlil edilmiş, Naxçıvan muxtariyyətinin onlarla müqayisəsi aparılmış və yekun nəticə çıxarılmışdır.

Məlum olduğu kimi, Naxçıvan muxtariyyətinin Moskva və Qars müqavilələrində təsvir olunmuş ərazisi sovet hakimiyyəti illərində müxtəlif vaxtlarda bu və ya digər şəkildə ermənilər tərəfindən qəsb edilmişdir. Kitabın sonunda verilən xəritələrin müqayisəsi muxtariyyət dövründə Naxçıvan ərazilərinə erməni təcavüzünün miqyası haqqında əyani təsəvvür yaradır.

Dos. E.Cəfərli ilk dəfə olaraq SSRİ, Azərbaycan və Naxçıvan Konstitusiyalarında muxtariyyət statusunun və muxtar respublikanın hüquqi-siyasi əsaslarının müqayisəli təhlillərini vermiş, maraqlı və yüksək elmi səviyyəli əsər ortaya qoymuşdur. İnanırıq ki, bu əsər muxtariyyət tarixi, Naxçıvanın muxtariyyət statusu və muxtar respublikanın təşkili ilə maraqlanan oxucuların dərin marağına səbəb olacaqdır.

**İsmayıl HACIYEV,**
**AMEA Naxçıvan Bölməsinin sədri, akademik,**
**Azərbaycan Respublikasının Əməkdar elm xadimi**

# MÜƏLLİFDƏN

Biz bu kitabı ərsəyə gətirərkən qarşıya qoyduğumuz başlıca vəzifə və əsas məqsəd Naxçıvanın muxtariyyət statusu ilə bağlı mövcud olan bütün konstitusion aktları və normaları – muxtariyyətin öz konstitusiyalarını, Azərbaycan konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı hüquqi normaları, habelə keçmiş SSRİ konstitusiyalarında (bunu nəzərə almışıq ki, Naxçıvan muxtariyyətinin muxtar respublika kimi əsası keçmiş SSRİ tərkibində olarkən qoyulub) muxtariyyətlərlə bağlı hüquqi göstərişləri vahid bir kitabda toplamaq olmuşdur. Bu məqsədlə muxtariyyət haqqında 1924-cü il Əsasnaməsini və Naxçıvanın müxtəlif dövrlərdə qəbul olunmuş dörd konstitusiyasının mətnini, Azərbaycan konstitusiyalarında Naxçıvanın statusu ilə bağlı əks olunmuş maddə, fəsil və bölmələri kitaba daxil etmişik.

Azərbaycanın tərkibində muxtariyyətin yaradılmasının hüquqi əsaslarının və muxtariyyətin ərazisinin ilk dəfə 1921-ci il Moskva və Qars müqavilələrində əks olunduğunu nəzərə alınaraq həmin müqavilələrin Naxçıvanla bağlı maddələri və müvafiq əlavələr də çıxarış şəklində tərəfimizdən kitaba daxil edilmişdir.

1924-cü ildə qəbul olunmuş "Naxçıvan SSR haqqında Əsasnamə"nin və 1926-cı ildə qəbul edilmiş Naxçıvan SSR-in ilk Konstitusiyasının orijinalını Naxçıvan MR Dövlət Arxivindən rus dilində əldə etdiyimizdən, bu iki hüquqi sənədin həm rusca, həm də Azərbaycan dilində (rus dilindən tərcümələr bizə məxsusdur) mətnlərinin verilməsinin doğru olduğunu düşündük.

Ən nəhayət, müstəqil Azərbaycan Respublikasının Dövlət bayrağı olan üçrəngli, ay-ulduzlu bayrağın ilk dəfə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən Dövlət bayrağı kimi qəbul olunduğunu əsas götürərək, muxtariyyətin bütün tarixi boyu malik olduğu dövlət rəmzləri – bayraqlar və gerblər haqqında da əldə etdiyimiz məlumatları kitabda əks etdirməyi məqsədəuyğun bildik.

Heç şübhəsiz ki, dövlətin əsas əlamətlərindən biri də onun malik olduğu ərazisidir. Bu baxımdan 1924-cü ildə əsası qoyulmuş Naxçıvan muxtar dövlətinin ərazisi ermənilər tərəfindən Zəngəzurun işğal edilməsi nəticəsində tərkibində olduğu Azərbaycan Respublikasının əsas ərazisindən coğrafi cəhətdən tamamilə aralı düşmüş və hazırda eksklav kimi mövcuddur. Naxçıvanın sovet hakimiyyəti illərində bir sıra ərazilərinin ermənilər tərəfindən qəsb olunması və ya sovet rəhbərliyi tərəfindən onlara "hədiyyə" edilməsi kitaba daxil edilən xəritələrdən də aydın görünür.

Ümid edirik ki, yalnız özünün muxtariyyət tarixi dövründə deyil, bütövlükdə Azərbaycanın çoxminillik dövlətçilik tarixində silinməz izlər buraxmış qədim türk-Azərbaycan yurdu Naxçıvanın muxtar respublika statusu qazanmasının 90-cı yubiley ildönümünə ithaf etdiyimiz bu kitab elmi-ictimai fikir və geniş oxucu auditoriyasının istifadəsi üçün dəyərli mənbə ola biləcəkdir.

# MUXTARİYYƏTƏ DOĞRU GƏLƏN YOL

Naxçıvanın muxtariyyət statusunun yaranmasını doğuran ən mühüm səbəb 1918-1920-ci illərdə Azərbaycan torpaqlarına erməni hərbi təcavüzü nəticəsində Zəngəzurun işğalı və Naxçıvanın ölkəmizin əsas ərazilərindən coğrafi cəhətdən aralı düşməsi olmuşdur. Ermənilər Zəngəzurun işğalına gələcəkdə Naxçıvan torpaqlarının da ilhaq edilməsi üçün bir mərhələ kimi baxırdılar. Lakin həmin dövrdə Naxçıvan bölgəsi əhalisinin inadlı müqaviməti, Azərbaycan rəhbərliyi ilə Türkiyə diplomatlarının birgə mübarizəsi nəticəsində Türkiyə ilə sovet Rusiyası arasında bağlanan 16 mart 1921-ci il tarixli Moskva və Rusiyanın iştirakı ilə bir tərəfdən Türkiyə və digər tərəfdən Cənubi Qafqazda yaradılmış üç sovet respublikası – Azərbaycan SSR, Gürcüstan SSR və Ermənistan SSR tərəfindən imzalanmış 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsi Naxçıvanla bağlı erməni təcavüz planlarının qarşısına əhəmiyyətli sədd çəkdi.

Lakin ermənilər bu planlarından heç vaxt imtina etmədilər.

XIX əsrdə çar Rusiyası tərəfindən ermənilərin Türkiyə və İrandan Cənubi Qafqaza, tarixi Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvana köçürülməsində məqsəd gələcəkdə bu geostrateji bölgənin müsəlman türklərsiz coğrafi əraziyə çevrilməsini təmin etməkdən ibarət idi. Hələ rus imperatoru I Pyotrun dövründə (1689-1725) çarizmin imperiya siyasətində Qafqaz və Kiçik Asiyaya doğru ekspansiya meyllərinin artdığı zamanda tarixən heç vaxt bir etnos kimi Qafqazda yaşamamış ermənilər özlərinin qondarma "Böyük Ermənistan" planlarının rus imperializmi üçün maraqlı olacağını başa düşdülər. XVII əsrdən başlayaraq ayrı-ayrı rus hökmdarlarını müxtəlif hədiyyə və vasitələrlə ələ almağa çalışan erməni tacirləri və kilsə xadimləri XVIII əsrdə bu siyasətlərini uğurla davam etdirdilər. Nəticədə XVIII əsrin sonu-XIX əsrin əvvəllərində Rusiya erməni planlarını məhz öz mənafeyi naminə reallaşdırmaq üçün Cənubi Qafqazın işğalına, ardınca isə dərhal Türkiyə və İran ərazisində yaşayan ermənilərin bölgəyə kütləvi köçürülməsinə başladı.

Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan ərazisində vahid dövlətin yaradılmaması, kəskinləşən lokal münaqişələr zəminində siyasi pərakəndəliyin davamlı mövcudluğu, ayrı-ayrı Azərbaycan xanlıqlarının qonşu dövlətlərin Qafqaz siyasətinə müxtəlif mövqelərdən yanaşması kimi amillər Rusiyanın işğalçılıq planları üçün lazımi şəraiti yaratdı. Nəticədə I rus-İran müharibəsinə (1804-1813) son qoyan 12 oktyabr 1813-cü il Gülüstan müqaviləsi ilə başlayan tarixi Azərbaycan torpaqlarının Rusiya ilə İran arasında bölüşdürülməsi prosesi 1826-1828-ci illər II rus-İran müharibəsi başa çatdıqdan sonra bu iki dövlət arasında bağlanan 10 fevral 1828-ci il Türkmənçay müqaviləsi ilə başa çatdırıldı. Belə ki, əgər 11 maddəlik Gülüstan müqaviləsində Rusiyaya ilhaq edilən Araz çayından şimaldakı Azərbaycan torpaqlarının siyahısında (3-cü maddə) İrəvan və Naxçıvan xanlıqları yox idisə, 16 maddədən ibarət Türkmənçay müqaviləsinin [8, s. 617-624] 3-cü maddəsi bu iki xanlığın da Rusiya imperiyasının tam mülkiyyətinə keçdiyini rəsmiləşdirdi.

Müqavilənin 12, 14 və 15-ci maddələrində digər məsələlərlə yanaşı, iki işğalçı dövlət arasında əhalinin hərəkəti məsələsinə də baxılırdı. 14-cü maddədə "Bütün Rusiya imperatoru həzrətlərinin öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən

hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyi" vədi yer alsa da, 15-ci maddədə İran şahının üzərinə Azərbaycan vilayətinin bütün əhalisini və məmurlarını "büsbütün və tam" bağışlamaq vəzifəsi qoyulur, müharibə dövründə və rus ordusunun müvəqqəti işğalı zamanı həmin vilayətin əhalisinin "davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmaması" tələb edilir, köçürülmə barədə deyilirdi: "Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satılıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir. Tərpənməyən mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir". Müqavilədə ad çəkilməsə də, dini əqidə məsələsinin xatırladılması və müqavilə imzalandıqdan sonra çarizmin məhz ermənilərin mütəşəkkil şəkildə köçürülməsi prosesini həyata keçirməsi əslində elə müqavilədə müharibə dövründə ən müxtəlif təxribatçı fəaliyyətləri ilə rus ordusunun qələbə qazanmasına kömək etmiş ermənilərin nəzərdə tutulduğuna şübhə yeri qoymur. Məhz ermənilərin köçürülməsi barədə mənbələrdə ayrıca razılaşmanın olması barədə məlumatlar [9, s. 286] da bunu təsdiqləyir.

Türkmənçay müqaviləsinin bağlanmasından cəmi bir ay sonra 1828-ci il martın 21-də rus çarı I Nikolayın verdiyi fərmanda deyilirdi ki, "İranla bağlanan müqaviləyə əsasən, İrandan ayrılaraq Rusiyaya ilhaq edilən İrəvan və Naxçıvan xanlıqları bundan sonra Rusiyanın bütövlüyü daxilində erməni vilayəti kimi tanınır" [57, s. 32]. Belə süni ərazi bölgüsü ilə əslində azərbaycanlıların öz torpaqlarından qovulması siyasətinin əsası qoyuldu. Lakin qeyd edək ki, hətta ermənilərin köçürülməsi başa çatdıqdan sonra bu qondarma vilayətdə olan 1125 kəndin 1111-də azərbaycanlılar yaşayırdı [18, s. 76]. Təbii ki, bu vilayət erməni dövləti deyildi, lakin tarixi Azərbaycan torpaqları olan İrəvan və Naxçıvan xanlıqlarının ərazisində rus imperializmi tərəfindən yaradılacaq gələcək erməni dövlətinin təməli idi [19, s. 13].

1828-1829-cü illər Rusiya-Osmanlı müharibəsinin nəticəsi olaraq 1829-cu ilin sentyabr ayında imzalanmış Ədirnə müqaviləsinin də 13-cü maddəsinə görə, dövlətlər öz tabeliyində olub müharibə vaxtı qarşı tərəfi müdafiə edən təbəələrini bağışlayırdılar. İstədikləri yerə getmək üçün belələrinə 18 ay vaxt verilirdi. Türkiyənin şərq torpaqlarından köçən və köçürülən ermənilərin yerləşdirildikləri torpaqlar xüsusən İrəvan və Naxçıvan idi [55, s. 557-558].

Beləliklə, imzalanmış müqavilələrdə, verilən çar fərmanında ermənilərin Azərbaycan torpaqlarına, o cümlədən xüsusən İrəvan və Naxçıvana kütləvi köçürülməsinin "hüquqi" əsasları yaradılmışdı. Azərbaycan torpaqlarını imperiya maraqları naminə qısa müddətdə müxtəlif cür inzibati-ərazi bölgülərinə ayrılmaqla parçalanmasına cəhdlər göstərildi. Rus işğalından dərhal sonra Cənubi Qafqazda tətbiq edilmiş komendant idarə üsulu 10 aprel 1840-cı il çar fərmanı ilə ləğv edildi və ümumrusiya idarə sisteminə keçildi. Cənubi Qafqaz mərkəzi Tiflis olan Gürcüstan-İmeretiya quberniyasına və mərkəzi Şamaxı olan Xəzər vilayətinə bölündü. İrəvan və Naxçıvan qəzaları quberniyanın tərkibinə daxil edildi. Bu bölgü də 1846-cı il 14 dekabr çar fərmanı ilə ləğv edilərək əvəzində dörd (Tiflis, Kutais, Dərbənd, Şamaxı) quberniya yaradıldı. İrəvan, Naxçıvan və Ordubad qəzaları 1849-cu ildə yaradılmış

İrəvan quberniyasının tərkibinə daxil edildi. Naxçıvan qəzası Naxçıvan və Dərələyəz sahələrinə (məntəqələrinə) bölünmüşdü. Əvvəlcə Ordubad qəzası, 1870-ci ildə isə Şərur sahəsi Naxçıvan qəzası ilə birləşdirildi. 1874-cü ildə Şərur-Dərələyəz və Sürməli qəzaları yaradıldı [19, s. 16].

Amerika alimi C.Makkarti "Genosid olmuşdurmu?" kitabında yazır ki, 1828-ci ilədək İrəvan xanlığında əhalinin 80 faizi azərbaycanlı müsəlmanlar olmuşdur. İrəvan xanlığının yalnız bir hissəsində mövcud olan 737 yaşayış məntəqəsindən cəmi 38-də ermənilər yaşamış, 25 kənd qarışıq əhaliyə malik olmuş, qalan yaşayış məntəqələrində isə bütünlüklə azərbaycanlılar yaşamışlar. II rus-İran müharibəsində 420 azərbaycanlı kəndi tam dağıdılmış, əhalisi isə İrana köçməyə məcbur edilmişdir. 1828-1872-ci illərdə 161 azərbaycanlı kəndi ermənilər tərəfindən zəbt edilmişdir. 1873-cü ilədək təbii artım və kənardan köçürülənlər hesabına 148 yeni erməni kəndi salınmışdı. 1831-ci ilədək isə bu ərazidəki azərbaycanlı kəndlərinin sayı 208 kənd azalmışdı [12, s. 74-75]. 1828-ci ildə təkcə Naxçıvanda əhalinin 29440 nəfəri və ya 92 faizi azərbaycanlılar idi. Ümumilikdə keçmiş İrəvan və Naxçıvan xanlıqlarının əhatə etdiyi ərazidə 1828-ci ildə azərbaycanlılar əhalinin 73,8 faizini təşkil edirdisə, bu göstərici kütləvi erməni köçürülmələri nəticəsində xeyli azalaraq 1834-1835-ci illərdə 46,2 faizə enmişdi [9, s. 299].

1828-1830-cu illərdə İrandan 40 mindən, Türkiyədən isə 84 mindən çox, qeyri-rəsmi köçənlərlə birlikdə isə 200 mindən artıq erməni Azərbaycan torpaqlarına köçürüldü [56, s. 82-83]. 1828-1832-ci illər siyahıyaalmasının nəticələrinə görə, əsasən keçmiş İrəvan və Naçxıvan xanlıqlarının ərazisində olan 1111 yaşayış məntəqəsindən cəmi 62 kənddə ermənilər yaşayırdılar. Bu kəndlərdən yalnız 14-nün adı erməni mənşəli olmuşdur [65, s. 599-634]. XIX əsr boyu davam edən köçürmələrdən sonra XX əsrin əvvəllərində, 1908-ci ildə Cənubi Qafqazda yaşayan 1,3 milyon ermənininin bir milyondan çoxu məmləkətin yerli əhalisinə mənsub olmayıb ruslar tərəfindən köçürülən İran və Türkiyə erməniləri idi. Qalan 200-250 min erməni isə xristianlaşmış albanlar idi [64, s. 59-61]. Bu zaman ərzində ermənilərin köçürülməsi nəticəsində Naxçıvanda azərbaycanlı əhalinin sayı 19440 nəfərdən 59060 nəfərədək artmasına baxmayaraq, 1828-ci ildəki 92 faizdən 56,7 faizədək azalmışdı. Erməni əhalisinin sayı isə həmin müddətdə 2240 nəfərdən 44438 nəfərədək və ya 7 faizdən 42,6 faizədək artnışdı [10, s. 83].

Beləliklə, XX əsrin əvvəlləri üçün çarizm bölgədə milli-etnik münaqişəni alovlandırmaq və azərbaycanlıları ermənilərə qırdırmaqla bölgəni müsəlman əhalidən təmizləmək üçün lazımi etnososial vəziyyəti, ermənilər isə həm də XIX əsrdə Türkiyədə reallaşdıra bilmədikləri dövlətlərini yaratmaq cəhdləri üçün çar Rusiyasının simasında zəruri dəstəyi təmin etmişdilər. Buna görə də 1904-cü ildə erməni terrorçu Daşnaksütyun partiyasının III qurultayında tarixən heç vaxt mövcud olmamış xəyali "Böyük Ermənistan" planına daxil edilmiş İrəvan, Naxçıvan, Zəngəzur və Şuşa qəzalarının, eləcə də İrəvan və Gəncə quberniyalarının digər ərazilərinin azərbaycanlılardan etnik təmizlənməsi erməni hərəkatının başlıca vəzifəsi elan edilmişdi.

Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin ilk mərhələsi 1905-1907-ci illəri əhatə etdi. 1905-ci ilin fevral ayında Bakıda azərbaycanlılara qarşı başlayan milli qırğın tezliklə bölgələrə də sıçradı. May ayında Naxçıvanda ermənilər

təşkil etdikləri ilk kütləvi silahlı iğtişaşlarla soyqırım siyasətini həyata keçirməyə başladılar. O dövrün faciəli hadisələrinə dair dəqiq məlumatlar və soyqırım siyasətinin bütün təfərrüatını əks etdirən yazılı statistika mövcud olmasa da, mənbələrdə olan məlkumatlar erməni cinayətlərinin miqyası haqqında təsəvvür yaratmağa imkan verir. Belə ki, Naxçıvan qəzasının da tərkibinə daxil olduğu İrəvan quberniyasında 1897-ci ildə azərbaycanlı əhalinin sayı 313176 nəfər olduğu halda, 10 il sonra – 1907-ci ildə quberniyada 302965 nəfər azərbaycanlı yaşayırdı. Başqa sözlə, bu müddət ərzində təkcə İrəvan quberniyasında azərbaycanlı əhalinin 10 illik təbii artımından 10 min nəfərdən çox insan ermənilərin törətdiyi soyqırımının qurbanı olmuşdu [3, s. 50]. Quberniyanın 242 kəndində 65149 nəfəri Azərbaycan türkü, 5579 nəfəri kürd olmaqla, səmi 70728 nəfər qətlə yetirilmişdi [58, s. 202]. Həmin dövrdə Naxçıvanda azərbaycanlı əhalinin sayı 31279 nəfər (34,6 faiz) azalmışdı. Bu müddət ərzində təbii demoqrafik artım da nəzərə alınarsa, qeyd etməliyik ki, 1905-1907-ci illər soyqırımı nəticəsində Naxçıvanda azərbaycanlı əhalinin sayı iki dəfə azalmışdı [10, s. 181].

I Dünya Müharibəsi dövründə və müharibədən sonrakı illərdə bölgədə yeni ictimai-siyasi və hərbi vəziyyət yarandı. Müharibədə çarizmə Türkiyəyə qarşı hərbi əməliyyatlarda öz çoxsaylı silahlı dəstələri və provokativ əməlləri ilə mümkün olan bütün köməyi edən ermənilər Şərqi Anadoluda türk əhalinin soyqırımını həyata keçirdilər. 1917-ci ildə Rusiyada əvvəlcə çarizmin devrilməsi, sonra isə sosialist inqilabının baş verməsi və 1918-ci ilin martında sovet Rusiyasının I Dünya Müharibəsini tərk etməsindən sonra bölgədə yeni vəziyyət yarandı.

Çarizmin süqutundan sonra Müvəqqəti hökumətin Naxçıvan və Şərur-Dərələyəz qəzalarına biri azərbaycanlı, digəri erməni olmaqla iki komissar təyin etməsi ikihakimiyyətliliyin yaranmasına səbəb oldu. Ermənilərin bölgədə hərbi üstünlüyünü təmin edən əsas amil isə, Rusiyada sosialist inqilabının qələbəsindən sonra I Dünya Müharibəsini tərk edən rus qoşunlarının silahlarını ermənilərə təhvil verməsi oldu. Nəticədə 1918-ci ilin əvvəllərindən ermənilərin azərbaycanlılara qarşı soyqırımının yeni mərhələsi başlandı.

1918-ci ildə Cənubi Qafqazda yeni tarixi-siyasi şərait yarandı. Mayın 28-də Azərbaycan öz dövlət müstəqilliyini elan etdi. Azərbaycan Xalq Cümhuriyyəti ilə eyni vaxtda keçmiş Qərbi Azərbaycan torpaqlarında – İrəvan quberniyasının ərazisində işğalçı daşnak rejimi quruldu. Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan tarixində çox mühüm hadisə olub, torpaqlarımızın erməni təcavüzündən qorunacağına da böyük ümidlər yaratmışdı.

1918-ci ilin ortalarında öz müttəfiqləri ilə birlikdə I Dünya Müharibəsində vəziyyəti pisləşən Türkiyə Cənubi Qafqazda mövqeyini və nüfuzunu gücləndirməyə çalışırdı. 1918-ci il iyunun 4-də Türkiyənin Batumda Azərbaycan Cümhuriyyəti ilə bağladığı dostluq müqaviləsinin 4-cü maddəsi Azərbaycana siyasi-hərbi yardım göstərilməsini nəzərdə tuturdu. Batum konfransında Türkiyənin təklif etdiyi "Osmanlı imperiyası ilə Transqafqaz konfederasion respublikası arasında sülh və dostluq haqqında" müqavilənin şərtlərinə görə, Rusiya ilə 1829-cu il Ədirnə sülhündən əvvəlki sərhədlər bərpa edilməli, Cənubi Qafqazdan Türkiyəyə 1250 min nəfər əhalinin yaşadığı 38 min km$^2$ ərazi verilməli idi [7, s. 42]. Azərbaycanla imzalanan müqavilənin 2-ci maddəsində Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və

Ordubad istisna olmaqla, Naxçıvan qəzasının da Türkiyəyə keçdiyi göstərilirdi. Həmçinin Gümrü-Culfa dəmiryolu da bütünlüklə türk hökumətinin nəzarətinə keçirdi [23, s. 85].

Osmanlı Türkiyəsi həmin gün Qərbi Azərbaycanda qurulmuş işğalçı daşnak rejimi ilə bağladığı müqavilə ilə Göyçə gölü ətrafında 10 min $km^2$-lik ərazidə qondarma erməni dövlətinin yaradılmasına loyal yanaşdığını və onu de-yure tanıdığını göstərdi. Müqaviləyə görə, Eçmiədzin və Gümrü Türkiyənin ərazilərinə qatılır, Osmanlı hökuməti Qars-Gümrü-Culfa dəmiryoluna nəzarət hüququ alırdı. Məsələyə öz dövlət maraqları prizmasından yanaşan Türkiyə, görünür, ermənilərin bununla özünə qarşı irəli sürdüyü ərazi iddialarından əl çəkəcəklərini düşünürmüş. Lakin tarix bunun yanlış olduğunu isbatladı.

Hələ Batum müqaviləsindən əvvəl, 1918-ci ilin may ayının 17-də Naxçıvana göndərilən Xəlil bəyin başçılığı altında bir qrup Osmanlı hərbiçisi Şahtaxtıda iqamətgah qurmuşdu. Topçu Hüsnü Əfəndi Naxçıvanda hərbi dəstələrin təşkili və topçuların hazırlanması ilə məşğul olurdu. Mayın sonu-iyunun əvvəllərində Naxçıvandakı erməni hərbi qüvvələri azərbaycanlı əhaliyə qarşı qanlı qırğınlara başladı. İyun-iyul aylarında erməni cəlladı Andronik Ozanyanın Naxçıvana yürüşü dəhşətli nəticələrə səbəb oldu: təkcə Gilançay və Əlincəçay hövzələrində 80-dən çox kənd dağıdıldı, dinc əhali soyqırıma məruz qaldı.

1918-ci il avqustun 5-də Türkiyənin I Qafqaz Ordusunun, bundan iki gün sonra isə XI Ordu komandanı Kazım Qarabəkir paşanın Naxçıvana gəlişi ilə ermənilərin hücumlarının qarşısını almaq mümkün oldu. Belə bir şəraitdə bölgədə plebissit keçirildi və Naxçıvan qəzasının Qarsla birlikdə Batum vilayətinin bir hissəsi kimi Türkiyəyə birləşdirildiyi elan edildi. Bu hadisə işğal faktı olmayıb, bilavasitə Türkiyənin nəzarəti altında bölgənin təhlükəsizliyinin təmin edilməsi məqsədinə xidmət edirdi. Çünki K.Qarabəkir paşa Naxçıvanın gələcək müqəddəratının müstəqil cümhuriyyət kimi daha yaxşı olacağı ideyasını irəli sürmüş və bu ideya Atatürk tərəfindən bəyənilmişdi [45, s. 76]. 1918-ci il sentyabrın 14-də qəbul edilən qərarla 23 qəzada birləşən 100 nahiyə Batum vilayəti adı altında Osmanlı dövlətinin tərkibinə daxil edildi. Lakin oktyabr ayında Naxçıvana qəza rəisi təyin edilən Xalis Turqut bəy burada cəmi bir ay – Osmanlı ordusu Mudros müqaviləsinə əsasən Cənubi Qafqazı tərk edənədək qala bildi.

Osmanlı ordusunun Naxçıvanı tərk etməsindən məmnun olan ermənilər Naxçıvana öz torpaqları kimi baxmağa başladılar. Daşnak hökumətinin daxili işlər naziri 27 noyabr 1918-ci ildə Q.Ter-Arutyunyans adlı bir poruçiki Naxçıvana qəza komissarı təyin etmişdi [38, iş 11, v. 1-3]. Lakin Osmanlı hərbi rəhbərliyi bölgəni rəsmi olaraq tərk etmək məcburiyyətində qaldıqda erməni işğalı təhlükəsinə qarşı müəyyən tədbirlər görmüşdü. IX Ordu komandanı Yaqub Şövqü paşa tərxis olunan əsgərlərdən qalma silahları yerli əhaliyə paylamış, yerli hökumətlərin təşkili işi həyata keçirilmişdi. 1918-ci il oktyabrın 29-da Axıska hökuməti, noyabrın 5-də Araz-Türk Respublikası və Qars İslam Şurası qurulmuşdu. Sonradan, 1919-cu il yanvarın 18-19-da Qars Milli Şurası Cənub-Qərbi Qafqaz Respublikasına çevrildi, onun fəaliyyətinə isə 1919-cu il aprelin 30-da ingilislər son qoydular [55, s. 404-405].

Naxçıvanda yaradılan Araz-Türk Respublikası Eçmiədzin mahalının bir hissəsini, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedi, Şərur, Naxçıvan, Ordubad, Mehri və

Sürməli bölgələrini əhatə edirdi. Ərazisi 8,6 min $km^2$, əhalisi isə bir milyon nəfərə yaxın olan bu dövlətin paytaxtı Naxçıvan şəhəri idi. Araz-Türk Respublikası 1919-cu il yanvarın 4-də ilk hökumət bəyannaməsində elan etmişdi ki, Naxçıvan həmişə özünü Azərbaycanın tərkib hissəsi hesab etmişdir və Ermənistanın hərbi təcavüzünə qarşı Azərbaycandan kömək gözləyir. Bu məqsədlə Bakıya göndərilən respublikanın hərbi hissə rəisi Bəhram xan Naxçıvanski Naxçıvanı Cənub-Qərbi Azərbaycan adı ilə Azərbaycan Cümhuriyyətinə birləşdirmək təklifini irəli sürmüş, maliyyə yardımı, zabitlərin göndərilməsini və s. yardım xahiş etmişdi [21, s. 29, 111].

Ümumiyyətlə, son dərəcə gərgin hərbi-siyasi və beynəlxalq şəraitdə yaradılan Araz-Türk Respublikası qısa müddət ərzində mövcud olsa da, Naxçıvanın erməni təcavüzündən müdafiəsində mühüm rol oyanaya bildi və tariximizin şərəfli səhifəsinə çevrildi. 1919-cu ilin yanvarında ingilislər Naxçıvanı tutaraq Araz-Türk Respublikasına son qoydular. Fevralın 26-da Naxçıvan Milli Şurası Naxçıvan-Şərur diyarının ingilis general-qubernatoruna göndərdikləri notada özlərinin və gələcək nəsillərin mənafeyi naminə Azərbaycan Cümhuriyyəti ilə birləşmək qərarına gəldiklərini bildirirdi [59, s. 26, 358-359]. Azərbaycan hökuməti Naxçıvanı nəzarət altına qaytarmaq üçün fevralın 28-də burada general-qubernatorluq yaradılması barədə qərar qəbul etmiş, Bəhram xan Naxçıvanski Naxçıvan general-qubernatoru təyin edilmişdi.

Lakin Bakıdakı ingilis qoşunlarının komandanı Tomson martın 28-də İrəvanda daşnaklarla danışıqlar zamanı bildirmişdi ki, ermənilər Qarabağ və Zəngəzurun Azərbaycana verilməsini qəbul edərlərsə, o, Qars və Naxçıvanın ermənilərin nəzarətinə verilməsinə kömək edəcəkdir. Aprelin 30-da Tomsonun daşnak hökumətinin başçısı Xatisyanla razılaşdırıldığı kimi, ingilis-erməni hərbi qüvvələrinin Naxçıvanı işğal əməliyyatına ingilis generalı Devi başçılıq etdi. 1919-cu il mayın 3-də Naxçıvanın erməni idarəçiliyinə verilməsi barədə bəyanatı Dro və Devi imzaladılar. Bakılı erməni Gevorq Varşamyan Naxçıvana hərbi vali təyin edildi [4, s. 158-175]. Ermənilərin Naxçıvandakı qısamüddətli idarəçiliyi dövründə Gümrü və Naxçıvan ətrafındakı bir sıra müsəlman kəndlərində həyata keçirilən qırğınlarda 4 min nəfərədək azərbaycanlı daşnaklar tərəfindən amansızlıqla öldürüldü [60, s. 348].

İngilislərin ciddi dəstəyinə baxmayaraq Naxçıvan təslim olmadı. Şərurda Məşədi Ələsgər ağa, Naxçıvanın şimalında Bəhram xan Naxçıvanski, Ordubadda isə Səmədbəyov yerli idarəçiliyi öz əllərinə almışdılar. 1919-cu il iyulun 18-25-də bir həftəlik qızğın döyüşlər nəticəsində ermənilər Naxçıvandan qovulub çıxarıldılar. 1919-cu ilin avqustunda Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Səməd bəy Cəmillinskini Cənub-Qərbi Azərbaycan (Naxçıvan) general-qubernatoru təyin etdi.

İngilsilərdən sonra ABŞ Cənubi Qafqaz üzərində Millətlər Cəmiyyətinin mandatını aldı. 1919-cu il avqustun 28-də Bakıya gələn ABŞ ordusu Baş qərargahının polkovniki Vilyam Haskel (o, iyul ayından Antantanın Ermənistanda ali komissarı təyin olunmuşdu) Azərbaycan hökumətinin sədri Nəsib bəy Yusifbəyliyə "Qarabağın, eləcə də Zəngəzurun qəti olaraq Azərbaycana keçməsini zəruri saydığını" bildirmişdi. Lakin o, eyni zamanda, müttəfiqlərin idarəçilk sisteminin tətbiq olunacağı Şərur və Naxçıvandan ibarət neytral zona yaradılması məsələsini də qaldırmışdı. N.Yusifbəyli isə öz növbəsində məsələni parlamentdə müzakirə etməyi

vəd edərək neytral zonada Azərbaycan pulunun işlədilməsi, erməni silahlı qüvvələrinin bölgəyə buraxılmaması, zonanın Ermənistanın bütün təsirlərindən qorunması və s. tələblər sürdü. Avqustun 21-də Naxçıvan, Ordubad, Şərur, Sürməli, Millistan və Vedibasardan olan nümayəndələr Tiflisdəki yığıncaqda qəbul etdikləri 10 bəndlik (Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması, Zəngəzurdan keçən yolun açılması, geri çağırılmış səfir M.Təkinskinin yerinə İrəvana yeni səfir göndərilməsi, Ermənistandan qovulan qaçqınların Naxçıvanda yerləşdirilməsi və s.) sənədi Bakıya, Azərbaycan hökumətinə göndərdilər [2, iş 58, v. 40-43].

Daha sonra danışıqlar V.Haskeli əvəz edən və 1919-cu il oktyabrın 18-də Bakıya gələn müttəfiq ordularının Ali Komissarlığının qərargah rəisi Ceyms Reylə davam etdirildi. Nəticədə V.Haskelin əmri ilə oktyabrın 24-dən bölgədə Amerika general-qubernatoru kimi fəaliyyət göstərməli olan polkovnik Edmund Delli Naxçıvanda Paris sülh konfransının nümayəndəsi kimi işə başladı. Amerika rəsmi zabitinə deyildi ki, Şərur-Dərələyəz, Naxçıvan və Vedibasar Azərbaycanın ayrılmaz hissələri olmuşdur və yalnız Azərbaycan qanunları altında fəaliyyət göstərəcəkdir [46, s. 210]. Bundan bir qədər sonra E.Delli, 1920-ci ilin yanvarında isə bütün amerikalı zabitlər Naxçıvanı birdəfəlik tərk etdilər. Beləliklə, Naxçıvanda ABŞ general-qubernatorluğu yaradılması planının qarşısı qətiyyətlə alındı.

1919-cu il noyabrın 23-də Tiflisdə C.Reyin vasitəçiliyi ilə Azərbaycan hökuməti ilə daşnak hökuməti arasında imzalanan 5 maddəlik sazişə əsasən Xalq Cümhuriyyəti öz hərbi qüvvələrini dərhal Zəngəzurdan çıxardı ki, bu da sazişə məhəl qoymayan ermənilər üçün bölgənin işğalını asanlaşdırdı, Naxçıvanı isə daha böyük təhlükə qarşısında qoydu. Qarsa və Zəngəzura mütəşəkkil hücuma keçən erməni ordusu bu iki vilayətdə 88 müsəlman kəndini dağıtdı, 131930 nəfəri qətlə yetirdi [28, s. 230, 241-242]. 1919-cu ilin dekabrından 1920-ci ilin martınadək olan dövrdə ermənilərin Naxçıvan ərazisinə fasiləsiz hücumlarının qarşısı Kalbalı xanın yerli özünümüdafiə dəstələrinin və bölgədəki azsaylı türk hərbiçilərinin köməyi ilə, çətinliklə də olsa, alınırdı. Lakin Xalq Cümhuriyyətinin süqutundan istifadə edən ermənilər Şərur qəzasını və Şahtaxtı stansiyasını ələ keçirdilər. Bütün sağ qalan Şərur əhalisi Naxçıvana və Cənubi Azərbaycana sığındı.

Bu dövrdə ermənilər tərəfindən Zəngibasarda 48, Vedibasarda 118, Dərələyəzdə 74, Şərur və Şahtaxtı zonasında 76 kənd yandırılmış, əhaliyə amansız divan tutulmuşdu. Cənubi Azərbaycana pənah aparan 45 mindən çox qaçqın aclıq və xəstəlikdən ölmüş, 70 min qaçqın İranda, 400 min nəfər isə Naxçıvanda evsiz-eşiksiz, açıq havada qalmışdı [28, s. 281]. Hələ 1914-1916-cı illərdə Azərbaycanın cənubunda 150 min, Şərqi Anadoluda 200 min, 1918-1920-ci illərdə Azərbaycanda 250 min, Qərbi Azərbaycanda 132 min azərbaycanlı ermənilərin törətdiyi soyqırımın qurbanı olmuşdu. 1918-ci ilədək Qərbi Azərbaycanda yaşayan 575 min nəfər Azərbaycan türkündən Xalq Cümhuriyyətinin süquqtu ərəfəsində cəmi 10 min nəfərdən bir qədər artığı sağ qalmışdı [27, s. 33]. 1922-ci ildə 60 min nəfər qaçqın öz yurdlarına qayıtdıqdan sonra burada azərbaycanlıların sayı 72596 nəfər təşkil etmişdi.

Türkiyə mənbələri 1918-1921-ci illərdə ermənilərin Naxçıvan bölgəsində həyata keçirdikləri soyqırım nəticəsində 73727 nəfər azərbaycanlının öldürüldüyünə dair ətraflı məlumat verir [61, s. 212]. Lakin başqa mənbələrdən əldə edilən soyqırım qurbanlarının sayını da əlavə etdikdə, bu rəqəmin daha böyük olduğu şübhə

doğurmur. Belə ki, bir qaynaqda ermənilərin "İran sizi himayəsinə götürdü" bəhanəsi ilə köçürdükləri 35 min nəfər qaçqını faciəli şəkildə yollarda öldürdüklərini, yalnız 10 min nəfərin qaçaraq sağ qala bildiyini yazır [61, s. 194-195]. 1918-1920-ci illərdə Naxçıvan, Ordubad və Şərur-Dərələyəz qəzalarında təkcə kənd əhalisi 52 min nəfər azalmış, 287 kənd tamamilə, yaxud qismən dağıdılmışdı [21, s. 103]. Nəticədə Naxçıvan bölgəsinin əhalisi 1918-1920-ci illərdə 38 faiz azalaraq 1921-ci ildə 72182 nəfərə enmişdi. 1920-ci illərin sonunadək qaçqınlar problemi Naxçıvan bölgəsi üçün ən ciddi problem kimi qalmışdı [38, iş 15, 18, 26, 30].

Daşnaksütyun partiyasının lideri O.Kaçaznuni öz partiyasının xarici orqanlarının 1923-cü ilin aprelində keçirilmiş konfransında azərbaycanlılara qarşı törətdikləri soyqırım barədə deyirdi: "Bizim dövrümüzdə xalq müharibədə məhv olur, ya da acından ölürdü. Biz Şərur və Vedi kimi taxılla zəngin olan məntəqələri, Ağbaba kimi mal-qarası çox olan məntəqəni viran etdik" [26, s. 68].

1920-ci il iyulun 28-də XI Qızıl ordu hissələri Naxçıvanı işğal edərək burada sovet hakimiyyətinin qurulduğunu elan etdilər. Sovet hakimiyyəti qurulduqdan sonra da ermənilərin Azərbaycan torpaqlarına, xüsusən Naxçıvana iddiaları səngimədi. Ən acınacaqlısı isə o idi ki, öz sələfi kimi sovet Rusiyası da Naxçıvanla bağlı iddialarında erməniləri müdafiə edir, daşnak işğalına loyal yanaşırdı. Belə ki, 1918-ci il avqustun 10-da RSFSR-lə Ermənistanın daşnak rejimi arasında imzalanan müvəqqəti sülh sazişinə görə Şahtaxtı və Culfa, habelə Şahtaxtı-Culfa dəmiryolu, hərbi məqsədlər üçün istifadə etməmək şərti ilə, ermənilərin işğalı altında qalırdı. Yalnız Azərbaycan hökumətinin israrlı tələblərindən sonra sentyabr-oktyabr aylarında Ordubad və Şərur qəzaları erməni işğalından azad edilmişdi [10, s. 231].

Lakin 1920-ci il oktyabrın 28-də Rusiya ilə daşnak Ermənistanı arasında başqa bir müqavilə imzalandı. Bu müqavilədə də Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edilirdi. Bolşevik Rusiyası bu yolla Ermənistanda sovet hakimiyyəti qurmaq üçün zəmin hazırlamaq, ermənilərin rəğbətini qazanmaq istəyirdi [66]. Rusiya özünün maraqlarına uyğun antiantanta mövqeyi tutan Türkiyə hökuməti ilə açıq münaqişəyə girməkdən çəkinsə də, gələcəkdə Azərbaycanla eyni milli-etnik, tarixi-mədəni bağlılığa malik olan Türkiyə arasında bilavasitə sərhədlərin olmasına imkan verməmək üçün Ermənistanı sovetləşdirmək siyasətini sürətləndirdi.

Sovet qoşunları Azərbaycanı işğal etdikdən sonra süni olaraq "mübahisəli" elan edilmiş ərazilərin ermənilərin xeyrinə həlli istiqamətində fəal iş aparılırdı. Bu işdə İ.Stalinlə Q.Orconikidzenin mövqeləri həlledici rol oynamaqda idi. Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən bir gün sonra, 1920-ci il noyabrın 30-da AK(b)P MK Siyasi və Təşkilat bürolarının Q.Orconikidze, S.Ter-Danielyan, Y.Stasova, A.Serebrovski, V.Yeqorov, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov, M.Qasımov və başqalarının iştirakı ilə keçirilən birgə iclasının ərazi məsələlərinə dair qərarında və Bakı Sovetinin 1 dekabr 1920-ci il tarixli bəyanatında Zəngəzur və Naxçıvanın Ermənistana verildiyinin elan edilməsi erməniləri daha da fəallaşdırdı. RSFSR-lə Ermənistan SSR arasında imzalanan 2 dekabr 1920-ci il tarixli müqavilənin 3-cü maddəsində İrəvan quberniyasının bütün əraziləri, o cümlədən Naxçıvan və Zəngəzur qəzaları da Ermənistan ərazisi kimi tanınırdı.

Rusiyanın məhz bu imperialist və ikiüzlü mövqeyinə görə Türkiyə 1918-ci il

iyunun 4-də Cənubi Qafqaz respublikaları ilə bağladığı Batum müqaviləsinin 2-ci maddəsini əsas götürərək Naxçıvanı himayə etməyi qarşısına məqsəd qoymuşdu. 1920-ci il dekabrın 2-dən 3-ə keçən gecə Türkiyə ilə Ermənistan daşnak hökuməti arasında imzalanan 18 maddədən ibarət Gümrü müqaviləsinin [38, iş 18, v. 128-133] 2-ci maddəsində qeyd edilirdi: "Kükü dağı – 10282-8022, Həməsür dağı – 8160, Qurdqulaq kəndi, Sayat dağı – 7868, Arpaçay evləri – 3080, Gömürlü dağı – 6930, Saraybulaq – 8071, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasuyun mənsəbindən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) məntəqəyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi əraziyə Ermənistan müdaxilə etməyəcək və bu ərazidə hələlik Türkiyənin himayəsində yerli idarəçilik yaradılacaqdır". Lakin Gümrü müqaviləsi özünün sonuncu gününü yaşayan daşnak hökuməti ilə imzalandığı və Ermənistanda qurulan sovet hökuməti bu müqaviləni tanımadığını elan etdiyi üçün sonradan onun heç bir ciddi hüquqi əhəmiyyəti olmadı.

Bununla belə, hər halda Naxçıvan məsələsində mütəşəkkil aparılan mübarizə öz nəticəsini tezliklə verdi. Naxçıvanlılar 1920-ci il dekabrın 5-dən Naxçıvanın Ermənistana verilməsinə qarşı ciddi müqavimət hərəkatına başladılar. Dekabrın 15-də Naxçıvana göndərilən Azərbaycan İnqilab Komitəsinin üzvü, Azərbaycanın Ədliyyə Komissarı Behbud ağa Şahrtaxtinskinin ermənilərə loyal münasibət bəsləyən Naxçıvan Fövqəladə Komissarlığının rəhbəri B.Vəlibəyovu vəzifəsindən uzaqlaşdıraraq naxçıvanlıların etirazını bölgənin Azərbaycanın tabeliyində saxlanılması uğrunda mübarizəyə səfərbər etməsi, bu işdə Türkiyənin rolunu düzgün qiymətləndirərək ondan istifadə etməsi öz bəhrəsini verdi. Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də verdiyi bəyanatla Naxçıvanı müstəqil sovet respublikası kimi tanıdığını və ona qarşı ərazi iddialarından imtina etdiyini bildirdi. Bundan başqa, 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri ilə tarixi ədalət bərpa olunaraq Naxçıvanın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu tanınsa da, təəssüf ki, əhalisinin böyük əksəriyyəti daşnaklar tərəfindən məhv edilən və azərbaycanlılardan təmizlənən Zəngəzur ərazisi erməni işğalı altında qaldı.

1921-ci ilin əvvəlində Azərbaycan SSR, Ermənistan SSR və RSFSR nümayəndələrinin Azərbaycan və Ermənistan inqilab komitələrinin ərazi məsələsi ilə bağlı bəyanatlarına münasibətlə əlaqədar keçirdikləri rəy sorğusunda Naxçıvan bölgəsi əhalisinin 90 faizindən çoxu Naxçıvanın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi [28, s. 341-342]. Bu rəy sorğusunun nəticəsi sonrakı aylarda imzalanan, mühüm tarixi və hüquqi sənədlər olan Moskva və Qars müqavilələrində Naxçıvanın Azərbaycanın tərkibində qalması və statusu ilə bağlı məsələnin həllində çox ciddi rol oynadı.

Beləliklə, son dərəcə gərgin bir tarixi mərhələ olan 1918-1920-ci illərdə ermənilərin Azərbaycanda törətdikləri soyqırım və deportasiya siyasətindən sonra Naxçıvanın tarixi taleyini – yəni onun Azərbaycanın tərkibində muxtar ərazi kimi qalma imkanlarını 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri həll etdi. Martın 16-da Türkiyə ilə RSFSR arasında bağlanmış 16 maddəlik Moskva müqaviləsinin 3-cü maddəsində deyilirdi: "Razılığa gələn hər iki tərəf bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki,

Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir. Naxçıvan ərazisinin Araz talveqinin şərqi ilə Dəhnə dağı (3829) – Vəli dağ (4121) – Bağırsaq (6587) Gömürlü dağ (6930) xətti arasında yaranmış üçbucaq kəsimi, bu torpaqların Gömürlü dağdan (6930) başlayıb, Saray bulaq dağından (8071) və Ararat stansiyasından keçərək Qara Suyun Arazla birləşdiyi yerdə başa çatan sərhəd xətti, Türkiyə, Azərbaycan və Ermənistanın səlahiyyətli nümayəndələrindən ibarət komissiya tərəfindən təshih olunacaqdır" [17, s. 26-27].

Antanta dövlətləri tərəfindən ciddi təzyiqlərə məruz qalan Türkiyə üçün həmin dövrdə sovet Rusiyası ilə münasibətlərin qurulması həyati əhəmiyyət kəsb edirdi. Lakin müqavilənin şərtlərindən də göründüyü kimi, Cənubi Qafqazda öz maraqlarını mümkün olan maksimum səviyyədə qorumaq üçün həm Acarıstan, həm də Naxçıvanla bağlı məsələlərdə Türkiyə tərəfi hər iki bölgəyə muxtariyyət statusunun verilməsini əsas tələb kimi qoymuşdu. Azərbaycan türklərinin yaşadığı torpaq olmasından əlavə, Naxçıvan həm də çox mühüm geostrateji əhəmiyyətə malik ərazi idi. Belə ki, 1920-1921-ci illərdə RSFSR-lə Türkiyə arasında diplomatik əlaqələrin yaradılması və saxlanılmasında Naxçıvan bir ərazi olaraq əsas vasitəçi rolunu oynamışdı. Çünki 1920-ci ildə Qara dənizdə Antantanın hərbi gəmiləri dayanmışdı, Gürcüstanın menşevik, Ermənistanın daşnak hökumətlərinin Türkiyə ilə diplomatik əlaqələri yox dərəcəsində idi [44, s. 26].

Naxçıvanın statusu ilə bağlı yekun və həlledici sənəd 1921-ci il oktyabrın 13-də bir tərəfdən Türkiyə Böyük Millət Məclisi Hökuməti ilə digər tərəfdən Ermənistan SSR, Azərbaycan SSR və Gürcüstan SSR hökumətləri arasında RSFSR-in iştirakı ilə Qars şəhərində imzalanan 20 maddədən ibarət müqavilə [38, iş 18, v. 135-145] oldu. Müqavilənin 5-ci maddəsində Naxçıvanın statusu ilə bağlı müddəa konkret və aydın şəkildə qoyulmuşdu: "Türkiyə Höküməti ilə Ermənistan və Azərbaycan sovet hökumətləri bu müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razıdırlar". Həmin Əlavədə isə Naxçıvan ərazisinin sərhədləri Moskva müqaviləsinin 3-cü maddəsindən daha dəqiq göstərilirdi. Əlavəyə görə, Arazdəyən stansiyası Ermənistanın tərkibində qalırdı.

Qeyd edək ki, sovet hakimiyyəti illərində Moskva və Qars müqavilələri birbaşa keçmiş sovetlər birliyinin rəhbərliyinin dəstəyi ilə pozularaq, Naxçıvan ərazisi qəsb olundu və ermənilərə verildi. Belə ki, 1929-cu il fevralın 28-də Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Moskva və Qars müqavilələrinin şərtlərinə məhəl qoyulmadan və müqaviləni imzalayan dövlətlərlə razılaşdırılmadan ümumi sahəsi 657 $km^2$ təşkil edən Naxçıvan ərazisi – Şərur rayonunun Xaçık, Horadiz, Ordubad rayonunun Qarçevan, Şahbuz rayonunun Oqbin, Sultanbəy, Ağxəç, Səs, Almalı və İtqıran kəndləri Ermənistana verildi [47, s. 13]. Bu kəndlərin ümumi ərazisi 625 $km^2$ idi ki, bu da 62 min ha kənd təsərrüfatına yararlı torpaq sahəsindən ibarət ərazi demək idi. 1988-ci ildə başlayan Azərbaycan torpaqlarına qarşı erməni təcavüzünün növbəti mərhələsində, 1990-cı il yanvarında Kərki kəndi SSRİ Müdafiə Nazirliyinin VII ordusunun köməyi ilə işğal edildi.

İki beynəlxalq müqavilənin imzalanmasına baxmayaraq Naxçıvanın muxtariyyət statusu üçün yekun nəticənin əldə edilməsinə daha üç il lazım oldu. Yalnız 1921-1924-cü illərdə Naxçıvanın hüquqi statusu ətrafında aparılan müxtəlif

siyasi manipulyasiyalardan sonra Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusu verildi. Naxçıvan Moskva müqaviləsinin imzalandığı gündən – 1921-ci il martın 16-dan Naxçıvan Sosialist Sovet Respublikası adlandırıldı. 1922-ci ilin dekabrın 13-də I Zaqafqaziya Sovetlər qurultayı Naxçıvan məsələsi üzrə qəbul etdiyi xüsusi qərarında Naxçıvanın muxtariyyət statusunda Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu təsdiq etdi [14, s. 14; 30, s. 120].

Maraqlıdır ki, məsələnin bu cür müzakirə olunub qərarlar qəbul edildiyi bir zamanda, 1923-cü ilin yanvarında RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin Rəyasət Heyəti AK(b)P MK-ya təklif etdi ki, "Naxçıvan Muxtar vilayətə, Naxçıvan İcraiyyə Komitəsi isə Naxçıvan ölkəsinin İcraiyyə Komitəsinə çevrilsin". AK(b)P MK katibliyi 1923-cü il yanvarın 21-də həmin qərarı müzakirə edərək Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini və Xalq Komissarları Sovetini ləğv etdi və Naxçıvan Ölkəsinin İcraiyyə Komitəsini yaratdı. Növbəti gün AK(b)P MK Rəyasət Heyəti qərara aldı ki, bu məsələ Naxçıvan Ölkə Partiya konfransında və Naxçıvan Ölkəsinin Sovetlər qurultayında müzakirə edilsin. Artıq sovet totalitar rejiminin işə saldığı təbliğat maşını göstərməyə çalışırdı ki, guya bütün Naxçıvan ölkəsinin zəhmətkeşləri Naxçıvanda muxtar respublika əvəzinə muxtar ölkənin yaradılmasını ürəkdən bəyənir, bunun üçün hətta partiya rəhbərliyinə və sovet hökumətinə dərin minnətdarlıqlarını da bildirirlər [22, s. 16].

1923-cü il fevralın 27-də III Ümumnaxçıvan Sovetlər qurultayının Bəyannaməsində Azərbaycanın tərkibinə daxil olmaq haqqında danışılırdı: "Son illərin mübarizəsinin təcrübəsini, iqtisadi və etnoqrafik meylləri nəzərə alaraq biz vahid rəyə gəlirik ki, zəhmətkeşlərin mənafeyinin tam müdafiəçisi sovet Azərbaycanıdır ki, onunla birlikdə biz fəhlə-kəndli maraqlarımızın tam müdafiəsini və bizim mədəni-iqtisadi dirçəlişimizi düşünürük. Biz bütöv dövlət mexanizmimizdə bölünməz olmağımızı istəyirik". Qurultayın qərarı ilə Naxçıvan Azərbaycanın tərkibinə diyar kimi daxil olmalı idi. Qurultayın bu barədəki qərarında deyilirdi: "1. Naxçıvan SSR Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi kimi tanınsın; 2. Naxçıvan MİK, XKS və bütün xalq komissarlıqları buraxılsın; 3. İdarəetmə üçün gələcəkdə 17 üzvdən, 7 namizəddən ibarət Naxçıvan Diyar İcraiyyə Komitəsi seçilsin; 4. Bütün Naxçıvan diyarı öz aparatı və muxtar diyar hüquqları ilə Azərbaycan SSR-in tərkibinə daxil olsun" [bax: 14, s. 15]. Əslində bütün bu prosesdə başlıca məqsəd Naxçıvanın statusunun siyasi muxtariyyətdən daha az səlahiyyət və hüquqlara malik inzibati-ərazi muxtariyyətinə transformasiyası idi.

Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin II çağırış 1923-cü il iyunun 16-da keçirilən üçüncü sessiyasında qəbul edilmiş qərarla Naxçıvan SSR Azərbaycan SSR-in tərkibinə daxil edilir və Naxçıvan Diyarı kimi yenidən təşkil olunurdu. Türkiyə hökuməti sovet hökumətinə göndərdiyi 25 iyun 1923-cü il tarixli notasında bunu Moskva və Qars müqavilələrinin Naxçıvanla bağlı maddələrinin birtərəfli pozulması kimi dəyərləndirdi və etirazını bildirdi [72]. Nəticədə Azərbaycan SSR MİK-in Rəyasət Heyəti öz qərarına yenidən baxmağa məcbur oldu.

Azərbaycan SSR MİK 1923-cü il dekabrın 31-də "Naxçıvan Diyarının Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Respublikasına çevrilməsi"ni qərara aldı və qərarın sanksiyalaşdırılmasını Zaqafqaziya MİK-dən xahiş etdi [39, v. 1]. 1924-cü il yanvarın 8-də Zaqafqaziya MİK-in plenumu Q.Musabəyovun məruzəsini

və Azərbaycan MİK-in qərarını müzakirə edərək, Azərbaycan SSR-in tərkibində Naxçıvan Sosialist Sovet Respublikası elan olunmasını təsdiq etdi. Azərbaycan SSR MİK-in 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan Diyarının Azərbaycan SSR-in tərkibində Naxçıvan SSR-ə çevrilməsi rəsmiləşdirildi və Naxçıvan SSR haqqında Əsasnamənin layihəsinin hazırlanması üçün komissiya yaradılması qərara alındı. Dekretdə deyilirdi: "Naxçıvan diyarı Azərbaycanın SSR-in protektoratlığında Naxçıvan Sosialist Sovet Respublikasına çevrilsin" [72].

Beləliklə, son nəticədə Naxçıvanın muxtar respublika statusunda Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qalması məsələsi qəti şəkildə həll olundu.

1924-cü ilin aprelində Azərbaycan SSR MİK muxtariyyətin ilk konstitusiya əhəmiyyətli sənədi olan "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə"ni [39, v. 2-13] təsdiq etdi. Naxçıvan SSR-in birinci Konstitusiyası həmin Əsasnaməyə uyğun olaraq işlənib hazırlandı və 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər qurultayında təsdiq edildi [30, s. 156]. Sonralar, 1937-ci və 1978-ci illərdə Naxçıvanın sovet hakimiyyəti illərində daha iki Konstitusiyası qəbul edildi. Maraqlıdır ki, Azərbaycan SSR MİK-in 23 dekabr 1923-cü il tarixli, Zaqafqaziya MİK-in 8 yanvar 1924-cü il tarixli qərarlarına, habelə birincinin 9 fevral 1924-cü il tarixli dekretinə baxmayaraq, həm "Naxçıvan SSR haqqında Əsasnamə"də (1924-cü il), həm də Naxçıvanın ilk Konstitusiyasında (1926-cı il) "Naxçıvan Sosialist Sovet Respublikası" adına "Muxtar" sözü əlavə edilməmişdi. Bu məsələ konstitusion səviyyədə Naxçıvanın ikinci Konstitusiyasında (1937-ci il) öz həllini tapdı və Naxçıvan muxtariyyəti məhz həmin ildən "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" adlandırıldı.

1924-cü ildə Əsasnamə qəbul olunduqdan sonra Naxçıvan SSR inzibati cəhətdən 3 qəzaya bölünürdü: Naxçıvan, Ordubad və Şərur qəzaları. Qəzalar isə öz növbəsində rayonlara (dairələrə) bölünmüşdü. Naxçıvan SSR-in tərkibinə cəmi 12 rayon (dairə) daxil idi. Bunlardan 5-i Naxçıvan qəzasının (Tumbul, Əbrəqunus, Cəhri, Şahbuz və Culfa), 3-ü Ordubad qəzasının (Yuxarı Aza, Yuxarı Əylis və Parağa), 4-ü isə Şərur qəzasının (Qıvraq, Yengicə, Nehrəm və Sədərək) tərkibində idi. Naxçıvan SSR-in ərazisi 5255,8 verst$^2$ (5606,8 km$^2$ – E.C.) 1925-ci il yanvarın 1-ə olan məlumata görə əhalisinin sayı 91079 nəfər (15054 nəfər şəhər, 76.025 nəfər kənd əhalisi olmaqla) idi. Lakin milli münaqişə zamanı qaçqın və didərgin düşənlərin sayı nəzərə alınarsa, əhalinin ümumi sayı 100 min nəfəri ötürdü [39, v. 16].

Naxçıvanın muxtariyyət statusu ilə bağlı proseslərin getdiyi bir vaxtda, 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən qəbul edilən ilk Azərbaycan Konstitusiyasında [70, s. 7-17]. Naxçıvanla bağlı heç bir müddəa əks olunmasa da, 1927-ci il Konstitusiyasının ayrı-ayrı maddələrində Naxçıvanın statusu ilə bağlı məsələlər öz əksini tapmış, 1937-ci və 1978-ci il Konstitusiyalarında isə xüsusi fəsillər muxtar respublikanın statusuna həsr edilmişdi. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra qəbul edilən 1995-ci il Konstitusiyasının VIII fəslinə Naxçıvan MR-lə bağlı maddələr (134-141-ci maddələr) daxil edilmişdir. Azərbaycan Konstitusiyasının 134-cü maddəsi Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının tərkibində muxtar dövlət və Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu elan edir [6, s. 54].

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVANDA MUXTAR DÖVLƏT QURUCULUĞU PRİNSİPLƏRİ VƏ İDARƏETMƏ MODELİ

XX əsr həm qlobal mənada, həm ölkəmizin mənafeləri baxımından zəngin ictimai-siyasi hadisələrin gərgin dinamikası ilə səciyyələnsə də, əsrin sonu Azərbaycanın dövlət müstəqilliyinin bərpası ilə əlamətdar oldu. Bütün dövlətçilik tariximiz boyu Azərbaycanın ictimai-siyasi inkişafında özünəməxsus yeri və rolu olan qədim Naxçıvan diyarı bu mərhələdə də xalqımızın milli-azadlıq hərəkatının mühüm mərkəzlərindən birinə çevrildi. Bu, heç şübhəsiz ki, ilk növbədə ümummilli lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb-yaratması, muxtar respublikaya rəhbərlik etməsi, onu düşmən təcavüzündən qoruyaraq gələcək taleyində çox mühüm inkişaf mərhələsinin özülünü qoyan tarixi qərarlara imza atması ilə sıx bağlı idi.

Məhz bu amilin nəticəsi idi ki, Naxçıvana rəhbərlik etdiyi illərdə və 1993-cü ildə ölkədə siyasi hakimiyyətə qayıtdıqdan sonra ulu öndər yalnız ümummilli problemlərin həlli istiqamətində gərgin fəaliyyətə başlamadı, eyni zamanda Azərbaycanda ictimai-siyasi sabitliyin təmin olunmasına nail oldu və qısa müddətdə ölkəmizin gələcək siyasi estafetini qəbul edəcək güclü siyasi iradə sahibi olan Heydər Əliyevçi kadrların siyasi dövlətçilik məktəbini yaratdı. 1995-ci ildən Azərbaycanda artıq möhkəmlənməkdə olan ictimai-siyasi şərait zəminində noyabrın 12-də ölkəmizin müstəqillik tarixində ilk demokratik parlament seçkilərinin keçirilməsi və referendumla yeni Konstitusiyanın qəbul edilməsi Azərbaycan Respublikasının demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu prosesində çox mühüm bir vəsilə oldu.

Ölkəmiz bütövlükdə ümummilli lider Heydər Əliyevin dərin siyasi zəkaya və dövlətçilik təcrübəsinə əsaslanan siyasətinin real bəhrələrini yaşamağa başladığı bir dövrdə paralel olaraq Naxçıvan Muxtar Respublikasının da kompleks inkişafı epoxasının əsası qoyuldu. Əslində o zamankı mövcud hərbi-siyasi reallığın yaratdığı kəskin beynəlxalq və regional ictimai-siyasi atmosferdə 1990-1993-cü illər Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi qorunub-saxlanılması mərhələsi oldusa, 1995-ci ilin parlament seçkiləri ilə vüsət alan yeni tarixi mərhələ muxtar respublikanın sosial-iqtisadi, mədəni-mənəvi, ictimai-siyasi inkişafı və intibahı dövrü kimi tarixə yazıldı.

Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası əsasında 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının sayca dördüncü Konstitusiyası qəbul edildi. Sonuncu Konstitusiya Naxçıvan muxtar dövlətini Azərbaycan Respublikasının tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublika elan etdi [40, s. 5]. Konstitusiya ilə Naxçıvan siyasi (dövlət-ərazi) muxtariyyətlər üçün zəruri olan bütün hüquqları əldə etdi. Naxçıvan Muxtar Respublikasının hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq Ali vəzifəli şəxsi (həm qanunvericilik, həm də icra hakimiyyəti səlahiyyətlərinə malik olan muxtar dövlətin başçısı), öz parlamenti (Ali Məclis), hökuməti (Nazirlər Kabineti), Ali Məhkəməsi və digər səviyyələr üzrə hakimiyyət strukturları vardır. Azərbaycan Respublikasının dövlət atributları (himn,

gerb və bayraq) Naxçıvan Muxtar Respublikasının da dövlət atributlarıdır.

Naxçıvan Muxtar Respublikasının 1995-ci il Azərbaycan Konstitusiyasında təsbit olunmuş tarixi ənənələrdən doğan və yeni siyasi dövrün, müstəqillik mərhələsinin tələblərinə uyğunlaşdırılan siyasi-hüquqi statusu Naxçıvanda yeni muxtar dövlət quruculuğu prosesinin konstitusion təməlini təşkil etdi. Ötən dövrdə Naxçıvan Muxtar Respublikası, düşdüyü blokadaya və onun ağır nəticələrinə baxmayaraq, müstəqil Azərbaycan dövlətinin inkişafı tempi ilə ayaqlaşdı, bu tərəqqiyə özünün adekvat yüksəlişi ilə cavab verdi. Məhz bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 85-ci ildönümünə həsr olunmuş təntənəli yubiley mərasimindəki çıxışında deyirdi: "Uzun illər ərzində Naxçıvan blokada şəraitində yaşayır, Naxçıvan inkişaf edir, Naxçıvanda böyük quruculuq işləri aparılır və Naxçıvanın uğurlu inkişafı ölkəmizin gücünü göstərir" [34, s. 46].

Müstəqillik dövrünün ötən tarixindəki tərəqqisi, xüsusilə son 19 ildəki heyrətamiz yüksəlişi Naxçıvan Muxtar Respublikasını Azərbaycan dövlətinin çətin və şərəfli müstəqillik yolunda xüsusi rola və yerə malik məkana çevirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 14 yanvar 2014-cü il tarixli Sərəncamında bu məkanın ən gözəl səciyyəsini vermişdir: "Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir" [35, s. 4].

Beləliklə, Naxçıvan Muxtar Respublikasının 1995-ci ildən başlanan müasir intibah tarixini yalnız onun sosial-iqtisadi yüksəlişi, elmi-mədəni dirçəlişi dövrü kimi xarakterizə etməklə kifayətlənmək olmaz. Bu dövr muxtar respublikanın həm də siyasi-hüquqi cəhətdən demokratik, dünyəvi, hüquqi muxtar dövlət quruculuğu prosesinin konstitusion əsaslarının yaradılması və təcrübədə həmin hüquqi normaların tətbiqinə başlanması dövrü kimi də zəngin inkişaf trayektoriyasını özündə ehtiva edir. Lakin təbii ki, yalnız sanballı konstitusion-hüquqi bazanın yaradılması hər hansı bir dövlətin, siyasi-ərazi quruluşunun yüksək səviyyədə idarə edilməsi üçün kifayətedici faktor deyildir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının hazırda beynəlxalq aləmdə model kimi qəbul edilən idarəetmə forması yalnız hüquqi-nəzəri əsaslarla məhdudlaşmır.

Qloballaşma prosesinin sürətlə genişləndiyi müasir tarixi mərhələdə bir sıra xalqların və kiçik dövlətlərin varlığını qoruması prosesi birbaşa həmin xalqların və dövlətlərin hansı səviyyədə və necə idarə olunması, bu siyasi idarəçiliyi həyata keçirən iradənin mənəvi-siyasi möhkəmliyi, çevik geopolitik düşüncənin daşıyıcısı olan liderlik institutu probleminin həllindən asılıdır. Son illərdə Naxçıvan Muxtar Respublikasında müstəqil Azərbaycan dövlətçiliyinin unikal tərkib hissəsi olan muxtar dövlətçiliyin siyasi inkişafı ilə bağlı son dərəcə pozitiv meyllərin dominantlıq təşkil etdiyi quruculuq prosesi sübut edir ki, muxtar respublikamızda bu problem

nəinki qarşıda durmur, hətta bu problem ümumiyyətlə yoxdur və perspektivdə yalnız sosial-siyasi inkişaf və hüquqi dövlət quruculuğunun yeni-yeni uğurlu nəticələrinin aydın göründüyü üfüqlər dayanır.

1995-ci ildən Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin müəllifi olduğu konseptual dövlət idarəçiliyi və özünəməxsus siyasi novatorluq kursunun həyata keçirilməsi bilavasitə və müstəsna olaraq muxtar dövlətin Ali vəzifəli şəxsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adı və fəaliyyəti ilə bağlıdır. Şəraiti dəqiq qiymətləndirmək qabiliyyəti, qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, mühüm qərarların yerinə yetirilməsi naminə adamların zəkasına və enerjisinə təsir göstərmək, onları səfərbər etmək, siyasi zamanı hiss etmək, dövlət quruculuğu prosesində əhalinin siyasi cəhətdən fəal təbəqələrinin bu və ya digər dərəcə və səviyyədə iştirakını təmin etmək bacarığı, siyasi prosesdə nəsillərin iştirakının optimal balansının yaradılması, yeni enerjiyə, gənc nəslə etimad formulunun zamanında tətbiqi, qətiyyətlə bildirmək olar ki, Naxçıvan Muxtar Respublikasında dövlət quruculuğu prosesinin müvəffəqiyyətini, özünəməxsus idarəetmə modelinin birmənalı müsbət qəbul edilən unikallığını təmin etmiş siyasətin mayasını təşkil edir.

XXI əsr Naxçıvanının bütün sahələrdə olduğu kimi, hüquqi-siyasi inkişafında da maarifçilik və elmilik üstün xarakterik cizgilər kimi təcrübədə möhkəmlənmişdir. Siyasətin həm də nəzəri elm olduğunu nəzərə alaraq qətiyyətlə demək olar ki, muxtar dövlətin siyasi inkişafında yüksək zəka, yenilikçi analitik siyasi təfəkkür, cəmiyyətdəki hadisələrin inkişafı və dəyişməsi dinamikasının fenomenal şəkildə duyulması və məharətlə qiymətləndirilməsi səriştəsinin müstəsna rol oynadığı danılmazdır. Siqləti siyasi alicənablıqdan, əxlaqi fəzilətdən və xalqa sədaqətdən yoğrulan dövlətçilik fəaliyyəti milli ləyaqətin əvəzsiz meyarıdır. Bu meyar isə özlüyündə dövlətin qüdrətinin, milli birliyin rəhnidir. Tarixən bütün siyasətşünas alimlər bir məsələdə yekdil mövqe nümayiş etdirmişlər: dövləti müdrikliklə idarə edənlərin siyasi mənəviyyatı mahiyyət etibarilə xalqın milli sərvəti kimi qiymətləndirilməlidir.

Üstün siyasi iradənin, yüksək səviyyədə əxz edilmiş zəngin tarixi təcrübənin, yeni, modern idarəçilik səriştəsi ilə ümummilli mənafelərin optimal şəkildə uzlaşdırılması, yeni dünya təcrübəsinin qəbul etdiyi, pozitiv konservatizmlə liberal-demokratiyanın, tarixi ənənə ilə reformizmin, novator siyasi dövlətçilik dünyagörüşünün bütün mühüm xüsusiyyətlərini özündə ehtiva edən xarizmatik liderlik institutunun formalaşması Naxçıvan Muxtar Respublikasının sürətli siyasi inkişafının və müasir dövlətçilik ənənələrinin kökündə duran başlıca amildir.

Qeyd edək ki, ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycanın siyasi olimpinə qayıdışından sonra Azərbaycan milli dövlətçiliyi hələ 1992-ci ildə Naxçıvanda yaradılmış Yeni Azərbaycan Partiyasının Proqramında əksini tapmış və bilavasitə ümummilli liderimizin özünün dövlətçilik ideallarının ifadəsi olan prinsiplər əsasında inkişaf etdirilmişdir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası dövlətçiliyinin də bu prinsiplərin üzərində qurulduğu aydın görünməkdədir. Nəzəri-ideoloji cəhətdən vahid müstəqil dövlətçilik, qanunların aliliyi, Azərbaycançılıq, Vətənçilik, varislik, yaradıcı təkamül, konstruktiv əməkdaşlıq, vətəndaş həmrəyliyi, sosial ədalət prinsiplərindən ibarət olan dövlət quruculuğu prosesinin ölkənin

unitarizminin Naxçıvanı da ən yüksək, konstitusion səviyyədə və real siyasi fəaliyyətdə əhatə edərək daha da möhkəmləndirilməsi, tarixi-mənəvi, milli-mədəni müstəvidə olduğu kimi, dövlətçiliklə bağlı istisnasız olaraq bütün məsələlərdə Azərbaycan Respublikasının tərkib hissəsi kimi çıxış etmək prinsipləri ilə daha da zənginləşdirilməsi muxtar respublikanın siyasi inkişaf modelinin özünəməxsus cəhətlərini özündə ehtiva edir.

Bütün sadalananlar Naxçıvan Muxtar Respublikasının beynəlxalq aləmdəki nüfuzunu da şərtləndirmişdir. Artıq bir neçə ildir ki, muxtar dövlət Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycanı layiqincə təmsil edir, Naxçıvan muxtariyyətinin milli dövlətçilik təcrübəsini, siyasi-hüquqi sistemini Avropa təcrübəsinin üstün modeli kimi təbliğ və təqdim edir. Naxçıvan Muxtar Respublikasının qanunvericilik təcrübəsinin Avropa qanunvericiliyinin qitədə yüksək səviyyədə qəbul olunan tərkib hissəsinə çevrilməsi Qanun vasitəsi ilə Demokratiya uğrunda Avropa Komissiyasının (Venesiya Komissiyası) muxtar dövlətimizin Əsas Qanunu barədə verdiyi rəydə də öz əksini qabarıq şəkildə tapmışdır. Həmin rəydə deyilir: "Naxçıvan Muxtar Respublikası digər Avropa muxtariyyətləri arasında geniş muxtariyyətə malikdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası bütövlükdə muxtariyyətin idarə edilməsi qaydalarını şərtləndirən normal əsaslar yaradır və qitənin digər muxtariyyətlərinin səlahiyyətlərinin və əsaslarının müəyyənləşdirilməsində model kimi çıxış edə bilər" [34, s. 60].

Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresinin 2013-cü il oktyabrın 28-31-də Fransanın Strasburq şəhərində keçirilən 25-ci sessiyasında qəbul edilən "Avropanın xüsusi statuslu regionları və əraziləri" adlı sənədin II hissəsinin "b" bəndində qeyd edilmişdir ki, Naxçıvan Muxtar Respublikası eksklav xarakterli muxtariyyət modelidir. Sessiyada mövzu barədə səslənən hesabatda, qətnamə və tövsiyə layihələrində Naxçıvan Muxtar Respublikasının statusu model kimi vurğulanmış və bu modelin tətbiqinin uğurlu və faydalı olduğu qeyd edilmişdir [54].

Unikal tarixi-siyasi şərtlər daxilində təşəkkül tapmış Naxçıvanın muxtariyyət statusu qətiyyən milli, dini və ya hər hansı etnokonfessial amillə bağlı mənsubiyyətə, ölkənin əsas əhalisindən ayrılıqda götürülmüş fərdi identikliyə, özünəməxsusluğa əsaslanmır. Naxçıvan Muxtar Respublikasının yaranması, muxtariyyətin 85 illik yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qeyd etdiyi kimi, "1918-1924-cü illərdə cərəyan edən daxili və xarici amillərin təsiri altında yaranmış, 1920-ci il dekabrın 2-də Rusiya və Ermənistan arasında imzalanmış hərbi-siyasi sazişə əsasən qədim Azərbaycan torpağı olan Zəngəzurun Ermənistana verilməsindən sonra isə tarixi zərurətə çevrilmişdi. Naxçıvana muxtariyyət statusunun verilməsinin səbəblərindən biri də bu faktorun böyüyərək regional çərçivədən çıxması və beynəlxalq hüququn subyektinə çevrilməsidir" [34, s. 57].

Bütün bu qeyd edilənlərdən sonra müstəsna muxtariyyət xüsusiyyətlərinə malik Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının, muxtar dövlətin siyasi-hüquqi sisteminin nüfuzlu Venesiya Komissiyası tərəfindən model kimi qiymətləndirilməsi, qitədəki bütün digər muxtariyyətlərə nümunə kimi göstərilməsi, birmənalı olaraq 1995-2014-cü illərdə Naxçıvanda yaranıb formalaşan və artıq beynəlxalq təcrübədə yayılan muxtar dövlətçilik ənənələrinin nəticəsidir. Məhz bu dövrün siyasi inkişafı,

son on doqquz ildə muxtar respublikanın Ali vəzifəli şəxsi tərəfindən yürüdülən uğurlu dövlət quruculuğu siyasəti Naxçıvan muxtar dövlətçiliyini beynəlxalq aləmə ən optimal model kimi təqdim edir.

Bu isə öz növbəsində Naxçıvan Muxtar Respublikasında milli-tarixi təcrübəyə, möhkəm elmi əsaslara söykənən müasir dövlət idarəçiliyi prinsiplərinin siyasi cəhətdən düzgünlüyünə, bəşəri siyasi-hüquqi sistemin təşəkkülü elementlərinin milli ənənələrlə ən optimal sintezinə əsaslanan muxtar dövlət quruculuğu prinsiplərinin müdrik siyasi idarəetmə iradəsinə istinad etdiyinin şəksiz ifadəsidir.

## Türkiyə və Rusiya Sosialist Federativ Sovet Respublikası arasında dostluq və qardaşlıq haqqında müqavilə

***Moskva, 16 mart 1921-ci il***

**Maddə 3**

Razılığa gələn hər iki tərəf bu müqavilənin I (C) əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir.

Naxçıvan ərazisinin Araz talveqinin şərqi ilə Dəhnə dağı (3829) – Vəli dağ (4121) – Bağırsaq (6587) Gömürlü dağ (6930) xətti arasında yaranmış üçbucaq kəsimi, bu torpaqların Gömürlü dağdan (6930) başlayıb, Saray bulaq dağından (8071) və Ararat stansiyasından keçərək Qara Suyun Arazla birləşdiyi yerdə başa çatan sərhəd xətti, Türkiyə, Azərbaycan və Ermənistanın səlahiyyətli nümayəndələrindən ibarət komissiya tərəfindən təshih olunacaqdır.

***Əlavə I (C)***

***Naxçıvan ərazisi:***

Ararat stansiyası – Saraybulaq dağı (8071) – Gömürlü dağ (8839) – (8930) – (3080) – Sayat dağ (7868) – Qurdqulaq (Kurt Kulak) kəndi – Həməsür dağı (8160) – 8022 yüksəkliyi – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi.

**Dostluq haqqında bir tərəfdən Ermənistan Sosialist Sovet Respublikası, Azərbaycan Sosialist Sovet Respublikası və Gürcüstan Sosialist Sovet Respublikası, digər tərəfdən Türkiyə Böyük Millət Məclisi Hökuməti arasında Rusiya Sosialist Federativ Sovet Respublikasının iştirakı ilə bağlanmış müqavilə**

***Qars, 13 oktyabr 1921-ci il***

**Maddə 5**

Türkiyə Hökümət ilə Ermənistan və Azərbaycan sovet hökumətləri bu müqavilənin 3 saylı Əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan bölgəsinin Azərbaycanın himayəsində muxtar ərazi təşkil etməsinə razıdırlar.

***Əlavə 3***

***Naxçıvan ərazisi:***

Urmiya kəndi, oradan düz xətlə Arazdəyən stansiyası (o, Ermənistan Sosisalist Sovet Respublikasına qalır), sonra düz xətlə qərbi Daşburun dağını (3142) – oradan şərqi Daşburun dağını (4108) – Cəhənnəm dərəsi çayını keçərək Bulağın (“Rövnə”) cənubuna çatır, Bağırsaq (Yağarsık) dağının (6607), yaxud 6587-ci yüksəkliyin suayrıcı xətti ilə davam edərək keçmiş İrəvan qəzasının inzibati sərhədini, oradan Şərur-Dərələyəz sərhəd xəttini izləyir, 6629-cu yüksəklikdən Kömürlüdağa (6839, yaxud 6930) və oradan 3080-ci yüksəkliyə gəlir. Sayatdağ (7868) – Qurdqulaq (Kurt Kulaq) kəndi – Həməsür dağı (8160) – 8022-ci yüksəklik – Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının inzibati sərhədlərinin şərqi.

# NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASI HAQQINDA ƏSASNAMƏ

1924-cü il fevralın 9-da, Naxçıvan MSSR-in yaradıldığının elan olunduğu gün Bahadur Vəlibəyov, Mir Cəfər Bağırov, Tağı Şahbazi Simurq və Ruhulla Axundovdan ibarət Konstitusiya komissiyası yaradılmış və ona Naxçıvan MSSR haqqında Əsasnamənin layihəsini hazırlamaq tapşırılmışdı [48]. Komissiya tərəfindən hazıprlanmış layihə əsasında "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə" Azərbaycan SSR MİK tərəfindən 1924-cü il aprelin 5-də qəbul edildi. 1921-ci il Moskva və Qars müqavilələrinin imzalanmasından və 1921-1924-cü illərdə Naxçıvanın hüquqi statusuna dair baş verən proseslərdən sonra qəbul edilən bu Əsasnamə Naxçıvan muxtariyyətinin ilk konstitusiyası statusunda idi. Əsasnamənin qəbul olunmasında başlıca məqsəd 1924-cü il fevralın 9-da yekun hüquqi statusu müəyyən edilmiş Naxçıvanda sovet hakimiyyəti orqanlarının və sosialist cəmiyyətinin təşəkkülünün nəzəri-hüquqi əsaslarının yaradılması idi.

Mətni Naxçıvan MR Dövlət Arxivində saxlanılan Əsasnamə belə hüquqi sənədlər üçün xarakterik olan ənənəvi bölgüyə uyğun müəyyən struktura malik olsa da, bu struktur qarışıq idi. Əsasnamə 5 bölmə, 13 fəsil, 69 maddədən ibarət idi.

Əsasnamə konstitusiya əhəmiyyətli olsa da, burada məhkəmə quruluşundan və insan hüquqlarından (seçki hüququ istisna olmaqla) bir kəlmə belə bəhs edilmirdi. 27-ci maddənin "ə" bəndi ilə məhkəmə quruluşu və mühakimə üsulu, həmçinin mülki və cinayət qanunvericiliyi ilə bağlı məsələlərin həlli Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətinə verilirdi. Əsasnamədə habelə muxtar respublikanın paytaxtı haqqında da heç bir müddəa yox idi.

Əsasnamənin "Əsas müddəalar" adlanan birinci bölməsinə iki maddə daxil edilmişdir. İlk maddədə Naxçıvan SSR "Naxçıvan ərazisinin bütün zəhmətkeşlərinin azad sosialist cəmiyyəti" olduğu bəyan edilir, Naxçıvan SSR hüdudlarında bütün hakimiyyətin "ölkənin Sovetlərdə birləşən bütün zəhmətkeşlərinə" məxsus olduğu elan olunur. İkinci maddədə Naxçıvan SSR-də ali hakimiyyətin Sovetlər Qurultayına, qurultaylararası dövrdə isə Naxçıvan MİK-ə məxsus olduğu qeyd edilir. Lakin nə bu maddələrdə, nə də bütün Əsasnamədə Naxçıvanın Azərbaycan ərazisi olduğu barədə bir kəlmə belə vurğulanmır. Azərbaycanla münasibətlərə dair yalnız "Xalq Komissarları Soveti haqqında" paraqrafın 22-ci maddəsinə edilmiş "Qeyd"də bildirilir ki, "Azərbaycan SSR Fəhlə-Kəndli Müfəttişliyinin, Xalq Əmək Komissarının və Sənaye Komissarının Müvəkkilləri Xalq Komissarları Sovetinin iclaslarında məşvərətçi səslə iştirak edirlər".

Əsasnamənin ikinci və ən geniş bölməsində sovet hakimiyyəti quruluşunun, ali və yerli sovet hakimiyyəti orqanlarının təşkilinin əsasları, habelə onların səlahiyyətləri müəyyən edilirdi. Əhalinin hər min nəfərinə bir deputat olmaqla bütün qəza sovetlər qurultaylarının nümayəndələrindən təşkil edilən Naxçıvan Sovetlər qurultayı Naxçıvan SSR-də ən yüksək hakimiyyət, qurultay tərəfindən 21 üzv və 7 üzvlüyə namizəddən ibarət tərkibdə seçilən Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi isə qurultaylararası dövrdə ən yüksək qanunverici, sərəncam və nəzarət orqanı idi. 1921-ci ilin yanvarın 21-də ali dövlət hakimiyyəti orqanı kimi yaradılan

Naxçıvan Ölkə İnqilab Komitəsinin əvəzində təşkil edilən Naxçıvan SSR MİK, Əsasnamənin qəbulundan əvvəl, 1922-ci il yanvarın 25-də öz işinə başlayan Naxçıvan SSR Birinci Sovetlər qurultayında yaradılmışdı [25, s. 46, 48].

Naxçıvan SSR-in "işlərinin ümumi idarə edilməsi" Xalq Komissarları Sovetinin səlahiyyətində idi. Əsasnaməyə görə beş (daxili işlər üzrə, ədliyyə, təhsil, əkinçilik və səhiyyə) xalq komissarları soveti yaradılırdı. Əslində Əsasnamə qəbul edilənədək, artıq 1921-ci ilin sentyabrında Naxçıvan SSR Xalq Komissarları Soveti təşkil edilmişdi. Əvvəlcə ərzaq, torpaq, maliyyə, səhiyyə, maarif, daxili işlər xalq komissarlıqları, xalq hərbi komissarlığı, fəhlə-kəndli müfəttişliyi yaradılmışdı. Oktyabr ayından həmçinin xarici işlər, rabitə, əmək, daxili ticarət, ictimai təlimat, ədliyyə, xarici ticarət komissarlıqları, fövqəladə komissiya, xalq təsərrüfatı şurası və hərbi tribunal fəaliyyətə başlamışdı [25, s. 47-48]. Göründüyü kimi, Əsasnamənin qəbulunadək Xalq Komissarları Sovetinin tərkibi daha geniş idi.

Yerlərdə əsas sovet hakimiyyəti orqanları olan sovetlərin qurultayları iki səviyyə – qəza və sahə sovetlərinin qurultayları olmaqla təşkil edilirdi. Sovetlərin qurultayları (qəza, sahə) bir il müddətinə özünün icraedici orqan olan İcraiyyə Komitəsini seçirdi. Qəza icraiyyə komitələrinin üzvlərinin sayı 7, sahə icra orqanlarının sayı 3 nəfərdən çox olmamalı idi. 200 nəfərdən az olmayan əhalisi olan kəndlərdə əhalinin hər 25 nəfərinə bir deputat olmaqla (lakin 50-dən çox deputat olmamaqla) Fəhlə, kəndli və qızıl ordu (əsgər) deputatları sovetləri yaradılırdı.

Əsasnamənin üçüncü bölməsi seçki hüququ, seçkilərin keçirilməsi və nəticələri barədə müddəalardan ibarət idi. Dinindən, milliyyətindən, cinsindən, oturaqlılığından və s. asılı olmayaraq 18 yaşı tamam olmuş Naxçıvan SSR-in hər bir vətəndaşına seçmək və seçilmək hüququ tanınırdı. Lakin Əsasnamənin 45-ci maddəsində sovet rejiminin siyasi-ideoloji prinsipləri əsas götürülməklə müəyyənləşdirilən kateqoriyalardan hər hansı birinə daxil olan şəxslər seçki hüququndan məhrum edilirdi. Seçkilərin keçirilməsi üçün seçki komissiyaları yaradılırdı. Seçkilərin nəticələrinin yoxlanılması və buna dair yekun qərarın qəbul olunması müvafiq sovetlərin səlahiyyətində idi. Naxçıvan MİK sovetlərin seçkilərində kassasiya üzrə sonuncu instansiya elan edilirdi.

Dördüncü bölmədə Naxçıvan SSR-in büdcə hüququna dair müddəalar əks olunmuşdu. Burada qeyd olunurdu ki, "Naxçıvan SSR-in dövlət gəlirləri və xərcləri ümumdövlət büdcəsində birləşir". Naxçıvan Sovetlər qurultayı və Naxçıvan MİK ümumdövlət büdcəsinə və yerli sovetlərin sərəncamına daxil olan gəlirlərin və yığımların növlərini və eləcə də vergilərin hüdudlarını müəyyən etmək səlahiyyətinə malik idi. Dövlət xəzinədarlığının vəsaitlərinin reallaşdırılması üzərində sərt nəzarət mexanizmi müəyyən edilmişdi.

Əsasnamənin sonuncu bölməsində Naxçıvan SSR-in gerbinin və bayrağının təsviri verilirdi.

## ƏSASNAMƏNİN* STRUKTURU

**BİRİNCİ BÖLMƏ.** ƏSAS MÜDDƏALAR (maddə 1-2)

**İKİNCİ BÖLMƏ.** SOVET HAKİMİYYƏTİ QURULUŞU (maddə 3-43)

A. MƏRKƏZİ HAKİMİYYƏTİN TƏŞKİLİ (maddə 3-29)

Naxçıvan Sovetlər Qurultayı haqqında (maddə 3-9)

Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (Nax. MİK) haqqında (maddə 10-15)

Xalq Komissarları Soveti haqqında (maddə 16-26)

Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətində olan məsələlər haqqında (maddə 27-29)

B. YERLƏRDƏ SOVET HAKİMİYYƏTİNİN TƏŞKİLİ (maddə 30-43)

Sovetlərin qurultayları haqqında (maddə 30-33)

Deputatlar Soveti haqqında (maddə 34-40)

Yerlərdə sovet hakimiyyəti orqanlarının səlahiyyətində olan məsələlər haqqında (maddə 41-43)

**ÜÇÜNCÜ BÖLMƏ.** AKTİV VƏ PASSİV SEÇKİ HÜQUQU (maddə 44-45)

SEÇKİLƏRİN KEÇİRİLMƏSİ HAQQINDA (maddə 46-50)

SEÇKİLƏRİN YOXLANILMASI, LƏĞVİ VƏ DEPUTATLARIN GERİ ÇAĞIRILMASI HAQQINDA (maddə 51-58)

**DÖRDÜNCÜ BÖLMƏ.** BÜDCƏ HÜQUQU (maddə 59-67)

**BEŞİNCİ BÖLMƏ.** NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASININ GERBİ VƏ BAYRAĞI HAQQINDA (maddə 68-69)

---

** Əsasnamənin orijinalı arxivdə rusca olsa da, sənədin Azərbaycan dilində (rəsmi dövlət dilində) mətninin daha əvvəl verilməsi məqsədəmüvafiq sayılmışdır.*

# NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASI HAQQINDA ƏSASNAMƏ

***1924-cü ilin aprelin 5-də Azərbaycan Sosialist Sovet Respublikası Mərkəzi İcraiyyə Komitəsi tərəfindən qəbul edilmişdir.***

## BİRİNCİ BÖLMƏ

## ƏSAS MÜDDƏALAR

1. Naxçıvan Sosialist Sovet Respublikası Naxçıvan ərazisinin bütün zəhmətkeşlərinin azad sosialist cəmiyyətidir. Naxçıvan Sosialist Sovet Respublikası hüdudlarında bütün hakimiyyət ölkənin Sovetlərdə birləşən bütün zəhmətkeşlərinə məxsusdur.

2. Naxçıvan Sosialist Sovet Respublikasında ali hakimiyyət Naxçıvan Sovetlər Qurultayına, qurultaylararası dövrdə isə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə məxsusdur.

## İKİNCİ BÖLMƏ

## SOVET HAKİMİYYƏTİ QURULUŞU

### A. MƏRKƏZİ HAKİMİYYƏTİN TƏŞKİLİ

#### Naxçıvan Sovetlər Qurultayı haqqında

3. Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Sosialist Sovet Respublikasında ən yüksək hakimiyyətdir.

4. Naxçıvan Sovetlər Qurultayı hər 1000 nəfər əhaliyə bir deputat olmaqla, bütün qəza Sovetlər Qurultaylarının nümayəndələrindən təşkil edilir.

5. Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən ildə bir dəfədən az olmayaraq çağırılır.

6. Fövqəladə Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən öz təşəbbüsü ilə və ya respublika əhalisinin üçdə birindən az olmayan hissəsini əhatə edən yerli Sovetlərin tələbi əsasında çağırılır.

7. Naxçıvan Sovetlər Qurultayı 21-dən çox olmayan üzvdən və 7 namizəddən ibarət Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini seçir.

8. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sovetlər Qurultayı qarşısında bütünlüklə cavabdehdir.

9. Sovetlərin Qurultayları arasındakı dövrdə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Respublikada ən yüksək hakimiyyətdir.

## Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (Nax.MİK) haqqında

10. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sosialist Sovet Respublikasının ən yüksək qanunverici, sərəncam və nəzarət orqanıdır.

11. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi ölkədə Fəhlə-kəndli hökumətinin və bütün Sovet hakimiyyəti orqanlarının fəaliyyətinə ümumi istiqamət verir, qanunvericilik və idarəetmə üzrə işləri birləşdirir və razılaşdırır, Sovet Konstitusiyasının, Naxçıvan Sovetlər Qurultayının və mərkəzi Sovet hakimiyyəti orqanlarının qərarlarının həyata keçirilməsinə nəzarət edir.

12. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Xalq Komissarları Sovetinin və ya ayrı-ayrı təsisatların dekret layihələrinə və başqa təkliflərinə baxır və təsdiqləyir, eləcə də öz dekretlərini və sərəncamlarını verir.

13. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sovetlər Qurultayını çağırır, onun qarşısında öz fəaliyyəti haqqında hesabat verir, ümumi siyasət və ayrı-ayrı məsələlər barədə məruzələr edir.

14. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sosialist Sovet Respublikasının ümumi işlərinin idarə edilməsi üçün Xalq Komissarları Sovetini, idarəetmənin ayrı-ayrı sahələrinə rəhbərlik üçün onun şöbələrini (Xalq Komissarlıqlarını) yaradır.

15. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin üzvləri şöbələrdə (Xalq Komissarlıqlarında) işləyirlər və ya Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin xüsusi tapşırıqlarını yerinə yetirirlər.

## Xalq Komissarları Soveti haqqında

16. Naxçıvan Sosialist Sovet Respublikasının işlərinin ümumi idarə edilməsi Xalq Komissarları Sovetinə məxsusdur.

17. Bu vəzifənin həyata keçirilməsi üçün Xalq Komissarları Soveti dekretlər, sərəncamlar, təlimatlar verir və ümumiyyətlə, dövlət həyatının düzgün və çevik gedişatı üçün bütün tədbirləri görür.

18. Xalq Komissarları Soveti Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə özünün bütün qərar və qətnamələri haqqında dərhal məlumat verir.

19. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Xalq Komissarları Sovetinin istənilən qərarını və qətnaməsini ləğv etmək və ya dayandırmaq hüququna malikdir.

20. Xalq Komissarları Sovetinin mühüm ümumi siyasi əhəmiyyət daşıyan qərar və qətnamələri baxılması və təsdiq olunması üçün Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə təqdim edilir.

Qeyd: Təxirə salınmadan icra edilməli olan tədbirlər Xalq Komissarları Soveti tərəfindən bilavasitə həyata keçirilə bilər.

21 Xalq Komissarları Sovetinin üzvləri ayrı-ayrı Xalq Komissarlıqlarının rəhbərləridirlər.

22. Aşağıdakı Xalq Komissarlıqları yaradılır:

a) Daxili işlər üzrə (Sosial təminat şöbəsi ilə birlikdə);

b) Ədliyyə;

c) Təhsil;

ç) Əkinçilik;

d) Səhiyyə.

Qeyd: Azərbaycan SSR Fəhlə-Kəndli Müfəttişliyinin, Xalq Əmək Komissarının və Sənaye Komissarının Müvəkkilləri Xalq Komissarları Sovetinin iclaslarında məşvərətçi səslə iştirak edirlər.

23. Hər bir Xalq komissarının yanında rəhbərliyi və üzvləri Xalq Komissarları Soveti tərəfindən təsdiq edilən Kollegiyalar yaradıla bilər.

24. Xalq komissarı Kollegiyanı məlumatlandırmaqla müvafiq Xalq Komissarlığının səlahiyyətinə aid olan bütün məsələlərə dair təkbaşına qərar qəbul etmək hüququna malikdir. Xalq komissarının bu və ya digər qərarı ilə razılaşmadıqda Kollegiya həmin qərarın icrasını dayandırmadan qərardan Xalq Komissarları Sovetinə və ya Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə şikayət verə bilər.

Şikayət vermə hüququ Kollegiyanın ayrı-ayrı üzvlərinə də məxsusdur.

25. Xalq Komissarları Soveti Naxçıvan Sovetlər Qurultayı və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi qarşısında bütünlüklə cavabdehlik daşıyır.

26. Xalq komissarları və Xalq Komissarlıqlarının Kollegiyaları Xalq Komissarları Soveti və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi qarşısında bütünlüklə cavabdehlik daşıyırlar.

## Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətində olan məsələlər haqqında

27. Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətinə bütün ümumdövlət əhəmiyyətli məsələlər daxildir, yəni:

a) Naxçıvan Sosialist Sovet Respublikası Konstitusiyasının təsdiqi, dəyişdirilməsi və ona əlavələr edilməsi;

b) Naxçıvan Sosialist Sovet Respublikasının siyasətinə ümumi rəhbərlik;

c) Naxçıvan Sosialist Sovet Respublikası ərazisinin ümumi inzibati bölgüsü;

ç) Naxçıvan Sosialist Sovet Respublikası ərazisində bütün xalq təsərrüfatının və onun ayrı-ayrı sahələrinin əsaslarının və ümumi planının müəyyənləşdirilməsi;

d) Naxçıvan Sosialist Sovet Respublikası büdcəsinin təsdiqi;

e) ümumdövlət mükəlləfiyyətlərinin müəyyənləşdirilməsi;

ə) ümumdövlət qanunvericiliyi, məhkəmə quruluşu və mühakimə üsülü, mülki, cinayət qanunverciliyi və s.;

f) Xalq Komissarları Sovetinin ayrı-ayrı üzvlərinin və onun bütün tərkibinin tamamilə təyin edilməsi və azad edilməsi, habelə Xalq Komissarları Soveti Sədrinin təsdiqlənməsi;

g) Naxçıvan vətəndaşlığının verilməsi və itirilməsi hüququna və respublika ərazisindəki əcnəbilərin hüquqlarına dair ümumi qərarların verilməsi;

h) ümumi və qismən amnistiya hüququ.

28. Sadalanan məsələlərdən əlavə Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə onlar özlərinin icazəsinin lazım olduğunu hesab etdikləri bütün məsələlər daxildir.

29. Sovet Konstitusiyasının əsas prinsiplərinin müəyyənləşdirilməsi, ona əlavə və dəyişikliklərin edilməsi Naxçıvan Sovetlər Qurultayının müstəsna səlahiyyətinə daxildir.

## B. YERLƏRDƏ SOVET HAKİMİYYƏTİNİN TƏŞKİLİ

### Sovetlərin Qurultayları haqqında

30. Sovetlərin Qurultayları aşağıdakı şəkildə təşkil olunur:

a) Qəza – əhalinin iki yüz əlli nəfərinə bir deputat olmaqla, sahə qurultaylarında seçilən qəzanın kənd sovetlərinin nümayəndələrindən və fabrik-zavod qəsəbələrinin, kəndlərdən kənarda yerləşən fabriklərin, zavodların və 50 seçiciyə bir deputat olmaqla şəhərlərin əhalisinin nümayəndələrindən;

б) sahə – sovetin hər 5 üzvünə bir deputat olmaqla sahənin bütün kənd sovetlərinin nümayəndələrindən.

Qeyd 1: Əhalisi 250 nəfərdən az olan yerlərin kənd sovetləri Qəza Qurultayına deputat seçmək üçün birləşirlər.

Qeyd 2: 35-ci maddənin "c" bəndinə uyğun olaraq idarəetmə məsələlərinin seçicilərin ümumi yığıncağında həll olunduğu yerlərdə, habelə fabriklərdə, zavodlarda Sovetlərin Qurultaylarına deputatlar bu ümumi yığıncaqlarda seçilirlər.

Qeyd 3: 5 nəfərdən az olan kənd Sovetlərinin hər biri sahə qurultayına bir nəfər nümayəndə göndərirlər.

31. Sovetlərin Qurultayları müvafiq ərazi üzrə Sovet hakimiyyətinin icraiyyə orqanları (qəza və sahə İcraiyyə Komitələri) tərəfindən onların qərarı ilə və ya müvafiq rayonunun əhalisinin üçdə birindən az olmayan hissəsini əhatə edən yerli sovetlərin tələbi ilə ildə bir dəfədən az olmayaraq çağırılır.

32. Sovetlərin Qurultayları (qəza, sahə) bir ildən artıq olmayan müddətə öz icraedici orqanını – İcraiyyə Komitəsini seçirlər, qəza icraiyyə komitələrinin üzvlərinin sayı 7 nəfərdən, sahə icra orqanlarının sayı 3 nəfərdən çox olmamalıdır. İcraiyyə Komitəsi onu seçən Sovetlər Qurultayı qarşısında bütünlüklə cavabdehdir.

33. Öz səlahiyyətləri hüdudunda Sovetlərin Qurultayları (qəza, sahə) həmin ərazinin sərhədləri daxilində ən yüksək hakimiyyətdir, qurultaylararası dövrdə isə bu hakimiyyət Sovetlər Qurultayının İcraiyyə Komitəsidir.

### Deputatlar Soveti haqqında

34. Fəhlə, kəndli və qızıl ordu (əsgər) deputatları Sovetləri 200 nəfərdən az əhalisi olmayan kəndlərdə (kiçik kəndlərdə, iri kəndlərdə, aullarda, xutorlarda və s.), əhalinin 25 nəfərinə 1 deputat olmaqla, lakin hər kənd üçün 50-dən artıq deputat olmamaqla yaradılır.

Qeyd 1: Şəhərlərdə sovetlər yaradılmır: onlara qəza Sovetlər

Qurultayının və qəza İcraiyyə Komitəsinin hakimiyyəti şamil edilir.

Qeyd 2: Bir-birinə yaxın yerləşmiş bir neçə yaşayış məskənindən ibarət olan kəndlərdə bir kənd soveti yaradılır.

35. 200 nəfərdən az əhalisi olan kəndlərdə ayrıca kənd sovetləri yaradılmır. Belə kəndlərin zəhmətkeşləri idarəetmə hüququnu həyata keçirirlər:

a) öz müstəqil sovetini seçmək hüququ olan qonşu kəndin sovetinin seçkilərində iştirak etməklə və ya

b) bütün bu yaşayış məntəqələri üçün ümumi olan kənd sovetinin seçilməsi üzrə qonşu kəndlərlə birləşərək və yaxud

c) idarəetməyə dair bütün məsələləri seçicilərin ümumi yığıncağında həll etməklə.

36. Kəndlərdən kənarda yerləşən sovet təsərrüfatları və fabriklərə ayrıca kənd kimi baxılır və onların əhalisi kənd sovetlərinin seçkilərində 34-cü və 35-ci maddələrdə göstərilmiş ümumi əsaslarla iştirak edirlər.

37. Deputatlar Soveti bir il müddətinə seçilir.

38. Kənd sovetinin icraiyyə orqanı Sovetin sədridir, o öz hərəkətlərinə görə onu seçən Sovetin və sahə İcraiyyə komitəsinin qarşısında cavabdehlik daşıyır.

39. Deputatlar Soveti sədrin qərarı ilə və və ya Sovetin üçdə bir hissəsindən az olmayan üzvlərinin tələbi ilə ayda bir dəfədən az olmayaraq çağırılır.

40. Öz səlahiyyəti hüdudlarında Sovet, 35-ci maddənin "c" bəndində nəzərdə tutulan halda isə seçicilərin Ümumi yığıncağı həmin ərazinin sərhədləri daxilində ən yüksək hakimiyyətdir, onun qərarları həmin yerin əhalisi üçün məcburidir.

## Yerlərdə sovet hakimiyyəti orqanlarının səlahiyyətində olan məsələlər haqqında

41. Sovet hakimiyyətinin qəza və sahə orqanlarının, eləcə də deputatlar sovetinin fəaliyyətinə aid olan məsələlərdir:

a) müvafiq yuxarı Sovet hakimiyyəti orqanlarının bütün qərarlarının həyata keçirilməsi;

b) həmin ərazinin mədəni və təsərrüfat cəhətdən yüksəldilməsi üçün bütün tədbirlərin görülməsi;

c) sırf yerli (həmin ərazi üçün) əhəmiyyət daşıyan məsələlərin həll edilməsi;

ç) həmin ərazi hüdudlarında sovet fəaliyyətinin birləşdirilməsi.

42. Yerli Sovetlərin fəaliyyətləri üzərində nəzarət hüququ Sovetlər Qurultaylarına və onların İcraiyyə Komitələrinə məxsusdur, qəza Sovetlər Qurultayına və onun İcraiyyə Komitəsinə bundan başqa zəruri hallarda Mərkəzi Sovet hakimiyyətini məlumatlandırmaqla onların rayonlarında fəaliyyət göstərən Sovetlərin qərarlarının ləğvi də daxildir.

43. Sovet hakimiyyəti orqanlarının üzərinə qoyulan vəzifələrin həlli üçün qəza İcraiyyə Komitələri yanında şöbə müdirlərinin başçılığı altında müvafiq şöbələr təşkil oluna bilər.

## ÜÇÜNCÜ BÖLMƏ

## AKTİV VƏ PASSİV SEÇKİ HÜQUQU

44. Sovetlərə seçmək və seçilmək hüququndan dinindən, milliyyətindən, oturaqlılığından və s. asılı olmayaraq seçki gününədək on səkkiz yaşı tamam olmuş Naxçıvan Sosialist Sovet Respublikasının hər iki cinsdən olan aşağıdakı vətəndaşları istifadə edirlər:

a) həyat vasitələrini istehsal və ictimai faydalı əməklə əldə edənlərin, həmçinin birincilərin istehsal əməyi üçün imkan təmin edən ev təsərrüfatı ilə məşğul olanların hamısı, yəni: sənayedə, ticarətdə, kənd təsərrüfatında və s.-də işləyən bütün növ və kateqoriyadan olan fəhlə və qulluqçular, gəlir əldə etmək məqsədi ilə muzdlu əməkdən istifadə etməyən kəndlilər və əkinçilər;

b) Sovet ordusunun və donanmasının əsgərləri;

c) bu maddənin "a" və "b" bəndlərində sadalanan kateqoriyalara daxil olan, hansısa dərəcədə əmək qabiliyyətini itirmiş vətəndaşlar.

> Qeyd 1: Yerli Sovetlər Mərkəzi hakimiyyətin təsdiqi ilə bu maddədə müəyyənləşdirilən yaş normasını aşağı sala bilərlər.
>
> Qeyd 2: Naxçıvan vətəndaşlığına daxil olmayıb aktiv və passiv seçki hüququndan istifadə edən şəxslər, həmçinin Naxçıvan Sosialist Sovet Respublikası ərazisində əmək məşğuliyyəti üçün yaşayan və fəhlə sinfinə və ya özgə əməyindən istifadə etməyən kəndli sinfinə daxil olan əcnəbilər.

45. Yuxarıda sadalanan kateqoriyalardan birinə daxil olsalar da, seçə və seçilə bilməzlər:

a) gəlir əldə etmək məqsədi ilə muzdlu əməyə əl atanlar;

b) zəhmətlə qazanılmamış gəlirlə yaşayan şəxslər, yəni: kapitaldan götürülən faizlər, müəssisədən əldə edilən gəlirlər, əmlakdan daxilolmalar və s.;

c) şəxsi tacirlər, ticarət və kommersiya vasitəçiləri;

ç) monaxlar və bütün kilsələrin və dini icmaların ruhani xadimləri;

d) keçmiş polisin, xüsusi jandarm korpusunun və mühafizə bölmələrinin qulluqçuları və agentləri, həmçinin Rusiyada çarlıq edən sarayın üzvləri;

e) müəyyən olunmuş qaydada ruhi və əqli xəstəliyi tanınmış şəxslər, habelə qəyyumluq altında olan şəxslər;

ə) tamahkarlığa və ləkəgətirici cinayətlərə görə qanunla və ya məhkəmə qərarı ilə müəyyənləşdirilmiş müddətə məhkum olunmuş şəxslər.

## SEÇKİLƏRİN KEÇİRİLMƏSİ HAQQINDA

46. Seçkilər müəyyənləşdirilmiş ənənələrə uyğun olaraq, yerli Sovetlər tərəfindən müəyyən edilən günlərdə keçirilir.

47. Seçkilər seçki komissiyasının və yerli Sovetin nümayəndəsinin iştirakı ilə keçirilir.

48. Sovet hakimiyyəti nümayəndəsinin iştirakının texniki cəhətdən mümkün

olmadığı hallarda onu seçki komissiyasının sədri, sonuncu olmadıqda isə seçicilərin yığıncağının sədri əvəz edir.

49. Seçkilərin gedişatı və nəticələri barədə seçki komissiyası üzvlərinin və Sovetin nümayəndəsinin imzaları ilə protokol tərtib edilir.

50. Seçkilərin keçirilməsinin ətraflı qaydaları, həmçinin seçkilərdə həmkarların və digər fəhlə təşkilatlarının iştirakı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin təlimatına uyğun olaraq yerli Sovetlər tərəfindən müəyyən edilir.

## SEÇKİLƏRİN YOXLANILMASI, LƏĞVİ VƏ DEPUTATLARIN GERİ ÇAĞIRILMASI HAQQINDA

51. Seçkilərin keçirilməsinə dair bütün materiallar müvafiq Sovetdə toplanır.

52. Sovet seçkilərin yoxlanılması üçün mandat komissiyası yaradır.

53. Mandat komissiyası yoxlamanın nəticələri haqqında Sovetə məruzə edir.

54. Sovet mübahisəli namizədlərin təsdiqlənməsi məsələsini həll edir.

55. Bu və ya digər namizəd təsdiqlənmədikdə Sovet yeni seçkilər təyin edir.

56. Seçkilərin bütünlüklə düzgün keçirilmədiyi halda seçkilərin ləğvi haqqında məsələ quruluş üzrə Sovet hakimiyyətinin yuxarı orqanı tərəfindən həll edilir.

57. Sovetlərin seçkilərində kassasiya üzrə sonuncu instansiya Naxçıvan Mərkəzi İcraiyyə Komitəsidir.

58. Sovetə deputat seçən seçicilər istənilən vaxt deputatı geri çağırmaq və ümumi qaydalara uyğun olaraq yeni seçkilər keçirmək hüququna malikdirlər.

## DÖRDÜNCÜ BÖLMƏ

## BÜDCƏ HÜQUQU

59. Naxçıvan Sosialist Sovet Respublikasının dövlət gəlirləri və xərcləri ümumdövlət büdcəsində birləşir.

60. Naxçıvan Sovetlər Qurultayı və ya Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi ümumdövlət büdcəsinə və yerli Sovetlərin sərəncamına gəlirlərin və yığımların hansı növlərinin daxil olduğunu müəyyənləşdirir, həmçinin vergilərin hüdudlarını müəyyən edir.

61. Sovetlər müstəsna olaraq yerli təsərrüfatın ehtiyacları üçün vergiləri və yığımları müəyyən edirlər. Ümumdövlət tələbatları Dövlət xəzinədarlığından buraxılan vəsaitlərin hesabına ödənilir.

62. Dövlət xəzinədarlığının vəsaitlərindən heç bir xərc dövlət gəlirləri və xərcləri siyahısında həmin xərc üzrə onlara imzalanmış kredit müəyyənləşdirilmədən və ya Mərkəzi hakimiyyətin xüsusi qərarı olmadan reallaşdırıla bilməz.

63. Ümumdövlət əhəmiyyətli tələbatların ödənilməsi üçün Xalq Komissarlıqları tərəfindən yerli Sovetlərin sərəncamına Dövlət xəzinədarlığından zəruri kreditlərin verilməsi üçün lazımi tədbirlər görülür.

64. Sovetlərə Dövlət xəzinədarlığının vəsaitlərindən təqdim edilən bütün

kreditlər, həmçinin yerli ehtiyaclar üzrə smeta ilə müəyyənləşdirilən kreditlər onlar tərəfindən smeta bölmələri (paraqraflar və maddələr) çərçivəsində bilavasitə təyinatı üzrə xərclənir və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin və Xalq Komissarları Sovetinin xüsusi qərarı olmadan hər hansı başqa ehtiyacların ödənilməsinə cəlb oluna bilməz.

65. Yerli Sovetlər gəlirlərin və yerli ehtiyaclar üzrə xərclərin yarımillik və illik smetalarını tərtib edirlər. Kənd Sovetlərinin, həmçinin Sovet hakimiyyətinin sahə orqanlarının smetaları qəza Sovetlər Qurultayları və ya onların İcraiyyə Komitələri tərəfindən təsdiq olunur; Sovet hakimiyyətinin qəza orqanlarının smetaları Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti tərəfindən təsdiq edilir.

66. Smetalarda nəzərdə tutulmayan xərclər üçün, həmçinin smeta təyinatı üzrə əlavə kreditlərin çatışmadığı halda Sovetlər Xalq Komissarlıqlarından lazımi tədbirlər görməyi xahiş edirlər.

67. Yerli ehtiyacların ödənilməsi üzrə yerli vəsaitlər çatışmadığı halda təxirəsalınmaz xərclərin ödənilməsi üçün Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti yerli Sovetlərə Dövlət xəzinədarlığının vəsaitlərindən yardım və borc almağa icazə verir.

## BEŞİNCİ BÖLMƏ

## NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASININ GERBİ VƏ BAYRAĞI HAQQINDA

68. Naxçıvan Sosialist Sovet Respublikasının gerbi qırmızı fonda günəş şüalarında qızıl oraq və çəkicin, aşağıda çarpaz şəkildə yerləşdirilmiş beşguşəli ulduzlu ayparanın, sünbül çələngi ilə əhatə olunan təsvirin əksindən və aşağıdakı yazıdan ibarətdir:

a) Naxçıvan Sosialist Sovet Respublikası*.

b) Bütün ölkələrin proletarları, birləşin!

69. Naxçıvan Sosialist Sovet Respublikasının bayrağı, yuxarı sol küncündə, bayraq ağacı yanında yaşıl sahədə qızılı hərflərlə N.S.S.R.** və ya Naxçıvan Sosialist Sovet Respublikası yazılmış al qırmızı rəngli qumaşdan ibarətdir.

---

* *“Sosialist Sovet Respublikası” sözləri sovet hakimiyyətinin ilk illərində Azərbaycan dilində “İctimai Şuralar Cümhuriyyəti” şəklində tərcümə edilirdi. Konstitusiyanın rusca mətninin tərcüməsində tərəfimizdən elmi-ictimai auditoriya tərəfindən geniş işlədilən ənənəvi terminologiyaya üstünlük verilmişdir. Kitabın “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri” bölməsində 1924-cü il Əsasnaməsinə və 1926-cı il Konstitusiyasına əsasən verilmiş Naxçıvan SSR gerbinin və bayrağının üzərində “Naxçıvan Sosialist Sovet Respublikası” sözləri o zaman Azərbaycan dilində işlədildiyi kimi, əvvəlcə “Naxçıvan İctimai Şuralar Cümhuriyyəti”, daha sonra isə “Naxçıvan Sosialist Şuralar Cümhuriyyəti” şəklində öz əksini tapmışdı.*

***N.S.S.R. – Naxçıvan SSR-in ilk bayrağı üzərində əvvəlcə “N.İ.Ş.C.”, daha sonra isə “N.S.Ş.C.” abbreviaturası kimi öz əksini tapmışdı.*

# ПОЛОЖЕНИЕ
# О НАХИЧЕВАНСКОЙ
# СОЦИАЛИСТИЧЕСКОЙ СОВЕТСКОЙ РЕСПУБЛИКИ

***Принято Центральным Исполнительным Комитетом Азербайджанской Социалистической Советской Республики 5-го апреля 1924 года.***

## РАЗДЕЛ ПЕРВЫЙ

## ОСНОВНЫЕ ПОЛОЖЕНИЯ

1. Нахичеванская Социалистическая Советская Республика есть свободное социалистическое общество всех трудящихся Нахичеванской территории. Вся власть в пределах НССР принадлежить всему трудящемуся населению страны, об'единенному в Советах.

2. Верховная власть НССР принадлежит Нахичеванскому С'езду Советов, а в период между с'ездами – Нахичеванскому Центральному Исполнительному Комитету.

## РАЗДЕЛ ВТОРОЙ

## КОНСТРУКЦИЯ СОВЕТСКОЙ ВЛАСТИ

## А. ОРГАНИЗАЦИЯ ЦЕНТРАЛЬНОЙ ВЛАСТИ

### О Нахичеванском С'езде Советов

3. Нахичеванский С'езд Советов является высшей властью НССР.

4. Нахичеванский С'езд Советов составляется из представителей всех уездных С'ездов Советов, по рассчету один депутат на 1000 жителей.

5. Нахичеванский С'езд Советов созывается Нахичеванским Центральным Исполнительным Комитетом не реже одного раза в год.

6. Чрезвычайный Нахичеванский С'езд Советов созывается Нахичеванским Центральным Исполнительным Комитетом по собственному почину или по требованию Советов местности, насчитывающих не менее одной трети всего населения Республики.

7. Нахичеванский С'езд Советов избирает Нахичеванский Центральный Исполнительный Комитет в числе не свыше 21 человека и 7 кандидатов.

8. Нах.ЦИК всецело ответственен перед Нахичеванским С'ездом Советов.

9. В период С'ездами Советов высшей властью в Республике является Нах.ЦИК.

### О Нахичеванском Центральном Исполнительном Комитете (Нах.ЦИК)

10. Нахичеванский Центральный Исполнительный Комитет является высшим законодательным, распорядительным и контролирующим органом Нахичеванской Социалистической Советской Республики.

11. Нах.ЦИК дает общее направление деятельности Рабоче-крестьянского правительства и всех органов Советской Власти в стране, об'единяет и

согласует работы по законодательству и управлению и наблюдает за проведением в жизнь Советской Конституции, постановлений Нахичеванских С'ездов Советов и центральных органов Советской власти.

12. Нах.ЦИК рассматривает и утверждает проекты декретов и иные предложения, вносимые Советом Народных Комиссаров или отдельными ведомствами, а также издает собственные декреты и распоряжения.

13. Нах.ЦИК созывает Нахичеванский С'езд Советов, которому представляет отчет о своей деятельности и доклады по общей политике и отдельным вопросам.

14. Нах.ЦИК образует Совет Народных Комиссаров для общего управления делами Нахичеванской Социалистической Советской Республики и отделы (Народные Комиссариаты) для руководства отдельными отраслями управления.

15. Члены Нах.ЦИК'а работают в отделах (Народных Комиссариатах) или выполняют особые поручения Нах.ЦИК'а.

## О Совете Народных Комиссаров

16. Совету Народных Комиссаров принадлежит общее управление делами Нахичеванской Социалистической Советской Республики.

17. В осуществление этой задачи Совет Народных Комиссаров издает декреты, распоряжения, инструкции и вообще принимет все меры, для правильного и быстрого течения государственной жизни.

18. О всех своих постановлениях и решениях Совет Народных Комиссаров немедленно сообщает Нах.ЦИК'у.

19. Нах.ЦИК вправе отменить или приостановить всякое постановление или решение Совета Народных Комиссаров.

20. Все постановления и решения Совета Народных Комиссаров, имеющие крупное обще-политическое значение, представляются на рассмотрение и утверждение Нах.ЦИК'а.

Примечание: Мероприятия, требующие неотложного выполнения, могут быть осуществлены Советом Народных Комиссаров непосредственно.

21 Члены Совета Народных Комиссаров стоят во главе отдельных Народных Комиссариатов.

22. Образуются следующие Народные Комиссариаты:

а) по Внутренним делам (с отд. Собеса);
б) Юстиции;
в) Просвещения;
г) Земледелия;
д) Здравоохранения;

Примечание: РКП, Наркомтруд и Комиссар Промышленности АССР имеют своих Уполномоченные, которые участвуют на заседаниях Совнаркома с совещательным голосом.

23. При каждом Народном комиссаре может быть образована под его председательством Коллегия, члены которой утверждаются Советом Народных Комиссаров.

24. Народный комиссар вправе единолично принимать решения по всем вопросам, подлежащим ведению соответствующего Народного Комиссариата, доводя о них до сведения Коллегии. В случае несогласия Коллегии, с тем или

иным решением Народного комиссара, Коллегия, не приостанавливая исполнения решения, может обжаловать его в Совет Народных Комиссаров или в Нах.ЦИК.

То же право обжалования принадлежит и отдельным членам Коллегии.

25. Совет Народных Комиссаров всецело ответственен перед Нахичеванским С'ездом Советов и Нах.ЦИК'ом.

26. Народные комиссары и Коллегия при Народных Комиссариатах всецело ответственны перед Советом Народных Комиссаров и перед Нах.ЦИК'ом.

### О предметах ведения Нахичеванскго С'езда Советов и Нахичеванского Центрального Исполнительного Комитета

27. Ведению Нахичеванского С'езда Советов и Нах.ЦИК'а подлежат все вопросы общегосударственного значения, как-то:

а) утверждение, изменение и дополнение в Конституции НССР;

б) общее руководство политикой НССР;

в) общее административное разделение территории НССР;

г) установление основ и общего плана всего народного хозяйства и отдельных его отраслей на территории НССР;

д) утверждение бюджета НССР;

е) установление общегосударственных повинностей;

ж) общегосударственное законодательство, судоустройство и судопроизводство, гражданское, уголовное законодательство и пр.

з) назначение и смещение как отдельных членов Совета Народных Комиссаров, так и всего состава Совета Народных Комиссаров в целом, а также утверждение Председателья Совета Народных Комиссаров.

и) издание общих постановлений о приобретении и утрате прав Нахичеванского гражданства и о правах иностранцев на территории республики;

к) право амнистии общей и частичной.

28. Сверх перечисленных вопросов, ведению Нахичеванского С'езда Советов и Нах.ЦИК'а подлежат все вопросы, которые они признают подлежащими их разрешению.

29. Исключительному ведению Нахичеванского С'езда Советов подлежат установление, дополнение и изменение основных начал Советской Конституции.

## Б. ОРГАНИЗАЦИЯ СОВЕТСКОЙ ВЛАСТИ НА МЕСТАХ

### О С'ездах Советов

30. С'езды Советов составляются следующим образом:

а) Уездные – из представителей сельских советов уезда, избираемых на участковом с'езде по рассчету один депутат на двести пятьдесят жителей, и из представителей фабрично-заводских поселков, фабрик, заводов лежащих вне сел и от населения городов по расчету один депутат на 50 избирателей;

б) участковые – из представителей всех сельских советов участка по расчету один депутат на каждые 5 членов совета.

Примечание 1-ое: Сельские Советы местностей, насчитывающих менее 250 человек населения для избрания депутатов на уездный с’езд об’единяются.

Примечание 2-ое: В тех местностях, а также фабриках, заводах, где вопросы управления, согласно п. «в» ст. 35, разрешаются на общих собраниях избирателей, депутаты на С’езды Советов избираются на этих общих собраниях.

Примечание 3-ье: Сельские Советы, насчитывающие менее 5 человек, посылают на участковый с’езд по одному представителю.

31. С’езды Советов созываются соответствующими по территории Исполнительными органами Советской власти (Исполнительными Комитетами уездными и участковыми), по усмотрению последних или по требованию советов местностей, насчитывающих не менее одной трети всего населения данного района не реже одного раза в год.

32. С’езд Советов (уездный, участковый) избирает на срок не свыше одного года свой исполнительный орган – Исполнительный Комитет, число членов которого не должно превышать для уездного – 7, а для участкового – 3. Исполнительный Комитет всецело ответственен перед избиравшим его С’ездом Советов.

33. В границах своего ведения С’езд Советов (уездный, участковый) есть высшая, в пределах данной территории власть, в период же между С’ездами такой властью является Исполнительный Комитет С’езда Советов.

## О Советах Депутатов

34. Советы Рабочих, крестьянских и красноармейских (аскерских) депутатов образуются в селениях (в деревнях, селах, аулах, хуторах и пр.) имеющих не менее 200 жителей, по рассчету один депутат на 25 человек населения, но не более 50 депутатов на каждое селение.

Примечание 1-ое: В городах Советов не образуется: на них распространяется власть соответственного уездного С’езда Советов и Уездного Исполкома.

Примечание 2-ое: В селениях, состоящих из нескольких близко расположенных поселков, образуется один сельский совет.

35. В селениях, имеющих менее 200 жителей, отдельные сельские советы не образуются. Трудящиеся таких селений осуществляют свое право управления:

а) участвуя в выборах сельского совета соседнего селения, имеющего право на избирание самостоятельного совета или

б) об’единяясь с соседними селениями для выбора общего для всех этих населенных пунктов сельского совета или

в) решая вопросы управления на общих собраниях избирателей.

36. Советские хозяйства и фабрики, лежащие вне села, рассматриваются как отдельные селения и население их принимает участие в выборах сельского совета на общих основаниях, указанных в ст. ст. 34 и 35.

37. Совет депутатов избирается сроком на один год.

38. Исполнительным органом сельского совета является председатель Совета, ответственный в своих действиях перед избиравшим его Советом и участковым Исполнительным комитетом.

39. Совет депутатов созывается Председателем по его усмотрению или по требованию не менее одной трети членов Совета не реже одного раза в месяц.

40. В границах своего ведения Совет, а в случае, предусмотренном в пункте «в» ст. 35 – Общее Собрание избирателей, есть высшая в пределах данной территории власть, постановление коей обязательны для всего населения данной местности.

### О предметах ведения органов Советской власти на местах

41. Уездные и участковые органы Советской власти, а также советы депутатов имеют предметом своей деятельности:

а) проведение в жизнь всех постановлений соответствующих высших органов Советской власти;

б) принятие всех мер к поднятию данной территории в культурном и хозяйственном отношениях;

в) разрешение вопросов, имеющих чисто местное (для данной территории) значение;

г) об’единения всей советской деятельности в пределах данной территории.

42. С’ездами Советов и их Исполнительным Комитетам принадлежит право контролья над деятельностью местных Советов, а уездным С’ездам Советов и их Исполнительным Комитетам – кроме того, право отмены решений действующих в их районе Советов, извещением об этом в важнейших случаях Центральной Советской власти.

43. Для выполнения возложенных на органы Советской власти задач при уездных Исполнительных Комитетов могут быть образованы соответствующие отделы во главе с заведывающими отделами.

## РАЗДЕЛ ТРЕТИЙ

## АКТИВНОЕ И ПАССИВНОЕ ИЗБИРАТЕЛЬНОЕ ПРАВО

44. Правом избирать и быть избиранным в Советы пользуются независимо от вероисповедания, национальности, оседлости и т.п. следующие обоего пола граждане НССР, коим ко дню выборов исполнилось восемнадцать лет:

а) все, добывающие средства к жизни производительным и общественно полезным трудом, а также лица, занятые домашним хозяйством, обеспечивающим для первых возможность производительного труда, как-то: рабочие и служащие всех видов и категорий, занятые в промышленности, торговле, сельском хозяйстве и проч., крестьяне и земледельцы, не пользующиеся наемным трудом с целью извлечения прибыли;

б) солдаты Советской армии и флота;

в) граждане, входящие в категории, перечисленные в пунктах «а» и «б» настоящей статьи, потерявшие в какой-нибудь мере трудоспособность.

> Примечание 1-ое: Местные Советы могут с утверждением Центральной власти понижать установленную в настоящей статье возрастную норму.
>
> Примечание 2-ое: Из лиц, не вступивших в число Нахичеванских граждан, пользующихся активным и пассивным избирательным правом, также иностранцы, проживающие на территории НССР для трудовых занятий и принадлежашие к рабочему классу или к не пользующемуся чужим трудом крестьянству.

45. Не избирают и не могут быть избиранными, хотя бы они входили в одну из вышеперечисленных категорий:

а) лица, прибегающие к наемному труду с целью извлечения прибыли;

б) лица, живущие на нетрудовой доход, как-то: проценты с капитала, доходы с предприятия, поступления с имущества и т.п.;

в) частные торговцы, торговые и коммерческие посредники;

г) монахи и все духовные служители церкви и религиозных культов;

д) служащие и агенты бывшей полиции, особого корпуса жандармов и охранных отделений, а также члены царствовавшего в России дома;

е) лица, признанные в установленном порядке душевнобольными или умалищенными, а равно лиц, состоящие под опекой;

ж) лица, осужденные за корыстные и порочащие преступления на срок, установленный законом или судебным приговором.

## О ПРОИЗВОДСТВЕ ВЫБОРОВ

46. Выборы производятся согласно установившимся обычаям, в дни, устанавливаемые местными Советами.

47. Выборы производятся в присутствии избирательной комиссии и представителя местного Совета.

48. В тех случаях, когда присутствие представителя Советской власти оказывается технически невозможным, его заменяет председатель избирательной комиссии, а за отсутствием такого – председатель избирательного собрания.

49. О ходе и результате выборов составляется протокол за подписью членов избирательной комиссии и представителя Совета.

50. Подробный порядок производства выборов, а равно участие в них профессиональных и иных рабочих организаций, определяется местными Советами, согласно инструкции Нах.ЦИК'а.

## О ПРОВЕРКЕ И ОТМЕНЕ ВЫБОРОВ И ОБ ОТЗЫВЕ ДЕПУТАТОВ

51. Весь материал по производству выборов поступает в соответственный Совет.

52. Совет для проверки выборов назначает мандатную комиссию.

53. О результатах проверки мандатная комиссия докладывает Совету.

54. Совет решает вопрос об утверждении спорных кандидатов.

55. В случае неутверждения того или иного кандидата, Совет назначает новые выборы.

56. В случае неправильности выборов в целом, вопрос об отмене выборов разрешается высшим по порядку органом Советской власти.

57. Последней инстанцией по кассации Советских выборов является Нах.ЦИК.

58. Избиратели, пославшие в Совет депутата, имеют право во всякое время отозвать его и произвести новые выборы согласно общему положению.

## РАЗДЕЛ ЧЕТВЕРТЫЙ

## БЮДЖЕТНОЕ ПРАВО

59. Государственные доходы и расходы НССР об'единяются в общегосударственном бюджете.

60. Нахичеванский С'езд Советов или Нах.ЦИК определяют какие виды доходов и сборов входят в общегосударственный бюджет и какие поступают в распоряжение местных Советов, а равно устанавливают пределы обложения.

61. Советы устанавливают обложение налогами и сборами исключительно на нужды местного хозяйства. Потребности общегосударственные удовлетворяются за счет средств, отпускаемых из Государственного казначейства.

62. Ни одни расход из средств Государственного казначейства не может быть произведен без установления на него кредита в росписи государственных доходов и расходов или путем издания особого постановления Центральной власти.

63. На удовлетворение потребностей, имеющих общегосударственное значение, в распоряжение местных Советов предоставляется надлежащими Народными Комиссариатами необходимые кредиты из Государственного казначейства.

64. Все предоставленные Советами кредиты из средств Государственного казначейства, а равно кредиты, утвержденные по сметам на местные нужды,

расходуются ими в пределах сметных подразделений (параграфы и статьи) по прямому назначению и не могут быть обращаемы на удовлетворение каких-либо других потребностей без особого постановления Нах.ЦИК'а и Совета Народных Комиссаров.

65. Местные Советы составляют полугодовые и годовые сметы доходов и расходов на местные нужды. Сметы сельских Советов, а также сметы участковых органов Советской власти утверждаются уездными С'ездами Советов или их Исполнительными Комитетами; сметы уездных органов Советской власти утверждаются Нах.ЦИК'ом и Советом Народных Комиссаров.

66. На расходы, не предусмотренные сметами, а также в случае недостаточности сметных назначений дополнительные кредиты, Советы испрашивают у надлежающих Народных Комиссариатов.

67. В случае недостаточности местных средств для удовлетворения местных потребностей, необходимые для покрытия неотложных расходов пособия или ссуды из средств Государственного казначейства местным Советам разрешаются Нах.ЦИК'ом и Советом Народных Комиссаров.

## РАЗДЕЛ ПЯТЫЙ

## О ГЕРБЕ И ФЛАГЕ НАХИЧЕВАНСКОЙ СОЦИАЛИСТИЧЕСКОЙ СОВЕТСКОЙ РЕСПУБЛИКИ

68. Герб НССР состоит из изображений на красном фоне в лучах солнца золотых серпа и молота, помещенных крест-на-крест рукоятками книзу и полумесяца с пятиконечной звездой окруженных венцом из колосьев и с надписью:

а) Нахичеванская Социалистическая Советская Республика.

б) Пролетарии всех стран, соединяйтесь!

69. Флаг НССР состоит из полотнища красного (алого) цвета, в левом углу которого – у древка, наверху на зеленом поле помещены золотые буквы Н.С.С.Р., или надпись: Нахичеванская Социалистическая Советская Республика.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYALARI

# Naxçıvan Sosialist Sovet Respublikasının 1926-cı il Konstitusiyası

Naxçıvan SSR-in birinci Konstitusiyası "Naxçıvan SSR haqqında Əsasnamə"yə uyğun olaraq işlənib hazırlanmış və 1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər qurultayında təsdiq edilmişdi [30, s. 156]. Konstitusiya [37, v. 12-21] 4 bölmə və 63 maddədən ibarət olub preambula hissəsi yox idi. Konstitusiyada insan və vətəndaş hüquq və azadlıqlarına aid, həmçinin Naxçıvan SSR-də fəaliyyət göstərən məhkəmələrə dair hüquqi normalar öz əksini tapmamışdı.

Konstitusiyanın Birinci bölməsində ilk dəfə Naxçıvan SSR-in sosialist dövləti olduğu, Naxçıvan ərazisində bütün hakimiyyətin "Fəhlə, Kəndli və Qızıl ordu (Qızıl əsgər) Deputatları Sovetlərinə" məxsus olduğu bəyan edilir, Əsasnamədən fərqli olaraq Konstitusiyada Naxçıvan SSR-in Azərbaycanın tərkib hissəsi olduğu vurğulanırdı: "Naxçıvan Sosialist Sovet Respublikası Azərbaycan Sosialist Sovet Respublikasının himayəsi altındadır, onun əsas tərkib hissəsidir və Naxçıvan Sosialist Sovet Respublikasının Azərbaycan Sosialist Sovet Respublikası ilə qarşılıqlı münasibətləri sonuncunun Konstitusiyası ilə müəyyən edilir. Naxçıvan Sosialist Sovet Respublikasında dövlət hakimiyyəti orqanları Azərbaycan Sosialist Sovet Respublikasının Konstitusiyası əsasında yaradılır".

Konstitusiyanın ilk maddəsinin Naxçıvan SSR-i "zəhmətkeşlərin sosialist dövləti" adlandırması, Naxçıvan əhalisinin suverenliyin (məhdud suverenliyin) daşıyıcısı kimi konstitusiyada əks olunması demək idi. Hakimiyyətin Sovetlərə (əhali tərəfindən müxtəlif səviyyələr üzrə seçilən seçkili orqanlara) məxsus olmasının bəyan edilməsi də, sovet dövlətçiliyi ənənələri nəzərə alınmaqla, Naxçıvan SSR-də parlamentli idarəçiliyin müəyyən elementlərinin mövcud olmasını göstərirdi.

Konstitusiyanın daha əhatəli işlənmiş, əslində əsas bölməsi "Mərkəzi hakimiyyətin təşkili" adlanan və 52 maddəni əhatə edən İkinci bölmə idi. Burada Naxçıvan SSR-də yalnız mərkəzi hakimiyyət orqanlarının deyil, yerli hakimiyyət təsisatlarının da təşkil edilmə, yaradılma prinsipləri, eləcə də seçki hüququ və seçkilərin keçirilməsinə dair hüquqi normalar işlənib hazırlanmışdı.

Naxçıvan Sovetlər Qurultayı Naxçıvan SSR-in ali hakimiyyət orqanı idi. Qurultay Naxçıvan MİK tərəfindən ildə bir dəfə hər 300 nəfər seçiciyə 1 deputat olmaqla bütün şəhər sovetlərinin nümayəndələrindən və hər 1000 nəfər sakinə 1 deputat olmaq hesabı ilə Dairə Sovetlərinin qurultaylarının nümayəndələrindən ibarət tərkibdə çağırılırdı. Fövqəladə Naxçıvan Sovetlər Qurultayı Naxçıvan MİK-in təşəbbüsü ilə və ya respublika əhalisinin üçdə birindən az olmayan hissəsini əhatə edən yerli Sovetlərin tələbi əsasında çağırıla bilərdi. Naxçıvan Sovetlər Qurultayı qurultaylararası dövrdə Naxçıvan SSR-də ali hakimiyyət orqanı olan 50 nəfər üzvdən və 20 nəfər namizəddən ibarət tərkibdə ali qanunverici, sərəncam və nəzarət orqanı kimi geniş səlahiyyətlərə malik olan Naxçıvan MİK-i seçirdi.

Naxçıvan SSR-in ali icraedici hakimiyyət orqanı Naxçıvan SSR Xalq Komissarları Soveti (XKS) idi. XKS-ə 7 sahə üzrə yaradılan xalq komissarlığı, bir müfəttişlik və bir şura daxil idi: a) Daxili işlər; b) Ədliyyə; c) Əmək; ç) Sosial təminat; d) Təhsil; e) Əkinçilik; ə) Səhiyyə; f) Fəhlə-Kəndli Müfəttişliyi; g) Xalq

Təsərrüfatı Şurası. Naxçıvan MİK tərəfindən hər bir Xalq Komissarlığında kollegiya yaradılır və Xalq komissarının müavini təyin olunurdu.

Yerlərdə (qəza və dairələrdə) sovet hakimiyyətinin ali orqanı ərazisindəki bütün sovetlərin nümayəndələrindən ibarət tərkibdə çağırılan Sovetlər qurultayları idi. Sovetlər qurultaylarının seçdikləri icraiyyə orqanlarının (icraiyyə komitələrinin) hər bir inzibati ərazi vahidi üzrə üzvlərinin sayı Naxçıvan MİK və ya onun Rəyasət Heyətinin qərarı ilə müəyyən olunurdu. Sovetlərin qurultayları arasındakı dövrdə müvafiq ərazidə Sovet hakimiyyətinin ali orqanı olan icraiyyə komitələri onları seçən qurultaylar qarşısında cavabdehlik daşımaqla Naxçıvan MİK-ə və Naxçıvan SSR XKS-ə tabe idilər. Cari işlərə və mərkəzi hakimiyyətin qərar və direktivlərinin həyata keçirilməsinə rəhbərlik üçün qəzaların icraiyyə komitələri üzvlərinin sayı Naxçıvan MİK tərəfindən müəyyənləşdirən özlərinin rəyasət heyətlərini, rayonların icraiyyə komitələri isə özlərinin sədrlərini seçirdilər. İcraiyyə komitələrinin iclasları arasındakı dövrdə onların rəyasət heyətləri icraiyyə komitələrinin səlahiyyətlərini həyata keçirir və onların qarşısında cavabdehlik daşıyırdılar.

Sovet hakimiyyətinin daha aşağı orqanları 250 nəfərdən çox əhalisi olan kəndlərdə təşkil edilən və həmin ərazinin ali hakimiyyət orqanı olan kənd sovetləri idi. Bir il müddətinə seçilən kənd sovetləri "Fəhlə, Kəndli və Qızıl ordu (əsgər) deputatları sovetləri" adlanırdı. Bir-birinə yaxın yerləşmiş bir neçə yaşayış məntəqəsindən ibarət olan kəndlərdə bir kənd soveti yaradılırdı. Əhalisinin sayı 250 nəfərdən az olan kəndlərdə ayrıca kənd sovetləri yaradılmırdı.

Əsasnamədən fərqli olaraq 1926-cı il Konstitusiyasında seçki hüququ və seçkilərin keçirilməsi ilə bağlı hüquqi normalar ayrıca bölmədə verilməmiş, üçüncü bölmənin tərkibinə daxil edilmişdi. Konstitusiya aktiv və passiv seçki hüququnu cinsindən, dinindən, milliyyətindən, oturaqlılığından və s. asılı olmayaraq seçki gününədək 18 yaşı tamam olmuş sovet istehsal münasibətləri əsasında fəaliyyət göstərən Naxçıvan SSR vətəndaşlarına və sovet ordusu və donanmasının hərbi qulluqçularına tanıyırdı. Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının 11-ci maddəsinə istinadən "əmək məşğuliyyəti üçün Azərbaycan SSR ərazisində yaşayan və fəhlə yaxud başqalarının əməyindən istifadə etməyən kəndli sinfinə mənsub olan Azərbaycanın əcnəbi vətəndaşlarına siyasi hüquqlar" verilirdi. Eyni zamanda, sovet sosial-iqtisadi münasibətlərinə uyğun fəaliyyət göstərməyənlər, din xadimləri, çarizm dövrünün polis, jandarm və cəza orqanlarında rəhbər vəzifə tutmuş şəxslərə, ruhi və əqli cəhətdən xəstələrə, cinayətkarlara seçib-seçilmək qadağan edilirdi.

Sovetlərə seçkilərin keçirildiyi günü yerli sovetlər və onların icraiyyə komitələri müəyyənləşdirirdilər. Seçkilərin keçirilməsi qaydası və həmkarlar ittifaqlarının, digər fəhlə təşkilatlarının seçkilərdə iştirakını isə Naxçıvan MİK və ya onun Rəyasət Heyəti müəyyən edirdi. Seçki komissiyaları üzvlərinin imzaları ilə seçkilərin gedişi və nəticələri haqqında protokol tərtib olunurdu. Sovetlər qurultaylarına seçilən nümayəndələrin səlahiyyətlərinin düzgünlüyünün yoxlanılmasını qurultaylarda seçilən mandat komissiyaları həyata keçirirdi. Sovetlərə seçkilər üzrə ali kassasiya orqanı kimi Naxçıvan MİK və ya onun Rəyasət Heyəti tanınırdı. Seçicilərə Sovetə deputat seçdikləri şəxsi istənilən vaxt geri çağırmaq və yeni seçkilər keçirmək hüququ verilirdi.

Konstitusiyanın Üçüncü bölməsində büdcə hüququna dair normalar əks

olunmuşdu. Naxçıvan SSR-in büdcəsi Azərbaycan SSR-in ümumdövlət büdcəsinin tərkib hissəsi hesab edilir, büdcənin xərcləri üzərində sərt nəzarət qoyulurdu. Naxçıvan SSR büdcəsinin icrası üzrə hesabatı Azərbaycan MİK-i təsdiq edirdi. Yerli büdcələrin təşkilində müəyyən muxtar hüquqlar tanınırdı.

Konstitusiyanın Dördüncü bölməsi Naxçıvan SSR-in gerbini, bayrağını və paytaxtını müəyyən edən son üç maddədən ibarət idi. Naxçıvan SSR hökuməti "Naxçıvan-Araz şəhərində" yerləşirdi.

Qeyd edək ki, XX əsrin 20-30-cu illərində muxtar respublikanın xarici siyasət, daha dəqiq desək, diplomatik əlaqələr sahəsində bir qədər geniş səlahiyyətləri olmuşdur. Belə ki, Naxçıvanın Təbriz, Maku, Xoy şəhərlərində konsulluqları, hər üç Cənubi Qafqaz respublikasının paytaxtlarında (Bakı, Tiflis və İrəvanda) nümayəndəlikləri olmuş, Rusiyanın Qars şəhərindəki konsulluğu yanında müvəkkili fəaliyyət göstərmişdir. Öz növbəsində Naxçıvanda Türkiyənin hərbi nümayəndəliyi, 1938-ci ilədək İranın konsulluğu olmuş, Cənubi Qafqaz respublikalarının (Gürcüstan və Ermənistanın) Azərbaycan müvəkkiliklərinin nümayəndəlikləri fəaliyyət göstərmişdir. Naxçıvanda sovet hakimiyyəti elan edildikdən təxminən bir ay sonra, 1920-ci il avqustun 24-də RSFSR-lə Türkiyə Böyük Millət Məclisi Hökuməti arasında imzalanan dostluq müqaviləsi türk və sovet ordularının Naxçıvanda yanaşı mövcudluğunu və diyarın birgə idarə edilməsini nəzərdə tuturdu [73].

Lakin bu, bəzi müəlliflərin öz əsər və məqalələrində qeyd etdikləri kimi, 1926-cı il Konstitusiyası ilə Naxçıvan SSR-ə xarici siyasət sahəsində verilən konstitusion səlahiyyət deyildi. Belə ki, 1921-ci ilin oktyabr ayında təşkil edilən xarici işlər üzrə xalq komissarlığının yaradılması nə 1924-cü il Əsasnaməsində, nə də 1926-cı il Konstitusiyasında nəzərdə tutulmamışdı. Bundan başqa, məsələn, Türkiyənin Naxçıvan SSR-dəki hərbi nümayəndəliyi SSRİ-Türkiyə münasibətlərinin soyuması və türk qoşunlarının Naxçıvanı birdəfəlik tərk etməsindən sonra 1924-cü ilin iyul ayında bağlanmışdı [48]. Bütövlükdə isə Naxçıvanın xarici siyasət sahəsindəki bütün hüquq və səlahiyyətlərinə XX əsrin 30-cu illərinin sonunda sovet siyasi repressiya mühitində son qoyuldu.

Qeyd edək ki, 1924-cü il yanvarın 31-də qəbul edilmiş SSRİ Konstitusiyasının elə ilk maddəsində "İttifaqın beynəlxalq münasibətlərdə təmsil olunması, bütün diplomatik əlaqələrin aparılması, başqa dövlətlərlə siyasi və digər müqavilələrin imzalanması" özünün ali orqanlarının simasında SSRİ-nin müstəsna səlahiyyətinə daxil edilmişdi. Eyni zamanda "İttifaq respublikaları həmin Konstitusiyaya uyğun olaraq öz konstitusiyalarında dəyişikliklər" edirdilər (maddə 5) [67]. Görünür, Naxçıvan SSR-in xarici işlər komissarlığının təşkili, həmçinin qeyd edilən diplomatik fəaliyyəti hüquqi cəhətdən Azərbaycan SSR-in 1921-ci il mayın 19-da qəbul edilmiş Konstitusiyasının 41-ci maddəsinə istinad etmişdir. Belə ki, həmin maddədə Azərbaycan SSR-in 17 sahə üzrə yaradılan mərkəzi icra hakimiyyəti orqanlarından biri də Xarici İşlər üzrə Komissarlıq idi [70, s. 10].

Hər halda İranın Naxçıvandakı konsulluğu 1938-ci il noyabrın 17-dək fəaliyyət göstərmişdi. 1926-1938-ci illərdə İranın Naxçıvandakı konsulu Abbas xan Mühacir, Naxçıvanın İrandakı konsulları isə İsmayıl bəy Camalbəyov (Maku) və Qasım bəy Camalbəyov (Təbriz) olmuşdur [48].

## KONSTİTUSİYANIN STRUKTURU

**BİRİNCİ BÖLMƏ**. ÜMUMİ MÜDDƏALAR (maddə 1-2)

**İKİNCİ BÖLMƏ**. MƏRKƏZİ HAKİMİYYƏTİN TƏŞKİLİ (maddə 3-52)

Naxçıvan Sovetlər Qurultayı haqqında (maddə 3-9)

Sovetlərin Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi haqqında (Nax. MİK) (maddə 11-13)

Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərində olan məsələlər haqqında (maddə 14-15)

Xalq Komissarları Soveti haqqında (maddə 16-25)

YERLƏRDƏ SOVET HAKİMİYYƏTİNİN TƏŞKİLİ (maddə 26-45)

Sovetlərin qurultayları haqqında (maddə 26-30)

İcraiyyə Komitələri haqqında (maddə 31-35)

Kənd Sovetləri haqqında (maddə 36-42)

Yerli hakimiyyət orqanlarının səlahiyyətlərində olan məsələlər haqqında (maddə 43-45)

SOVETLƏRƏ SEÇKİLƏR HAQQINDA (maddə 46-53)

Aktiv və passiv seçki hüququ haqqında (maddə 46-47)

Seçkilərin keçirilməsi haqqında (maddə 48-50)

Seçkilərin yoxlanılması, ləğvi və deputatların geri çağırılması haqqında (maddə 51-53)

**ÜÇÜNCÜ BÖLMƏ.** BÜDCƏ HÜQUQU (maddə 54-60)

**DÖRDÜNCÜ BÖLMƏ**. NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASININ GERBİ VƏ BAYRAĞI HAQQINDA (maddə 61-63)

# NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASININ 1926-CI İL KONSTİTUSİYASI

***1926-cı il aprelin 18-də V Ümumnaxçıvan Sovetlər Qurultayı tərəfindən qəbul edilmişdir.***

## BİRİNCİ BÖLMƏ

## ƏSAS MÜDDƏALAR

1. Naxçıvan Sosialist Sovet Respublikası Naxçıvan ərazisinin bütün zəhmətkeşlərinin sosialist dövlətidir. Naxçıvan Sosialist Sovet Respublikası ərazisində bütün hakimiyyət Fəhlə, Kəndli və Qızıl ordu (Qızıl əsgər) Deputatları Sovetlərinə məxsusdur.

2. Naxçıvan Sosialist Sovet Respublikası Azərbaycan Sosialist Sovet Respublikasının himayəsi altındadır, onun əsas tərkib hissəsidir və Naxçıvan Sosialist Sovet Respublikasının Azərbaycan Sosialist Sovet Respublikası ilə qarşılıqlı münasibətləri sonuncunun Konstitusiyası ilə müəyyən edilir. Naxçıvan Sosialist Sovet Respublikasında dövlət hakimiyyəti orqanları Azərbaycan Sosialist Sovet Respublikasının Konstitusiyası əsasında yaradılır.

## İKİNCİ BÖLMƏ

## MƏRKƏZİ HAKİMİYYƏTİN TƏŞKİLİ

### Naxçıvan Sovetlər Qurultayı haqqında

3. Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Sosialist Sovet Respublikasının ali hakimiyyət orqanıdır.

4. Naxçıvan Sovetlər Qurultayı hər 300 nəfər seçiciyə 1 deputat olmaq hesabı ilə bütün şəhər Sovetlərinin nümayəndələrindən və hər 1000 nəfər sakinə 1 deputat olmaq hesabı ilə Dairə Sovetlərinin qurultaylarının nümayəndələrindən ibarətdir.

5. Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən ildə bir dəfə çağırılır.

6. Fövqəladə Naxçıvan Sovetlər Qurultayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin öz təşəbbüsü ilə və eləcə də respublika əhalisinin üçdə birindən az olmayan hissəsini əhatə edən yerli Sovetlərin tələbi əsasında çağırılır.

7. Naxçıvan Sovetlər Qurultayı 50 nəfər üzvdən və 20 nəfər namizəddən ibarət Naxçıvan Mərkəzi İcraiyyə Komitəsini seçir.

8. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi bütünlüklə Naxçıvan Sovetlər Qurultayı qarşısında cavabdehlik daşıyır.

9. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sovetlər Qurultayları arasındakı dövrdə respublikada ali hakimiyyət orqanıdır.

## Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi (Nax. MİK) haqqında

10. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sosialist Sovet Respublikasının ali qanunverici, sərəncam və nəzarət orqanıdır.

11. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi respublikada fəhlə-kəndli hökumətinin və bütün Sovet hakimiyyəti orqanlarının fəaliyyətinə ümumi istiqamət verir, qanunvericilik və idarəçilik üzrə işləri birləşdirir və uzlaşdırır, Sovet Konstitusiyasının, Naxçıvan Sovetlər Qurultayı və mərkəzi Sovet hakimiyyəti orqanlarının qərarlarının həyata keçirilməsinə nəzarət edir.

12. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sovetlər Qurultayını çağırır. Naxçıvan Sosialist Sovet Respublikasının hökuməti Naxçıvan Sovetlər Qurultayı qarşısında öz fəaliyyəti, ümumi siyasət və ayrı-ayrı məsələlər haqqında hesabat verir.

13. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Sosialist Sovet Respublikasının ümumi idarəçiliyi üçün Xalq Komissarları Sovetini və idarəçiliyin ayrı-ayrı sahələrinə rəhbərlik üçün Xalq Komissarlıqlarını təşkil edir.

## Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərində olan məsələlər haqqında

14. Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə bütün ümumdövlət əhəmiyyətli məsələlər daxildir:

a) Azərbaycan Sosialist Sovet Respublikasının Konstitusiyasına uyğun olaraq Naxçıvan Sosialist Sovet Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsi;

b) Naxçıvan Sosialist Sovet Respublikasının daxili siyasətinə ümumi rəhbərlik;

c) Naxçıvan Sosialist Sovet Respublikası ərazisinin ümumi inzibati bölgüsü;

ç) Naxçıvan Sosialist Sovet Respublikası büdcəsinin müzakirəsi və qəbul edilməsi;

d) Xalq Komissarları Sovetinin ayrı-ayrı üzvlərinin və bütün tərkibinin təyin edilməsi və vəzifəsindən azad edilməsi.

15. Yuxarıda sadalanan məsələlərdən əlavə Naxçıvan Sovetlər Qurultayının və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin səlahiyyətlərinə onların icazəsinin lazım olduğunu hesab etdikləri bütün digər məsələlər daxildir.

## Xalq Komissarları Soveti haqqında

16. Naxçıvan Sosialist Sovet Respublikasının işlərinin ümumi idarəçiliyi Xalq Komissarları Sovetinə aiddir.

17. Bu vəzifənin həyata keçirilməsində və Azərbaycan Sosialist Sovet Respublikasının və Naxçıvan Sosialist Sovet Respublikasının ali orqanları tərəfindən ona həvalə edilmiş hüquqlar çərçivəsində məsələlərin həyata keçirilməsi üçün Xalq Komissarları Soveti respublikanın bütün ərazisində icrası məcburi olan sərəncam və təlimatlar verir.

18. Xalq Komissarları Soveti özünün bütün qərar və qətnamələri haqqında Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə məlumat verir.

19. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi Xalq Komissarları Sovetinin istənilən qərar və qətnaməsini ləğv etmək və ya qüvvədən salmaq hüququna malikdir.

20. Xalq Komissarları Sovetinin üzvləri ayrı-ayrı Xalq Komissarlıqlarının rəhbərləridirlər.

21. 9 Xalq Komissarlığı təşkil edilir, yəni:

a) Daxili işlər;
b) Ədliyyə;
c) Əmək;
ç) Sosial təminat;
d) Təhsil;
e) Əkinçilik;
ə) Səhiyyə;
f) Fəhlə-Kəndli Müfəttişliyi;
g) Xalq Təsərrüfatı Şurası.

22. Hər bir Xalq Komissarlığında Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən Xalq Komissarının müavini təyin oluna bilər və ya Xalq Komissarının sədrliyi ilə üzvləri Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq edilən Kollegiya yaradıla bilər.

23. Xalq Komissarı müvafiq Xalq Komissarlığının səlahiyyətinə aid olan bütün məsələlər barəsində Kollegiyaya məlumat verməklə, təkbaşına qərarlar qəbul etmək səlahiyyətinə malikdir. Kollegiya Xalq Komissarının bu və ya digər qərarı ilə razı olmadıqda qərarın icrasını dayandırmadan ondan Xalq Komissarları Sovetinə və ya Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə şikayət verə bilər.

Kollegiyanın ayrı-ayrı üzvləri də şikayət vermək hüququna malikdirlər.

24. Xalq Komissarları Soveti Naxçıvan Sovetlər Qurultayı və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi qarşısında bütünlüklə cavabdehlik daşıyır.

25. Xalq Komissarları və Xalq Komissarlıqlarının Kollegiyaları Xalq Komissarları Soveti və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi qarşısında bütünlüklə cavabdehlik daşıyırlar.

## YERLƏRDƏ SOVET HAKİMİYYƏTİNİN TƏŞKİLİ

### Sovetlərin qurultayları haqqında

26. Sovetlər qurultayı öz səlahiyyətləri çərçivəsində qəzaların və rayonların mövcud əraziləri hüdudunda ali hakimiyyət orqanıdır.

27. Dairələrin Sovetlər qurultayında həmin inzibati vahid ərazisində yerləşən

bütün sovetlərin nümayəndələri iştirak edirlər.

28. Sovetlərin qurultayları Naxçıvan Sosialist Sovet Respublikasının Konstitusiyasına (Əsas Qanununa) və sonuncunun inkişafı istiqamətində dərc edilmiş xüsusi qaydalara uyğun olaraq təşkil edilir:

a) Qəza Sovetlər qurultayları – şəhərlərin və şəhər tipli yaşayış məntəqələrinin, qəza və kənd sovetlərinin ərazisində yerləşən fabrik və zavodların nümayəndələrindən;

b) Dairə Sovetlər qurultayları – rayon ərazisində yerləşən bütün sovetlərin nümayəndələrindən.

29. Sovetlərin qurultayları növbəti və növbədənkənar olur. Növbəti Sovetlər qurultayı ildə bir dəfə çağırılır; növbədənkənar Sovetlər qurultayı çağırılır:

a) yuxarı qurultaylar və ya onların icraiyyə komitələrinin təklifi ilə;

b) onların ərazisində olan müvafiq Sovet hakimiyyətinin icraiyyə orqanlarının (icraiyyə komitələrinin) təşəbbüsü və həmin rayonun əhalisinin üçdə birindən az olmayan sovetlərinin tələbi ilə.

30. Sovetlər qurultayları öz icraiyyə orqanlarını – icraiyyə komitələrini seçirlər. Sonuncuların hər bir inzibati ərazi vahidi üzrə sovetlər qurultayları üçün üzvlərinin sayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyətinin qərarı ilə müəyyən olunur.

**İcraiyyə Komitələri haqqında**

31. İcraiyyə Komitələri sovetlərin qurultayları tərəfindən seçilir və qurultaylar arasındakı dövrdə müvafiq ərazidə Sovet hakimiyyətinin ali orqanıdır, onları seçən qurultaylar qarşısında cavabdehlik daşıyırlar və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinə və Naxçıvan Sosialist Sovet Respublikasının Xalq Komissarları Sovetinə tabedirlər.

32. Müvafiq ərazinin idarə edilməsi üzrə bütün cari işlərə və mərkəzi hakimiyyətin qərar və direktivlərinin həyata keçirilməsinə rəhbərlik üçün qəzaların icraiyyə komitələri rəyasət heyətlərini, rayonların icraiyyə komitələri isə sədrlərini seçirlər. Qəza icraiyyə komitələrinin rəyasət heyətlərinin üzvlərinin sayı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən müəyyən edilir.

33. İcraiyyə komitələrinin iclasları arasındakı dövrdə onların rəyasət heyətləri icraiyyə komitələrinin səlahiyyətlərini həyata keçirir və icraiyyə komitələri qarşısında cavabdehlik daşıyırlar.

34. Yerli hakimiyyətin səlahiyyətində olan bütün işlərin icra edilməsi, yuxarı icraiyyə komitələrinin və mərkəzi hakimiyyətin qərarlarının həyata keçirilməsi üçün qəza icraiyyə komitələri Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyəti tərəfindən müəyyənləşdirilən əsaslarda şöbələr yaradırlar.

İcraiyyə komitələrinin müvafiq şöbələrinin ləğvi və birləşdirilməsi, həmçinin yeni şöbələrin yaradılması Naxçıvan Sosialist Sovet Respublikasının Xalq Komissarları Sovetinin qərarı ilə həyata keçirilir və Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyəti tərəfindən təsdiq olunur.

35. İcraiyyə komitələrinin şöbələri icraiyyə komitələrinin və onların rəyasət heyətlərinin tabeliyindədirlər və icraiyyə komitələrinin və onların rəyasət

heyətlərinin, eləcə də Naxçıvan Sosialist Sovet Respublikasının müvafiq xalq komissarlıqlarının sərəncam və tapşırıqlarını yerinə yetirməyə borcludurlar.

### Kənd sovetləri haqqında

36. Fəhlə, Kəndli və Qızıl ordu (əsgər) Deputatları sovetləri 250 nəfərdən çox əhalisi olan kənd yaşayış məntəqələrində (kəndlərdə, aullarda, xutorlarda və s.) təşkil edilir.

Qeyd 1: Şəhərlərdə Sovetlər yaradılmır: müvafiq qəza Sovetləri Qurultayının və qəza İcraiyyə Komitəsinin hakimiyyəti onlara şamil edilir.

Qeyd 2: Bir-birinə yaxın yerləşmiş bir neçə yaşayış məntəqəsindən ibarət olan kəndlərdə bir kənd soveti yaradılır.

37. Öz səlahiyyətləri daxilində Sovet (41-ci maddənin "c" bəndində nəzərdə tutulan hallarda isə seçicilərin ümumi yığıncaqları) müvafiq ərazinin hüdudlarında ali hakimiyyət orqanıdır və onun qərarları həmin ərazinin bütün əhalisi üçün məcburidir.

38. Deputatlar soveti bir il müddətinə seçilir.

39. Kənd sovetinin icraiyyə orqanı Sovetin sədridir. O, öz fəaliyyətində onu seçən Sovetin və dairə İcraiyyə Komitəsinin qarşısında cavabdehlik daşıyır.

40. Kəndlərdən kənarda yerləşən sovet təsərrüfatları və fabriklər ayrıca bir kənd sayılırlar və onların əhalisi kənd Sovetinin seçkilərində 36-cı və 41-ci maddələrdə göstərilən ümumi əsaslarla iştirak edirlər.

41. Əhalisinin sayı 250 nəfərdən az olan kəndlərdə ayrıca kənd sovetləri yaradılmır. Belə kəndlərin zəhmətkeşləri öz idarəetmə hüquqlarını həyata keçirirlər:

a) müstəqil sovetini seçmək hüququna malik olan qonşu kəndin sovetinin seçkilərində iştirak edirlər;

b) bütün bu yaşayış məntəqələri üçün ümumi olan kənd sovetinin seçilməsi üçün qonşu kəndlərlə birləşirlər;

c) seçicilərin ümumi yığıncaqlarında idarəetmə ilə bağlı məsələləri həll edirlər.

42. Deputatlar soveti onun sədri tərəfindən öz təşəbbüsü ilə və Sovetin üzvlərinin üçdə birindən az olmayan hissəsinin tələbi ilə çağırılır.

### Yerli hakimiyyət orqanlarının səlahiyyətində olan məsələlər haqqında

43. Qəza, rayon və kəndlərdə sovet hakimiyyəti orqanları olan icraiyyə komitələri və onların rəyasət heyətlərinin, eləcə də deputat sovetlərinin vəzifələri aşağıdakılardır:

a) öz ərazilərinin mədəni və təsərrüfat cəhətdən yüksəldilməsi üçün tədbirlərin görülməsi;

b) yerli büdcələrin tərtib və təsdiq olunması;

c) müvafiq yuxarı sovet hakimiyyəti orqanları qərarlarının həyata keçirilməsi;

ç) həmin ərazi üçün yerli əhəmiyyət daşıyan məsələlərin həll edilməsi;

d) həmin ərazi hüdudlarında sovet fəaliyyətinin birləşdirilməsi;

e) həmin ərazi hüdudlarında inqilabi qanunçuluğun, dövlət intizamının və ictimai təhlükəsizliyin təmin edilməsi;

ə) öz təşəbbüsü ilə və ya yuxarı icraiyyə komitələrinin təklifi ilə ümumdövlət əhəmiyyətli məsələlərin müzakirə edilməsi.

44. Sovetlərin qurultayları və onların icraiyyə komitələri aşağı yerli sovetlərin və onların icraiyyə orqanlarının fəaliyyəti üzərində nəzarət həyata keçirirlər.

Yerli qurultayların qərarları yalnız yuxarı qurultaylar və onların icraiyyə komitələri, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyəti tərəfindən ləğv oluna bilər.

İcraiyyə komitələrinin və onların rəyasət heyətlərinin qərarları onları seçmiş qurultaylar, icraiyyə komitələri və onların rəyasət heyətləri, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və onun Rəyasət Heyəti, Naxçıvan Sosialist Sovet Respublikasının Xalq Komissarları Soveti tərəfindən ləğv oluna bilər.

45. Qəza icraiyyə komitələri və onların rəyasət heyətləri məsuliyyəti öz üzərlərinə götürməklə Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən müəyyənləşdirilən qaydada, yalnız müstəsna hallarda Naxçıvan Sosialist Sovet Respublikası xalq komissarlıqlarının sərəncamlarının həyata keçirilməsini dayandırmaq hüququna malikdirlər.

## SOVETLƏRƏ SEÇKİLƏR HAQQINDA

### Aktiv və passiv seçki hüququ haqqında

46. Cinsindən, dinindən, milliyyətindən, oturaqlılığından və s. asılı olmayaraq seçki gününədək 18 yaşı tamam olmuş Naxçıvan Sosialist Sovet Respublikasının aşağıdakı vətəndaşları sovetlərə seçmək və seçilmək hüququndan istifadə edirlər:

a) həyat üçün istehsal və ictimai faydalı əməyi həyati vasitələr edənlərin, həmçinin ev təsərrüfatı ilə məşğul olan və istehsal əməyi üçün ilkin imkanlar yaradanların hamısı;

b) Fəhlə-kəndli Qızıl ordusunun və donanmasının qızıl əsgərləri və qızıl donanmaçıları;

c) Bu maddənin “a” və “b” bəndlərində nəzərdə tutulmuş kateqoriyalara daxil olan, müəyyən dərəcədə əmək qabiliyyətini itirmiş vətəndaşlar.

> Qeyd: Azərbaycan Sosialist Sovet Respublikasının vətəndaşları sırasına daxil olmayan şəxslərdən Azərbaycan SSR Konstitusiyasının 11-ci maddəsində* nəzərdə tutulanlara aid olan şəxslər aktiv və passiv seçki hüquqlarından istifadə edirlər.

47. Sadalanan kateqoriyalardan birinə daxil olsalar da, seçə və seçilə bilməzlər:

---

* *Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının 11-ci maddəsi aşağıdakı məzmunda idi: “Bütün millətlərin zəhmətkeşlərinin həmrəyliyinə əsaslanan Azərbaycan SSR əmək məşğuliyyəti üçün Azərbaycan Respublikasının ərazisində yaşayan və fəhlə və ya başqalarının əməyindən istifadə etməyən kəndli sinfinə mənsub olan Azərbaycanın əcnəbi vətəndaşlarına siyasi hüquqlar verir, yerli Sovetlərin belə əcnəbilərə heç bir formal çətinlik olmadan Azərbaycan vətəndaşlığına məxsus hüquqların verilməsi üzrə hüququnu tanıyır”.*

a) gəlir əldə etmək məqsədi ilə muzdlu əməkdən istifadə edənlər;

b) zəhmətlə qazanılmayan gəlirlə, məsələn: müəssisələrin kapitalından, gəlirlərindən əldə edilən faizlər, əmlakdan daxil olmalar və s. hesabına yaşayan şəxslər;

c) fərdi ticarətçilər, ticarət və kommersiya vasitəçiləri;

ç) bütün dinlərə və təriqətlərə aid dini ibadətləri özlərinə peşə seçmiş bütün rahiblər və ruhani xadimlər;

d) keçmiş polis, xüsusi jandarm korpusu və mühafizə bölmələrinin xidmətçiləri və agentləri, çar sarayının üzvləri, habelə polis, jandarmeriya və cəza orqanlarına rəhbərlik etmiş şəxslər;

e) müəyyən olunmuş qaydada ruhi və əqli xəstəliyi tanınmış şəxslər;

ə) tamahkarlığa və ləkəgətirici cinayətlərə görə qanunla və ya məhkəmə qərarı ilə məhkum olunmuş şəxslər.

**Seçkilərin keçirilməsi haqqında**

48. Seçkilər yerli sovetlər və onların icraiyyə komitələri tərəfindən müəyyənləşdirilən günlərdə keçirilir.

49. Seçkilərin gedişi və nəticələri haqqında seçki komissiyaları üzvlərinin imzaları ilə protokol tərtib edilir.

50. Seçkilərin keçirilməsi qaydası, eləcə də həmkarlar ittifaqlarının və digər fəhlə təşkilatlarının seçkilərdə iştirakı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyəti tərəfindən müəyyən edilir.

**Seçkilərin yoxlanılması, ləğvi və deputatların geri çağırılması haqqında**

51. Sovetlərə seçkilərin düzgünlüyünün yoxlanılması seçki komissiyaları tərəfindən, sovetlər qurultaylarına seçilən nümayəndələrin səlahiyyətlərinin düzgünlüyünün yoxlanılması isə mandat komissiyaları tərəfindən həyata keçirilir.

52. Seçkilər bütövlükdə düzgün keçirilmədikdə seçkilərin ləğv edilməsi haqqında məsələ yuxarı sovet hakimiyyəti orqanı tərəfindən həll edilir. Sovetlərə seçkilər üzrə ali kassasiya orqanı Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi və ya onun Rəyasət Heyətidir.

53. Sovetə deputat seçmiş seçicilər istənilən vaxt onu geri çağırmaq və yeni seçkilər keçirmək hüququna malikdirlər.

## ÜÇÜNCÜ BÖLMƏ

## BÜDCƏ HÜQUQU

54. Naxçıvan Sosialist Sovet Respublikasının dövlət gəlirləri və xərcləri Azərbaycan Sosialist Sovet Respublikasının ümumdövlət büdcəsində birləşir.

55. Dövlət Xəzinədarlığının vəsaitlərindən heç bir xərc dövlət gəlirləri və xərcləri siyahısında həmin xərc üzrə onlara imzalanmış kredit müəyyənləşdirilmədən və ya qanunverci orqanların xüsusi qərarı olmadan reallaşdırıla bilməz.

56. Naxçıvan Sosialist Sovet Respublikasının siyahı üzrə bütün xərcləri smeta bölmələri çərçivəsində birbaşa təyinatı üzrə sərf edilir.

57. Bütün yerli gəlirlər və bütün yerli xərclər ümumittifaq, ümumfederativ və respublika qanunvericiliyinə uyğun qaydada yerli büdcələrdə birləşir.

58. Yerli büdcələr Azərbaycan Sosialist Sovet Respublikasının müvafiq mərkəzi orqanlarının ümumi nəzarəti altında müvafiq Sovetlər qurultayları və ya lazım olan hallarda icraiyyə komitələri tərəfindən baxılır və təsdiq olunur.

59. Naxçıvan Sosialist Sovet Respublikası büdcəsinin icrası üzrə hesabat Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq edilir.

60. Sovet Sosialist Respublikaları İttifaqının, Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının və Azərbaycan Sosialist Sovet Respublikasının qanunvericiliklərinə uyğun qaydada bu qanunvericiliklər üzrə yerli vəsaitlərə daxil edilmiş xərclərin ödənilməsi üçün yerli büdcələrə gəlir: vergi və ya qeyri-vergi gəlir mənbələri müəyyən edilir.

## DÖRDÜNCÜ BÖLMƏ

## NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASININ GERBİ VƏ BAYRAĞI HAQQINDA

61. Naxçıvan Sosialist Sovet Respublikasının gerbi qırmızı fonda günəş şüalarında qızıl oraq və çəkicin, aşağıda çarpaz şəkildə yerləşdirilmiş beşguşəli ulduzlu ayparanın, sünbül çələngi ilə əhatə olunan təsvirin əksindən və aşağıdakı yazıdan ibarətdir:

a) Naxçıvan Sosialist Sovet Respublikası;*

b) Bütün ölkələrin proletarları, birləşin!

62. Naxçıvan Sosialist Sovet Respublikasının bayrağı qırmızı (al) rəngli, uzunluğunun eninə 2:1 nisbətində olan, sol yuxarı küncündə, ağacın yanında, bayrağın eninin 1/6 radiusunda olan oraq və çəkicin üzərində diametri bayrağın eninin 1/10-nə bərabər olan, ucları sağa yönələn qızıl aypara və qızılla haşiyələnən beşguşəli ulduz, oraq və çəkicin sağ tərəfində yeni və köhnə türk əlifbası ilə "Naxçıvan Sosialist Sovet Respublikası"** yazılan qumaşdan ibarətdir.

63. Naxçıvan Sosialist Sovet Respublikasının hökuməti Naxçıvan-Araz şəhərində yerləşir.

---

***** *Kitabın "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri" bölməsində verilmiş Naxçıvan SSR gerbinin və bayrağının üzərində "Naxçıvan Sosialist Sovet Respublikası" sözləri o zaman Azərbaycan dilində işlədildiyi kimi, əvvəlcə "Naxçıvan İctimai Şuralar Cümhuriyyəti", sonra isə "Naxçıvan Sosialist Şuralar Cümhuriyyəti" şəklində öz əksini tapmışdı.*

*** Naxçıvan Sosialist Sovet Respublikası – Naxçıvan SSR-in bayrağı üzərində əvvəlcə "N.İ.Ş.C.", sonra isə "N.S.Ş.C." abbreviaturası kimi öz əksini tapmışdı.*

# КОНСТИТУЦИЯ НАХИЧЕВАНСКОЙ СОЦИАЛИСТИЧЕСКОЙ СОВЕТСКОЙ РЕСПУБЛИКИ

***Принято V Всенахичеванским С'ездом Советов 18-го апреля 1926 года.***

## РАЗДЕЛ 1-й

## ОСНОВНЫЕ ПОЛОЖЕНИЯ

1. Нахичеванская Социалистическая Советская Республика есть социалистическое государство всех трудящихся Нахичеванской территории. Вся власть в пределах Нахичеванской Социалистической Советской Республики принадлежить всему трудящемуся населению страны, об'единенному в Советах.

2. Нахичеванская Социалистическая Советская Республика, находясь под протекторатом Азербайджанской Советской Социалистической Республики, является ее составной частью и взаимоотношения Нахичеванской Социалистической Советской Республики с Азербайджанской Советской Социалистической Республикой определяются Конституцией последней.

## РАЗДЕЛ 2-й

## ОРГАНИЗАЦИЯ ЦЕНТРАЛЬНОЙ ВЛАСТИ

### О Нахичеванском С'езде Советов

3. Нахичеванский С'езд Советов является верховной властью Нахичеванской Социалистической Советской Республики.

4. Нахичеванский С'езд Советов составляется из представителей всех Дайра С'ездов Советов, по рассчету 1 депутат на 1000 жителей.

5. Нахичеванский С'езд Советов созывается Нахичеванским Центральным Исполнительным Комитетом один раз в год.

6. Чрезвычайный Нахичеванский С'езд Советов созывается Нахичеванским Центральным Исполнительным Комитетом, как по собственному почину, так и по требованию Советов местностей, насчитывающих не менее одной трети всего населения Республики.

7. Нахичеванский С'езд Советов избирает Нахичеванский Центральный Исполнительный Комитет в числе не свыше 50 человек и 20 кандидатов.

8. Нахичеванский Центральный Исполнительный Комитет всецело ответственен перед Нахичеванским С'ездом Советов.

9. В период С'ездами Советов высшей властью в Республике является

Нахичеванский Центральный Исполнительный Комитет.

**О Нахичеванском Центральном Исполнительном Комитете (Нах.ЦИК)**

10. Нахичеванский Центральный Исполнительный Комитет является высшим законодательным, распорядительным и контролирующим органом Нахичеванской Социалистической Советской Республики.

11. Нахичеванский Центральный Исполнительный Комитет дает общее направление деятельности Рабочее-Крестьянского Правительства и всех органов Советской власти в Республике, об'единяет и согласует работы по законодательству и управлению и наблюдает за проведением в жизнь Советской Конституции, постановлений Нахичеванских С'ездов Советов и центральных органов Советской власти.

12. Нахичеванский Центральный Исполнительный Комитет созывает Нахичеванский С'езд Советов, коему Правительство Нахичеванской Социалистической Советской Республики представляет отчет о своей деятельности и доклады по общей политике и отдельным вопросам.

13. Нахичеванский Центральный Исполнительный Комитет образует Совет Народных Комиссаров для общего управления Нахичеванской Социалистической Советской Республики и Народные Комиссариаты для руководства отдельными отраслями управления.

**О предметах ведения Нахичеванского С'езда Советов и Нахичеванского Центрального Исполнительного Комитета**

14. Ведению Нахичеванского С'езда Советов и Нахичеванского Центрального Исполнительного Комитета подлежат все вопросы общегосударственного значения, как-то:

а) Внесение изменений и дополнений в Конституцию Нахичеванской Социалистической Советской Республики, в соответствии с Конституцией Азербайджанской Социалистической Советской Республики;

б) Общее руководство внутренней политикой Нахичеванской Социалистической Советской Республики;

в) Общее административное разделение территории Нахичеванской Социалистической Советской Республики;

г) Рассмотрение и принятие бюджета Нахичеванской Социалистической Советской Республики;

д) Назначение и смещение как отдельных членов Совета Народных Комиссаров, так и всего состава Совета Народных Комиссаров.

15. Сверх перечисленных вопросов, ведению Нахичеванского С'езда Советов и Нахичеванского Центрального Исполнительного Комитета подлежат все вопросы, которые они признают подлежащими их разрешению.

## О Совете Народных Комиссаров

16. Совету Народных Комиссаров принадлежит общее управление делами Нахичеванской Социалистической Советской Республики.

17. В осуществление этой задачи и в пределах предоставленных ему Верховными органами АССР и НССР прав, Совет Народных Комиссаров издает распоряжения и инструкции, обязательные к исполнению на всей территории Республики.

18. О всех своих постановлениях Совет Народных Комиссаров сообщает Нахичеванскому Центральному Исполнительному Комитету.

19. Нахичеванский Центральный Исполнительный Комитет вправе отменить или приостановить всякое постановление или решение Совета Народных Комиссаров.

20. Члены Совета Народных Комиссаров стоят во главе отдельных Народных Комиссариатов.

21. Народных Комиссариатов образуется 9, а именно:

а) По Внутренним делам;
б) Юстиции;
в) Труда;
г) Социального Обеспечения;
д) Просвещения;
е) Земледелия;
ж) Здравоохранения;
з) Рабочее-Крестьянской Инспекции;
и) Совет Народного Хозяйства.

22. При каждом Народном Комиссаре может быть назначен Нах.ЦИК-ом заместитель Наркома или образована под председательством Наркома Коллегия, члены которой утверждаются Нах.ЦИК-ом.

23. Народный Комиссар вправе единолично принимать решении по всем вопросам, подлежащим ведению соответствующего Народного Комиссариата, доводя о них до сведения Коллегии. В случае не согласия Коллегии с тем или иным решением Народного Комиссара, Коллегия, не приостанавливая исполнения решения, может обжаловать его в Совет Народных Комиссаров или в Нахичеванский Центральный Исполнительный Комитет.

То же право обжалования принадлежит и отдельным членам Коллегии.

24. Совет Народных Комиссаров всецело ответственен перед Нахичеванским С’ездом Советов и Нахичеванским Центральным Исполнительным Комитетом.

25. Народные Комиссары и Коллегии при Народных Комиссариатах всецело ответственны перед Советом Народных Комиссаров и перед Нахичеванским Центральным Исполнительным Комитетом.

## ОРГАНИЗАЦИЯ СОВЕТСКОЙ ВЛАСТИ НА МЕСТАХ

### О С’ездах Советов

26. Высшей в пределах данной территории уезда и района властью в границах своего ведения является С’езд Советов.

27. В С’ездах Советов: уездных и Дайра принимают участие представители всех советов, находящихся на территории данной административной единицы.

28. С’езды Советов составляются в соответствии с Конституцией (Основным Законом) Нахичеванской Социалистической Советской Республики и издаваемыми в развитие последней особыми положениями, следующим образом:

а) Уездные – из представителей советов городов и городских поселений, фабрик и заводов, расположенных на территории уезда или сельских советов;

б) Дайра – из представителей всех советов, находящихся на территории района.

29. С’езды Советов бывают очередные и внеочередные.

Очередные С’езды Советов созываются один раз в год; внеочередные С’езды Советов созываются:

а) По предложению вышестоящих С’ездов или их Исполнительных Комитетов;

б) Соответствующими на их территории исполнительными органами Советской власти (Исполнительными Комитетами), как по почину последних, так и по требованию советов, насчитывающих не менее одной трети населения данного района.

30. С’езды Советов избирают свои исполнительные органы – Исполнительные Комитеты, число членов которых для С’ездов Советов каждой административной территориальной единицы определяется постановлениями Нахичеванского Центрального Исполнительного Комитета или его Президиума.

### Об Исполнительных Комитетах

31. Исполнительные Комитеты избираются С’ездами Советов и являются в период между С’ездами высшим органом Советской власти на соответствующей территории, ответственны перед избиравшим их С’ездом и подчинены вышестоящему Исполнительному Комитету, Нахичеванскому Центральному Исполнительному Комитету и Совету Народных Комиссаров Нахичеванской Социалистической Советской Республики.

32. Для руководства всей текущей работой по управлению соответствующей территории и проведению в жизнь постановлений и декретов центральной власти, уездные Исполнительные Комитеты избирают Президиумы, число членов которых определяется Нахичеванским

Центральным Исполнительным Комитетом, а районные Исполнительные Комитеты – Председателья.

33. В период между заседаниями Исполнительных Комитетов, Президиумы Исполнительных Комитетов пользуются правами последних и ответственны перед Исполнительными Комитетами.

34. Для выполнения всей работы, подлежащей ведению местной власти и для проведения в жизнь постановлений вышестоящих Исполнительных Комитетов и центральной власти, уездные Исполнительные Комитеты образуют отделы, на основаниях определяемых Нахичеванским Центральным Исполнительным Комитетом или его Президиумом.

Упразднение или слияние существующих отделов Исполнительных Комитетов, а равно образование новых отделов, производится постановлением Совета Народных Комиссаров Нахичеванской Социалистической Советской Республики и утверждается Нахичеванским Центральным Исполнительным Комитетом или его Президиумом.

35. Отделы Исполнительных Комитетов находятся в подчинении Исполнительных Комитетов и их Президиумов и обязаны исполнять все предписания и задания Исполнительного Комитета и его Президиума, а также предписания и задания соответствующих Народных Комиссариатов Нахичеванской Социалистической Советской Республики.

## О сельских советах

36. Советы Рабочих, Крестьянских и Красноармейских (аскерских) депутатов образуются в селениях (в деревнях, селах, аулах, хуторах и проч.) имеющих население не менее 250 жителей.

Примечание: 1. В городах Советов не образуется: на них распространяется власть соответственного Уездного С’езда Советов и Уездного Исполнительного Комитета.

Примечание: 2. В селениях, состоящих из нескольких близко расположенных поселков, образуется один сельский совет.

37. В границах своего ведения Совет (а в случае, предусмотренном в пункте «в», ст. 41, – Общее собрание избирателей), есть высшая власть в пределах данной территории, постановления коей обязательны для всего населения данной местности.

38. Совет депутатов избирается сроком на один год.

39. Исполнительным органом сельского совета является Председатель Совета, ответственный в своих действиях перед избиравшим его советом и Дайраисполкомом.

40. Советские хозяйства и фабрики, лежащие вне села, рассматриваются как отдельные селения и население их принимает участие в выборах сельского Совета на общих основаниях, указанных в ст. ст. 36 и 41.

41. В селениях, имеющих менее 250 жителей, отдельные сельские советы не образуются. Трудящиеся таких селений осуществляют свое право

управления:

а) Участвуют в выборах Сельского Совета соседнего селения, имеющего право на избирание самостоятельного совета.

б) Объединяясь с соседними селениями для выбора общего для всех этих населенных пунктов сельсокого совета, или

в) Решая вопросы управления на общих собраниях избирателей.

42. Совет депутатов созывается Председателем Совета, как по собственному почину, так и по требованию не менее одной трети членов Совета.

## О предметах ведения местных органов власти

43. Уездные, районные и сельские органы советской власти – исполнительные комитеты и их президиумы, а также советы депутатов имеют своей задачей:

а) Принятие мер к поднятию данной территории в культурном и хозяйственном отношениях;

б) Составление и утверждение местных бюджетов;

в) Проведение в жизнь постановлений соответствующих высших органов советской власти;

г) Разрешение вопросов, имеющих местное для данной территории значение;

д) Объединение советской деятельности в пределах данной территории;

е) Обеспечение в пределах данной территории революционной законности и охрана государственного порядка и общественной безопасности;

ж) Обсуждение вопросов общегосударственного значения, как по собственному почину, так и по предложению вышестоящих Исполнительных Комитетов.

44. С’езды Советов и их Исполнительные Комитеты осуществляют контроль над деятельностью нижестоящих местных советов и их исполнительных органов.

Постановление местных с’ездов могут быть отменяемы лишь вышестоящими с’ездами и их исполнительными комитетами, Нахичеванским Центральным Исполнительным Комитетом или его Президиумом.

Постановления Исполнительных Комитетов и их Президиумов могут быть отменяемы избиравшими их с’ездами, а также вышестоящими с’ездами, исполнительными комитетами, их президиумами, Нахичеванским Центральным Исполнительным Комитетом, его Президиумом и Советом Народных Комиссаров Нахичеванской Социалистической Советской Республики.

45. Уездные Исполнительные Комитеты или их Президиумы вправе приостановить под своей ответственностью проведение в жизнь распоряжений Народных Комиссариатов Нахичеванской Социалистической Советской Республики лишь в исключительных случаях, в порядке, определяемым Нахичеванским Центральным Исполнительным Комитетом.

# О ВЫБОРАХ В СОВЕТЫ

## Об активном и пассивном избирательном праве

46. Правом избирать и быть избиранным в советы, пользуются независимо от пола, вероисповедания, национальности, оседлости и т.п. следующие граждане Нахичеванской Социалистической Советской Республики, которым ко дню выборов исполнилось 18 лет:

а) Все, добывающие средства к жизни производительным и общественно-полезным трудом, а также лица, занятые домашним хозяйством, обеспечивающим для первых возможность производительного труда;

б) Красноармейцы и краснофлотцы рабочее-крестьянских Красных армии и флота;

в) Граждане, входящие в категории, перечисленные в п.п. «а» и «б» настоящей статьи, потерявшие в какой либо мере трудоспособность.

> Примечание: Из лиц, не вступивших в число граждан Азербайджанской Социалистической Советской Республики пользуются активным и пассивным избирательным правом лица, указанные в ст. 11 Конституции АССР.

47. Не избирают и не могут быть избиранными, хотя бы они и входили в одну из перечисленных категорий:

а) Лица, прибегающие к наемному труду с целью извлечения прибыли;

б) Лица, живущие на нетрудовой доход, как-то: проценты с капитала, доходы с предприятий, поступления с имущества и т.п.;

в) Частные торговцы, торговые и коммерческие посредники;

г) Монахи и духовные служители религиозных культов всех исповеданий и толков, для которых это занятие является профессией;

д) Служащие и агенты бывшей полиции, отдельного корпуса жандармов и охранных отделений, члены царствовавшего дома, а также лица, руководившие деятельностью полиции, жандармерии и карательных органов;

е) Лица, признанные в установленном порядке душевнобольными или умалишенными;

ж) Лица, осужденные за корыстные и порочащие преступления на установленный законом или судебным приговором срок.

## О производстве выборов

48. Выборы производятся в дни, устанавливаемые местными советами или их исполнительными комитетами.

49. О ходе и результате выборов составляется протокол за подписями членов избирательной комиссии.

50. Порядок производства выборов, а равно и участие в них профессиональных союзов и иных рабочих организаций, определяется

Нахичеванским Центральным Исполнительным Комитетом или его Президиумом.

## О проверке и отмене выборов и отзыве депутатов

51. Проверка правильности выборов в советы производится избирательными комиссиями, а проверка правильности полномочий делегатов, избираемых на С’езды Советов – Мандатными Комиссиями.

52. В случае неправильности выборов в целом, вопрос об отмене выборов разрешается высшим по порядку органом советской власти. Высшим органом по кассации советских выборов является Нахичеванский Центральный Исполнительный Комитет или его Президиум.

53. Избиратели, пославшие в совет депутата, имеют право во всякое время отозвать его и поизвести новые выборы.

## РАЗДЕЛ 3-й

## БЮДЖЕТНОЕ ПРАВО

54. Государственные доходы и расходы Нахичеванской Социалистической Советской Республики об’единяются в общегосударственном бюджете Азербайджанской Социалистической Советской Республики.

55. Ни один расход из средств Государственного Казначейства не может быть произведен без установления на него кредита в росписи государственных доходов и расходов или без издания особого на то постановления законодательных органов.

56. Все расходы по росписи Нахичеванской Социалистической Советской Республики расходуются в пределах сметных подразделений по прямому назначению.

57. Все местные доходы и все местные расходы об’единяются в местных бюджетах в порядке общесоюзного, общефедеративного и республиканского законодательства.

58. Местные бюджеты рассматриваются и утверждаются соответственными С’ездами Советов или в подлежащих случаях Исполнительными Комитетами под общим контролем соответствующих центральных органов Азербайджанской Социалистической Советской Республики.

59. Отчет по исполнению бюджета Нахичеванской Социалистической Советской Республики утверждается Азербайджанским Центральным Исполнительным Комитетом.

60. В порядке законодательства Союза Социалистических Советских Республик, Закавказской Социалистической Советской Федеративной

Республики и Азербайджанской Социалистической Советской Республики для покрытия расходов, отнесенных по этим законодательствам на местные средства, местным бюджетам предоставляются доходные источники, налоговые и не налоговые.

## РАЗДЕЛ 4-й

## О ГЕРБЕ И ФЛАГЕ НАХИЧЕВАНСКОЙ СОЦАЛИСТИЧЕСКОЙ СОВЕТСКОЙ РЕСПУБЛИКИ

61. Герб Нахичеванской Социалистической Советской Республики состоит из изображений на красном фоне в лучах солнца золотых серп и молота, помещенных крест-на-крест рукоятками книзу и полумесяца пятиконечной звездой, окруженных венцом из колосьев и с надписью:

а) Нахичеванская Социалистическая Советская Республика.

б) Пролетарии всех стран, соединяйтесь!

62. Государственный флаг Нахичеванской Социалистической Советской Республики состоит из полотнища красного (алого) цвета, с отношением длины к ширине, как 2:1, в левом верхнем углу которого, у древка золотые серп и молот, радиусом в 1/6 ширины флага: над ними золотой полумесяц обращенный концами направо с красной пятиконечной звездой обрамленной золотой каймой; диаметр полумесяца равен 1/10 ширины флага, с правой стороны серпа и молота надпись на новом и старом тюркском алфавите: «Нахичеванская Социалистическая Советская Республика».

63. Местом пребывания Правительства Нахичеванской Социалистической Советской Республики является город Нахичевань на Араксе.

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci il Konstitusiyası

1936-cı il dekabrın 5-də Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) Fövqəladə VIII Sovetlər Qurultayı SSRİ Konstitusiyasını (Əsas Qanununu) [68] təsdiq etdi. Azərbaycan SSR-in 1921-ci il və 1927-ci il və Naxçıvan SSR-in 1926-cı il konstitusiyalarında sovet siyasi-hüquqi sisteminin konstitusion əsasları təsbit edilsə də, məhz 1936-cı il SSRİ Konstitusiyanın qəbulundan sonra həm Azərbaycan SSR, həm də Naxçıvan MSSR konstitusiyaları bundan sonra birbaşa SSRİ Konstitusiyası əsasında hazırlandı və qəbul edildi.

1937-ci il martın 14-də IX Ümumazərbaycan Fövqəladə Sovetlər Qurultayı 14 fəsil, 154 maddədən ibarət üçüncü Azərbaycan SSR Konstitusiyasını [70, s. 38-57] təsdiq etdi. 1937-ci il Azərbaycan Konstitusiyasında Naxçıvan MSSR barədə ayrı-ayrı maddələrdə hüquqi normaların olması ilə yanaşı, bu Əsas Qanunun V fəsli ("Naxçıvan MSSR-in dövlət hakimiyyətinin ali orqanları") və VI fəsli ("Naxçıvan MSSR-in dövlət idarə orqanları") bilavasitə muxtar respublikanın idarəçiliyi ilə bağlı maddələrdən ibarət idi.

1937-ci il sentyabrın 18-də Naxçıvan MSSR fövqəladə X Sovetlər Qurultayı Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası əsasında Naxçıvan MSSR-in 11 fəsil, 114 maddədən ibarət yeni Konstitusiyasını qəbul etdi. Bu Konstitusiya Azərbaycan SSR Ali Soveti tərəfindən 1941-ci il aprelin 7-də təsdiq edildi. Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyası əvvəlki Konstitusiya ilə müqayisədə daha əhatəli və təkmil şəkildə hazırlanmışdı. Lakin əvvəlkitək bu Konstitusiyanın da preambula hissəsi yox idi. 1924-cü ildən bəri ilk dəfə olaraq məhz 1937-ci il Konstitusiyasında Naxçıvan muxtariyyətinin rəsmi adı "Naxçıvan Sosialist Sovet Respublikası" əvəzinə "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası" (Konstitusiyanın orijinal mətninin 1945-ci ilə qədərki variantında "Naxçıvan Avtonom Sovet Sosialist Respubliqası") kimi işlədilməyə başlandı. Bununla da, əslində Naxçıvanın Moskva və Qars müqavilələrində əks olunmuş muxtariyyət statusu ilk dəfə konstitusiya səviyyəsində təsbit edildi. 13-cü maddədə göstərilirdi ki, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası muxtar respublika hüququ ilə Azərbaycan SSR-in tərkibinə daxildir".

1926-cı il Konstitusiyasından fərqli olaraq 1937-ci ilin Əsas Qanununda ictimai quruluşla dövlət quruluşu fərqləndirilərək ayrı-ayrı fəsillər kimi işlənmiş, məhkəmə və prokuratura sisteminə, vətəndaşların əsas hüquq və vəzifələrinə dair ayrıca fəsillər işlənib hazırlanmış, eləcə də Konstitusiyanı dəyişdirmək qaydası müəyyənləşdirilmişdi.

Konstitusiyanın ilk fəsli sovet dövlətinin sinfi-ictimai xarakterinə uyğun olaraq muxtar respublikada fəhlə-kəndli sinfinin sosialist dövlətinin yaradılmasının, onun xüsusi mülkiyyətin ləğvinə və qadağan edilməsinə əsaslanan dövlətin, kooperativlərin və kolxozların simasında ictimai istehsal münasibətlərinin hakim olduğu planlı sosialist təsərrüfat sisteminin əsaslarını müəyyənləşdirirdi. Naxçıvan MSSR "fəhlələrin və kəndlilərin sosialist dövləti", Naxçıvan MSSR-də bütün hakimiyyətin "zəhmətkeş deputatları Sovetlərinin simasında şəhər və kənd zəhmətkeşlərin"ə məxsus olduğu elan edilirdi.

Muxtar respublikada sosialist mülkiyyəti "dövlət mülkiyyəti (ümumxalq malı) formasında və ya kooperativ-kolxoz mülkiyyəti (ayrı-ayrı kolxozların mülkiyyəti, kooperativ birləşmələrinin mülkiyyəti) formasında" mövcud idi. Lakin formal olaraq təkbaşına "kəndlilərin və kustarların şəxsi əməyə əsaslanan və özgə əməyinin istismarına yol verməyən xırda xüsusi təsərrüfatı olmasına qanun tərəfindən yol verilir"di. Əmək "kim işləməzsə, o yeməz" prinsipi üzrə əmək bacarığı olan hər bir vətəndaşın vəzifəsi və şərəf işi sayılır, sosializmin "hər kəsdən bacarığına görə, hər kəsə əməyinə görə" prinsipi hüquqi norma kimi təsbit edilirdi.

Naxçıvan MSSR-in inzibati ərazisinə Əbrəqunus, Culfa, Ordubad, Naxçıvan, Noraşen, Şahbuz rayonları və "Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanlarına tabe olan – Naxçıvan-Araz şəhəri" daxil idi. Naxçıvan MSSR-in paytaxtı Naxçıvan-Araz şəhəri idi. Muxtar respublikanın ərazisi Naxçıvan MSSR-in razılığı olmadan dəyişdirilə bilməzdi.

Konstitusiyanın III Fəsli Naxçıvan MSSR-də dövlət hakimiyyətinin ali qanunverici orqanı olan Naxçıvan MSSR Baş Sovetinin təşkil olunmasının, strukturunun və fəaliyyətinin konstitusion-hüquqi prinsiplərini müəyyənləşdirirdi. Naxçıvan MSSR Baş Soveti Naxçıvan MSSR vətəndaşları tərəfindən seçki dairələri üzrə hər 2 min əhaliyə bir deputat norması ilə 4 il müddətinə seçilirdi. Naxçıvan MSSR Baş Soveti özünün sədrini, onun iki müavinini və özünün sədrdən, onun iki müavinindən, katibdən və 5 nəfər üzvdən ibarət tərkibdə Rəyasət Heyətini (mətndə "Prezidium") seçirdi.

Naxçıvan MSSR Baş Soveti muxtar respublikada dövlət hakimiyyətinin ali icraiyyə və sərəncam orqanı olan Naxçıvan MSSR Xalq Komissarları Sovetini (XKS) təşkil edirdi. Naxçıvan MSSR XKS-in tərkibinə XKS-in sədri, onun iki müavini, dövlət plan komissiyasının sədri, 11 sahəyə məsul olan xalq komissarları, iki idarə rəisi və bir müvəkkil daxil idi.

Rayonlarda, şəhərlərdə, qəsəbələrdə, kəndlərdə dövlət hakimiyyətinin orqanları müvafiq olaraq rayon, şəhər, qəsəbə, kənd zəhmətkeşləri tərəfindən 2 il müddətinə seçilən zəhmətkeş deputatları Sovetləri (ZDS) idi. Rayon, şəhər və kənd ZDS-lərinin icraiyyə və sərəncam orqanları – həmin Sovetlər tərəfindən seçilən sədr, onun müavinləri, katib və üzvlərdən ibarət icraiyyə komitələri idi. Xırda kəndlərdə ZDS-lərin icraiyyə və sərəncam orqanı – həmin Sovetin sədrindən, onun müavinindən və katibdən ibarət idi. ZDS-lərin icraiyyə komitələri müvafiq ZDS-in və yuxarı dövlət orqanlarının qərarlarına əsasən öz ərazisində mədəni-siyasi və təsərrüfat quruluşuna rəhbərlik edirdi.

Naxçıvan MSSR-in büdcəsi muxtar respublika XKS tərəfindən tərtib edilir, Naxçıvan MSSR-in Baş Soveti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir və "hamının bilməsi üçün elan edilir"di. Büdcənin icrası haqqında hesabat Baş Sovetdə təsdiq olunurdu.

1937-ci il Konstitusiyası Naxçıvan MSSR-də ilk dəfə məhkəmə hakimiyyətini və prokurorluq sistemini Əsas Qanun səviyyəsində müəyyənləşdirirdi. Naxçıvan MSSR-də ədalət mühakiməsi xalq məhkəmələri, Naxçıvan MSSR Ali Məhkəməsi tərəfindən, habelə SSRİ Baş Sovetinin qərarı ilə yaradılan SSRİ-nin xüsusi məhkəmələri tərəfindən həyata keçirilir, bütün məhkəmələrdə işlərə, qanunda xüsusi surətdə göstərilən hallardan başqa, xalq iclasçılarının iştirakı ilə baxılırdı. Naxçıvan

MSSR Baş Soveti tərəfindən 5 il müddətinə seçilən Naxçıvan MSSR-in Ali Məhkəməsi muxtar respublikanın ali məhkəmə orqanı idi və Naxçıvan MSSR-in bütün məhkəmə orqanlarının mühakimə fəaliyyətinə nəzarət edirdi. Xalq məhkəmələri rayon vətəndaşları tərəfindən gizli səsvermə yolu ilə, ümumi, müstəqim və bərabər seçki hüququna əsasən 3 il müddətinə seçilirdi. Konstitusiya hakimləri müstəqil və ancaq qanuna tabe olduqlarını bəyan edirdi.

Naxçıvan MSSR ərazisində bütün Xalq Komissarlıqları və onlara tabe olan idarələr, habelə ayrı-ayrı vəzifəli şəxslər, həmçinin vətəndaşlar tərəfindən qanunların dürüst yerinə yetirilməsinə ali nəzarət SSRİ Prokuroru tərəfindən həm bilavasitə, həm də Azərbaycan SSR və Naxçıvan MSSR Prokuroru vasitəsilə həyata keçirilirdi. Naxçıvan MSSR Prokuroru SSRİ Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. Muxtar respublikanın rayon və şəhər prokurorları SSRİ Prokuroru tərəfindən təsdiq olunmaqla Azərbaycan SSR Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. Konstitusiyaya görə muxtar respublikanın prokratura orqanları "ancaq SSRİ və Azərbaycan SSR Prokuroruna tabe olaraq, öz funksiyalarını heç bir yerli orqandan asılı olmadan həyata keçirir"di.

1937-ci il Konstitusiyasına ilk dəfə "Vətəndaşların əsas hüquq və vəzifələri" adlı ayrıca fəsil daxil edilmişdi. Bura Naxçıvan MSSR vətəndaşlarının əmək hüququ, istirahət hüququ, maddi təminat almaq hüququ, təhsil hüququ, vicdan azadlığı, söz, mətbuat azadlığı, küçə yürüşləri və nümayişlərin keçirilməsi daxil idi. Naxçıvan MSSR-də bütün təsərrüfat, dövlət, mədəni və ictimai-siyasi sahələrdə qadınların kişilərlə bərabər hüquqları tanınırdı. Bütün təsərrüfat, dövlət, mədəni və ictimai-siyasi yaşayış sahələrində, millətindən və irqindən asılı olmayaraq Naxçıvan MSSR-in vətəndaşlarının hüquq bərabərliyi "sarsılmaz bir qanun" elan edilirdi. Vətəndaşların şəxsiyyətinin toxunulmazlığı özünü məhkəmənin qərarı və ya prokurorun sanksiyası olmadan heç kəsin həbsinə yol verilməməsində göstərirdi. Mənzil toxunulmazlığı və yazışma sirri qanunla qorunurdu. Naxçıvan MSSR-in zəhmətkeşlərin mənafeyini müdafiə etdiyinə, elmi fəaliyyətinə və ya milli azadlıq uğrunda mübarizəsinə görə təqib edilən xarici vətəndaşlara sığınacaq verilməsi hüququ var idi.

Bununla belə, Konstitusiyanın 93-cü maddəsində, bütün ölkədə olduğu kimi, Naxçıvan MSSR-də də kommunist partiyasının hökmran mövqeyi konstitusion səviyyədə bəyan edilirdi.

Əsas Qanunda göstərilən hüquq və azadlıqlarla bərabər, vətəndaşların vəzifə borclarına dair hüquqi müddəalar da əks olunmuşdu. Naxçıvan MSSR-in hər bir vətəndaşı SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR Konstitusiyalarına riayət etməyə, qanunları yerinə yetirməyə, əmək intizamına əməl etməyə, ictimai vəzifəyə vicdanla yanaşmağa, sosialist birgəyaşayış qaydalarına hörmət etməyə borclu idi. İctimai, sosialist mülkiyyətinə qəsd edən şəxslər xalqın düşməni elan edilirdi. Ümumi əsgərlik vəzifəsi bir qanun, "Fəhlə-Kəndli Qızıl Ordusunda əsgərlik xidməti" vətəndaşların şərəfli vəzifəsi hesab olunurdu. Vətənə xəyanət: andı pozmaq, düşmən tərəfinə keçmək, dövlətin hərbi qüdrətinə zərər vurmaq, casusluq ən ağır cinayət kimi "qanunun bütün şiddəti ilə" cəzalandırılırdı.

Muxtar respublikada seçkili orqanlar olan bütün zəhmətkeş deputatları sovetlərinə deputatlar seçicilər tərəfindən gizli səsvermə ilə ümumi, bərabər və

müstəqim seçki hüququ əsasında seçilirdi. Ağıldan məhrum olan, məhkəmə tərəfindən məhkum olunub seçki hüququndan məhrum edilmiş şəxslərdən başqa, “18 yaşı tamam olmuş vətəndaşların hamısı irq və milliyyət mənsubiyyətindən, dinindən, təhsil dərəcəsindən, oturaqlığından, ictimai nəslindən, əmlak vəziyyətindən və keçmiş fəaliyyətindən asılı olmayaraq deputat seçkilərində iştirak etmək və seçilmək hüququna” malik idi. Qadınlar kişilərlə bərabər seçmək və seçilmək hüququna malik idi.

Konstitusiyanın X fəsli Naxçıvan MSSR-in dövlət atributlarını (gerbini, bayrağını) və paytaxtını müəyyən edirdi. Naxçıvan MSSR-in paytaxtı Naxçıvan-Araz şəhəri idi.

1926-cı il Konstitusiyasından fərqli olaraq bu Konstitusiya Naxçıvan MSSR Baş Sovetinin səslərinin 2/3 hissəsindən az olmayan çoxluğunun qəbul etdiyi qərarı və Azərbaycan SSR Baş Sovetinin təsdiqi ilə dəyişdirilə bilərdi.

## KONSTİTUSİYANIN STRUKTURU

**I FƏSİL.** İctimai quruluş (maddə 1-12)

**II FƏSİL.** Dövlət quruluşu (maddə 13-18)

**III FƏSİL.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanları (maddə 19-37)

**IV FƏSİL.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət idarə orqanları (maddə 38-48)

**V FƏSİL.** Dövlət hakimiyyətinin yerli orqanları (maddə 49-68)

**VI FƏSİL.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının büdcəsi (maddə 69-72)

**VII FƏSİL.** Məhkəmə və Prokratura (maddə 73-84)

**VIII FƏSİL.** Vətəndaşların əsas hüquq və vəzifələri (maddə 85-100)

**IX FƏSİL.** Seçki sistemi (maddə 100-110)

**X FƏSİL.** Gerb, bayraq, paytaxt (maddə 111-113)

**XI FƏSİL.** Konstitusiyanı dəyişdirmək qaydası (maddə 114)

# NAXÇIVAN AVTONOM SOVET SOSİALİST RESPUBLİKASININ KONSTİTUSİYASI (ƏSAS QANUNU)*

***1937-ci il sentyabrın 18-də Naxçıvan ASSR fövqəladə X Sovetlər Qurultayı tərəfindən qəbul edilmişdir.***

***Naxçıvan ASSR Baş Soveti tərəfindən1938-ci il iyulun 25-də və 1939-cu il iyulun 28-də qəbul edilmiş dəyişiklik və əlavələrlə***

## FƏSİL I

### İctimai quruluş

**Maddə 1.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikası fəhlələrin və kəndlilərin sosialist dövlətidir.

**Maddə 2.** Naxçıvan ASSR-in siyasi əsasını mülkədar və kapitalist hakimiyyətinin devrilməsi, proletariat diktaturasının əldə edilməsi, çarizmin və rus imperialist burjuaziyasının milli zülmündən Azərbaycan xalqının azad olması və millətçi kontrrevolyusiyanın darmadağın edilməsi nəticəsində böyümüş və möhkəmlənmiş zəhmətkeş deputatları Sovetləri təşkil edir.

**Maddə 3.** Naxçıvan ASSR-də bütün hakimiyyət zəhmətkeş deputatları Sovetlərinin simasında şəhər və kənd zəhmətkeşlərinindir.

**Maddə 4.** Naxçıvan ASSR-in ekonomik əsasını kapitalist təsərrüfat sistemasının aradan qaldırılması, istehsal alət və vasitələri üzərində xüsusi mülkiyyətin ləğv edilməsi və insanın insan tərəfindən istismar olunmasının yox edilməsi nəticəsində qurulmuş sosialist təsərrüfat sisteması və istehsal alət və vasitələri üzərində sosialist mülkiyyəti təşkil edir.

**Maddə 5.** Sosialist mülkiyyəti Naxçıvan ASSR-də ya dövlət mülkiyyəti (ümumxalq malı) formasında və ya kooperativ-kolxoz mülkiyyəti (ayrı-ayrı kolxozların mülkiyyəti, kooperativ birləşmələrinin mülkiyyəti) formasındadır.

**Maddə 6.** Torpaq, yerin altı, sular, meşələr, zavodlar, fabrikalar, şaxtalar, mədənlər, dəmir yol və hava nəqliyyatı, banklar, rabitə vasitələri, dövlət tərəfindən təşkil edilmiş iri kənd təsərrüfatı müəssisələri (sovxozlar, maşın-traktor stansiyaları və s.), habelə şəhərlərdə və sənaye məntəqələrində kommunal müəssisələr və əsas mənzil fondu dövlət mülkiyyətidir, yəni ümumxalq malıdır.

**Maddə 7.** Kolxozlardakı və kooperativ təşkilatlarındakı ictimai müəssisələr və onların canlı və cansız inventarı, kolxozların və kooperativ təşkilatlarının istehsal etdikləri produksiya, habelə onların ictimai tikintiləri kolxozların və kooperativ təşkilatlarının ictimai, sosialist mülkiyyətini təşkil edir.

Kənd təsərrüfatı arteli ustavına görə – hər bir kolxozçu həyətinin ictimai kolxoz təsərrüfatının əsas gəlirindən başqa, şəxsi istifadəsində kiçik həyətyanı torpağı

***Konstitusiyanın 1941-ci ildə Azərnəşr tərəfindən dərc edilmiş mətni verilir.*

və həyətyanı torpağında şəxsi mülkiyyətində yardımçı təsərrüfatı, yaşayış evi, məhsul verən heyvanı, ev quşu və xırda kənd təsərrüfatı inventarı vardır.

**Maddə 8.** Kolxozların əlində olan torpaq pulsuz və müddətsiz, yəni həmişəlik olaraq istifadə üçün onlara təhkim edilir.

**Maddə 9.** Naxçıvan ASSR-də hakim təsərrüfat forması olan sosialist təsərrüfat sisteması ilə yanaşı olaraq, təkbaşına kəndlilərin və kustarların şəxsi əməyə əsaslanan və özgə əməyinin istismarına yol verməyən xırda xüsusi təsərrüfatı olmasına qanun tərəfindən yol verilir.

**Maddə 10.** Vətəndaşların öz əmək gəlirlərinə və yığımlarına, yaşayış evinə və yardımçı ev təsərrüfatına, ev təsərrüfatı şeylərinə və avadanlığına, şəxsi istehlak və rahatlıq şeylərinə olan şəxsi mülkiyyət hüququ, habelə vətəndaşların şəxsi mülkiyyətə varislik hüququ qanunla qorunur.

**Maddə 11.** Naxçıvan ASSR-in təsərrüfat həyatı, ictimai sərvəti artırmaq, zəhmətkeşlərin maddi və mədəni səviyyəsini dönmədən yüksəltmək, sosialist dövlətinin istiqlaliyyətini möhkəmləndirmək və onun müdafiə qabiliyyətini qüvvətləndirmək intereslərinə olaraq, dövlət xalq təsərrüfatı planı ilə müəyyən edilir və yönəldir.

**Maddə 12.** Naxçıvan ASSR-də əmək "kim işləməzsə, o yeməz" prinsipi üzrə, əmək bacarığı olan hər bir vətəndaşın vəzifəsi və şərəf işidir.

Naxçıvan ASSR-də sosializmin "hər kəsdən bacarığına görə, hər kəsə əməyinə görə" prinsipi həyata keçirilir.

## FƏSİL II

### Dövlət quruluşu

**Maddə 13.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikası Avtonom respublika hüququ ilə Azərbaycan SSR-in tərkibinə daxildir.

SSRİ Konstitusiyasının 14-cü maddəsi və Azərbaycan SSR Konstitusiyasının 19-cu maddəsi dairəsindən kənarda, Naxçıvan Avtonom Sovet Sosialist Respublikası dövlət hakimiyyətini avtonom əsasları üzrə həyata keçirir.

**Maddə 14.** Naxçıvan ASSR: Abrakunis, Culfa, Ordubad, Naxçıvan, Noraşen, Şahbuz rayonlarından və bilavasitə Naxçıvan ASSR-in ali dövlət hakimiyyəti orqanlarına tabe olan – Naxçıvan-Araz şəhərindən ibarətdir.

**Maddə 15.** Naxçıvan ASSR-in territoriyası Naxçıvan ASSR-in razılığı olmadan dəyişdirilə bilməz.

**Maddə 16.** SSRİ-nin və Azərbaycan SSR-in qanunları Naxçıvan ASSR territoriyasında məcburidir. Naxçıvan ASSR qanunu SSRİ və Azərbaycan SSR qanunları ilə düz gəlmədikdə, SSRİ və Azərbaycan SSR-in qanunlarına əməl edilir.

**Maddə 17.** Naxçıvan ASSR-in hər bir vətəndaşı Azərbaycan SSR-in və SSRİ-nin vətəndaşıdır.

Azərbaycan SSR-in və bütün başqa müttəfiq respublikaların vətəndaşları Naxçıvan ASSR-də Naxçıvan ASSR-in vətəndaşları ilə eyni hüquqlara malikdirlər.

**Maddə 18.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikası öz ali hakimiyyət orqanları və dövlət idarə orqanları sifətində aşağıdakı işləri idarə edir:

a) Naxçıvan ASSR-in Konstitusiyasını müəyyən etmək, bunu Azərbaycan SSR Baş Sovetinin təsdiqinə vermək və onun icrasını kontrol etmək;

b) Naxçıvan ASSR-in rayon bölgüsünü və rayonlarının sərhədlərini müəyyən etmək, kənd, posyolok və şəhər Sovetlərini təşkil etmək, onların sərhədlərini müəyyən etmək və Azərbaycan SSR Baş Sovetinin təsdiqinə vermək;

v) Naxçıvan ASSR-in qanunvericiliyi;

q) dövlət nizam-qaydasını və vətəndaşların hüququnu qorumaq;

ğ) Naxçıvan ASSR-in xalq təsərrüfat planını təsdiq etmək;

d) Naxçıvan ASSR-in büdcəsini təsdiq etmək;

e) SSRİ və Azərbaycan SSR qanunvericiliyinə müvafiq olaraq dövlət vergilərini və yerli vergiləri, yığmaları və vergi olmayan gəlirləri müəyyən etmək;

ə) rayonların, şəhərlərin və kənd Sovetlərinin büdcələrinin həyata keçirilməsinə rəhbərlik etmək;

j) sığorta və əmanət işlərinə rəhbərlik etmək;

z) respublikaya tabe olan sənaye, kənd təsərrüfat və ticarət müəssisələri və təşkilatlarını idarə etmək, habelə yerli sənayeyə rəhbərlik etmək;

i) SSRİ və Azərbaycan SSR orqanlarına tabe olan müəssisələrin vəziyyətini və idarə edilmələrini kontrol və onlara nəzarət etmək;

y) torpaqdan, yer altından, meşələrdən və sulardan SSRİ və Azərbaycan SSR qanunlarına uyğun surətdə istifadə etmək qaydasına rəhbərlik və kontrol etmək;

k) şəhərlərin və başqa yaşayış yerlərinin mənzil və kommunal təsərrüfatına, mənzil inşaatına və abadanlığına rəhbərlik etmək;

g) yol quruluşu, yerli transporta və yerli rabitəyə rəhbərlik etmək;

l) əmək haqqında SSRİ və Azərbaycan SSR-in qanunlarının həyata keçirilməsini kontrol etmək;

m) səhiyyə işlərinə rəhbərlik etmək;

n) ictimai təminat işlərinə rəhbərlik etmək;

o) ibtidai və orta təhsil işlərinə rəhbərlik etmək; ali təhsil işini kontrol etmək və buna göz yetirmək;

ö) Naxçıvan ASSR-in kultura-maarif və elmi təşkilatları və müəssisələrinə rəhbərlik etmək;

p) bədən tərbiyəsi və sport işlərinə rəhbərlik və onları təşkil etmək;

r) Naxçıvan ASSR məhkəmə orqanlarını təşkil etmək.

## FƏSİL III

### Naxçıvan Avtonom Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanları

**Maddə 19.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanı Naxçıvan ASSR-in Baş Sovetidir.

**Maddə 20.** Naxçıvan ASSR-in Baş Soveti Naxçıvan ASSR Konstitusiyasının 13 və 18-ci maddələrinə görə, Naxçıvan ASSR-ə verilmiş bütün hüququ həyata keçirir, çünki bu hüquq Konstitusiyaya görə Naxçıvan ASSR-in Baş Sovetinə hesabat verən Naxçıvan ASSR orqanlarının: Naxçıvan ASSR Baş Soveti Prezidiumunun, Naxçıvan ASSR Xalq Komissarları Sovetinin və Naxçıvan ASSR Xalq Komissariatlarının kompetensiyasına daxil deyildir.

**Maddə 21.** Naxçıvan ASSR-in Baş Soveti Naxçıvan ASSR-in yeganə qanunverici orqanıdır.

**Maddə 22.** Naxçıvan ASSR-in Baş Soveti Naxçıvan ASSR vətəndaşları tərəfindən seçki okruqları üzrə: 2 min əhalidən bir deputat norması ilə 4 il müddətinə seçilir.

**Maddə 23.** Qanun, Naxçıvan ASSR Baş Soveti tərəfindən səslərin sadəcə çoxluğu ilə qəbul olunmuşsa, təsdiq edilmiş sayılır.

**Maddə 24.** Naxçıvan ASSR Baş Soveti tərəfindən qəbul edilmiş qanunlar Naxçıvan ASSR Baş Soveti Prezidiumu sədrinin və katibinin imzaları ilə Azərbaycan və erməni dillərində elan edilir.

**Maddə 25.** Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR Baş Sovetinin sədrini və onun iki müavinini seçir.

**Maddə 26.** Naxçıvan ASSR Baş Sovetinin sədri Naxçıvan ASSR Baş Sovetinin iclaslarına rəhbərlik edir və onun daxili qaydalarını idarə edir.

**Maddə 27.** Naxçıvan ASSR Baş Sovetinin sessiyaları Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu tərəfindən ildə iki dəfə çağırılır.

Növbədən xaric sessiyalar Naxçıvan ASSR Baş Soveti Prezidiumu tərəfindən öz mülahizəsilə və ya Baş Sovet deputatlarının üçdə bir hissəsinin tələbinə görə çağırılır.

**Maddə 28.** Naxçıvan ASSR Baş Soveti: Naxçıvan ASSR Baş Soveti Prezidiumu sədrindən, onun iki müavinindən, Prezidiumun katibindən və 5 nəfər Prezidium üzvündən ibarət Naxçıvan ASSR Baş Sovetinin Prezidiumunu seçir.

**Maddə 29.** Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu bütün öz fəaliyyəti haqqında Naxçıvan ASSR Baş Sovetinə hesabat verir.

**Maddə 30.** Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu:

a) Naxçıvan ASSR Baş Sovetinin sessiyalarını çağırır;

b) Naxçıvan ASSR qanunlarını şərh edir, fərmanlar verir;

v) ümum xalqın rəyini soruşur (referendum keçirir);

q) Naxçıvan ASSR Xalq Komissarları Sovetinin qərar və binagüzarlıqlarını, habelə Naxçıvan ASSR rayon və şəhər zəhmətkeş deputatları Sovetlərinin qərar və binagüzarlıqları qanuna müvafiq olmadıqda, onları ləğv edir;

ğ) Naxçıvan ASSR Baş Sovetinin sessiyaları arasındakı dövrdə Naxçıvan ASSR Xalq Komissarları Soveti sədrinin təqdimi ilə Naxçıvan ASSR-in ayrı-ayrı Xalq Komissarlarını vəzifədən azad və təyin edərək təsdiq üçün sonradan Naxçıvan ASSR Baş Sovetinə təqdim edir;

d) Naxçıvan ASSR-in fəxri adlarını verir.

**Maddə 31.** Naxçıvan ASSR Baş Soveti mandat komissiyası seçir ki, bu da Naxçıvan ASSR Baş Soveti deputatlarının vəkalətini yoxlayır.

Mandat komissiyasının təqdim etməsi ilə, Naxçıvan ASSR Baş Soveti ayrı-ayrı deputatların vəkalətini ya təsdiq etməyi və ya seçilməsini ləğv etməyi qərara alır.

**Maddə 32.** Naxçıvan ASSR Baş Soveti, lazım gördükdə, hər bir məsələ haqqında istintaq və təftiş komissiyaları təyin edir.

Bütün idarələr və vəzifəli şəxslər bu komissiyaların tələblərini yerinə yetirməyə və onlara lazımi material və dokumentləri verməyə məcburdurlar.

**Maddə 33.** Naxçıvan ASSR Baş Sovetinin deputatı, Naxçıvan ASSR Baş Sovetinin razılığı olmadan, Naxçıvan ASSR Baş Sovetinin sessiyaları arasındakı dövrdə isə, Naxçıvan ASSR Baş Soveti Prezidiumunun razılığı olmadan məhkəmə məsuliyyətinə cəlb və ya həbs edilə bilməz.

**Maddə 34.** Naxçıvan ASSR Baş Sovetinin vəkaləti qurtardıqda Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu, Naxçıvan ASSR Baş Sovetinin vəkaləti qurtaran gündən etibarən ən geci iki ay müddətində yeni seçkilər təyin edir.

**Maddə 35.** Naxçıvan ASSR Baş Sovetinin vəkaləti qurtardıqda, Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu, Naxçıvan ASSR-in yeni seçilmiş Baş Soveti tərəfindən Naxçıvan ASSR Baş Sovetinin yeni Prezidiumu təşkil edilənədək, öz vəkalətini saxlayır.

**Maddə 36.** Naxçıvan ASSR-in yeni seçilmiş Baş Soveti, Naxçıvan ASSR Baş Sovetinin keçmiş çağırılış Prezidiumu tərəfindən, seçkilərdən sonra bir aydan gec olmayaraq çağırılır.

**Maddə 37.** Naxçıvan ASSR Baş Soveti Naxçıvan ASSR Hökumətini – Naxçıvan ASSR Xalq Komissarları Sovetini təşkil edir.

## FƏSİL IV

### Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət idarə orqanları

**Maddə 38.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət hakimiyyətinin ali icraiyyə və binagüzarlıq orqanı Naxçıvan ASSR-in Xalq Komissarları Sovetidir.

**Maddə 39.** Naxçıvan ASSR Xalq Komissarları Soveti Naxçıvan ASSR Baş Soveti qarşısında məsuldur və ona hesabat verir, Naxçıvan ASSR Baş Sovetinin sessiyaları arasındakı dövrdə isə – Naxçıvan ASSR Baş Sovetinin Prezidiumu qarşısında məsuldur və ona hesabat verir.

**Maddə 40.** Naxçıvan ASSR Xalq Komissarları Soveti SSRİ, Azərbaycan SSR və Naxçıvan ASSR qanunlarına, SSRİ və Azərbaycan SSR Xalq Komissarları Sovetlərinin qərar və binagüzarlıqlarına əsasən və onların icrası üçün qərar və binagüzarlıqlar verir və onların icrasını yoxlayır.

**Maddə 41.** Naxçıvan ASSR Xalq Komissarları Sovetinin qərar və binagüzarlıqlarının icrası Naxçıvan ASSR-in bütün territoriyasında məcburidir.

**Maddə 42.** Naxçıvan ASSR Xalq Komissarları Soveti:

a) Naxçıvan ASSR Xalq Komissariatlarının və özünə tabe olan başqa təsərrüfat və kultura müəssisələrinin işlərini birləşdirir və yönəldir; Ümumittifaq və müttəfiq respublika Xalq Komissariatları Müvəkillərinin işlərini birləşdirir və yoxlayır;

b) xalq təsərrüfat planının həyata keçirilməsi üçün tədbirlər görür;

v) Naxçıvan ASSR-in respublika və yerli büdcələrinin həyata keçirilməsi üçün tədbirlər görür;

q) ictimai nizam-qaydanı təmin etmək, dövlətin intereslərini müdafiə etmək və vətəndaşların hüququnu qorumaq üçün tədbirlər görür;

ğ) rayon və şəhər zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitetlərinin işlərinə rəhbərlik edir və bu işləri yoxlayır.

**Maddə 43.** Naxçıvan ASSR Xalq Komissarları Soveti rayon və şəhər zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitetlərinin qərar və binagüzarlıqlarını ləğv etmək, habelə rayon və şəhər zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitetlərinin qərar və binagüzarlıqlarını dayandırmaq hüququna malikdir.

Naxçıvan ASSR Xalq Komissarları Soveti Naxçıvan ASSR Xalq Komissarlarının əmr və instruksiyalarını ləğv etmək hüququna malikdir.

**Maddə 44.** Naxçıvan ASSR Xalq Komissarları Soveti Naxçıvan ASSR Baş Soveti tərəfindən bu heyətdə təşkil edilir:

Naxçıvan ASSR Xalq Komissarları Soveti sədri;

Naxçıvan ASSR Xalq Komissarları Soveti sədrinin iki müavini;

Naxçıvan ASSR Dövlət Plan Komissiyası sədri;

Naxçıvan ASSR-in:

Xalq Yeyinti Sənaye Komissarı;

Xalq Torpaq Komissarı;

Xalq Maliyyə Komissarı;

Xalq Ticarət Komissarı;

Xalq Daxili İşlər Komissarı;

Xalq Ədliyyə Komissarı;

Xalq Səhiyyə Komissarı;

Xalq Maarif Komissarı;

Xalq Yerli Sənaye Komissarı;

Xalq Kommunal Təsərrüfat Komissarı;

Xalq İctimai Təminat Komissarı;

Yol İdarəsi Naçalniki;

İncəsənət İşləri İdarəsi Naçalniki;

SSRİ Xalq Tədarük Komissariatı Müvəkkili.

**Maddə 45.** Naxçıvan ASSR Baş Soveti deputatından sorğu alan Naxçıvan ASSR Hökuməti və ya Naxçıvan ASSR Xalq Komissarı, üç gündən gec olmayaraq, Naxçıvan ASSR Baş Sovetində dilcavabı və ya yazı ilə cavab verməyə borcludurlar.

**Maddə 46.** Naxçıvan ASSR Xalq Komissarları, Azərbaycan SSR və Naxçıvan ASSR-in Konstitusiyalarına görə, Naxçıvan ASSR-in kompetensiyasına daxil olan dövlət idarəsi sahələrinə rəhbərlik edirlər.

**Maddə 47.** Naxçıvan ASSR Xalq Komissarları SSRİ-nin, Azərbaycan SSR-in və Naxçıvan ASSR-in qanunlarına, SSRİ, Azərbaycan SSR və Naxçıvan ASSR Xalq Komissarları Sovetinin qərar və binagüzarlıqlarına, Azərbaycan SSR Xaql Komissarlarının əmrləri və instruksiyalarına əsasən və bunların icrası üçün, müvafiq Xalq Komissariatlarının kompetensiyası daxilində əmr və instruksiyalar verir və onların icrasını yoxlayırlar.

**Maddə 48.** Naxçıvan ASSR Xalq Komissariatları həm Naxçıvan ASSR Xalq Komissarları Sovetinə, həm də Azərbaycan SSR-in müvafiq Xalq Komissariatlarına tabe olaraq, dövlət idarəsinin onlara tapşırılmış sahələrinə rəhbərlik edirlər.

## FƏSİL V

### Dövlət hakimiyyətinin yerli orqanları

**Maddə 49.** Rayonlarda, şəhərlərdə, posyoloklarda, kəndlərdə dövlət hakimiyyətinin orqanları – zəhmətkeş deputatları Sovetləridir.

**Maddə 50.** Rayon, şəhər, posyolok, kənd zəhmətkeş deputatları Sovetləri müvafiq olaraq rayon, şəhər, posyolok, kənd zəhmətkeşləri tərəfindən 2 il müddətinə seçilir.

**Maddə 51.** Zəhmətkeş deputatları Sovetləri (rayon, şəhər, posyolok, kənd) öz territoriyasında mədəni-siyasi və təsərrüfat quruluşuna rəhbərlik edirlər, yerli büdcəni müəyyən edirlər, özlərinə tabe olan idarə orqanlarının fəaliyyətinə rəhbərlik edirlər, dövlət nizam-qaydasının qorunmasını təmin edirlər, ölkənin müdafiə bacarığını qüvvətləndirməyə kömək edirlər, qanunlara riayət edilməsini və vətəndaşların hüququnun qorunmasını təmin edirlər.

**Maddə 52.** Zəhmətkeş deputatları Sovetləri, SSRİ, Azərbaycan SSR və Naxçıvan ASSR qanunlarının onlara verdiyi hüquq daxilində qərarlar qəbul edir və binagüzarlıqlar verirlər.

**Maddə 53.** Rayon, şəhər və kənd zəhmətkeş deputatları Sovetlərinin icraiyyə və binagüzarlıq orqanları – həmin Sovetlər tərəfindən seçilən: sədr, onun müavinləri, katib və üzvlərdən ibarət icraiyyə komitetləridir.

**Maddə 54.** Xırda kəndlərdə zəhmətkeş deputatları Sovetlərinin icraiyyə və binagüzarlıq orqanı – həmin Sovetlər tərəfindən seçilən sədrdən, onun müavinindən və katibdən ibarətdir.

**Maddə 55.** Zəhmətkeş deputatları Sovetlərinin (rayon, şəhər, posyolok, kənd) icraiyyə komitetləri müvafiq zəhmətkeş deputatları Sovetlərinin və yuxarı dövlət orqanlarının qərarlarına əsasən öz territoriyasında mədəni-siyasi və təsərrüfat quruluşuna rəhbərlik edirlər.

**Maddə 56.** Rayon zəhmətkeş deputatları Sovetlərinin sessiyaları onların icraiyyə komitetləri tərəfindən ildə 6 dəfədən az olmayaraq çağırılır.

**Maddə 57.** Şəhər və kənd zəhmətkeş deputatları Sovetlərinin sessiyaları onların icraiyyə orqanları tərəfindən ayda bir dəfədən az olmayaraq çağırılır.

**Maddə 58.** Rayon və şəhər zəhmətkeş deputatları Sovetləri öz sessiyaları zamanı üçün, sessiya iclaslarını aparmaqdan ötrü sədr və katib seçirlər.

**Maddə 59.** Kənd Soveti sədri kənd Sovetini çağırır və onun iclaslarını aparır.

**Maddə 60.** Zəhmətkeş deputatları Sovetlərinin icraiyyə orqanları, həm onları seçmiş olan zəhmətkeş deputatları Sovetinə, həm də yuxarı zəhmətkeş deputatları Sovetinin icraiyyə orqanına bilavasitə hesabat verirlər.

**Maddə 61.** Yuxarı zəhmətkeş deputatları Sovetlərinin icraiyyə komitetləri aşağı icraiyyə komitetlərinin qərar və binagüzarlıqlarını ləğv etmək və aşağı

zəhmətkeş deputatları Sovetlərinin qərar və binagüzarlıqlarını dayandırmaq hüququna malikdirlər.

**Maddə 62.** Yuxarı zəhmətkeş deputatları Sovetləri aşağı zəhmətkeş deputatları Sovetlərinin və onların icraiyyə komitetlərinin qərar və binagüzarlıqlarını ləğv etmək hüququna malikdirlər.

**Maddə 63.** Rayon zəhmətkeş deputatları Sovetləri, icraiyyə komitetlərinin aşağıdakı şöbələrini təşkil edirlər:

torpaq;

xalq maarifi;

maliyyə;

ticarət;

səhiyyə;

ictimai təminat;

ümumi;

yol;

plan komissiyası;

icraiyyə komitetinin sədri yanında kadrlar sektoru və bundan başqa, rayonun təsərrüfatının xüsusiyyətlərinə müvafiq olaraq, Naxçıvan ASSR Baş Soveti Prezidiumunun təsdiqi ilə rayon zəhmətkeş deputatları Sovetləri: kommunal və yerli sənaye şöbələri təşkil edirlər.

**Maddə 64.** Rayonun şəraitinə müvafiq olaraq, SSRİ və Azərbaycan SSR qanunlarına əsasən, Naxçıvan ASSR Baş Soveti Prezidiumunun təsdiqi ilə, Xalq Daxili İşlər Komissariatı rayon zəhmətkeş deputatları Sovetləri yanında öz idarələrini təşkil edir.

**Maddə 65.** Rayon zəhmətkeş deputatları Sovetlərinin şöbələri öz fəaliyyətində həm rayon zəhmətkeş deputatları Sovetinə və onun icraiyyə komitetinə, həm də Naxçıvan ASSR-in müvafiq Xalq Komissariatına tabedirlər.

**Maddə 66.** Şəhər zəhmətkeş deputatları Sovetləri, icraiyyə komitetlərinin ağaşıdakı şöbələrini təşkil edirlər:

maliyyə;

kommunal təsərrüfat;

ticarət;

səhiyyə;

xalq maarifi;

ictimai təminat;

ümumi;

plan komissiyası;

icraiyyə komiteti sədri yanında kadrlar sektoru və bundan başqa, şəhərin sənayesinin, onun şəhər və şəhəryanı təsərrüfatının xüsusiyyətlərinə müvafiq olaraq:

yerli sənaye;

torpaq.

**Maddə 67.** Şəhər zəhmətkeş deputatları Sovetlərinin şöbələri öz fəaliyyətində həm şəhər zəhmətkeş deputatları Sovetinə və onun icraiyyə komitetinə, həm də rayon zəhmətkeş deputatları Sovetinin müvafiq şöbəsinə tabedirlər.

**Maddə 68.** Naxçıvan-Araz şəhər zəhmətkeş deputatları Sovetinin şöbələri öz fəaliyyətində həm Naxçıvan-Araz zəhmətkeş deputatları Sovetinə və onun icraiyyə komitetinə, həm də bilavasitə Naxçıvan ASSR-in müvafiq Xalq Komissariatına tabedirlər.

## FƏSİL VI

### Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının büdcəsi

**Maddə 69.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının büdcəsini Naxçıvan ASSR Xalq Komissarları Soveti tərtib edir və Naxçıvan ASSR Baş Sovetinin təsdiqinə verir.

Naxçıvan ASSR Baş Soveti tərəfindən təsdiq edilmiş Naxçıvan ASSR büdcəsi hamının bilməsi üçün elan edilir.

**Maddə 70.** Naxçıvan ASSR Baş Soveti büdcə komissiyası seçir ki, bu da Naxçıvan ASSR-in büdcəsi haqqında Baş Sovetə öz mülahizəsinə dair məruzə edir.

**Maddə 71.** Naxçıvan ASSR büdcəsinin icrası haqqındakı hesabat Naxçıvan ASSR Baş Soveti tərəfindən təsdiq edilir və hamının bilməsi üçün elan edilir.

**Maddə 72.** Naxçıvan ASSR büdcəsinə və rayon, şəhər və kənd Sovetlərinin yerli büdcələrinə yerli təsərrüfatdan olan gəlirlər, onların territoriyasındakı dövlət gəlirlərindən ayırmalar, habelə SSRİ və Azərbaycan SSR qanunvericiliyi ilə müəyyən edilən miqdarda yerli vergi və yığmalar varidatı daxil edilir.

## FƏSİL VII

### Məhkəmə və Prokuratura

**Maddə 73.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasında ədalət mühakiməsi xalq məhkəmələri, Naxçıvan ASSR Ali Məhkəməsi tərəfindən, habelə SSRİ Baş Sovetinin qərarı ilə yaradılan SSRİ-nin xüsusi məhkəmələri tərəfindən həyata keçirilir.

**Maddə 74.** Bütün məhkəmələrdə işlərə, qanunda xüsusi surətdə göstərilən hallardan başqa, xalq iclasçılarının iştirakı ilə baxılır.

**Maddə 75.** Naxçıvan ASSR Ali Məhkəməsi Naxçıvan ASSR-in Ali Məhkəmə orqanıdır. Naxçıvan ASSR Ali Məhkəməsinə Naxçıvan ASSR-in bütün məhkəmə orqanlarının mühakimə fəaliyyətinə nəzarət etmək tapşırılır.

**Maddə 76.** Naxçıvan ASSR Ali Məhkəməsi Naxçıvan ASSR Baş Soveti tərəfindən beş il müddətinə seçilir.

**Maddə 77.** Xalq məhkəmələri rayon vətəndaşları tərəfindən gizli səs verməklə, ümumi, müstəqim və bərabər seçki hüququna əsasən üç il müddətinə seçilir.

**Maddə 78.** Naxçıvan ASSR-də məhkəmə işləri Azərbaycan dilində aparılır, əhalisinin çoxu erməni olan kəndlərdə və posyoloklarda isə – erməni dilində aparılır, bu dilləri bilməyən şəxslər üçün iş materialları ilə tərcüməçi vasitəsilə tamam tanış olmaq, habelə məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

**Maddə 79.** Naxçıvan ASSR-in bütün məhkəmələrində müttəhimə müdafiə hüququ təmin edilir və qanunda istisna nəzərdə tutulmamışsa, işlərə açıq baxılır.

**Maddə 80.** Hakimlər müstəqildirlər və ancaq qanuna tabedirlər.

**Maddə 81.** Naxçıvan ASSR territoriyasında bütün Xalq Komissariatları və onlara tabe olan idarələr, habelə ayrı-ayrı vəzifəli şəxslər, həmçinin vətəndaşlar tərəfindən qanunların dürüst yerinə yetirilməsinə ali nəzarət SSRİ Prokuroru tərəfindən həm bilavasitə, həm də Azərbaycan SSR və Naxçıvan ASSR Prokuroru vasitəsilə həyata keçirilir.

**Maddə 82.** Naxçıvan ASSR Prokuroru SSRİ Prokuroru tərəfindən beş il müddətinə təyin edilir.

**Maddə 83.** Naxçıvan ASSR-in rayon və şəhər prokurorları SSRİ Prokurorunun təsdiq etməsilə Azərbaycan SSR Prokuroru tərəfindən beş il müddətinə təyin edilirlər.

**Maddə 84.** Prokratura orqanları ancaq SSRİ və Azərbaycan SSR Prokuroruna tabe olaraq, öz funksiyalarını heç bir yerli orqandan asılı olmayaraq, həyata keçirirlər.

## FƏSİL VIII

### Vətəndaşların əsas hüquq və vəzifələri

**Maddə 85.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının vətəndaşları əmək hüququna, yəni əməklərinin miqdar və keyfiyyətinə müvafiq olaraq, haqqı verilməklə, qarantiyalı iş almaq hüququna malikdirlər.

Əmək hüququ xalq təsərrüfatının sosialistcəsinə təşkili ilə, sovet cəmiyyətinin məhsuldar qüvvələrinin durmadan artması ilə, təsərrüfat böhranları imkanının aradan qaldırılması ilə və işsizliyin ləğv edilmiş olması ilə təmin edilir.

**Maddə 86.** Naxçıvan ASSR-in vətəndaşları istirahət hüququna malikdirlər.

İstirahət hüququ, fəhlələrin böyük çoxluğu üçün iş gününün 7 saata qədər azaldılması ilə, fəhlələrin və qulluqçuların əmək haqqı verilərək, hər il məzuniyyətə buraxılması ilə, zəhmətkeşlərə xidmət üçün geniş sanatoriyalar, istirahət evləri, klublar şəbəkəsi verilməklə təmin edilir.

**Maddə 87.** Naxçıvan ASSR vətəndaşları qocaldıqda, habelə xəstələndikdə və əmək bacarığını itirdikdə maddi təminat hüququna malikdirlər.

Bu hüquq, fəhlə və qulluqçuların dövlət hesabına olaraq ictimai sığortasının geniş inkişaf etdirilməsi ilə, zəhmətkeşlərə pulsuz tibbi yardımla, zəhmətkeşlərin istifadəsinə geniş kurortlar şəbəkəsi verilməklə təmin edilir.

**Maddə 88.** Naxçıvan ASSR vətəndaşları təhsil hüququna malikdirlər.

Bu hüquq, ümumi-məcburi ibtidai təhsillə, ali təhsil də daxil olaraq təhsilin pulsuz olması ilə, ali məktəbdə oxuyanların böyük çoxluğu üçün dövlət stipendiyaları sisteması ilə, məktəblərdə təhsilin ana dilində olması ilə, zavodlarda, sovxozlarda, maşın-traktor stansiyalarında və kolxozlarda, pulsuz olaraq, zəhmətkeşlərin istehsal, texniki və aqronomik təhsilinin təşkili ilə təmin edilir.

**Maddə 89.** Naxçıvan ASSR-də bütün təsərrüfat, dövlət, mədəni və ictimai-siyasi yaşayış sahələrində qadına kişi ilə bərabər hüquq verilir.

Qadınların bu hüququnun həyata keçirilməsi imkanı əmək, əmək haqqı, istirahət, ictimai sığorta və təhsil üçün qadına kişi ilə bərabər hüquq verilməklə, ana

və uşaq intereslərinin dövlət tərəfindən qorunması ilə, qadına hamilə olduğu zaman maaşı mühafizə edilərək məzuniyyət verilməsilə, doğum evlərinin, uşaq yasliləri və bağçalarının geniş şəbəkəsi ilə təmin edilir.

**Maddə 90.** Bütün təsərrüfat, dövlət, mədəni və ictimai-siyasi yaşayış sahələrində, milliyyət və irqlərindən asılı olmayaraq, Naxçıvan ASSR-in vətəndaşlarının hüquqca bərabərliyi sarsılmaz bir qanundur.

İrq və milli mənsubiyyətlərindən asılı olaraq, vətəndaşların hüququnun açıq-açığına və ya dolayı yolla hər hansı bir şəkildə məhdud edilməsi və ya, əksinə, açıq-açığına və ya dolayı yolla onlara üstünlük verilməsi, habelə irq və ya milli müstəsnalığın və ya nifrət və etinasızlığın hər hansı bir şəkildə təbliğ edilməsi – qanunla cəzalandırılır.

**Maddə 91.** Vətəndaşlara vicdan azadlığı təmin etmək məqsədilə Naxçıvan ASSR-də din dövlətdən və məktəb dindən ayrılmışdır. Bütün vətəndaşlar dini ayinləri icra etməkdə və din əleyhinə propaqanda aparmaqda azaddırlar.

**Maddə 92.** Zəhmətkeşlərin intereslərinə müvafiq olaraq və sosializm quruluşunu möhkəmləndirmək məqsədi ilə Naxçıvan ASSR vətəndaşlarına:

a) söz azadlığı;

b) mətbuat azadlığı;

v) yığıncaqlar və mitinqlər azadlığı;

q) küçə yerişləri və nümayişlər qanunla qarantiya edilir.

Vətəndaşların bu hüququ, zəhmətkeşlərə və onların təşkilatlarına mətbəələr, kağız ehtiyatı, ictimai binalar, küçələr, rabitə vasitələri və həmin hüququ həyata keçirmək üçün lazım olan başqa maddi şərait verilməklə təmin edilir.

**Maddə 93.** Zəhmətkeşlərin intereslərinə müvafiq olaraq və xalq kütlələrinin təşkilatca öz fəaliyyətini və siyasi aktivliyini inkişaf etdirmək məqsədilə Naxçıvan ASSR vətəndaşlarına ictimai təşkilatlarda: həmkarlar ittifaqlarında, kooperativ birləşmələrində, gənclər təşkilatlarında, sport və müdafiə təşkilatlarında, mədəni, texniki və elmi cəmiyyətlərdə birləşmək hüququ təmin edilir, fəhlə sinfinin və zəhmətkeşlərin başqa təbəqələrinin sıralarından olan ən aktiv və şüurlu vətəndaşlar isə, sosialist quruluşunu möhkəmləndirmək və inkişaf etdirmək uğrunda zəhmətkeşlərin mübarizəsində onların qabaqcıl dəstəsi və zəhmətkeşlərin bütün həm ictimai, həm də dövlət təşkilatlarının rəhbər yadrosu olan Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasında birləşirlər.

**Maddə 94.** Naxçıvan ASSR vətəndaşlarına şəxsiyyət toxunulmazlığı təmin edilir. Məhkəmənin qərarı və ya prokurorun sanksiyası olmadan heç kəs həbs edilə bilməz.

**Maddə 95.** Vətəndaşların mənzil toxunulmazlığı və yazışma sirri qanunla qorunur.

**Maddə 96.** Naxçıvan ASSR, zəhmətkeşlərin intereslərini müdafiə etdiklərinə, ya elmi fəaliyyətlərinə və ya milli azadlıq uğrunda mübarizələrinə görə təqib edilən xarici vətəndaşlara sığınma hüququ verir.

**Maddə 97.** Naxçıvan ASSR-in hər bir vətəndaşı Sovet Sosialist Respublikaları İttifaqının, Azərbaycan Sovet Sosialist Respublikasının və Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının Konstitusiyalarına riayət etməyə, qanunları yerinə yetirməyə, əmək intizamını gözləməyə, ictimai vəzifəyə vicdanla yanaşmağa, sosialist birgəyaşayış qaydalarına hörmət etməyə borcludur.

**Maddə 98.** Naxçıvan ASSR-in hər bir vətəndaşı, sovet quruluşunun müqəddəs və toxunulmaz əsası olan, vətənin sərvət və qüdrət mənbəyi olan, bütün zəhmətkeşlərin varlı və mədəni həyat mənbəyi olan ictimai, sosialist mülkiyyətini qorumağa və möhkəmləndirməyə borcludur.

İctimai, sosialist mülkiyyətinə qəsd edən şəxslər xalqın düşmənidirlər.

**Maddə 99.** Ümumi əsgərlik vəzifəsi bir qanundur.

Fəhlə-Kəndli Qızıl Ordusunda əsgərlik xidməti Naxçıvan ASSR vətəndaşlarının şərəfli vəzifəsidir.

**Maddə 100.** Vətəni müdafiə etmək Naxçıvan ASSR-in hər bir vətəndaşının müqəddəs borcudur. Vətənə xəyanət: andı pozmaq, düşmən tərəfinə keçmək, dövlətin hərbi qüdrətinə zərər vurmaq, şpionluq – ən ağır bir cinayət olaraq qanunun bütün şiddəti ilə cəzalandırılır.

## FƏSİL IX

## Seçki sisteması

**Maddə 101.** Bütün zəhmətkeş deputatları Sovetlərinə: Naxçıvan ASSR Baş Sovetinə, rayon, şəhər və kənd zəhmətkeş deputatları Sovetlərinə deputatlar, – seçicilər tərəfindən gizli səs verməklə ümumi, bərabər və müstəqim seçki hüququ əsası ilə seçilir.

**Maddə 102.** Deputat seçkiləri ümumidir: ağıldan məhrum olan, məhkəmə tərəfindən məhkum olunub seçki hüququndan məhrum edilmiş şəxslərdən başqa, Naxçıvan ASSR-in 18 yaşı tamam olmuş vətəndaşlarının hamısı irq və milliyyət mənsubiyyətindən, dinindən, təhsil dərəcəsindən, oturaqlığından, ictimai nəslindən, əmlak vəziyyətindən və keçmiş fəaliyyətindən asılı olmayaraq deputat seçkilərində iştirak etmək və seçilmək hüququna malikdirlər.

**Maddə 103.** Deputat seçkiləri bərabərdir: hər bir vətəndaşın bir səsi vardır; bütün vətəndaşlar seçkilərdə bərabər əsasla iştirak edirlər.

**Maddə 104.** Qadınların kişilərlə bərabər seçmək və seçilmək hüququ vardır.

**Maddə 105.** Qızıl Ordu sıralarında olan vətəndaşların bütün vətəndaşlarla bərabər seçmək və seçilmək hüququ vardır.

**Maddə 106.** Deputat seçkiləri müstəqimdir: kənd və şəhər zəhmətkeş deputatları Sovetindən başlayaraq Naxçıvan ASSR Baş Sovetinin özünə qədər bütün zəhmətkeş deputatları Sovetlərinə seçkilər vətəndaşlar tərəfindən bilavasitə müstəqim seçki yolu ilə icra edilir.

**Maddə 107.** Deputat seçkilərində səsvermə gizlidir.

**Maddə 108.** Naxçıvan ASSR zəhmətkeş deputatları Sovetinə seçkilər seçki okruqlarında aşağıdakı normalarla keçirilir:

rayon Sovetinə – 1.000 nəfər əhalidən bir deputat;

25.000 nəfərə qədər əhalisi olan rayonda 25 deputat seçilir; 60.000 nəfərdən çox əhalisi olan rayonda 60 deputat seçilir;

şəhər Sovetinə, şəhərin böyüklüyündən asılı olaraq – ən azı 350 və ən çoxu 500 nəfər əhalidən bir deputat; 12.000 nəfərə qədər əhalisi olan şəhərdə 35 deputat seçilir;

kənd və posyolok Sovetinə – 100 nəfər əhalidən bir deputat; 1.000 nəfərə qədər əhalisi olan kəndlərdə və posyoloklarda 9 deputat seçilir; 2.500-dən yuxarı əhali olduqda – ən çoxu 25 deputat seçilir.

Hər bir rayon, şəhər, kənd və posyolok zəhmətkeş deputatları Soveti üçün seçki normaları, həmin maddədə göstərilən seçki normaları daxilində, "Naxçıvan ASSR zəhmətkeş deputatları Sovetlərinə seçkilərə dair Əsasnamə" ilə müəyyən edilir.

**Maddə 109.** Seçkilərdə kandidatlar seçki okruqları üzrə göstərilir.

Kandidat göstərmək hüququ ictimai təşkilatlar və zəhmətkeş cəmiyyətləri üçün: kommunist partiya təşkilatları, həmkarlar ittifaqları, kooperativlər, gənclər təşkilatları, mədəni cəmiyyətlər üçün təmin edilir.

**Maddə 110.** Hər bir deputat öz işi haqqında və zəhmətkeş deputatları Sovetinin işi haqqında seçicilər qarşısında hesabat verməyə borcludur və seçicilərin çoxluğunun qərarı ilə, qanunda müəyyən edilmiş qayda üzrə hər bir zaman geri çağırıla bilər.

## FƏSİL X

## Qerb, flaq, paytaxt

**Maddə 111.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət qerbi Azərbaycan SSR-in dövlət qerbindən ibarətdir ki, bu da üzərində azərbaycan və rus dillərində: "Azərbaycan Sovet Sosialist Respublikası" və "Bütün ölkələrin proletarları, birləşin!" sözləri yazılmış və doğmaqda olan günəş fonu üzərində təsvir edilib pambıq və sünbül əklili ilə haşiyələnmiş oraq və çəkicdən və qabaq planda neft vışkasından ibarət olaraq, qerbin yuxarısında beş bucaqlı ulduz vardır, qerbin aşağısında lenta üzərində kiçik hərflərlə azərbaycan və rus dillərində "Naxçıvan ASSR" sözləri yazılmışdır.

**Maddə 112.** Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət flaqı Azərbaycan SSR-in dövlət flaqından ibarətdir ki, bu da sol bucağında, flaq ağacı yanında yuxarıda, qızılla oraq və çəkic çəkilmiş və azərbaycan dilində "AzSSR" sözləri yazılmış və "AzSSR" yazısı altında kiçik hərflərlə azərbaycan dilində "Naxçıvan ASSR" sözləri əlavə edilmiş qırmızı qumaşdan ibarətdir.

**Maddə 113.** Naxçıvan ASSR-in paytaxtı Naxçıvan-Araz şəhəridir.

## FƏSİL XI

### Konstitusiyanı dəyişdirmək qaydası

**Maddə 114.** Naxçıvan ASSR Konstitusiyası, Naxçıvan ASSR Baş Sovetinin, Baş Sovet səslərinin üçdə iki hissəsindən az olmayan çoxluğunun qəbul etdiyi qərarı və Azərbaycan SSR Baş Sovetinin təsdiqi ilə dəyişdirilə bilər.

## Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1978-ci il Konstitusiyası

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda hakimiyyətə gəlməsindən sonra respublikada aparılan sürətli inkişaf xətti siyasi-hüquqi sahəyə də öz müsbət təsirini göstərdi. Bu inkişafın nəticəsi olaraq 1978-ci il aprelin 21-də Azərbaycan SSR Ali Sovetinin doqquzuncu çağırış növbədənkənar yeddinci sessiyasında sovet Azərbaycanının sayca sonuncu, dördüncü və ən kamil Konstitusiyası [70, s. 58-85] qəbul edildi. 11 bölmə, 22 fəsil və 185 maddədən ibarət olan Konstitusiya 1977-ci il oktyabrın 7-də SSRİ-nin üçüncü Konstitusiyasının qəbul edilməsindən sonra hazırlanıb təsdiqlənmişdi.

1978-ci il Azərbaycan Konstitusiyasında Naxçıvan MSSR barədə ayrı-ayrı maddələrdə hüquqi normaların olması ilə yanaşı, bu Əsas Qanunun 8-ci fəsli (maddə 79-82) “Naxçıvan Muxtar Sovet Sosialist Respublikası”, 15-16-cı fəsilləri əhatə edən VI bölməsi (maddə 131-136) “Naxçıvan MSSR-in dövlət hakimiyyəti və idarə orqanları”adlanırdı.

1978-ci il mayın 30-da Naxçıvan MSSR Ali Soveti Azərbaycan SSR-in dördüncü Konstitusiyasının əsasında 10 bölmə, 16 fəsil, 163 maddədən ibarət olan Naxçıvan MSSR Konstitusiyasını qəbul etdi. Muxtar respublikanın üçüncü Konstitusiyası əvvəlki Əsas Qanunlardan həm öz strukturuna, həm də dövlət idarəçiliyinin ən müxtəlif sahələrinin əhatə olunduğu hüquqi normaların məzmununa görə daha təkmil idi. Fərqlərdən biri bu Əsas Qanunda əvvəlki iki Konstitusiyada olmayan preambula hissəsinin mövcudluğu idi. Cəmi bir cümlədən ibarət olan preambulada bəyan edilirdi ki, “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının xalqı elmi kommunizm ideyalarını rəhbər tutaraq, bütün sovet xalqının ayrılmaz hissəsi olduğunu dərk edərək, SSR İttifaqı Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olaraq bu Konstitusiyanı qəbul və elan edir” [41, s. 3].

Əvvəlki Əsas Qanundan fərqli olaraq, 1978-ci il Konstitusiyasında ayrı-ayrı fəsillər bölmələrdə birləşdirilmişdi. Konstitusiyada Naxçıvan MSSR-in sosialist ümumxalq dövləti olması, bütün hakimiyyətin xalqa məxsusluğu, dövlət hakimiyyətinin xalq tərəfindən muxtar respublikanın siyasi əsası olan sovetlər vasitəsilə həyata keçirilməsi, iqtisadi sisteminin əsasını istehsal vasitələri üzərində sosialist mülkiyyətinin təşkil etməsi, iqtisadi və sosial inkişafın dövlət planları əsasında həyata keçirilməsi və s. kimi məsələlər öz əksini tapmışdı. Konstitusiya yeni mülki və siyasi hüquqları: vəzifəli şəxslərin hərəkətlərindən şikayət vermək hüququnu, şərəf və ləyaqətə qarşı qəsdlərdən məhkəmə müdafiəsi hüququnu, qanun və qərarların qəbul edilməsində iştirak hüququnu, sağlamlığın mühafizəsi hüququnu, mədəniyyət nailiyyətlərindən istifadə hüququnu, dövlət və ictimai təşkilatların hərəkətlərini tənqid etmək hüququnu və s. nəzərdə tuturdu.

İlk dəfə məhz bu Konstitusiyada sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, qanun və qərarların qəbul edilməsində iştirak hüququ, şərəf və ləyaqətin məhkəmə yolu ilə müdafiəsi hüququ, elmi, texniki və bədii yaradıcılıq azadlığı, habelə ailənin dövlət tərəfindən müdafiə edilməsi haqqında hüquqi norma təsbit edildi. Azərbaycan Konstitusiyasında

olduğu kimi, ilk dəfə olaraq siyasi sistem, sosial inkişaf və mədəniyyət, xalq deputatının statusu, Naxçıvan MSSR vətəndaşlığı kimi fəsillər, habelə Naxçıvan MSSR-in milli dövlət və inzibati ərazi quruluşu adlı ayrıca bölmə (6-7-ci fəsillər) əks etdirilmişdi. Naxçıvan MSSR-in üçüncü Konstitusiyası ali dövlət hakimiyyəti və idarəetmə orqanlarının təşkili və fəaliyyətində də bir sıra dəyişikliklər etmişdi. Konstitusiyada muxtar respublika hökumətinin – Nazirlər Kabinetinin tərkibinə daxil olan nazirlik, komitə və idarələrin konkret siyahısı göstərilmirdi. Bu Konstitusiya 1937-ci il Konstitusiyasından fərqli olaraq rus dilindən götürülmüş terminlərdən də təmizlənərək, Azərbaycan dilində daha aydın başa düşülən, təkmil şəkildə hazırlanmışdı.

Konstitusiya Naxçıvan MSSR-in fəhlələrin, kəndlilərin və ziyalıların, bütün millətlərdən olan zəhmətkeşlərin iradə və mənafeyini ifadə edən sosialist ümumxalq dövləti olduğunu, bütün hakimiyyətin xalqa məxsus olduğunu elan edirdi. Xalq dövlət hakimiyyətini Naxçıvan MSSR-in siyasi əsası olan və bütün başqa dövlət orqanlarına nəzarəti həyata keçirən xalq deputatları Sovetləri vasitəsi ilə həyata keçirirdi. Kommunist Partiyasını "sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi sisteminin, dövlət və ictimai təşkilatlarının özəyi" olduğunu hüquqi norma kimi təsbit etməklə Sov.İKP-nin cəmiyyətdə hegemon roluna konstitusion status verirdi. Həmkarlar ittifaqları, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı (ÜİLKGİ), kooperativ təşkilatları və başqa ictimai təşkilatlar dövlət və cəmiyyət işlərinin idarə olunmasında iştirak edirdilər.

Naxçıvan MSSR-in iqtisadi sisteminin əsasını dövlət (ümumxalq) və kolxoz-kooperativ mülkiyyəti formasında istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil edirdi. Dövlət mülkiyyəti bütün sovet xalqının ümumi sərvəti, sosialist mülkiyyətinin əsas forması idi. Torpaq və yerin təki, sular, meşələr dövlətin müstəsna mülkiyyəti elan edilirdi. Kolxozlar və başqa kooperativ təşkilatların istifadəsində olan istehsal vasitələri və başqa əmlak kollektiv mülkiyyət hesab olunurdu. Vətəndaşların şəxsi mülkiyyətinin əsasını əməkli gəlir təşkil edirdi. Şəxsi mülkiyyətdə məişət avadanlığı, şəxsi istehlak və rahatlıq şeyləri, yardımçı ev təsərrüfatı şeyləri, yaşayış evi və əməklə qazanılmış vəsait yığımı bu gəlirə daxil idi.

Konstitusiyada sosializmin "Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipi sanksiyalaşdırılır və bu prinsipə uyğun olaraq dövlət əmək və istehlak ölçüsünə nəzarət edir, vergi tutulmalı olan gəlirdən verginin miqdarını müəyyənləşdirirdi. Mərkəzləşdirilmiş qaydada idarə olunan planlı iqtisadiyyat konstitusion norma kimi təsbit edilirdi.

Əsas Qanun Naxçıvan MSSR-in sosial əsasını fəhlələrin, kəndlilərin və ziyalıların sarsılmaz ittifaqının təşkil etdiyini bildirir, "Hər kəsin azad inkişafı hamının azad inkişafı üçün şərtdir" idealını irəli sürürdü.

Konstitusiya dövlətlə şəxsiyyət arasındakı münasibətləri də tənzimləyirdi. Vahid vətəndaşlıq prinsipinə əsasən Naxçıvan MSSR-in hər bir vətəndaşı Azərbaycan və SSR İttifaqı vətəndaşı sayılır, SSRİ-yə daxil olan bütün müttəfiq respublikaların vətəndaşları muxtar respublika ərazisində Naxçıvan MSSR vətəndaşları ilə eyni hüquqa malik olurdular. Mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən və digər hallardan asılı olmayaraq bütün vətəndaşlar qanun qarşısında bərabər elan olunurdu. Qadınlar kişilərlə bərabər hüquqlara malik idilər.

Konstitusiyanın ən geniş işlənmiş fəsli Naxçıvan MSSR vətəndaşlarının əsas hüquq və azadlıqlarını, vəzifələrini müəyyənləşdirən 5-ci fəsli idi. Naxçıvan MSSR vətəndaşları SSRİ, Azərbaycan SSR, Naxçıvan MSSR konstitusiyalarında və sovet qanunlarında elan edilən və təminat verilən bütün sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlara bütünlüklə malik idilər. Konstitusiyada vətəndaşların əsas mülki hüquq və azadlıqları kimi əmək hüququ, istirahət hüququ, sağlamlığın mühafizəsi hüququ, mənzil hüququ, təhsil hüququ, mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququ, qocaldıqda, xəstələndikdə, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə maddi təminat hüququ, ictimai təşkilatlarda birləşmək hüququ, elmi, texniki və bədii yaradıcılıq azadlığı, vicdan azadlığı öz əksini tapmışdı. Vicdan azadlığı vətəndaşların hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququnun təmin olunmasını, dini etiqadla əlaqədar ədavət və nifrət oyatmağın qadağan edilməsini nəzərdə tuturdu. Naxçıvan MSSR-də məscid və kilsənin dövlətdən, məktəbin məsciddən və kilsədən ayrıldığı bildirilirdi.

Bunlardan əlavə, Konstitusiya Naxçıvan MSSR vətəndaşlarının şəxsiyyət və mənzil toxunulmazlığına, şəxsi həyatın, yazışmanın, telefon danışıqlarının və teleqraf rabitəsi sirrinin qanunla qorunmasına təminat verirdi. Vətəndaşların şəxsiyyətinə hörmət etmək, hüquq və azadlıqlarını qorumaq bütün dövlət orqanlarının, ictimai təşkilatlarının və vəzifəli şəxslərin borcu elan edilirdi. Vətəndaşlar onların şərəfinə və ləyaqətinə, həyatına və sağlamlığına, şəxsi azadlığına və əmlakına qəsdlərdən məhkəmə yolu ilə müdafiə olunmaq hüququna malik idilər. Əsas Qanun Naxçıvan MSSR vətəndaşlarına vəzifəli şəxslərin, dövlət orqanlarının və ictimai orqanların hərəkətlərindən şikayət etmək hüququnu tanıyırdı.

Əsas Qanun hüquq və azadlıqların həyata keçirilməsini vətəndaşın öz vəzifələrini icra etməsindən ayrılmaz sayırdı. Naxçıvan MSSR vətəndaşları SSRİ, Azərbaycan SSR, Naxçıvan MSSR konstitusiyalarına və sovet qanunlarına əməl etməyə, sosialist birgəyaşayış qaydalarına hörmət etməyə, sovet vətəndaşı adını ləyaqətlə daşımağa borclu idilər. Seçdiyi ictimai faydalı fəaliyyət sahəsində vicdanla işləmək, əmək intizamına əməl etmək əmək qabiliyyətli hər bir vətəndaşın borcu və şərəf işi hesab olunurdu. Sosialist mülkiyyətini qorumaq və möhkəmləndirmək,dövlət əmlakının və ictimai əmlakın oğurlanmasına və israf edilməsinə qarşı mübarizə aparmaq, xalq malına qayğı ilə yanaşmaq, sovet dövlətinin mənafeyini qorumaq, onun qüdrət və nüfuzunun möhkəmləndirilməsinə kömək etmək, Vətəni müdafiə etmək vətəndaşların konstitusion vəzfələrindən idi. Vətənə xəyanət xalq qarşısında ən ağır cinayət sayılırdı.

Başqa vətəndaşların milli ləyaqətinə hörmət etmək, çoxmillətli sovet dövlətinin millətləri və xalqları arasında dostluğu möhkəmlətmək hər bir vətəndaşının borcu hesab edilir, digər şəxslərin hüquqlarına və qanuni mənafeyinə hörmət etmək, cəmiyyətə zidd hərəkətlərə qarşı barışmaz olmaq, ictimai asayişin qorunmasına hər vasitə ilə kömək etmək zəruri sayılırdı. Uşaqların tərbiyəsinə qayğı göstərmək, onları ictimai faydalı əməyə hazırlamaq, cəmiyyətin layiqli üzvləri kimi yetişdirmək, övladların öz valideyinlərinin qayğısına qalması və onlara yardım göstərməsi də vətəndaşların Konstitusiyada əks olunmuş vəzifələri sırasına daxil idi. Bundan başqa, təbiəti qorumaq, onun sərvətlərini mühafizə etmək, tarixi abidələrin və digər

mədəniyyət sərvətlərinin mühafizəsi qayğısına qalmaq vətəndaşların borcu və vəzifəsi, başqa ölkələrin xalqları ilə dostluğun və əməkdaşlığın inkişafına, ümumi sülhün qorunmasına və möhkəmlənməsinə kömək etmək Naxçıvan MSSR vətəndaşının beynəlmiləl borcu idi.

İlk dəfə olaraq muxtar respublikanın üçüncü Konstitusiyasına "Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublikadır" adlı ayrıca (6-cı) fəsil artırılmışdı. 64-cü maddədə göstərilirdi ki, "Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində sovet sosialist dövlətidir". 66-cı maddədə qeyd edilirdi ki, "Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz".

Konstitusiya SSRİ və Azərbaycan SSR qanunlarını Naxçıvan MSSR ərazisində məcburi qüvvəyə malik olduğunu elan edirdi.

Naxçıvan MSSR-in tərkibində Babək, İliç, Ordubad, Culfa, Şahbuz rayonları və respublika tabeliyində olan Naxçıvan, Ordubad və Culfa şəhərləri var idi.

Konstitusiyanın IV bölməsinə xalq deputatları sovetlərinin sistemi və fəaliyyət prinsipləri, seçki sistemi və xalq deputatının statusu ilə bağlı hüquqi normalar daxil edilmişdi. Naxçıvan MSSR Ali Sovetinin vəkalət müddəti 5 il, yerli xalq deputatları Sovetlərinin vəkalət müddəti 2,5 idi.

Seçkilər gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilirdi. Qanunla müəyyən olunmuş qaydada ağıldan məhrum hesab edilən şəxslər istisna olmaqla, 18 yaşına çatmış bütün vətəndaşlara seçmək və seçilmək hüququ tanınırdı. Deputatlığa namizədləri irəli sürmək hüququ Sov.İKP, həmkarlar ittifaqları, ÜLKGİ təşkilatlarına, kooperativ təşkilatlarına və başqa ictimai təşkilatlara, əmək kollektivlərinə, habelə hərbi qulluqçuların yığıncaqlarına məxsus idi. Seçicilərin etimadını doğrultmayan deputat qanunla müəyyən edilmiş qaydada, seçicilərin əksəriyyətinin qərarı ilə istənilən vaxt geri çağırıla bilərdi.

Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanı əhalisinin sayı bərabər olan seçki dairələri üzrə 110 deputatdan ibarət tərkibdə seçilən Naxçıvan MSSR Ali Soveti idi. Naxçıvan MSSR-dən Azərbaycan SSR Ali Sovetinə isə 18 deputat seçilirdi. 1970-1985-ci illərdə Naxçıvan MSSR Ali Sovetinə 4 dəfə seçkilər keçirilmişdi [62, s. 22-31].

İldə iki dəfə çağırılan Naxçıvan MSSR Ali Soveti öz daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və özünün sessiyaları arasındakı dövrdə ali dövlət hakimiyyəti orqanının funksiyalarını həyata keçirən Rəyasət Heyətini seçirdi. Ali Sovetin Rəyasət Heyəti deputatlar içərisindən sədrdən, sədrin iki müavinindən, katibdən və beş üzvündən ibarət tərkibdə seçilirdi. Ali Sovet ona hesabat verməli olan bütün dövlət orqanlarının fəaliyyətinə nəzarət edir, xalq nəzarəti orqanları sisteminə başçılıq edən Naxçıvan MSSR Xalq Nəzarəti Komitəsini təşkil edirdi.

Naxçıvan MSSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Naxçıvan MSSR Ali Sovetinin daimi və digər komissiyalarına, Naxçıvan MSSR Ali Sovetinin deputatlarına, Naxçıvan MSSR Ali Məhkəməsinə, Naxçıvan MSSR Prokuroruna məxsus idi. İctimai təşkilatlara da öz respublika orqanlarının simasında qanunvericilik təşəbbüsü hüququ tanınırdı.

Naxçıvan MSSR Nazirlər Soveti – Naxçıvan MSSR Hökuməti muxtar respublikada dövlət hakimiyyətinin ali icra və sərəncam orqanı idi. Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti tərəfindən Nazirlər Sovetinin Sədrindən, Sədrin birinci müavinindən və müavinlərindən, nazirlərdən, dövlət komitələrinin sədrlərindən və respublikanın Ali Soveti tərəfindən təşkil olunan başqa dövlət idarə orqanlarının rəhbərlərindən ibarət tərkibdə təşkil edilirdi. Naxçıvan MSSR Nazirlər Sovetinin daimi orqanı Nazirlər Sovetinin Sədrindən, onun birinci müavinindən və müavinlərindən, hökumətin başqa üzvlərindən ibarət tərkibdə təşkil olunan Nazirlər Sovetinin Rəyasət Heyəti idi.

Rayonlarda, şəhərlərdə, qəsəbələrdə, kənd yaşayış məntəqələrində dövlət hakimiyyəti orqanları ildə azı dörd dəfə çağrılan müvafiq xalq deputatları Sovetləri idi. Yerli xalq deputatları Sovetləri özlərinin icraiyyə komitələrini seçirdilər.

Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planı Azərbaycan SSR-in dövlət iqtisadi və sosial inkişaf planının tərkib hissəsi elan edilirdi. Naxçıvan MSSR dövlət büdcəsi Azərbaycan SSR-in vahid dövlət büdcəsinin tərkib hissəsi hesab edilir, muxtar respublika büdcəsini və yerli büdcələri birləşdirirdi.

1937-ci il Əsas Qanununda məhkəmə və prokratura orqanları ilə bağlı hüquqi normalar eyni fəsildə öz əksini tapmışdısa, 1978-ci il Konstitusiyasında "Məhkəmə və arbitraj" və "Prokratura" ilə bağlı məsələlərə ayrı-ayrı fəsillər həsr olunmuşdu. Naxçıvan MSSR-də ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilirdi. Naxçıvan MSSR məhkəmələri Naxçıvan MSSR Ali Məhkəməsi, rayon (şəhər) xalq məhkəmələri idi. Naxçıvan MSSR Ali Məhkəməsi muxtar respublikanın ali məhkəmə orqanı olub digər məhkəmələrin fəaliyyətinə nəzarət edirdi.

Məhkəmə hökmü olmadan və qanun əsas götürülmədən heç kəsin cinayət etməkdə müqəssir sayılmasına və cəzaya məhkum olunmasına yol veriımirdi. Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün vəkillər kollegiyası fəaliyyət göstərirdi.

Naxçıvan MSSR Prokuroru SSRİ Baş prokuroru tərəfindən təyin edilirdi. Rayon və şəhər prokurorları Azərbaycan SSR Prokuroru tərəfindən təyin olunur və SSRİ Baş prokuroru tərəfindən təsdiq edilirdilər. Naxçıvan MSSR Prokurorunun və bütün aşağı prokurorların vəkalət müddəti beş il idi.

Naxçıvan MSSR-in Dövlət gerbi Azərbaycan SSR-in Dövlət gerbi, Naxçıvan MSSR-in Dövlət bayrağı Azərbaycan SSR-in Dövlət bayrağı idi. Yalnız gerbin aşağısındakı lentin üzərində Azərbaycan dilində "Naxçıvan MSSR" və rus dilində "Нахичеванская АССР" sözləri, bayraqdakı oraq və çəkic şəklinin altında Azərbaycan dilində qızıl hərflərlə "Naxçıvan MSSR" sözləri yazılırdı.

Naxçıvan MSSR-in paytaxtı Naxçıvan şəhəri idi.

Naxçıvan MSSR-in bütün qanunları və dövlət orqanlarının digər aktları Konstitusiyaya əsasən və ona uyğun olaraq verilirdi. Konstitusiya Naxçıvan MSSR Ali Sovetinin deputatlarının azı 2/3 hissəsindən ibarət çoxluğu tərəfindən qəbul edilən qərarla dəyişdirilə bilərdi.

## KONSTİTUSİYANIN STRUKTURU*

**PREAMBULA**

**I. NAXÇIVAN MSSR-in İCTİMAİ QURULUŞUNUN VƏ SİYASƏTİNİN ƏSASLARI** (maddə 1-27)

1-ci fəsil. Siyasi sistem (maddə 1-9)

2-ci fəsil. İqtisadi sistem (maddə 10-18)

3-cü fəsil. Sosial inkişaf və mədəniyyət (maddə 19-27)

**II. DÖVLƏT VƏ ŞƏXSİYYƏT** (maddə 28-63)

4-cü fəsil.Naxçıvan MSSR vətəndaşlığı.Vətəndaşların hüquq bərabərliyi (maddə 28-32)

5-ci fəsil. Naxçıvan MSSR vətəndaşlarının əsas hüquqları, azadlıqları və vəzifələri (maddə 33-63)

**III. NAXÇIVAN MSSR-in MİLLİ DÖVLƏT VƏ İNZİBATİ ƏRAZİ QURULUŞU** (maddə 64-72)

6-cı fəsil. Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublikadır (maddə 64-70)

7-ci fəsil. Naxçıvan MSSR-in inzibati ərazi quruluşu (maddə 71-72)

**IV. NAXÇIVAN MSSR XALQ DEPUTATLARI SOVETLƏRİ VƏ ONLARIN SEÇİLMƏSİ QAYDASI** (maddə 73-91)

8-ci fəsil. Xalq deputatları Sovetlərinin sistemi və fəaliyyət prinsipləri (maddə 73-78)

9-cu fəsil. Seçki sistemi (maddə 79-86)

10-cu fəsil. Xalq deputatı (maddə 87-91)

**V. NAXÇIVAN MSSR-in ALİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI** (maddə 92-118)

11-ci fəsil. Naxçıvan MSSR Ali Soveti (maddə 92-109)

12-ci fəsil. Naxçıvan MSSR Nazirlər Soveti (maddə 110-118)

**VI. NAXÇIVAN MSSR-də YERLİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI** (maddə 119-133)

13-cü fəsil. Yerli xalq deputatları Sovetləri (maddə 119-126)

14-cü fəsil. Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri (maddə 127-133)

**VII. NAXÇIVAN MSSR DÖVLƏT İQTİSADİ VƏ SOSİAL İNKİŞAF PLANI. NAXÇIVAN MSSR DÖVLƏT BÜDCƏSİ** (maddə 134-141)

**VIII. ƏDALƏT MÜHAKİMƏSİ, ARBİTRAJ VƏ PROKUROR NƏZARƏTİ** (maddə 142-158)

15-ci fəsil. Məhkəmə və arbitraj (maddə 142-154)

16-cı fəsil. Prokurorluq (maddə 155-158)

**IX. NAXÇIVAN MSSR-in GERBİ, BAYRAĞI VƏ PAYTAXTI** (maddə 159-161)

**X. NAXÇIVAN MSSR KONSTİTUSİYASININ QÜVVƏDƏ OLMASI VƏ ONU DƏYİŞDİRMƏK QAYDASI** (maddə 162-163)

---

***Konstitusiyanın 1982-ci ildə Azərnəşr tərəfindən dərc edilmiş mətni verilir.***

# NAXÇIVAN MUXTAR SOVET SOSİALİST RESPUBLİKASININ KONSTİTUSİYASI (ƏSAS QANUNU)

***1978-ci il mayın 30-da IX çağırış Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar səkkizinci sessiyasında qəbul edilmişdir***

Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının xalqı elmi kommunizm ideyalarını rəhbər tutaraq, bütün sovet xalqının ayrılmaz hissəsi olduğunu dərk edərək, SSR İttifaqı Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olaraq bu Konstitusiyanı qəbul və elan edir.

## I

## NAXÇIVAN MSSR-in İCTİMAİ QURULUŞUNUN VƏ SİYASƏTİNİN ƏSASLARI

### 1-Cİ FƏSİL

### Siyasi sistem

**Maddə 1.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikası fəhlələrin, kəndlilərin və ziyalıların, respublikanın bütün millətlərdən olan zəhmətkeşlərinin iradə və mənafeyini ifadə edən sosialist ümumxalq dövlətidir.

**Maddə 2.** Naxçıvan MSSR-də bütün hakimiyyət xalqa məxsusdur.

Xalq dövlət hakimiyyətini Naxçıvan MSSR-in siyasi əsası olan xalq deputatları Sovetləri vasitəsi ilə həyata keçirir.

Bütün başqa dövlət orqanları xalq deputatları Sovetlərinin nəzarəti altındadır və onlara hesabat verirlər.

**Maddə 3.** Sovet dövlətinin təşkili və fəaliyyəti demokratik mərkəziyyət prinsipinə: aşağıdan yuxarıyadək bütün dövlət hakimiyyəti orqanlarının seçkili olması, onların xalqa hesabat verməsi, yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün məcburi olması prinsipinə uyğun surətdə qurulur. Demokratik mərkəziyyət vahid rəhbərliyi yerlərdəki təşəbbüskarlıq və yaradıcı fəallıqla, hər bir dövlət orqanının və vəzifəli şəxsin tapşırılan iş üçün məsuliyyəti ilə əlaqələndirilir.

**Maddə 4.** Sovet dövləti, onun bütün orqanları sosialist qanunçuluğu əsasında fəaliyyət göstərir, hüquq qaydalarının, cəmiyyətin mənafeyinin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasını təmin edirlər.

Dövlət təşkilatları və ictimai təşkilatlar, vəzifəli şəxslər SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına, Naxçıvan MSSR Konstitusiyasına və sovet qanunlarına əməl etməyə borcludurlar.

**Maddə 5.** Dövlət həyatının ən vacib məsələləri ümumxalq müzakirəsinə verilir, habelə ümumxalq səsverməsinə (referenduma) qoyulur.

**Maddə 6.** Sovet cəmiyyətinin rəhbər və istiqamətverici qüvvəsi, onun siyasi

sisteminin, dövlət və ictimai təşkilatlarının özəyi Sovet İttifaqı Kommunist Partiyasıdır. Sov.İKP xalq üçün yaşayır və xalqa xidmət edir.

Marksizm-leninizm təlimi ilə silahlanmış Kommunist Partiyası cəmiyyətin inkişafının baş perspektivini, SSRİ-nin daxili və xarici siyasət xəttini müəyyən edir, sovet xalqının böyük quruculuq fəaliyyətinə rəhbərlik edir, kommunizmin qələbəsi uğrunda onun mübarizəsinə planauyğun, elmi cəhətdən əsaslandırılmış xarakter verir.

Bütün partiya təşkilatları SSRİ Konstitusiyası dairəsində fəaliyyət göstərirlər.

**Maddə 7.** Həmkarlar ittifaqları, Ümumittifaq Lenin Komunist Gənclər İttifaqı, kooperativ təşkilatları və başqa ictimai təşkilatlar öz nizamnamə vəzifələrinə uyğun olaraq dövlət işlərinin və ictimai işlərin idarə olunmasında, siyasi məsələlərin, təsərrufat məsələlərinin və sosial-mədəni məsələlərin həllində iştirak edirlər.

**Maddə 8.** Əmək kollektivləri dövlət işlərinin və ictimai işlərin müzakirəsində və həllində, istehsalın və sosial inkişafın planlaşdırılmasında, kadrların hazırlanması və yerləşdirilməsində, müəssisə və idarələri idarə etmək, əmək və məişət şəraitini yaxşılaşdırmaq, istehsalın inkişafı üçün, habelə sosial-mədəni tədbirlər və maddi həvəsləndirmə üçün nəzərdə tutulan vəsaitdən istifadə etmək məsələlərinin müzakirəsində və həllində iştirak edirlər.

Əmək kollektivləri sosializm yarışını inkişaf etdirir, qabaqcıl iş metodlarının yayılmasına, əmək intizamının möhkəmləndirilməsinə kömək edir, öz üzvlərini kommunist əxlaqı ruhunda tərbiyələndirir, onların siyasi şüurluluğunu, mədəniyyətini və peşə ixtisasını yüksəltmək qayğısına qalırlar.

**Maddə 9.** Sovet cəmiyyətinin siyasi sisteminin inkişafında əsas istiqamət sosialist demokratiyasının daha da genişləndirilməsindən: dövlət və cəmiyyət işlərinin idarə olunmasında vətəndaşların getdikcə daha geniş iştirak etməsindən, dövlət aparatının təkmilləşdirilməsindən, ictimai təşkilatların fəallığının artırılmasından, xalq nəzarətinin gücləndirilməsindən, dövlət həyatının və ictimai həyatın hüquqi əsasının möhkəmləndirilməsindən, aşkarlığın genişləndirilməsindən, ictimai rəyin daim nəzərə alınmasından ibarətdir.

## 2-Cİ FƏSİL

### İqtisadi sistem

**Maddə 10.** Naxçıvan MSSR-in iqtisadi sisteminin əsasını dövlət (ümumxalq) və kolxoz-kooperativ mülkiyyəti formasında istehsal vasitələri üzərində sosialist mülkiyyəti təşkil edir.

Həmkarlar ittifaqları təşkilatlarına və başqa ictimai təşkilatlara öz nizamnamə vəzifələrini yerinə yetirmək üçün lazım olan əmlak da sosialist mülkiyyətidir.

Dövlət sosialist mülkiyyətini mühafizə edir və onun artırılması üçün şərait yaradır.

Sosialist mülkiyyətindən şəxsi qazanc və başqa tamah məqsədi ilə istifadə etməyə hec kəsin haqqı yoxdur.

**Maddə 11.** Dövlət mülkiyyəti bütün sovet xalqının ümumi sərvətidir, sosialist mülkiyyətinin əsas formasıdır.

Torpaq və yerin təki, sular, meşələr dövlətin müstəsna mülkiyyətidir. Sənayedə, tikintidə və kənd təsərrüfatında əsas istehsal vasitələri, nəqliyyat və rabitə vasitələri, banklar, dövlət tərəfindən təşkil edilmiş ticarət və kommunal müəssisələrinin, başqa müəssisələrin əmlakı, şəhərlərin əsas mənzil fondu, habelə dövlətin vəzifələrinin həyata keçirilməsi üçün lazım olan başqa əmlak dövlətə məxsusdur.

**Maddə 12.** Kolxozların və başqa kooperativ təşkilatlarının, onların birliklərinin mülkiyyəti istehsal vasitələrindən və onlara öz nizamnamə vəzifələrini yerinə yetirmək üçün lazım olan başqa əmlakdan ibarətdir.

Kolxozların ixtiyarında olan torpaq pulsuz və müddətsiz istifadə üçün onlara təhkim edilir.

Dövlət kolxoz-kooperativ mülkiyyətinin inkişafına və onun dövlət mülkiyyətinə yaxınlaşmasına kömək edir.

Kolxozlar, eləcə də torpağın başqa istifadəçiləri torpaqdan səmərəli istifadə etməli, ona qayğı ilə yanaşmalı, onun münbitliyini artırmalıdırlar.

**Maddə 13.** Naxçıvan MSSR vətəndaşlarının şəxsi mülkiyyətinin əsasını əməkli gəlir təşkil edir. Şəxsi mülkiyyətdə məişət avadanlığı, şəxsi istehlak və rahatlıq şeyləri, yardımçı ev təsərrüfatı şeyləri, yaşayış evi və əməklə qazanılmış vəsait yığımı ola bilər. Vətəndaşların şəxsi mülkiyyəti və ona vərəsəlik hüququ dövlət tərəfindən mühafizə olunur.

Vətəndaşların istifadəsində yardımçı təsərrüfat üçün (o cümlədən mal-qara və quş saxlamaq üçün), bağçılıq və bostançılıq, habelə fərdi mənzil tikintisi üçün qanunla müəyyən edilmiş qaydada verilən torpaq sahələri ola bilər. Vətəndaşlar onlara verilən torpaq sahələrindən səmərəli istifadə etməlidirlər. Dövlət və kolxozlar yardımçı təsərrüfatın idarə olunmasında vətəndaşlara kömək edirlər.

Vətəndaşların şəxsi mülkiyyətində və ya istifadəsində olan əmlak əməksiz gəlir mənbəyi olmamalı, ondan cəmiyyətin mənafeyi zərərinə istifadə edilməməlidir.

**Maddə 14.** İctimai sərvəti artırmaq, xalqın və hər bir sovet adamımın rifahını yüksəltmək mənbəyi sovet adamlarının istismardan azad əməyidir.

Dövlət sosializmin "Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə" prinsipinə uyğun olaraq əmək və istehlak ölçüsünə nəzarət edir. Dövlət vergi tutulmalı olan gəlirdən verginin miqdarını müəyyən edir.

İctimai faydalı əmək və onun nəticələri cəmiyyətdə insanın mövqeyini müəyyən edir. Dövlət maddi və mənəvi stimulları əlaqələndirərək, yenilikçiliyə, işə yaradıcı münasibətə həvəs oyadaraq, əməyin hər bir sovet adamı üçün birinci həyati tələbata çevrilməsinə kömək edir.

**Maddə 15.** Sosializmdə ictimai istehsalın ali məqsədi adamların getdikcə artan maddi və mənəvi təlabatını ən dolğun surətdə ödəməkdən ibarətdir.

Dövlət zəhmətkeşlərin yaradıcı fəallığına, sosializm yarışına, elmi-texniki tərəqqinin nailiyyətlərinə arxalanaraq, iqtisadiyyata rəhbərlik formaları və metodlarını təkmilləşdirərək əmək məhsuldarlığının artmasını, istehsalın səmərəliliyinin və işin keyfiyyətinin yüksəldilməsini, xalq təsərrüfatının dinamik, planauyğun və proposional inkişafını təmin edir.

**Maddə 16.** Naxçıvan MSSR iqtisadiyyatı Azərbaycan SSR iqtisadiyyatının ayrılmaz hissəsidir. SSRİ ərazisində ictimai istehsalın, bölgünün və mübadilənin bütün sahələrini əhatə edən vahid xalq təsərrüfatı kompleksinin tərkib hissəsidir.

İqtisadiyyata rəhbərlik dövlət iqtisadi və sosial inkişaf planları əsasında, sahə və ərazi prinsipləri nəzərə alınmaqla, mərkəzləşdirilmiş qaydada idarəetməni müəssisələrin, birliklərin və başqa təşkilatların təsərrüfat müstəqilliyi və təşəbbüskarlığı ilə əlaqələndirmək yolu ilə həyata keçirilir. Bu zaman təsərrüfat hesabından, mənfəətdən, maya dəyərindən, digər iqtisadi vasitələrdən və stimullardan istifadə olunur.

**Maddə 17.** Naxçıvan MSSR-də kustar sənətkar peşələri, kənd təsərrüfatı, əhaliyə məişət xidməti sahəsində fərdi əmək fəaliyyətinə, habelə yalnız vətəndaşların və onların ailə üzvlərinin şəxsi əməyinə əsaslanan başqa fəaliyyət növlərinə qanunla yol verilir. Dövlət fərdi əmək fəaliyyətini nizama salır, ondan cəmiyyətin xeyrinə istifadə olunmasını təmin edir.

**Maddə 18.** İndiki nəslin və gələcək nəsillərin xeyrinə olaraq Naxçıvan MSSR-də torpağın, yerin təkinin, su ehtiyatlarının, bitkilər və heyvanlar aləminin mühafizəsi, bunlardan elmi cəhətdən əsaslandırılmış qaydada, səmərəli istifadə olunması, havanın və suyun təmizliyinin qorunması, təbii sərvətlərin bərpasının təmin edilməsi və insanı əhatə edən mühitin yaxşılaşdırılması üçün lazımi tədbirlər görülür.

## 3-CÜ FƏSİL

### Sosial inkişaf və mədəniyyət

**Maddə 19.** Naxçıvan MSSR-in sosial əsasını fəhlələrin, kəndlilərin və ziyalıların sarsılmaz ittifaqı təşkil edir.

Dövlət cəmiyyətin sosial yekcinsliyinin güclənməsinə – sinfi fərqlərin, şəhərlə kənd, əqli əməklə fiziki əmək arasında mühüm fərqlərin silinməsinə, SSRİ-nin bütün millətləri və xalqlarının hərtəfəli inkişaf etməsinə və bir-birinə yaxınlaşmasına kömək edir.

**Maddə 20.** Kommunizmin “Hər kəsin azad inkişafı hamının azad inkişafı üçün şərtdir” idealına uyğun olaraq dövlət öz qarşısına vətəndaşların yaradıcı qüvvə, qabiliyyət və istedadlarını tətbiq etmələri üçün, şəxsiyyətin hərtərəfli inkişafı üçün real imkanları genişləndirmək məqsədi qoyur.

**Maddə 21.** Dövlət əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi, onun elmi təşkili, xalq təsərrüfatının bütün sahələrində istehsal proseslərini kompleks mexanikləşdirmək və avtomatlaşdırmaq əsasında ağır fiziki əməyin azaldılması, sonra isə tamamilə aradan qaldırılması qayğısına qalır.

**Maddə 22.** Naxçıvan MSSR-də kənd təsərrüfatı əməyini sənaye əməyinin bir növünə çevirmək; kənd yerlərində xalq maarifi, mədəniyyət, səhiyyə, ticarət və ictimai iaşə, məişət xidməti və kommunal təsərrüfatı müəssisələri şəbəkəsini genişləndirmək; kəndləri abad qəsəbələrə çevirmək proqramı ardıcıl həyata keçirilir.

**Maddə 23.** Dövlət əmək məhsuldarlığının artması əsasında zəhmətkeşlərin əmək haqqı və real gəlir səviyyəsinin yüksəldilməsi xəttini dönmədən yeridir.

Sovet adamlarının tələbatını daha dolğun ödəmək məqsədilə ictimai istehlak fondları yaradılır. Dövlət ictimai təşkilatların və əmək kollektivlərinin geniş iştirakı ilə bu fondların artmasını və ədalətlə bölünməsini təmin edir.

**Maddə 24.** Naxçıvan MSSR-də dövlət səhiyyə, sosial təminat, ticarət və ictimai iaşə, məişət xidməti və kommunal təsərrüfatı sistemləri fəaliyyət göstərir və inkişaf edir.

Dövlət əhaliyə xidmətin bütün sahələrində kooperativ təşkilatlarının və başqa ictimai təşkilatların fəaliyyətini həvəsləndirir. O, kütləvi bədən tərbiyəsinin və idmanın inkişafına kömək edir.

**Maddə 25.** Naxçıvan MSSR-də vətəndaşların ümumtəhsil və peşə hazırlığını təmin edən, gənclərin kommunist tərbiyəsinə, mənəvi və fiziki inkişafına xidmət edən, onları əməyə və ictimai fəaliyyətə hazırlayan vahid xalq maarifi sistemi mövcuddur və təkmilləşir.

**Maddə 26.** Cəmiyyətin tələbatına müvafiq olaraq dövlət elmin planauyğun inkişafını və elmi kadrlar hazırlanmasını təmin edir, elmi tədqiqat nəticələrinin xalq təsərrüfatında və həyatın başqa sahələrində tətbiq olunmasını təşkil edir.

**Maddə 27.** Dövlət mənəvi sərvətləri mühafizə etmək və artırmaq, bunlardan sovet adamlarının mənəvi və estetik tərbiyəsi üçün, onların mədəni səviyyəsinin yüksəldilməsi üçün geniş istifadə etmək qayğısına qalır.

Naxçıvan MSSR-də peşəkar incəsənətin və bədii xalq yaradıcılığının inkişafı hər vasitə ilə həvəsləndirilir.

## II

## DÖVLƏT VƏ ŞƏXSİYYƏT

### 4-CÜ FƏSİL

### Naxçıvan MSSR vətəndaşlığı. Vətəndaşların hüquq bərabərliyi

**Maddə 28.** SSRİ-də müəyyən edilmiş vahid ittifaq vətəndaşlığına uyğun olaraq Naxçıvan MSSR-in hər bir vətəndaşı Azərbaycan SSR-in və SSR İttifaqının vətəndaşıdır.

Sovet vətəndaşlığının əldə edilməsinin və itirilməsinin əsasları və qaydası SSRİ vətəndaşlığı haqqında qanunla müəyyən olunur.

Azərbaycan SSR-in və başqa müttəfiq respublikaların vətəndaşları Naxçıvan MSSR ərazisində Naxçıvan MSSR vətəndaşları ilə eyni hüquqa malikdirlər.

Naxçıvan MSSR vətəndaşları xaricdə Sovet dövlətinin müdafiəsi və himayəsindən istifadə edirlər.

**Maddə 29.** Naxçıvan MSSR vətəndaşları mənşəyindən, sosial və əmlak vəziyyətindən, irqi və milli mənsubiyyətindən, cinsindən, təhsilindən, dilindən, dinə münasibətindən və digər hallardan asılı olmayaraq qanun qarşısında bərabərdirlər.

Naxçıvan MSSR vətəndaşlarının hüquq bərabərliyi iqtisadi, siyasi, sosial və mədəni həyatın bütün sahələrində təmin edilir.

**Maddə 30.** Naxçıvan MSSR-də qadın və kişi bərabər hüquqlara malikdirlər.

Bu hüquqların həyata keçirilməsi təhsil almaqda və peşə hazırlığı keçməkdə, əməkdə, əmək haqqı almaqda və işdə irəli çəkilməkdə, ictimai-siyasi və mədəni

fəaliyyətdə qadınlara kişilərlə bərabər imkanlar verilməklə, habelə qadınların əməyinin və sağlamlığının mühafizəsi sahəsində xüsusi tədbirlərlə, qadınlara əməyi analıq vəzifəsi ilə əlaqələndirmək imkanı verən şərait yaratmaqla, anaları və uşaqları hüquqi cəhətdən müdafiə etməklə, onlara maddi və mənəvi yardım göstərməklə, o cümlədən hamilə qadınlara və analara haqqı ödənilən məzuniyyət verilməklə və digər güzəştlər edilməklə, az yaşlı uşaqları olan qadınların iş vaxtını tədricən qısaltmaqla təmin edilir.

**Maddə 31.** Müxtəlif irq və millətlərdən olan Naxçıvan MSSR vətəndaşları bərabər hüquqlara malikdirlər.

Bu hüquqların həyata keçirilməsi SSRİ-nin bütün millətlərini və xalqlarını hərtərəfli inkişaf etdirmək və bir-birinə yaxınlaşdırmaq siyasəti ilə vətəndaşların sovet vətənpərvərliyi və sosialist beynəlmiləlçiliyi ruhunda tərbiyə olunması ilə, ana dilindən və SSRİ-nin başqa xalqlarının dillərindən istifadə etmək imkanı ilə təmin edilir.

Hüquqların bilavasitə və dolayısı ilə hər hansı şəkildə məhdudlaşdırılması, irqi və milli əlamətlərə görə vətəndaşlar üçün bilavasitə və ya dolayı üstünlüklər müəyyən edilməsi, eləcə də irqi və ya milli müstəsnalığın, ədavətin və ya etinasızlığın hər hansı şəkildə təbliği qanunla cəzalandırılır.

**Maddə 32.** Naxçıvan MSSR-də əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə qanunla nəzərdə tutulmuş hüquq və azadlıqlar, o cümlədən onlara məxsus şəxsi hüquqların, əmlak, ailə hüquqlarının və başqa hüquqların müdafiəsi üçün məhkəməyə və digər dövlət orqanlarına müraciət etmək hüququ təmin olunur.

Naxçıvan MSSR ərazisində olan əcnəbi vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına və Naxçıvan MSSR Konstitusiyasına hörmət etməli və sovet qanunlarına əməl etməlidirlər.

## 5-Cİ FƏSİL

### Naxçıvan MSSR vətəndaşlarının əsas hüquqları, azadlıqları və vəzifələri

**Maddə 33.** Naxçıvan MSSR vətəndaşları SSRİ Konstitusiyasında, Azərbaycan SSR Konstitusiyasında, Naxçıvan MSSR Konstitusiyasında və sovet qanunlarında elan edilən və təminat verilən bütün sosial-iqtisadi, siyasi və şəxsi hüquq və azadlıqlara bütünlüklə malikdirlər. Sosial-iqtisadi və mədəni inkişaf proqramları yerinə yetirildikcə sosializm quruluşu vətəndaşların hüquq və azadlıqlarının genişlənməsini, həyat şəraitinin daim yaxşılaşmasını təmin edir.

Vətəndaşların hüquq və azadlıqlardan istifadə etməsi cəmiyyətin və dövlətin mənafeyinə, digər vətəndaşların hüquqlarına zərər vurmamalıdır.

**Maddə 34.** Naxçıvan MSSR vətəndaşları əmək hüququna, yəni əməyin kəmiyyət və keyfiyyətinə uyğun olaraq dövlət tərəfindən müəyyən edilmiş minimum məbləğdən aşağı olmamaqla haqqı ödənilən təminatlı iş almaq hüququna, o cümlədən həvəsinə, qabiliyyətinə, peşə hazırlığına, təhsilinə münasib olaraq və ictimai tələbat nəzərə alınmaqla peşə, məşğuliyyət növü və iş seçmək hüququna malikdirlər.

Bu hüquq sosialist təsərrüfat sistemi, məhsuldar qüvvələrin durmadan artması, pulsuz peşə təlimi, əmək ixtisasının artırılması və yeni ixtisasların öyrədilməsi, peşə seçməkdə istiqamətləndirmə və işə düzəltmə sistemlərinin inkişaf etdirilməsi ilə təmin olunur.

**Maddə 35.** Naxçıvan MSSR vətəndaşları istirahət hüququna malikdirlər.

Bu hüquq fəhlə və qulluqçular üçün 41 saatdan çox olmayan iş həftəsi müəyyən edilməsi ilə, bir sıra peşələr və istehsalatlar üçün qısadılmış iş günü ilə, gecə vaxtı iş müddətinin qısaldılması ilə; hər il haqqı ödənilən məzuniyyət verilməsi, hər həftə istirahət günləri verilməsi, habelə mədəni-maarif və sağlamlıq müəssisələri şəbəkəsinin genişləndirilməsi, kütləvi idmanın, bədən tərbiyəsinin və turizmin inkişaf etdirilməsi ilə; yaşayış yerində istirahət üçün əlverişli imkanlar və asudə vaxtdan səmərəli istifadə üçün digər şərait yaradılması ilə təmin olunur.

Kolxozçuların iş vaxtı və istirahət müddəti kolxozlar tərəfindən nizama salınır.

**Maddə 36.** Naxçıvan MSSR vətəndaşları sağlamlığın mühafizəsi hüququna malikdirlər.

Bu hüquq dövlət səhiyyə müəssisələrinin göstərdikləri pulsuz ixtisaslı tibbi yardımla; vətəndaşları müalicə edən və onların sağlamlığını möhkəmləndirən müəssisələr şəbəkəsinin genişləndirilməsi ilə; təhlükəsizlik texnikasının və istehsalat sanitariyasının inkişaf etdirilməsi və təkmilləşdirilməsi ilə, geniş profilaktika tədbirləri görülməsi ilə; ətraf mühiti sağlamlaşdırmaq tədbirləri ilə; böyüməkdə olan nəslin sağlamlığı üçün xüsusi qayğı göstərilməsi, o cümlədən təlimlə və əmək tərbiyəsi ilə əlaqəsi olmayan uşaq əməyinin qadağan edilməsi ilə; xəstələnmə halları qarşısının alınmasına və azaldılmasına, vətəndaşların uzun illər fəal həyatının təmin edilməsinə yönəldilən elmi tədqiqatların genişləndirilməsi ilə təmin olunur.

**Maddə 37.** Naxçıvan MSSR vətəndaşları qocaldıqda, xəstələndikdə, əmək qabiliyyətini tamamilə və ya qismən itirdikdə, habelə ailə başçısını itirdikdə maddi təminat hüququna malikdirlər.

Bu hüquq fəhlələrin, qulluqçuların və kolxozçuların sosial sığortası ilə; əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinətlərlə; yaşa, əlilliyə və ailə başçısını itirməyə görə dövlət və kolxozlar hesabına pensiyalar verilməsi ilə; əmək qabiliyyətini qismən itirmiş vətəndaşların işə düzəldilməsi ilə, qocalara və əlillərə qayğı göstərilməsi ilə, sosial təminatın başqa formaları ilə təmin olunur.

**Maddə 38.** Naxçıvan MSSR vətəndaşları mənzil hüququna malikdirlər.

Bu hüquq dövlət və ictimai mənzil fondunun inkişaf və mühafizəsi, kooperativ və fərdi mənzil tikintisinə yardım göstərilməsi ilə, rahat mənzillər tikintisi proqramı həyata keçirildikçə verilən mənzil sahəsinin ictimai nəzarət altında ədalətli bölüşdürülməsi ilə, habelə mənzil haqqının və kommunal xidmətlər üçün haqqın yüksək olmaması ilə təmin edilir. Naxçıvan MSSR vətəndaşları onlara verilən mənzilə qayğı ilə yanaşmalıdırlar.

**Maddə 39.** Naxçıvan MSSR vətəndaşları təhsil hüququna malikdirlər.

Bu hüquq bütün təhsil növlərinin pulsuz olması, gənclərin hamılıqla icbari orta təhsilinin həyata keçirilməsi ilə; təlimin həyatla, istehsalatla əlaqəsi əsasında texniki peşə, orta ixtisas təhsilinin və ali təhsilin geniş inkişaf etdirilməsi ilə; qiyabi təhsilin və axşam təhsilinin inkişaf etdirilməsi ilə; şagirdlərə və tələbələrə dövlət təqaüdü verilməsi və güzəştlər edilməsi ilə; məktəb dərsliklərinin pulsuz verilməsi ilə;

məktəbdə ana dilində oxumaq imkanı ilə; müstəqil təhsil üçün şərait yaradılması ilə təmin olunur.

**Maddə 40.** Naxçıvan MSSR vətəndaşları mədəniyyət nailiyyətlərindən istifadə etmək hüququna malikdirlər.

Bu hüquq dövlət fondlarında və ictimai fondlarda olan ölkə və dünya mədəniyyəti sərvətlərinin hamıya müyəssər olması ilə; mədəni-maarif müəssisələrinin inkişaf etdirilməsi və respublika ərazisində bərabər yerləşdirilməsi ilə; televiziya və radionun, kitab nəşri işinin və dövri mətbuatın, pulsuz kitabxanalar şəbəkəsinin inkişaf etdirilməsi ilə; xarici dövlətlərlə mədəni mübadilənin genişləndirilməsi ilə təmin olunur.

**Maddə 41.** Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq Naxçıvan MSSR vətəndaşlarının elmi, texniki və bədii yaradıcılıq azadlığı təmin edilir. Bu azadlıq elmi tədqiqatların, ixtiraçılıq və səmərələşdiricilik fəaliyyətinin daha da genişləndirilməsi, ədəbiyyat və incəsənətin inkişaf etdirilməsi ilə təmin olunur. Dövlət bundan ötrü lazımi maddi şəraiti yaradır, könüllü cəmiyyətlərə və yaradıcılıq ittifaqlarına yardım göstərir, ixtiraların və səmərələşdirmə təkliflərini xalq təsərrüfatında və həyatın başqa sahələrində tətbiqini təşkil edir.

Müəlliflərin, ixtiraçıların və səmərələşdiricilərin hüquqları dovlət tərəfindən qorunur.

**Maddə 42.** Naxçıvan MSSR vətəndaşları dövlət işlərinin və ictimai işlərin idarə edilməsində, ümumdövlət və yerli əhəmiyyətli qanun və qərarların müzakirəsində və qəbul olunmasında iştirak etmək hüququna malikdirlər.

Bu hüquq xalq deputatları Sovetlərinə və başqa seçkili dövlət orqanlarına seçmək və seçilmək, ümumxalq müzakirəsində və səsvermələrində, xalq nəzarətində, dövlət orqanlarının, ictimai təşkilatların və özfəaliyyət orqanlarının işində, əmək kollektivlərinin yığıncaqlarında və yaşayış yerlərində keçirilən yığıncaqlarda iştirak etmək imkanı ilə təmin olunur.

**Maddə 43.** Naxçıvan MSSR-in hər bir vətəndaşı dövlət orqanlarına və ictimai təşkilatlara onların fəaliyyətini yaxşılaşdırmaq barəsində təkliflər vermək, işdəki nöqsanları tənqid etmək hüququna malikdir.

Vəzifəli şəxslər vətəndaşların təklif və ərizələrinə müəyyən edilmiş müddətlərdə baxmalı, bunlara cavab verməli və lazımi tədbirlər görməlidirlər.

Tənqid üstündə təqib qadağan edilir. Tənqid üstündə təqib edən şəxslər məsuliyyətə cəlb olunurlar.

**Maddə 44.** Xalqın mənafeyinə uyğun olaraq və sosializm quruluşunu möhkəmləndirmək və inkişaf etdirmək məqsədilə Naxçıvan MSSR vətəndaşlarına söz, mətbuat, yığıncaqlar, mitinqlər, küçə yürüşləri və nümayişlər azadlığı üçün təminat verilir.

Bu siyasi azadlıqların həyata keçirilməsi zəhmətkeşlərə və onların təşkilatlarına ictimai binalar, küçələr və meydanlar verilməsi, informasiyanın geniş yayılması ilə, mətbuatdan, televiziyadan və radiodan istifadə etmək imkanı ilə təmin olunur.

**Maddə 45.** Kommunizm quruculuğu məqsədlərinə uyğun olaraq Naxçıvan MSSR vətəndaşları siyasi fəallığın və özfəaliyyətin inkişafına, onların çoxcəhətli marağının ödənilməsinə kömək edən ictimai təşkilatlarda birləşmək hüququna malikdirlər.

İctimai təşkilatlara öz nizamnamə vəzifələrini müvəffəqiyyətlə yerinə yetirmək üçün şərait təmin edilir.

**Maddə 46.** Naxçıvan MSSR vətəndaşlarının vicdan azadlığı, yəni hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququ təmin olunur. Dini etiqadla əlaqədar ədavət və nifrət oyatmaq qadağan edilir.

Naxçıvan MSSR-də məscid və kilsə dövlətdən, məktəb məsciddən və kilsədən ayrılmışdır.

**Maddə 47.** Ailə dövlət tərəfindən müdafiə olunur.

Nikah qadın və kişinin könüllü razılığına əsaslanır; ər və arvad ailə münasibətlərində hüquqca tamamilə bərabərdirlər.

Dövlət uşaq tərbiyə müəssisələrinin geniş şəbəkəsini yaratmaq və inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda müavinət vermək, çoxuşaqlı ailələrə müavinət vermək və güzəştlər etmək, habelə ailəyə başqa növ müavinət vermək və yardım göstərmək yolu ilə ailənin qayğısına qalır.

**Maddə 48.** Naxçıvan MSSR vətəndaşlarının şəxsiyyət toxunulmazlığı üçün təminat verilir. Məhkəmənin qərarı və ya prokurorun sanksiyası olmadan heç kəs həbs edilə bilməz.

**Maddə 49.** Naxçıvan MSSR vətəndaşlarına mənzil toxunulmazlığı üçün təminat verilir. Qanuni əsas olmadan heç kəsin mənzildə yaşayan şəxslərin iradəsi ziddinə mənzilə daxil olmaq ixtiyarı yoxdur.

**Maddə 50.** Vətəndaşların şəxsi həyatı, yazışmanın, telefon danışıqlarının və teleqraf rabitəsinin sirri qanunla qorunur.

**Maddə 51.** Vətəndaşların şəxsiyyətinə hörmət etmək, hüquq və azadlıqlarını qorumaq bütün dövlət orqanlarının, ictimai təşkilatlarının və vəzifəli şəxslərin borcudur.

Naxçıvan MSSR vətəndaşları onların şərəfinə və ləyaqətinə, həyatına və sağlamlığına, şəxsi azadlığına və əmlakına qəsdlərdən məhkəmə yolu ilə müdafiə olunmaq hüququna malikdirlər.

**Maddə 52.** Naxçıvan MSSR vətəndaşları vəzifəli şəxslərin, dövlət orqanlarının və ictimai orqanların hərəkətlərindən şikayət etmək hüququna malikdirlər. Şikayətlərə qanunla müəyyən olunmuş qaydada və müddətlərdə baxılmalıdır.

Vəzifəli şəxslər, qanunu pozmaqla, səlahiyyətini aşmaqla vətəndasların hüquqlarına toxunan hərəkətlər etdikdə, bu hərəkətlərdən qanunla müəyyən olunmuş qaydada məhkəməyə şikayət verilə bilər.

Naxçıvan MSSR vətəndaşları dövlət təşkilatlarının və ictimai təşkilatların, habelə xidmət vəzifələrini icra edərkən vəzifəli şəxslərin qanunsuz hərəkətləri ilə dəymiş zərərin əvəzini almaq hüququna malikdirlər.

**Maddə 53.** Hüquq və azadlıqların həyata keçirilməsi vətəndaşın öz vəzifələrini icra etməsindən ayrılmazdır.

Naxçıvan MSSR vətəndaşı SSRİ Konstitusiyasına, Azərbaycan SSR Konstitusiyasına, Naxçıvan MSSR Konstitusiyasına və sovet qanunlarına əməl etməli, sosialist birgəyaşayış qaydalarına hörmət etməli, sovet vətəndaşı kimi yüksək adı ləyaqətlə daşımalıdır.

**Maddə 54.** Seçmiş olduğu ictimai faydalı fəaliyyət sahəsində vicdanla işləmək, əmək intizamına əməl etmək Naxçıvan MSSR-in əmək qabiliyyətli hər bir vətəndaşının borcu və şərəf işidir. İctimai faydalı əməkdən boyun qaçırmaq sosializm cəmiyyəti prinsipləri ilə bir yerə sığmır.

**Maddə 55.** Naxçıvan MSSR vətəndaşı sosialist mülkiyyətini qorumalı və möhkəmləndirməlidir. Dövlət əmlakının və ictimai əmlakın oğurlanmasına və israf edilməsinə qarşı mübarizə aparmaq, xalq malına qayğı ilə yanaşmaq Naxçıvan MSSR vətəndaşlarının borcudur.

Sosialist mülkiyyətinə qəsd edən şəxslər qanunla cəzalandırılır.

**Maddə 56.** Naxçıvan MSSR vətəndaşı Sovet dövlətinin mənafeyini qorumalı, onun qüdrət və nüfuzunun möhkəmləndirilməsinə kömək etməlidir.

Sosialist Vətənini müdafiə etmək Naxçıvan MSSR-in hər bir vətəndaşının müqəddəs borcudur.

Vətənə xəyanət xalq qarşısında ən ağır cinayətdir.

**Maddə 57.** SSRİ Silahlı Qüvvələri sıralarında hərbi xidmət Naxçıvan MSSR vətəndaşlarının şərəfli vəzifəsidir.

**Maddə 58.** Başqa vətəndaşların milli ləyaqətinə hörmət etmək, çoxmillətli Sovet dövlətinin millətləri və xalqları arasında dostluğu möhkəmlətmək Naxçıvan MSSR-in hər bir vətəndaşının borcudur.

**Maddə 59.** Naxçıvan MSSR vətəndaşı digər şəxslərin hüquqlarına və qanuni mənafeyinə hörmət etməli, cəmiyyətə zidd hərəkətlərə qarşı barışmaz olmalı, ictimai asayişin qorunmasına hər vasitə ilə kömək etməlidir.

**Maddə 60.** Naxçıvan MSSR vətəndaşları uşaqların tərbiyəsinə qayğı göstərməli, onları ictimai faydalı əməyə hazırlamalı, sosializm cəmiyyətinin layiqli üzvləri kimi yetişdirməlidirlər. Övladlar valideyinlərin qayğısına qalmalı və onlara yardım göstərməlidirlər.

**Maddə 61.** Naxçıvan MSSR vətəndaşları təbiəti qorumalı, onun sərvətlərini mühafizə etməlidirlər.

**Maddə 62.** Tarixi abidələrin və digər mədəniyyət sərvətlərinin mühafizəsi qayğısına qalmaq Naxçıvan MSSR vətəndaşlarının borcu və vəzifəsidir.

**Maddə 63.** Başqa ölkələrin xalqları ilə dostluğun və əməkdaşlığın inkişafına, ümumi sülhün qorunmasına və möhkəmlənməsinə kömək etmək Naxçıvan MSSR vətəndaşının beynəlmiləl borcudur.

## III

## NAXÇIVAN MSSR-in MİLLİ DÖVLƏT VƏ İNZİBATİ ƏRAZİ QURULUŞU

## 6-CI FƏSİL

### Naxçıvan MSSR Azərbaycan SSR-in tərkibində muxtar respublikadır

**Maddə 64.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində sovet sosialist dövlətidir.

SSR İttifaq hüquqlarından kənarda və Azərbaycan SSR Konstitusiyasının 72-ci maddəsində göstərilənlər istisna olmaqla Naxçıvan MSSR öz ərazisində dövlət hakimiyyətini müstəqil həyata keçirir.

**Maddə 65.** Naxçıvan MSSR SSRİ Ali Sovetində, Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanlarında, həmçinin Azərbaycan SSR-in başqa orqanlarında SSR İttifaqının və Azərbaycan SSR-in səlahiyyətinə aid məsələlərin həllində iştirak edir.

Naxçıvan MSSR öz ərazisində kompleks iqtisadi və sosial inkişafı təmin edir, bu ərazidə SSR İttifaqı və Azərbaycan SSR səlahiyyətlərinin həyata keçirilməsinə kömək edir, SSRİ-nin və Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanlarının qərarlarını həyata keçirir.

Naxçıvan MSSR öz səlahiyyətinə aid məsələlərdə ittifaq və respublika (Azərbaycan SSR) tabeliyindəki müəssisə, idarə və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edir.

**Maddə 66.** Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz.

**Maddə 67.** SSRİ və Azərbaycan SSR qanunları Naxçıvan MSSR ərazisində məcburidir.

**Maddə 68.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının səlahiyyətinə onun ali dövlət hakimiyyəti və idarə orqanlarının simasında aşağıdakılar daxildir:

1) Naxçıvan MSSR Konstitusiyasını qəbul etmək və onda dəyişikliklər aparmaq;

2) Naxçıvan MSSR Konstitusiyasına əməl olunmasına nəzarət etmək;

3) Naxçıvan MSSR qanunvericiliyi;

4) dövlət asayişini, vətəndaşların hüquq və azadlıqlarını qorumaq;

5) SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq respublika və yerli dövlət hakimiyyəti və idarə orqanlarının təşkili və fəaliyyəti qaydasını müəyyən etmək;

6) vahid sosial-iqtisadi siyasət yeritmək, Naxçıvan MSSR iqtisadiyyatına rəhbərlik etmək, elmi-texniki tərəqqini təmin etmək, təbii ehtiyatlardan səmərəli istifadə olunması və onların mühafizəsi tədbirlərini həyata keçirmək;

7) Naxçıvan MSSR-in dövlət iqtisadi və sosial inkişaf planlarını, Naxçıvan MSSR dövlət büdcəsini işləyib hazırlamaq və təsdiq etmək, onların yerinə tetirilməsinə dair hesabatları təsdiq etmək; rayonların və respublika tabeliyindəki şəhərlərin büdcələrinin yerinə yetirilməsinə rəhbərlik etmək;

8) Naxçıvan MSSR dövlət büdcəsini təşkil etmək üçün daxil olan gəliri SSR İttifaqının və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq müəyyən etmək;

9) respublika tabeliyindəki xalq təsərrüfatı sahələrinə, respublika tabeliyində və yerli tabelikdə olan birliklərə və müəssisələrə rəhbərlik etmək;

10) SSR İttifaqı və Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq torpaqdan, yerin təkindən, meşələrdən və sulardan istifadə qaydalarını müəyyənləşdirmək, ətraf mühiti mühafizə etmək;

11) mənzil və kommunal təsərrüfatına, ticarətə və ictimai iaşəyə, əhaliyə məişət xidmətinə, mənzil tikintisinə, şəhərlərin və başqa yaşayış məntəqələrinin abadlaşdırılmasına, yol çəkilişinə və nəqliyyata rəhbərlik etmək;

12) xalq maarifinə, Naxçıvan MSSR-in mədəniyyət və elm təşkilatları və idarələrinə, səhiyyəyə, bədən tərbiyəsinə və idmana, sosial təminata rəhbərlik etmək, tarix və mədəniyyət abidələrini qorumaq;

13) respublika əhəmiyyətli digər məsələləri həll etmək.

**Maddə 69.** SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq sosialist Vətəninin müdafiəsi dövlətin ən mühüm funksiyalarından biridir və bütün xalqın işidir.

Sosialist nailiyyətlərini, sovet xalqının dinc əməyini, dövlətin suverenliyini və ərazi bütövlüyünü müdafiə etmək məqsədilə SSRİ Sılahlı Qüvvələri yaradılmış və ümumi əsgəri vəzifə müəyyən edilmişdir.

Naxçıvan MSSR ölkənin təhlükəsizliyinin və müdafiə qabiliyyətinin təmin edilməsində, SSRİ Silahlı Qüvvələrinin lazım olan hər şeylə təchiz olunmasında iştirak edir.

Ölkənin təhlükəsizliyini təmin etmək və müdafiə qabiliyyətini möhkəmlətmək sahəsində dövlət orqanlarının, ictimai təşkilatların, vəzifəli şəxslərin və vətəndaşların vəzifələri SSR İttifaqı qanunları ilə müəyyən olunur.

**Maddə 70.** Naxçıvan MSSR-də müharibə təbliğatı qadağan edilir.

## 7-Cİ FƏSİL

### Naxçıvan MSSR-in inzibati ərazi quruluşu

**Maddə 71.** Azərbaycan SSR qanunvericiliyinə uyğun olaraq Naxçıvan MSSR öz rayon bölgüsünü müəyyən edir və respublikanın inzibati ərazi quruluşunun başqa məsələlərini həll edir.

**Maddə 72.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında Babək, İliç, Ordubad, Culfa, Şahbuz rayonları və respublika tabeliyində olan Naxçıvan, Ordubad və Culfa şəhərləri vardır.

# IV

# NAXÇIVAN MSSR XALQ DEPUTATLARI SOVETLƏRİ VƏ ONLARIN SEÇİLMƏ QAYDASI

## 8-Cİ FƏSİL

### Xalq Deputatları Sovetlərinin sistemi və fəaliyyət prinsipləri

**Maddə 73.** Xalq deputatları Sovetləri – Naxçıvan MSSR Ali Soveti, rayon, şəhər, qəsəbə və kənd xalq deputatları Sovetləri dövlət hakimiyyəti orqanlarının vahid sistemini təşkil edirlər.

**Maddə 74.** Naxçıvan MSSR Ali Sovetinin vəkalət müddəti beş ildir.

Yerli xalq deputatları Sovetlərinin vəkalət müddəti iki il yarımdır.

Xalq deputatları Sovetlərinə seçkilər müvafiq Sovetlərin vəkalət müddətinin qurtarmasına azı iki ay qalmış təyin edilir.

**Maddə 75.** Müvafiq xalq deputatları Sovetlərinin səlahiyyətinə aid edilmiş ən mühüm məsələlər onların sessiyalarında müzakirə və həll olunur.

Xalq deputatları Sovetləri daimi komissiyalar seçir, icra və sərəncam orqanları, habelə Sovetlərə hesabat verməli olan başqa orqanlar yaradırlar.

**Maddə 76.** Xalq deputatları Sovetləri dövlət nəzarətini müəssisələrdə, kolxozlarda, idarə və təşkilatlarda zəhmətkeşlərin ictimai nəzarəti ilə birləşdirən xalq nəzarəti orqanları təşkil edirlər.

Xalq nəzarəti orqanları dövlət planları və tapşırıqlarının yerinə yetirilməsinə nəzarət edir; dövlət intizamının pozulması hallarına, yerliçilik, işə yalnız öz idarəsinin mənafeyi baxımından yanaşmaq təzahürlərinə, təsərrüfata qayğısızlığa və israfçılığa, süründürməçiliyə və bürokratizmə qarşı mübarizə aparır; dövlət aparatı işinin təkmilləşdirilməsinə kömək edirlər.

**Maddə 77.** Xalq deputatları Sovetləri bilavasitə və özlərinin yaratdıqları orqanlar vasitəsi ilə dövlət, təsərrüfat quruculuğunun və sosial-mədəni quruculuğun bütün sahələrinə rəhbərlik edir, qərarlar çıxarır, qərarların icrasını təmin edir və onların həyata keçirilməsinə nəzarət edirlər.

**Maddə 78.** Xalq deputatları Sovetlərinin fəaliyyəti məsələlərin kollektiv, azad, işgüzar müzakirəsi və həlli, aşkarlıq, icra və sərəncam orqanlarının, Sovetlər tərəfindən yaradılan başqa orqanların Sovetlər və əhali qarşısında müntəzəm hesabat verməsi, Sovetlərin işində iştirak etməyə vətəndaşların geniş cəlb olunması əsasında qurulur.

Xalq deputatları Sovetləri və onların yaratdıqları orqanlar öz işləri və qəbul etdikləri qərarlar haqqında əhaliyə müntəzəm məlumat verirlər.

## 9-CU FƏSİL

## Seçki sistemi

**Maddə 79.** Bütün xalq deputatları Sovetlərinə deputat seçkiləri gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında keçirilir.

**Maddə 80.** Deputat seçkiləri ümumidir: qanunla müəyyən olunmuş qaydada ağıldan məhrum hesab edilən şəxslər istisna olmaqla, Naxçıvan MSSR-in 18 yaşına çatmış bütün vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

**Maddə 81.** Deputat seçkiləri bərabərdir: hər seçicinin bir səsi vardır; bütün seçicilər seçkilərdə bərabər əsaslarla iştirak edirlər.

**Maddə 82.** Deputat seçkiləri birbaşadır: bütün xalq deputatları Sovetlərinin deputatları vətəndaşlar tərəfindən bilavasitə seçilirlər.

**Maddə 83.** Deputat seçkilərində səsvermə gizlidir: seçicilərin öz iradəsini ifadə etməsi üzərində nəzarətə yol verilmir.

**Maddə 84.** Deputatlığa namizədləri irəli sürmək hüququ Sovet İttifaqı Kommunist Partiyası, həmkarlar ittifaqları, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı təşkilatlarına, kooperativ təşkilatlarına və başqa ictimai təşkilatlara, əmək kollektivlərinə, habelə hərbi qulluqçuların yığıncaqlarına məxsusdur.

Naxçıvan MSSR vətəndaşlarının və ictimai təşkilatların deputatlığa namizədlərin siyasi, iş və şəxsi keyfiyyətlərini azad və hərtərəfli müzakirə etmələri üçün, habelə yığıncaqlarda, mətbuatda, televiziya, radio vasitəsilə təşviqat aparmaq hüququ üçün təminat verilir.

Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi ilə əlaqədar xərclər dövlət hesabına ödənilir.

**Maddə 85.** Xalq deputatları Sovetlərinə deputat seçkiləri seçki dairələri üzrə keçirilir.

Naxçıvan MSSR vətəndaşı, bir qayda olaraq, ikidən artıq xalq deputatları Sovetinə seçilə bilməz.

Sovetlərə seçkilərin keçirilməsini ictimai təşkilatların, əmək kollektivlərinin və hərbi qulluqçularının yığıncaqları nümayəndələrindən təşkil olunan seçki komissiyaları təmin edirlər.

Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi qaydası SSR İttifaqı, Azərbaycan SSR və Naxçıvan MSSR qanunları ilə müəyyən edilir.

**Maddə 86.** Seçiçilər öz deputatlarına tapşırıqlar verirlər.

Müvafiq xalq deputatları Sovetləri seçicilərin tapşırıqlarını nəzərdən keçirir, iqtisadi və sosial inkişaf planlarını hazırlayarkən və büdcəni tərtib edərkən onları nəzərə alır, tapşırıqların yerinə yetirilməsini təşkil edir və onların həyata keçirilməsi haqqında vətəndaşlara məlumat verirlər.

## 10-CU FƏSİL

## Xalq deputatı

**Maddə 87.** Deputatlar xalq deputatları Sovetlərində xalqın səlahiyyətli nümayəndələridir.

Deputatlar Sovetlərin işində iştirak etməklə dövlət, təsərrüfat quruculuğu və sosial-mədəni quruculuq məsələlərini həll edir, Sovetlərin qərarlarının həyata keçirilməsini təşkil edir, dövlət orqanlarının, müəssisə, idarə və təşkilatların işinə nəzarət edirlər.

Deputat öz fəaliyyətində ümumdövlət mənafeyini rəhbər tutur, seçki dairəsi əhalisinin tələblərini nəzərə alır, seçiçilərin tapşırıqlarının həyata keçirilməsinə nail olur.

**Maddə 88.** Deputat öz səlahiyyətini istehsalat və ya xidmət fəaliyyətini dayandırmadan həyata keçirir.

Deputat Sovetin sessiyaları zamanı, habelə qanunla nəzərdə tutlmuş başqa hallarda deputatlıq səlahiyyətini həyata keçirmək üçün, daimi iş yerində orta əmək haqqı saxlanılmaqla, istehsalat və ya xidmət vəzifələrini yerinə yetirməkdən azad edilir.

**Maddə 89.** Deputatın müvafiq dövlət orqanlarına və vəzifəli şəxslərə sorğu vermək hüququ vardır. Onlar həmin sorğuya Sovetin sessiyasında cavab verməlidirlər.

Deputatlıq fəaliyyəti ilə əlaqədar məsələlər barəsində deputatın bütün dövlət

orqanlarına və ictimai orqanlara, müəssisə, idarə və təşkilatlara müraciət etmək və irəli sürdüyü məsələlərin müzakirəsində iştirak etmək hüququ vardır. Müvafiq dövlət orqanlarının və ictimai orqanların, müəssisə, idarə və təşkilatların rəhbərləri deputatı təxirə salınmadan qəbul etməli və onun təkliflərini müəyyən olunmuş müddətlərdə nəzərdən keçirməlidirlər.

**Maddə 90.** Deputata öz hüquq və vəzifələrini maneəsiz və səmərəli həyata keçirmək üçün şərait təmin edilir.

Deputatların toxunulmazlığı, habelə deputatlıq fəaliyyəti üçün digər təminatlar Deputatların statusu haqqında qanunla, SSR İttifaqının, Azərbaycan SSR-in və Naxçıvan MSSR qanunvericilik aktları ilə müəyyən olunur.

**Maddə 91.** Deputat öz işi və Sovetin işi haqqında seçicilər qarşısında, habelə onun deputatlığa namizədliyini irəli sürmüş kollektivlər və ictimai təşkilatlar qarşısında hesabat verməlidir.

Seçicilərin etimadını doğrultmayan deputat qanunla müəyyən edilmiş qaydada, seçicilərin əksəriyyətinin qərarı ilə hər vaxt geri çağırıla bilər.

## V

## NAXÇIVAN MSSR-in ALİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI

## 11-Cİ FƏSİL

### Naxçıvan MSSR Ali Soveti

**Maddə 92.** Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti orqanı Naxçıvan MSSR Ali Sovetidir.

Naxçıvan MSSR Ali Soveti SSRİ Konstitusiyası, Azərbaycan SSR Konstitusiyası və bu Konstitusiya ilə Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malikdir.

Naxçıvan MSSR Konstitusiyasının qəbul olunması, onda dəyişikliklər edilməsi; Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, Naxçıvan MSSR dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq edilməsi; Naxçıvan MSSR Ali Sovetinə hesabat verməli olan Naxçıvan MSSR orqanlarının təşkili yalnız Naxçıvan MSSR Ali Soveti tərəfindən həyata keçirilir.

Naxçıvan MSSR qanunları Naxçıvan MSSR Ali Soveti tərəfindən qəbul edilir.

Naxçıvan MSSR qanunları Naxçıvan MSSR-in bütün ərazisində məcburidir.

**Maddə 93.** Naxçıvan MSSR Ali Soveti əhalisinin sayı bərabər olan seçki dairələri üzrə seçilən 110 deputatdan ibarətdir.

Naxçıvan MSSR Ali Soveti seçdiyi Mandat komissiyasının təqdimi ilə deputatların vəkalətini etibarlı hesab etmək haqqında, seçkilərə dair qanunlar pozulduqda isə ayrı-ayrı deputatların seçilməsini etibarsız hesab etmək haqqında qərar qəbul edir.

**Maddə 94.** Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Ali Sovetinin Sədrini və onun iki müavinini seçir.

Naxçıvan MSSR Ali Sovetinin Sədri Naxçıvan MSSR Ali Sovetinin iclaslarına rəhbərlik edir və onun daxili iş qaydasını müəyyənləşdirir.

**Maddə 95.** Naxçıvan MSSR Ali Sovetinin sessiyaları ildə iki dəfə çağırılır.

Növbədənkənar sessiyalar Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən onun öz təşəbbüsü ilə və ya Naxçıvan MSSR Ali Soveti deputatlarının azı üçdə bir hissəsinin təklifi ilə çağırılır.

Naxçıvan MSSR Ali Sovetinin sessiyası onun iclaslarından, habelə bu iclaslar arasındakı dövrdə Naxçıvan MSSR Ali Soveti daimi komissiyalarının və digər komissiyaların keçirdikləri iclaslardan ibarətdir.

**Maddə 96.** Naxçıvan MSSR Ali Sovetində qanunvericilik təşəbbüsü hüququ Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyətinə, Naxçıvan MSSR Nazirlər Sovetinə, Naxçıvan MSSR Ali Sovetinin daimi komissiyalarına və digər komissiyalarına, Naxçıvan MSSR Ali Sovetinin deputatlarına, Naxçıvan MSSR Ali Məhkəməsinə, Naxçıvan MSSR Prokuroruna məxsusdur.

İctimai təşkilatlar da öz respublika orqanları simasında qanunvericilik təşəbbüsü hüququna malikdirlər.

**Maddə 97.** Naxçıvan MSSR Ali Sovetinin müzakirəsinə verilmiş qanun layihələri və başqa məsələlər onun iclaslarında müzakirə edilir. Qanun layihəsi və ya müvafiq məsələ zəruri hallarda qabaqcadan, yaxud əlavə olaraq baxılmaq üçün bir və ya bir neçə komissiyaya verilə bilər.

Naxçıvan MSSR qanunları, Naxçıvan MSSR Ali Sovetinin qərarları və digər aktları Naxçıvan MSSR Ali Sovetinin bütün deputatlarının əksəriyyəti tərəfindən qəbul edilir.

Naxçıvan MSSR qanunlarının layihələri və muxtar respublikanın dövlət həyatının digər mühüm məsələləri Naxçıvan MSSR Ali Sovetinin, yaxud Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə xalq müzakirəsinə verilə bilər.

**Maddə 98.** Naxçıvan MSSR qanunları, Naxçıvan MSSR Ali Sovetinin qərarları və digər aktları Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyəti Sədrinin və Katibinin imzaları ilə elan edilir.

**Maddə 99.** Naxçıvan MSSR Ali Soveti deputatının Naxçıvan MSSR Nazirlər Sovetinə, nazirlərə və Naxçıvan MSSR Ali Soveti tərəfindən yaradılan digər orqanların rəhbərlərinə, habelə Naxçıvan MSSR-in səlahiyyətinə aid məsələlər barəsində Naxçıvan MSSR ərazisində yerləşən İttifaq və respublika (Azərbaycan SSR) tabeliyində olan müəssisə, idarə və təşkilatların rəhbərlərinə sorğu ilə müraciət etmək hüququ vardır. Naxçıvan MSSR Nazirlər Soveti və ya sorğu verilən vəzifəli şəxs Naxçıvan MSSR Ali Sovetinin həmin sessiyasında şifahi və ya yazılı cavab verməlidir.

**Maddə 100.** Naxçıvan MSSR Ali Sovetinin deputatı Naxçıvan MSSR Ali Sovetinin, onun sessiyaları arasındakı dövrdə isə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin razılığı olmadan cinayət məsuliyyətinə cəlb edilə bilməz, həbs oluna bilməz və ya onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri görülə bilməz.

**Maddə 101.** Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Ali Sovetinin daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə Naxçıvan MSSR Ali dövlət hakimiyyəti orqanının funksiyalarını

bu Konstitusiyanın nəzərdə tutduğu hüdudlar daxilində həyata keçirən Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətini seçir.

**Maddə 102.** Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti deputatlar içərisindən Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Sədrindən, Sədrin iki müavinindən, Ali Sovetin Rəyasət Heyətinin Katibindən və Rəyasət Heyətinin beş üzvündən ibarət tərkibdə seçilir.

**Maddə 103.** Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti:

1) Naxçıvan MSSR Ali Sovetinə və yerli xalq deputatları Sovetlərinə seçkilər təyin edir;

2) Naxçıvan MSSR Ali Sovetinin sessiyalarını çağırır;

3) Naxçıvan MSSR Ali Soveti daimi komissiyalarının fəaliyyətini əlaqələndirir;

4) Naxçıvan MSSR Konstitusiyasına əməl olunmasına nəzarət edir, Naxçıvan MSSR Konstitusiyasının və qanunlarının SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına və qanunlarına uyğun olmasını təmin edir;

5) rayon (şəhər) xalq məhkəmələrinə seçkilər təyin edir;

6) Naxçıvan MSSR qanunlarını şərh edir;

7) yerli xalq deputatları Sovetlərinin fəaliyyətinə rəhbərlik edir;

8) qanunla müəyyən edilmiş qaydada rayonlar və respublika tabeliyində şəhərlər təşkil edir, onların adlarını müəyyən edir və dəyişdirir;

9) Naxçıvan MSSR Nazirlər Sovetinin, rayon və şəhər (respublika tabeliyindəki şəhər) xalq deputatları Sovetlərinin qərar və sərəncamları qanuna uyğun gəlmədikdə, onları ləğv edir;

10) Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edir; Naxçıvan MSSR fəxri adlarını müəyyən edir və verir;

11) Naxçıvan MSSR Konstitusiyasının və qanunlarının müəyyən etdiyi başqa səlahiyyəti həyata keçirir.

**Maddə 104.** Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti Ali Sovetin sessiyaları arasındakı dövrdə, sonradan növbəti sessiyada Ali Sovetin təsdiqinə verilməklə:

1) Naxçıvan MSSR-in qüvvədə olan qanunvericilik aktlarında, lazım gəldikdə, dəyişikliklər edir;

2) rayon bölgüsündə dəyişikliklər edir və respublika (MSSR) tabeliyində şəhərlər təşkil edir;

3) Naxçıvan MSSR Nazirlər Sovetinin təklifi ilə Naxçıvan MSSR nazirliklərini, dövlət komitələrini və Ali Sovet tərəfindən yaradılan başqa dövlət orqanlarını yaradır və ləğv edir;

4) Naxçıvan MSSR Nazirlər Sovetinin tərkibinə daxil olan ayrı-ayrı şəxsləri Naxçıvan MSSR Nazirlər Soveti Sədrinin təqdimi ilə vəzifədən azad edir və vəzifəyə təyin edir.

**Maddə 105.** Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti fərmanlar verir və qərarlar qəbul edir.

**Maddə 106.** Naxçıvan MSSR Ali Sovetinin vəkalət müddəti qurtardıqda, Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti təzə seçilən Naxçıvan MSSR Ali

Sovet tərəfindən Ali Sovetin yeni Rəyasət Heyəti təşkil edilənədək öz səlahiyyətini saxlayır.

Yeni seçilmiş Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Ali Sovetinin əvvəlki tərkibdə Rəyasət Heyəti tərəfindən seçkilərdən ən geci iki ay keçənədək çağırılır.

**Maddə 107.** Naxçıvan MSSR Ali Soveti öz səlahiyyətinə aid məsələləri qabaqcadan nəzərdən keçirib hazırlamaq üçün, habelə Naxçıvan MSSR qanunlarının, Naxçıvan MSSR Ali Sovetinin və onun Rəyasət Heyətinin digər qərarlarının həyata keçirilməsinə kömək etmək, dövlət orqanları və təşkilatlarının fəaliyyətinə nəzarət etmək üçün deputatlardan daimi komissiyalar seçir.

Naxçıvan MSSR Ali Soveti, lazım bildikdə, hər hansı məsələ üzrə istintaq, təftiş komissiyaları və digər komissiyalar yaradır.

Bütün dövlət orqanları və ictimai orqanlar, təşkilatlar və vəzifəli şəxslər Naxçıvan MSSR Ali Soveti komissiyalarının tələblərini yerinə yetirməli, lazımi materialları və sənədləri onlara təqdim etməlidirlər.

Komissiyaların tövsiyələri dövlət orqanları və ictimai orqanlar, idarə və təşkilatlar tərəfindən hökmən nəzərdən keçirilməlidir. Bunların nəzərdən keçirilməsi nəticələri və ya görülən tədbirlər haqqında komissiyalara müəyyən edilmiş müddətə məlumat verməlidir.

**Maddə 108.** Naxçıvan MSSR Ali Soveti ona hesabat verməli olan bütün dövlət orqanlarının fəaliyyətinə nəzarət edir.

Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR xalq nəzarəti orqanları sisteminə başçılıq edən Naxçıvan MSSR Xalq Nəzarəti Komitəsini təşkil edir.

**Maddə 109.** Naxçıvan MSSR Ali Sovetinin və onun orqanlarının fəaliyyət qaydası Naxçıvan MSSR Ali Sovetinin reqlamenti ilə və Naxçıvan MSSR Konstitusiyası əsasında verilən Naxçıvan MSSR-in başqa qanunları ilə müəyyən olunur.

## 12-Cİ FƏSİL

## Naxçıvan MSSR Nazirlər Soveti

**Maddə 110.** Naxçıvan MSSR Nazirlər Soveti – Naxçıvan MSSR Hökuməti Naxçıvan MSSR dövlət hakimiyyətinin ali icra və sərəncam orqanıdır.

**Maddə 111.** Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti tərəfindən Naxçıvan MSSR Nazirlər Sovetinin Sədrindən, Sədrin birinci müavinindən və müavinlərindən, Naxçıvan MSSR nazirlərindən, Naxçıvan MSSR dövlət komitələrinin sədrlərindən və respublikanın Ali Soveti tərəfindən təşkil olunan başqa dövlət idarə orqanlarının rəhbərlərindən ibarət tərkibdə təşkil edilir.

Naxçıvan MSSR Nazirlər Soveti Sədrinin təqdimi ilə Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Hökumətinin tərkibinə Naxçıvan MSSR-in digər orqanları və təşkilatlarının rəhbərlərini daxil edə bilər.

Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyətini yeni seçilmiş Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında Ali Sovet qarşısında üzərindən götürür.

**Maddə 112.** Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti qarşısında məsuldur və ona hesabat verir, Naxçıvan MSSR Ali Sovetinin sessiyaları

arasındakı dövrdə isə Naxçıvan MSSR Ali Sovetnin Rəyasət Heyəti qarşısında məsuldur və ona hesabat verir.

Naxçıvan MSSR Nazirlər Soveti öz işi barəsində Naxçıvan MSSR Ali Sovetinin qarşısında müntəzəm hesabat verir.

**Maddə 113.** Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş və Konstitusiyaya əsasən Naxçıvan MSSR Ali Sovetinin və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin səlahiyyətinə daxil olmayan bütün dövlət idarəetmə məsələlərini həll etmək hüququna malikdir.

Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyəti daxilində:

1) xalq təsərrüfatına və sosial-mədəni quruculuğa rəhbərliyi təmin edir; xalqın rifah və mədəniyyətinin yüksəlməsini təmin etmək, elm və texnikanı inkişaf etdirmək, təbii ehtiyatlardan səmərəli istifadə etmək və onları qorumaq üçün tədbirlər hazırlayıb həyata keçirir; pul və kredit sistemini möhkəmlətmək, dövlət sığortasını, vahid uçot və statistika sistemini təşkil etmək üçün tədbirlər həyata keçirilməsinə kömək edir; vahid qiymət, əmək haqqı, sosial təminat siyasətinin yeridilməsində iştirak edir; sənaye, tikinti, kənd təsərrüfatı müəssisələri və birliklərinin, nəqliyyat və rabitə müəssisələrinin, habelə respublika tabeliyində və yerli tabelikdə olan digər təşkilatların və idarələrin idarə olunmasını təşkil edir;

2) Naxçıvan MSSR-in cari və perspektiv dövlət iqtisadi və sosial inkişaf planlarını, Naxçıvan MSSR Dövlət büdcəsini hazırlayır və Naxçıvan MSSR Ali Sovetinə təqdim edir; Naxçıvan MSSR-in dövlət planlarının və büdcəsinin həyata keçirilməsi, kompleks iqtisadi və sosial inkişafının təmin edilməsi üçün tədbirlər görür; İttifaq, respublika (Azərbaycan SSR) tabeliyində olan müəssisə və təşkilatların Naxçıvan MSSR səlahiyyətinə aid məsələlərdə fəaliyyətini əlaqələndirir və ona nəzarət edir, planların yerinə yetirilməsi və büdcənin icrası haqqında Naxçıvan MSSR Ali Sovetinə hesabatlar təqdim edir;

3) dövlətin mənafeyini müdafiə etmək, sosialist mülkiyyətini və ictimai asayişi qorumaq, vətəndaşların hüquq və azadlıqlarını təmin və müdafiə etmək üçün tədbirlər həyata keçirir;

4) ölkənin dövlət təhlükəsizliyini və müdafiə qabiliyyətini təmin etmək üçün SSRİ Konstitusiyasının müəyyən etdiyi hüdudlar daxilində tədbirlər görür;

5) Naxçıvan MSSR Nazirlər Soveti yanında lazım gəldikdə, təsərrüfat quruculuğu və sosial-mədəni quruculuq işləri üzrə komitələr, baş idarələr və digər idarələr təşkil edir:

6) yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin fəaliyyətinə rəhbərlik edir.

**Maddə 114.** Xalq təsərrüfatına rəhbərliyi təmin etməklə əlaqədar olan məsələləri və dövləti idarəetmənin digər məsələlərini həll etmək üçün Naxçıvan MSSR Nazirlər Sovetinin daimi orqanı kimi, Naxçıvan MSSR Nazirlər Sovetinin Sədrindən, Naxçıvan MSSR Nazirlər Soveti Sədrinin birinci müavinindən və müavinlərindən, habelə Naxçıvan MSSR Nazirlər Soveti haqqında qanuna uyğun olaraq hökümətin başqa üzvlərindən ibarət Naxçıvan MSSR Nazirlər Sovetinin Rəyasət Heyəti fəaliyyət göstərir.

**Maddə 115.** Naxçıvan MSSR Nazirlər Soveti SSRİ-nin, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunvericilik aktları, SSRİ Nazirlər Sovetinin qərarları,

sərəncamları əsasında və bunların yerinə yetirilməsi üçün qərarlar çıxarır, sərəncamlar verir, onların icrasını təşkil edir və yoxlayır. Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamları Naxçıvan MSSR-in bütün ərazisində hökmən icra edilməlidir.

**Maddə 116.** Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyəti daxilində rayon və şəhər xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarının icrasını dayandırmaq, rayon və şəhər (respublika tabeliyindəki şəhər) xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdir.

Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR nazirliklərinin, dövlət komitələrinin, öz tabeliyindəki başqa orqanların aktlarını ləğv etmək hüququna malikdir.

**Maddə 117.** Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR nazirliklərinin və dövlət komitələrinin, öz tabeliyindəki digər orqanların işini birləşdirir və istiqamətləndirir.

Naxçıvan MSSR-in nazirlikləri, dövlət komitələri və başqa dövlət idarə orqanları həm Naxçıvan MSSR Nazirlər Sovetinə, həm də müvafiq respublika nazirliyinə və dövlət komitəsinə tabe olmaqla, özlərinə tapşırılmış idarəetmə sahələrinə rəhbərlik edir və ya sahələrarası idarəetməni həyata keçirirlər.

Naxçıvan MSSR nazirlikləri, dövlət komitələri və başqa dövlət idarə orqanları onlara tapşırılmış idarəetmə sahələrinin vəziyyəti və inkişafı üçün məsuliyyət daşıyırlar; öz səlahiyyəti daxilində SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR qanunları, SSRİ Ali Sovetinin və onun Rəyasət Heyətinin, Azərbaycan SSR Ali Sovetinin və onun Rəyasət Heyətinin, Naxçıvan MSSR Ali Sovetinin və onun Rəyasət Heyətinin digər qərarları, SSRİ Nazirlər Sovetinin, Azərbaycan SSR Nazirlər Sovetinin və Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamları, SSRİ-nin müvafiq nazirliklərinin və dövlət komitələrinin aktları əsasında və bunların yerinə yetirilməsi üçün aktlar qəbul edir, onların icrasını təşkil edir və yoxlayırlar.

**Maddə 118.** Naxçıvan MSSR Nazirlər Sovetinin və onun Rəyasət Heyətinin səlahiyyəti, onların fəaliyyət qaydası, Naxçıvan MSSR Nazirlər Sovetinin digər dövlət orqanları ilə münasibətləri, habelə Naxçıvan MSSR-in nazirliklərinin, dövlət komitələrinin və başqa dövlət idarə orqanlarının siyahısı Konstitusiya əsasında, Naxçıvan MSSR Nazirlər Soveti haqqında qanunla müəyyən edilir.

## VI

## NAXÇIVAN MSSR-də YERLİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI

### 13-CÜ FƏSİL

### Yerli xalq deputatları Sovetləri

**Maddə 119.** Rayonlarda, şəhərlərdə, qəsəbələrdə, kənd yaşayış məntəqələrində dövlət hakimiyyəti orqanları müvafiq xalq deputatları Sovetləridir.

**Maddə 120.** Yerli xalq deputatları Sovetləri ümumdövlət mənafeyini və Sovetin ərazisində yaşayan vətəndaşların mənafeyini əsas tutaraq yerli əhəmiyyətli olan bütün məsələləri həll edir, yuxarı dövlət orqanlarının qərarlarını həyata keçirir, aşağı xalq deputatları Sovetlərinin fəaliyyətinə rəhbərlik edir, respublika (MSSR, Azərbaycan SSR) və Ümumittifaq əhəmiyyətli məsələlərin müzakirəsində iştirak edir, bu məsələlər barəsində öz təkliflərini verirlər.

Yerli xalq deputatları Sovetləri öz ərazilərində dövlət, təsərrüfat quruculuğuna və sosial-mədəni quruculuğa rəhbərlik edirlər; iqtisadi və sosial inkişaf planlarını, yerli büdcəni və onların yerinə yetirilməsi haqqında hesabatları təsdiq edirlər; onlara tabe olan dövlət orqanlarına, müəssisə, idarə və təşkilatlara rəhbərlik edirlər; qanunlara əməl olunmasını, dövlət qaydalarının və ictimai asayişin, vətəndaşların hüquqlarının qorunmasını təmin edirlər; ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə kömək edirlər.

**Maddə 121.** Yerli xalq deputatları Sovetləri özlərinin səlahiyyəti daxilində öz ərazilərində kompleks iqtisadi və sosial inkişafı təmin edirlər. Həmin ərazidə yerləşən və yuxarı orqanlara tabe olan müəssisə, idarə və təşkilatlar tərəfindən qanunlara əməl olunmasına nəzarət edirlər; torpaqdan istifadə, təbiətin mühafizəsi, tikinti, əmək ehtiyatlarından istifadə, xalq istehlakı malları istehsalı, əhaliyə sosial-mədəni xidmət, məişət xidməti və digər xidmət sahəsində onların fəaliyyətini əlaqələndirir və bu fəaliyyətə nəzarət edirlər.

**Maddə 122.** Rayon və şəhər xalq deputatları Sovetlərinin sessiyaları onların icraiyyə komitələri tərəfindən ildə azı dörd dəfə çağrılır.

Qəsəbə və kənd xalq deputatları Sovetlərinin sessiyaları onların icraiyyə komitələri tərəfindən ildə azı altı dəfə çağrılır.

Yerli xalq deputatları Sovetləri SSR İttifaqı, Azərbaycan SSR və Naxçıvan MSSR qanunvericiliyi ilə onların səlahiyyətinə aid edilmiş hər hansı məsələni sessiyalarda nəzərdən keçirmək və həll etmək hüququna malikdirlər. Yalnız sessiyalarda həll edilməli olan məsələlərin siyahısı yerli xalq deputatları Sovetləri haqqında qanunla müəyyən edilir.

**Maddə 123.** Yerli xalq deputatları Sovetləri SSR İttifaqı, Aəzrbaycan SSR və Naxçıvan MSSR qanunvericiliyi ilə onlara verilmiş səlahiyyət daxilində qərarlar qəbul edirlər.

Yerli xalq deputatları Sovetlərinin qərarları Sovetin ərazisində yerləşən bütün müəssisə, idarə və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar tərəfindən hökmən yerinə yetirilməlidir.

**Maddə 124.** Aşağı Sovetlərin fəaliyyətinə rəhbərlik edən yerli xalq deputatları Sovetləri aşağı Sovetlərin aktları qanunvericiliyə uyğun gəlmədikdə, bu aktları ləğv etmək hüququna malikdirlər.

**Maddə 125.** Rayon, şəhər, qəsəbə, kənd xalq deputatları Sovetləri yerli Sovetlərin səlahiyyətinə aid məsələləri qabaqcadan nəzərdən keçirib hazırlamaq üçün, habelə Sovetlərin qərarlarının həyata keçirilməsinə kömək etmək, dövlət orqanlarının, müəssisə, idarə və təşkilatların fəaliyyətinə nəzarət etmək üçün deputatlardan daimi komissiyalar seçirlər.

Yerli Sovetlərin daimi komissiyalarının tövsiyələri müvafiq dövlət orqanları və ictimai orqanlar, müəssisə, idarə və təşkilatlar tərəfindən hökmən nəzərdən

keçirilməlidir. Bunların nəzərdən keçirilməsi nəticələri və ya görülən tədbirlər haqqında komissiyalara müəyyən edilmiş müddətdə məlumat verilməlidir.

**Maddə 126.** Yerli xalq deputatları Sovetləri özlərinin fəaliyyətini ictimai təşkilatlarla və əmək kollektivləri ilə sıx əlaqədə həyata keçirir, ən mühüm məsələləri vətəndaşların müzakirəsinə verir, onları daimi komissiyaların, icraiyyə komitələrinin və Sovetlərə hesabat verməli olan başqa orqanların işinə cəlb edir, yerli könüllü cəmiyyətlərin işinə kömək göstərir və əhalinin ictimai fəaliyyətini inkişaf etdirirlər.

## 14-CÜ FƏSİL

### Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri

**Maddə 127.** Rayon, şəhər, qəsəbə və kənd xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları Sovetlərin sədrdən, sədr müavinlərindən, katibdən və üzvlərdən ibarət tərkibdə deputatlardan seçdikləri icraiyyə komitələridir.

İcraiyyə komitələri onları seçmiş Sovetlər qarşısında, habelə əmək kollektivlərinin yığıncaqlarında və vətəndaşların yaşayış yerlərində ildə azı bir dəfə hesabat verirlər.

**Maddə 128.** Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri onları seçmiş Sovetlərin və yuxarı dövlət hakimiyyəti və idarə orqanlarının qərarlarına əsasən müvafiq Sovetlərin ərazisində dövlət, təsərrüfat quruculuğuna və sosial-mədəni quruculuğa rəhbərlik edirlər.

Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri yalnız Sovetlərin sessiyalarında həll edilməli olan məsələlər istisna olmaqla, Sovetlərin səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malikdirlər.

İcraiyyə komitələri Sovetlərin sessiyalarını çağırır, Sovetlərin daimi komissiyalarının işini əlaqələndirirlər; deputatların səlahiyyətinin həyata keçirilməsində onlara kömək edirlər; Sovetlərin və yuxarı dövlət orqanlarının qərarlarının, habelə seçiçi tapşırıqlarının yerinə yetirilməsini təşkil edirlər; onların tabeliyindəki idarə orqanlarına rəhbərlik edirlər.

**Maddə 129.** Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri öz səlahiyyəti daxilində qərarlar qəbul edir və sərəncamlar verirlər.

**Maddə 130.** Xalq deputatları Sovetlərinin icraiyyə komitələri aşağı xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdirlər.

**Maddə 131.** Yerli xalq deputatları Sovetlərinin vəkalət müddəti qurtardıqda, onların icraiyyə komitələri yeni çağırış xalq deputatları Sovetləri tərəfindən icraiyyə komitələri seçilənədək öz səlahiyyətini saxlayırlar.

**Maddə 132.** Yerli xalq deputatları Sovetlərinin icraiyyə komitələri həm onları seçmiş Sovetə, həm də yuxarı icra və sərəncam orqanına bilavasitə hesabat verirlər.

**Maddə 133.** İcraiyyə komitələrinin şöbə və idarələri rayon, şəhər xalq deputatları Sovetləri tərəfindən təşkil edilir və özlərinin fəaliyyətində həm Sovetlərə və onların icraiyyə komitələrinə, həm də müvafiq yuxarı dövlət idarə orqanlarına tabedirlər.

Yerli xalq deputatları Sovetləri icraiyyə komitələrinin şöbə və idarələrinin siyahısı və onların təşkili qaydası SSR İttifaqı, Azərbaycan SSR və Naxçıvan MSSR qanunvericiliyi ilə müəyyən edilir.

## VII

## NAXÇIVAN MSSR DÖVLƏT İQTİSADİ VƏ SOSİAL İNKİŞAF PLANI. NAXÇIVAN MSSR DÖVLƏT BÜDCƏSİ

**Maddə 134.** Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planı Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planının tərkib hissəsidir.

Naxçıvan MSSR cari və perspektiv dövlət iqtisadi və sosial inkişaf planlarından məqsəd Azərbaycan SSR-in iqtisadi və sosial inkişafının əsas vəzifə və istiqamətlərinə uyğun olaraq muxtar respublika ərazisində kompleks iqtisadi və sosial inkişafı təmin etməkdir.

**Maddə 135.** Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planları iqtisadiyyat və sosial-mədəni quruculuq sahəsində vəzifələri müəyyən edir. Naxçıvan MSSR ərazisində xalq təsərrüfatı sahələrinin və iqtisadi rayonların məqsədli kompleks proqramlarını, inkişaf planlarını əhatə edir; bu planlara rayonların və respublika tabeliyindəki şəhərlərin iqtisadi və sosial inkişaf planları daxildir.

**Maddə 136.** Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planı Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planı əsas götürməklə, Naxçıvan MSSR nazirliklərinin, dövlət komitələrinin və başqa dövlət idarə orqanlarının, yerli xalq deputatları Sovetlərinin planlarının layihələri əsasında Naxçıvan MSSR Nazirlər Soveti tərəfindən işlənib hazırlanır.

Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planına respublika tabeliyində (Azərbaycan SSR) olub Naxçıvan MSSR ərazisində yerləşən müəssisə, idarə və təşkilatların planlarının əsas göstəriciləri daxildir.

İqtisadi və sosial inkişaf planları müəssisə, idarə və təşkilatların kollektivlərinin təklifləri nəzərə alınmaqla işlənib hazırlanır.

**Maddə 137.** Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planını Naxçıvan MSSR Ali Sovetinin müzakirəsinə verir.

Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Nazirlər Sovetinin məruzəsi və Naxçıvan MSSR Ali Soveti Plan-büdcə komissiyasının və başqa daimi komissiyalarının rəyləri əsasında Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planını müzakirə və təsdiq edir.

**Maddə 138.** Naxçıvan MSSR dövlət büdcəsi Azərbaycan SSR-in vahid dövlət büdcəsinin tərkib hissəsidir və Naxçıvan MSSR-in respublika büdcəsini və yerli büdcələri birləşdirir.

**Maddə 139.** Naxçıvan MSSR dövlət büdcəsi mədaxil və məxaricinin Naxçıvan MSSR respublika büdcəsi, respublika rayonları və şəhərlərinin yerli büdcələri arasında bölüşdürülməsi, Azərbaycan SSR-in, Naxçıvan MSSR-in və yerli xalq deputatları Sovetlərinin büdcə hüquqları haqqında qanunla müəyyən edilir.

**Maddə 140.** Naxçıvan MSSR dövlət büdcəsi Naxçıvan MSSR Nazirlər Soveti tərəfindən Azərbaycan SSR və Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planları, Azərbaycan SSR dövlət büdcəsi əsasında işlənib hazırlanır və Naxçıvan MSSR Nazirlər Sovetinin məruzəsi və Naxçıvan MSSR Ali Soveti Plan-büdcə komissiyasının və başqa daimi komissiyalarının rəyləri əsasında Naxçıvan MSSR Ali Soveti tərəfindən təsdiq edilir.

**Maddə 141.** Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, Naxçıvan MSSR dövlət büdcəsinin icrası haqqında hesabatlar Naxçıvan MSSR Ali Soveti tərəfindən müzakirə və təsdiq edilir. Planın yerinə yetirilməsinə və büdcənin icrasına dair göstəricilər hamının nəzərinə çatdırılmaq üçün elan olunur.

## VIII

## ƏDALƏT MÜHAKİMƏSİ, ARBİTRAJ VƏ PROKUROR NƏZARƏTİ

### 15-Cİ FƏSİL

### Məhkəmə və arbitraj

**Maddə 142.** Naxçıvan MSSR-də ədalət mühakiməsi yalnız məhkəmə tərəfindən həyata keçirilir.

Naxçıvan MSSR məhkəmələri Naxçıvan MSSR Ali Məhkəməsi, rayon (şəhər) xalq məhkəmələridir.

Naxçıvan MSSR məhkəmələrinin təşkili və fəaliyyət qaydası SSR İttifaqı, Azərbaycan SSR qanunları və bu Konstitusiya ilə müəyyən edilir.

**Maddə 143.** Naxçıvan MSSR-in bütün məhkəmələri hakimlərin və xalq iclasçılarının seçilməsi əsasında təşkil edilir.

Rayon (şəhər) xalq məhkəmələrinin xalq hakimləri rayon (şəhər) vətəndaşları tərəfindən gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında beş il müddətinə seçilirlər. Rayon (şəhər) xalq məhkəmələrinin xalq iclasçıları vətəndaşların işlədikləri və ya yaşadıqları yerdə onların yığıncaqlarında açıq səsvermə yolu ilə iki il yarım müddətinə seçilirlər.

Hakimlər və xalq iclasçıları seçicilər və ya onları seçən orqanlar qarşısında məsuldurlar, onların qarşısında hesabat verirlər və qanunla müəyyən edilmiş qaydada onlar tərəfindən geri çağırıla bilərlər.

**Maddə 144.** Naxçıvan MSSR Ali Məhkəməsi Naxçıvan MSSR-in ali məhkəmə orqanıdır və Naxçıvan MSSR məhkəmələrinin məhkəmə fəaliyyətinə nəzarət edir.

Naxçıvan MSSR Ali Məhkəməsi Naxçıvan MSSR Ali Soveti tərəfindən Sədrdən, onun müavinlərindən, üzvlərdən və xalq iclasçılarından ibarət tərkibdə beş il müddətinə seçilir.

**Maddə 145.** Bütün məhkəmələrdə mülki işlərə və cinayət işlərinə kollegial surətdə, birinci instansiya məhkəməsində isə xalq iclasçılarının iştirakı ilə baxılır. Ədalət mühakiməsi həyata keçirilərkən xalq iclasçıları hakimin bütün hüquqlarına malikdirlər.

**Maddə 146.** Hakimlər və xalq iclasçıları müstəqildirlər və yalnız qanuna tabedirlər.

**Maddə 147.** Naxçıvan MSSR-də ədalət mühakiməsi vətəndaşların qanun və məhkəmə qarşısında bərabərliyi əsasında həyata keçirilir.

**Maddə 148.** Bütün məhkəmələrdə işlərə açıq baxılır. İşlərə məhkəmənin qapalı iclasında baxılmasına ancaq qanunda müəyyən edilmiş hallarda, həm də mühakimə icraatının bütün qaydalarına əməl olunmaqla yol verilir.

**Maddə 149.** Müttəhimin müdafiə hüququ təmin edilir.

**Maddə 150.** Naxçıvan MSSR-də mühakimə icraatı Azərbaycan dilində və yaxud müəyyən ərazidəki əhalinin əksəriyyətinin dilində aparılır. İşdə iştirak edən mühakimə icraatının aparıldığı dili bilməyən şəxslərin işdəki materiallarla bütünlüklə tanış olmaq hüququ, məhkəmə işində tərcüməçi vasitəsilə iştirakı və məhkəmədə ana dilində çıxış etmək hüququ təmin edilir.

**Maddə 151.** Məhkəmənin hökmü olmadan və qanun əsas götürülmədən heç kəs cinayət etməkdə müqəssir sayıla bilməz, habelə cinayət cəzasına məhkum oluna bilməz.

**Maddə 152.** Vətəndaşlara və təşkilatlara hüquqi yardım üçün vəkillər kollegiyası fəaliyyət göstərir. Qanunvericilikdə nəzərdə tutulan hallarda vətəndaşlara hüquqi yardım pulsuz göstərilir.

Vəkilliyin təşkili və fəaliyyət qaydası SSR İttifaqı və Azərbaycan SSR qanunları ilə müəyyən edilir.

**Maddə 153.** Mülki işlər və cinayət işləri üzrə mühakimə icraatında ictimai təşkilatların və əmək kollektivlərinin nümayəndələrinin iştirakına yol verilir.

**Maddə 154.** Müəssisə, idarə və təşkilatlar arasındakı təsərrüfat mübahisələri dövlət arbitrajı orqanları tərəfindən onların səlahiyyətləri daxilində həll edilir.

## 16-CI FƏSİL

## Prokurorluq

**Maddə 155.** Naxçıvan MSSR ərazisində bütün nazirliklər, dövlət komitələri, müəssisə, idarə və təşkilatlar, yerli xalq deputatları Sovetlərinin icra və sərəncam orqanları, kolxozlar, kooperativ təşkilatları və digər ictimai təşkilatlar, vəzifəli şəxslər, habelə vətəndaşlar tərəfindən qanunların dürüst və eyni qaydada icra olunmasına ali nəzarət SSRİ Baş prokuroru, ona tabe olan Azərbaycan SSR Prokuroru, Naxçıvan MSSR Prokuroru və aşağı prokurorlar tərəfindən həyata keçirilir.

**Maddə 156.** Naxçıvan MSSR Prokuroru SSRİ Baş prokuroru tərəfindən təyin edilir.

Rayon və şəhər prokurorları Azərbaycan SSR Prokuroru tərəfindən təyin olunur və SSRİ Baş prokuroru tərəfindən təsdiq edilirlər.

**Maddə 157.** Naxçıvan MSSR Prokurorunun və bütün aşağı prokurorların vəkalət müddəti beş ildir.

**Maddə 158.** Prokurorluq orqanları yalnız SSRİ Baş prokuroruna tabe olub, öz səlahiyyətini hər hansı yerli orqanlardan asılı olmadan həyata keçirirlər.

## IX

## NAXÇIVAN MSSR-in GERBİ, BAYRAĞI VƏ PAYTAXTI

**Maddə 159.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət gerbi Azərbaycan SSR-in Dövlət gerbidir, bu gerb doğan günəş fonunda pambıq və sünbül çələngi ilə haşiyələnmiş oraq və çəkic, neft buruğu təsvirindən ibarətdir və üzərində Azərbaycan dilində: "Azərbaycan Sovet Sosialist Respublikası!", "Bütün ölkələrin proletarları, birləşin!" və rus dilində "Азербайджанская Советская Социалистическая Республика", "Пролетарии всех стран, соединяйтесь!" sözləri yazılmışdır. Gerbin yuxarısında beşgüşəli ulduz vardır, gerbin aşağısında lent üzərində kiçik hərflərlə Azərbaycan dilində "Naxçıvan MSSR" və rus dilində "Нахичеванская АССР" sözləri yazılmışdır.

**Maddə 160.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət bayrağıdır; bu bayraq iki rəngli üfüqi zolağı olan düzbucaqli parçadan ibarətdir: qırmızı rəngli yuxarı zolaq bayrağın eninin dörddə üç hissəsini və göy rəngli aşağı zolaq dörddə bir hissəsini təşkil edir, qırmızı zolağın yuxarı sol küncündə, bayrağın ağacı yanında zərli oraq və çəkic, bunların üstündə qızıl haşiyə içərisində beşgüşəli qırmızı ulduz təsviri vardır. Oraq və çəkic şəklinin altında Azərbaycan dilində qızıl hərflərlə "Naxçıvan MSSR" sözləri yazılmışdır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

**Maddə 161.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının paytaxtı Naxçıvan şəhəridir.

## X

## NAXÇIVAN MSSR KONSTİTUSİYASININ QÜVVƏDƏ OLMASI VƏ ONU DƏYİŞDİRMƏK QAYDASI

**Maddə 162.** Naxçıvan MSSR-in bütün qanunları və dövlət orqanlarının digər aktları Naxçıvan MSSR Konstitusiyasına əsasən və ona uyğun olaraq verilir.

**Maddə 163.** Naxçıvan MSSR Konstitusiyası Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə dəyişdirilir, bu qərar Naxçıvan MSSR Ali Sovetinin bütün deputatlarının azı üçdə iki hissəsindən ibarət çoxluğu tərəfindən qəbul edilir.

## Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyası

1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın müstəqil dövlətçilik tarixinin yeni mərhələsi başlandı. Lakin müstəqilliyin ilk iki ilində, 1991-1993-cü illərdə Azərbaycanda, müəyyən kiçik istisnalar olmaqla, hüquqi, demokratik, müasir dövlət quruculuğu istiqamətində ciddi addımlar atılmadı.

Əvəzində SSRİ-nin süqutu ərəfəsində ermənilərin Azərbaycan torpaqlarına qarşı növbəti əsassız iddialarının və qanlı qəsbkarlıq planlarının başlaması ilə alovlanan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmizin mövqelərinin fəal hərbi əməliyyatlar bölgəsində hərbi, münaqişə ilə bağlı beynəlxalq miqyasda aparılan mübarizədə isə diplomatik uğursuzluqlar dalğası başlandı. Bu uğursuzluğu xarici siyasətdə ölkəmizin təcrid olunmasına səbəb olan siyasi xəttin yürüdülməsi daha da dərinləşdirdi.

Bir tərəfdən Azərbaycanda siyasi hakimiyyətin taleyinin müəyyənləşməsində əsas faktora çevrilən münaqişənin getdikcə daha da qızışması və ağır nəticələri, digər tərəfdən hakimiyyət uğrunda amansız mübarizə aparan çoxsaylı siyasi partiya və qrupların məhdud maraqlarla çərçivələnən və ümummilli mənafeyə zərbə olan ambisiyaları və ən nəhayət, sovet hakimiyyəti dövrünün son illərindən başlanan və getdikcə daha da kəskinləşən sosial-iqtisadi böhran 1993-cü ilin yayınadək olan dövrdə Azərbaycanda müstəqil dövlətçiliyin məhvə doğru sürüklənməsində əsas faktorlar oldu. Bütün bu faktorlar üçün münbit zəmin isə 1990-1992-ci illərdə Azərbaycana rəhbərlik edən keçmiş partnomenklatura sisteminin imperiyanın qorunub saxlanılması istiqamətindəki fəaliyyəti və ondan sonrakı bir il ərzində AXC-Müsavat tandeminin psevdodemokratiya siyasətinin səbəb olduğu anarxiya və xaos mühiti idi.

Bu dövrdə Naxçıvanın da vəziyyəti çox ağır və mürəkkəb idi. 1918-ci ildə Zəngəzurun ermənilər tərəfindən işğalından sonra Azərbaycanın əsas hissəsindən coğrafi cəhətdən ayrı düşən Naxçıvan düşmənin işğal planlarında ən azı Dağlıq Qarabağ qədər əhəmiyyətli yer tuturdu. Azərbaycanla, hava nəqliyyatı istisna olmaqla, bütün kommunikasiya əlaqələrinin kəsilməsi Naxçıvanın sosial-iqtisadi vəziyyətindəki böhranlı durumu fəlakət həddinə çatdırmışdı. Lakin 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, muxtar respublikaya rəhbərlik etməsi, bütün bacarıq, səriştə və təcrübəsini Naxçıvanın düşmən işğalından xilasına və sosial-iqtisadi böhranın aradan qaldırılmasına yönəltməsi muxtar respublikanın taleyinin uğurlu həlli üçün müstəsna və ən böyük amil oldu.

1990-cı il iyulun 22-də görkəmli dövlət xadimi və mahir siyasətçi Heydər Əliyevin Moskvadan Azərbaycana, Naxçıvana qayıtması ilə hakimiyyət uğrunda mübarizəyə çevrilmiş milli-azadlıq hərəkatının başlıca məqsədlərə doğru motivasiyasında ciddi səfərbərlik müşahidə edilməyə başlandı. 1990-cı il sentyabr ayının 30-da Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə keçirilən seçkilərdə ümummilli lider Heydər Əliyev respublika və muxtar respublika parlamentlərinə deputat seçildi. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasında məhz onun təşəbbüsü

ilə mühüm tarixi qərarlar qəbul edildi. “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında” qərarla “Muxtar Sovet Sosialist Respublikası” adından “Sovet Sosialist” sözləri çıxarıldı və muxtariyyət Naxçıvan Muxtar Respublikası adlanmağa başladı. “Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında” qərarla Naxçıvan MR Ali Soveti – Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. “Naxçıvan MR-in dövlət rəmzləri haqqında” qərarla isə Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il noyabrın 9-da qəbul edilmiş üç rəngli, aypara və səkkiz guşəli ulduzlu bayrağı Naxçıvan MR-in Dövlət bayrağı kimi qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin Naxçıvana və Azərbaycana rəhbərlik etdiyi dövr Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsində mühüm mərhələ oldu. Hələ 1991-ci il yanvarın 11-də məhz onun təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi xüsusi bəyanatla çıxış edərək Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətləri erməni təcavüzü nəticəsində Naxçıvanın ərazi bütövlüyünün pozulması faktına münasibət bildirməyə çağırdı. Ermənilərin muxtar respublikaya təcavüzünün genişləndiyi 1992-ci ilin may ayında Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin qardaş Türkiyə Cümhuriyyəti rəhbərliyi ilə qurduğu uğurlu diplomatik münasibətlər və məqsədyönlü mübarizəsi nəticəsində dünyanın 57 dövləti Ermənistanın Naxçıvana təcavüzünü qətiyyətlə pislədi. Həmin il may ayının 28-də Türkiyə ilə Azərbaycan (Naxçıvan) arasında mühüm hərbi-strateji və siyasi-iqtisadi əhəmiyyət daşıyan Sədərək-Dilucu, xalq arasında deyildiyi kimi, “Ümid” köprüsünün açılışı oldu.

Belə bir taleyüklü məqamda AXC-Müsavat iqtidarı hakimiyyəti ələ keçirən kimi ulu öndər Heydər Əliyevə olan sonsuz xalq sevgisinə, dünya miqyasında nüfuzuna və böyük dövlətçilik təcrübəsinə görə ona qarşı hiss etdikləri qısqanclığı bütövlükdə Naxçıvanın muxtariyyət statusunun ləğvi ilə bağlı təhdidlərə çevirmişdilər. Bir tərəfdən Azərbaycan parlamentinin sədri və dövlət katibi Naxçıvanın muxtariyyətinin ləğvi barədə məkrli və savadsız çıxışlar edir, digər tərəfdən 1992-ci il oktyabrın 24-də Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevi devirmək üçün ölkənin daxili işlər nazirinin rəhbərliyi səviyyəsində çevriliş cəhdi edilir, üçüncü bir tərəfdən isə 1992-ci ilin noyabrında keçirilən AXC-nin II qurultayında Naxçıvanın statusu ilə bağlı ölkə rəhbərliyi qarşısında məsuliyyətsiz çıxışlar edilir və qurultayın qətnaməsinə müvafiq məsələ salınırdı. Belə təhdidlərin ermənilərin işğalçılıq siyasətinə xidmət etdiyini söyləyən ümummilli lider hələ 1992-ci il iyunun 17-də Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyətinin ilcasında bəyan etmişdi ki, “Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır” [24, s. 830].

Naxçıvanın muxtariyyət statusunun Azərbaycan dövlətinin unitarizminə təhlükə və ziddiyyət təşkil etdiyini söyləyən bu siyasi işbazların nə normal tarixi və siyasi savadları, nə də beynəlxalq hüquqdan xəbərləri yox idi. Belə ki, dünyanın bir sıra unitar dövlətlərində muxtariyyətlər mövcuddur. Məsələn, Finlandiyada Aland adaları, Danimarkada Qrenlandiya və Farer adaları, Portuqaliyada Madeyra arxipelaqı və Azor adaları, İspaniya muxtariyyətləri, İtaliyada Cənubi Tirol, Çində beş iri regional muxtariyyət və ümumilikdə yüzdən artıq milli muxtariyyət, Moldovada Qaqauziya, Gürcüstanda Acarıstan, Özbəkistanda Qaraqalpaqstan Respublikası və s. Bu muxtariyyətlərin böyük əksəriyyəti məhz milli-etnik prinsipə

əsaslandığı halda həmin unitar dövlətlərdə mərkəzi hakimiyyətin muxtariyyətlərin ləğvi tələbi ilə çıxış etməsi uzun illərdən bəridir, demək olar ki, müşahidə olunmur.

Digər tərəfdən Beynəlxalq müqavilələrin hüququ barədə 1969-cu il Vyana konvensiyasının 26-cı maddəsində qeyd olunur ki, "qüvvədə olan hər bir müqavilə onun iştirakçıları üçün məcburidir və onlar tərəfindən vicdanla yerinə yetirilməlidir". Tərəflər müqavilədə təsbit olunmuş şərtlərin yerinə yetirilməməsinə daxili çətinlikləri bəhanə edərək haqq qazandıra bilməzlər. Beynəlxalq hüquqa dair 1970-ci il Deklarasiyası və beynəlxalq müqavilələrə riayət edilməsi prinsipinin ("pacta sund servanda") təsbit olunduğu 1975-ci il Helsinki Yekun Aktı da Moskva və Qars müqavilələrinin icra olunmasının hüquqi bazasını təşkil edir [bax: 17, s. 137].

1991-ci il sentyabrın 3-də ulu öndər Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçildi. Onun muxtar respublikaya rəhbərliyi dövründə Naxçıvanda qəbul edilmiş bir sıra Konstitusiya qanunları yalnız muxtar respublikanın deyil, bütövlükdə Azərbaycan dövlətinin müstəqillik tarixində mühüm yer tutdu. Artıq Naxçıvanın 1978-ci il Konstitusiyası müstəqillik dövrünün yeniləşən tələblərinə cavab vermirdi və yeni Əsas Qanun qəbul edilənədək mövcud Konstitusiyaya zəruri dəyişikliklər edilməsinə ehtiyac duyulurdu. 1992-ci il yanvarın 31-də Naxçıvan MR Ali Məclisinin Qanunvericilik mülahizələri, hüquq-mühafizə və millətlərarası münasibətlər daimi komissiyası Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin fəaliyyətini daha da yaxşılaşdıraq məqsədi ilə Naxçıvan Muxtar Respublikası Əsas Qanununun (1978-ci il Konstitusiyasının – E.C.) 103-cü maddəsinin yeni redaksiyası haqqında qanun layihəsini və həmçinin "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Konstitusiya Qanunu"nun layihəsini Ali Məclisin müzakirəsinə vermək haqqında qərar qəbul etmişdi [49]. Qeyd edək ki, Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyasının 103-cü maddəsi 11 bənddən ibarət idi və Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin səlahiyyətlərini müəyyənləşdirirdi. "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Konstitusiya Qanunu" yeni Konstitusiya qəbul edilənədək muxtar respublikada dövlət quruluşu, siyasi, iqtisadi və sosial həyatla bağlı məsələləri tənzimləməli idi. Qanun Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının tərkibində muxtar ərazi statusuna malik demokratik dövlət, hakimiyyətin mənbəyi olan xalqı demokratik quruluşun və qanunun aliliyinin təminatçısı elan edildi. Bu Qanunda ilk dəfə "hakimiyyətlərin bölgüsü" prinsipi təsbit edilmişdi [53].

Ümummilli lider Heydər Əliyev 1993-cü ilin iyun ayında Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkədə müasir hüquqi, demokratik dövlət quruculuğu prosesi başlandı və bu proses Naxçıvanı da əhatə etdi. 1995-1998-ci illər Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsi istiqamətində mühüm dövr oldu. 1995-ci il noyabrın 12-də referendumla qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına Naxçıvanla bağlı xüsusi fəsil (VIII fəsil, maddə 134-141) salındı. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət və ölkənin ayrılmaz tərkib hissəsi elan edildi.

Müstəqil Azərbaycanın Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının hazırlanması zərurətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi özünün 23 dekabr 1995-ci il tarixli,

16-1 saylı qərarı ilə muxtar respublikanın yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun başçılıq etdiyi komissiyanın hazırladığı ilkin variantda 12 fəsil, 146 maddədən ibarət olan muxtar respublika Konstitusiyasının layihəsi Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədri olduğu Azərbaycanın yeni Konstitusiya layihəsini hazırlayan Komissiyada ayrı-ayrı vaxtlarda dörd dəfə müzakirə olundu [53].

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının hazırlanması və qəbul olunması üçün başlıca hüquqi bazaya çevrildi. Ulu öndər 1998-ci il yanvarın 14-də Konstitusiya Komissiyasının ilcasında Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılmasının böyük əhəmiyyət kəsb etdiyinə toxunaraq deyirdi: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyuib saxlamalıyıq".

Bu zaman Naxçıvanın muxtariyyət statusunun təmin edilməsində 1921-ci il Moskva və Qars müqavilələrinin həyati əhəmiyyətini əsaslandıran Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev deyirdi: "Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə, böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə, Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir. Belə ağır şəraitdə Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri də odur ki, Naxçıvana o vaxt muxtariyyət hüququ veriblər. Bu muxtariyyət hüququ bu çətin vəziyyətdə yaşamaqda, inkişaf etməkdə Naxçıvana böyük şərait yaradıbdır. Amma Naxçıvanın bundan sonra da buna ehtiyacı vardır, müstəqil Azərbaycan dövlətinin içində buna ehtiyacı vardır" [17, s. 137-138].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev sonradan özünün "Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi haqqında" 4 fevral 1999-cu il tarixli Fərmanında Naxçıvanın statusunu şərtləndirən başlıca tarixi-coğrafi amili dəqiq açıqlayırdı: "İlk olaraq Azərbaycan torpağıl Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının – Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi".

Beləliklə, 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının yeni, sayca dördüncü Konstitusiyasının layihəsi hazırlandı. Layihə ingilis və fransız dillərinə tərcümə olunaraq rəy verilməsi üçün Avropa Şurasına, Qanun Vasitəsilə Demokratiya Uğrunda Avropa Komissiyasına (Venesiya Komissiyası – E.C.), Fransa Dövlət Administrasiyasının Beynəlxalq İnstitutuna və bir sıra başqa beynəlxalq təşkilatlara göndərildi. Beynəlxalq təşkilat və ekspertlərin ümumiləşmiş rəyi bundan ibarət idi ki, Konstitusiya layihəsi demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verməklə, demokratik dövlətin siyasi və hüquqi təşkili prinsiplərinə uyğundur [53].

Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın Sədri Heydər Əliyevin müzakirə edilmək üçün 12 aprel 1998-ci il tarixli məktubla Naxçıvan Muxtar Respublikası Ali Məclisinə göndərdiyi layihə aprelin 15-də "Şərq qapısı" qəzetində dərc edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1998-ci il aprelin 28-də keçirilən sessiyasında qəbul edilmiş Naxçıvan Muxtar Respublikasının Konstitusiyası dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisində təsdiq edildi və elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalandı. Naxçıvan Muxtar Respublikasının 6 fəsil, 50 maddədən ibarət olan yeni Konstitusiyası 1999-cu il yanvarın 8-də dərc edilərək qüvvəyə mindi.

Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyası muxtariyyətin əvvəlki konstitusiyalarından bir sıra cəhətlərinə görə əsaslı şəkildə fərqlənir. Əvvəlki sovet dövrü konstitusiyalarından fərqli olaraq bu Əsas Qanun müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olan muxtar dövlətin Konstitusiyasıdır. Bu Konstitusiya daha lakonikdir, burada hüquqi norma və göstərişlər daha aydın və birbaşa əks olunmuşdur. İlk dəfə olaraq Əsas Qanunun özündə onun ən yüksək və birbaşa hüquqi qüvvəsinin olduğu göstərilmiş, qanunvericilik sisteminə daxil olan aktların əhatə dairəsi müəyyənləşdirilmişdir.

Konstitusiyanın preambula hissəsi genişdir və ilk dəfə olaraq məhz bu Əsas Qanunda muxtariyyətin əsaslarının hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulduğu, həmin müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasının bəyan edildiyi və Naxçıvanın ərazi hüdudlarının dəqiqləşdirildiyi öz əksini tapmışdır. Preambula hissəsində Naxçıvanın muxtar respublika statusunun təşəkkülü və onun əvvəlki konstitusiyalarının qəbulu məsələsi də verilmişdir. Diqqətəlayiqdir ki, bu Konstitusiya qəbul edilərkən ilk ülvi niyyət kimi "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq" amalı bəyan edilir. Şübhəsiz ki, bu, Azərbaycan dövlətinin unitarlığını möhkəmləndirmək məramına xidmət edir.

Bu məram Konstitusiyanın ayrı-ayrı maddələrində daha da inkişaf etdirilir. Konstitusiyaya görə, Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır. Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

Məhz bu Əsas Qanunda ilk dəfə olaraq dövlət hakimiyyətinin "hakimiyyətlərin bölünməsi prinsipi" əsasında həyata keçirildiyi konstitusion norma olaraq əks olunmuşdur. Qanunvericilik hakimiyyətini Naxçıvan MR Ali Məclisi, icra hakimiyyətini Naxçıvan MR Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan MR məhkəmələri həyata keçirir.

Konstitusiya muxtar dövlətin başçısı statusunda "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi" institutunu təsis edir. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində səlahiyyətlərə malikdir. Konstitusiya prezidentli respublika olan

Azərbaycan dövlətinin tərkibində parlamentli muxtar respublika modelini yaradır. Belə ki: "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir". Yaşı otuzdan aşağı olmayan, Naxçıvan MR ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan MR Ali Məclisinin hər bir deputatı Naxçıvan MR Ali Məclisinin Sədri seçilə bilər.

Əsas Qanun insan və vətəndaş hüquq və azadlıqlarının, həmçinin vətəndaşların vəzifələrinin icrasının təmin edilməsində Azərbaycan Konstitusiyasının III bölməsində öz əksini tapmış müvafiq normalara bilavasitə istinad edir, muxtar respublikada yaşayan Azərbaycan vətəndaşlarına səsvermə (seçki) hüququnu tanıyır. Bu, Naxçıvan MR Konstitusiyası tərəfindən Azərbaycanda vahid vətəndaşlıq institutunun tanındığı anlamına gəlir.

Əvvəlki Konstitusiyalardan fərqli olaraq Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri və paytaxtı bu dəfə Əsas Qanunun son maddələrində deyil, "Ümumi müddəalar" adlanan ilk fəslinin son maddələrində əks olunmuşdur. Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəridir. Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir. Başqa sözlə, muxtar respublika müstəqil Azərbaycan dövlətinin rəmzlərini heç bir müdaxilə olmadan özünün rəmzləri kimi qəbul edir və bununla da, vahid Azərbaycan dövlətçiliyini təcəssüm etdirir. Xatırladaq ki, Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Azərbaycanın Respublikasının Dövlət bayrağı 1991-ci il fevral ayının 5-də üç rəngli, ay və səkkiz guşəli ulduzdan ibarət bayraq, Azərbaycan Respublikasının Dövlət himni 1992-ci il may ayının 27-də müəllifi Ü.Hacıbəyli və Ə.Cavad olan himn, Azərbaycan Respublikasının Dövlət gerbi 1993-cü il fevralın 23-də isə üçrəngli dairəvi qalxan üzərində, içində alov olan səkkizguşəli ulduz təsvirli gerb olaraq təsdiq edilmişdir. Dövlət bayrağı və gerblə yanaşı, ilk dəfə məhz bu Konstitusiyada Naxçıvan muxtariyyətinin Dövlət himni barədə müddəa da əks olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini majoritar seçki sistemi əsasında, 45 deputatdan ibarət tərkibdə 5 il müddətinə seçilən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir. Muxtar respublika ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan MR Ali Məclisinin deputatı seçilə bilər. Konstitusiya Naxçıvan MR Ali Məclisinə seçkilərdə passiv seçki hüququ ilə iştirakına qadağa qoyulanların da əhatə dairəsini müəyyənləşdirir. Seçkilərin nəticələrinin düzgünlüyü Naxçıvan MR Ali Məhkəməsi yoxlayır və təsdiq edir. Hər il iki növbəti sessiyaya yığılmalı olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, 31 deputatın səlahiyyətləri təsdiq edildikdə, səlahiyyətlidir.

Naxçıvan MR Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ Ali Məclisin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə, Naxçıvan MR Ali Məhkəməsinə və Naxçıvan MR Prokurorluğuna mənsubdur.

Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini muxtar respublikanın yuxarı icra orqanı olan Naxçıvan MR Nazirlər Kabineti həyata keçirir. Nazirlər Kabineti Naxçıvan MR Ali Məclisinə tabedir və onun qarşısında hesabat verir. Nazirlər Kabinetinin tərkibinə Naxçıvan MR-in Baş naziri, onun müavinləri, nazirlər

və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər. Nazirlər Kabinetinin tərkibini Naxçıvan MR Baş nazirinin təklifi ilə Naxçıvan MR Ali Məclisi təsdiq edir. Naxçıvan MR Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan MR Ali Məclisi təyin edir.

Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı, Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə isə yaşı 25-dən aşağı olmayan olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini Naxçıvan MR Ali Məhkəməsi, ümumi və ixtisaslaşdırılmış məhkəmələr həyata keçirirlər. Naxçıvan MR Ali Məhkəməsi muxtar respublika ərazisində apellyasiya qaydasında ədalət mühakiməsini həyata keçirir, Konstitusiya nəzarətini təmin edir. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə birinci instansiya məhkəmələridir.

Naxçıvan MR Ali Məhkəməsinin hakimlərini Naxçıvan MR Ali Məclisinin Sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin hakimlərini Naxçıvan MR Ali Məclisi Sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Naxçıvan MR Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yuksək və birbaşa hüquqi qüvvəyə malikdir və Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasıdır. Qanunvericilik sisteminə Naxçıvan MR-in Konstitusiyası, qanunları, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanları, Naxçıvan MR Nazirlər Kabinetinin qərarları və muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları daxildir.

Konstitusiyaya dəyişikliklər və əlavələr Naxçıvan MR Ali Məclisində 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir. Belə dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan MR Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir.

Əsas Qanuna əlavə edilmiş dörd keçid müddəasında 1998-ci il Konstitusiyasının qüvvəyə minməsindən sonra 1978-ci il Konstitusiyasının qüvvədən düşməsini elan edir, Naxçıvan MR Ali Məclisinə keçiriləcək yeni seçkilərlə bağlı və o dövrdə qüvvədə olan qanunların və digər normativ hüquqi aktların qüvvəsini saxlamasına dair məsələləri tənzimləyir.

Azərbaycan Respublikasının Konstitusiyasına 2002 və 2009-cu illərdə keçirilən referendumlarda edilən əlavə və dəyişikliklər, habelə müasir siyasi-hüquqi inkişaf tendensiyası Naxçıvan Muxtar Respublikası Konstitusiyasına da əlavə və dəyişikliklərin edilməsi zərurətini ortaya çıxarmışdır. 2005 və 2006-cı illərdə muxtar respublika Konstitusiyasına edilən əlavə və dəyişikliklərlə Naxçıvan MR Ali Məhkəməsinin səlahiyyəti artırılmış, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) institutu təsis olunmuş, 2009-cu il iyulun 30-da üçüncü çağırış Naxçıvan MR Ali Məclisinin yeddinci sessiyası zamanı Konstitusiyanın 10 maddəsinə 20 əlavə və

dəyişiklik edilmişdir. 30 sentyabr 2010-cu il tarixli Konstitusiya Qanunu ilə isə Ali vəzifəli şəxsin səlahiyyətləri artırılmış, Naxçıvan MR Prokurorluğuna qanunvericilik təşəbbüsü hüquq verilmişdir. Həm bu, həm də 2011-ci il noyabrın 15-də muxtar respublika Konstitusiyasın edilən dəyişikliklərlə məhkəmə hakimiyyətinin fəaliyyəti təkmilləşdirilmiş, Naxçıvan MR Ali Məhkəməsi hakimlərinin, ümumi və ixtisaslaşdırılmış nəhkəmələrin hakimlərinin təyin edilməsi proseduru dəqiqləşdirilmişdir [70, s. 92; 53].

Qeyd edək ki, 1938-ci ildən üzü bəri Naxçıvan Muxtar Respublikası ilk dəfə 1990-ci illərin əvvəllərində ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə diplomatik fəaliyyətlə bağlı müəyyən addımlar atdı. Bu, heç şübhəsiz ki, ilk növbədə həmin illərdə Naxçıvanın təhlükəsizliyi və Azərbaycanın tərkib hissəsi kimi ərazi bütövlüyünün qorunub saxlanılmasına xidmət edirdi. Hazırda Bakı şəhərində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin imzası ilə 1992-ci il fevralın 24-də təsis olunmuş Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyi fəaliyyət göstərir. Muxtar respublikanın paytaxtı Naxçıvan şəhərində isə 1993-cü il fevralın 5-dən Türkiyə Cümhuriyyətinin, 1993-cü il martın 8-dən isə İran İslam Respublikasının konsulluqları fəaliyyətdədir [24, s. 290, 834-835].

Bundan başqa, ilk dəfə məhz 1998-ci il Əsas Qanununda muxtar respublika rəhbərinə konstitusion səviyyədə xarici siyasətlə bağlı müəyyən hüquqlar tanınır. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə Konstitusiyanın 5-ci maddəsinin 8-ci bəndində Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil etmək, həmin maddənin III hissəsində isə Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir.

## Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının təsdiq edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYA QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası təsdiq edilsin.

II. Bu Konstitusiya Qanunu imzalandığı gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 dekabr 1998-ci il.
№ 603-IKQ

Dərci: 8 yanvar 1999-cu il

## KONSTİTUSİYANIN STRUKTURU

**PREAMBULA**

**I FƏSİL. ÜMUMİ MÜDDƏALAR**

Maddə 1. Naxçıvan Muxtar Respublikasının statusu
Maddə 2. Muxtariyyətin əsasları
Maddə 3. Hakimiyyətlərin bölünməsi
Maddə 4. Dövlət hakimiyyətinin mənimsənilməsinə yol verilməməsi
Maddə 5. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi
Maddə 6. Ərazi
Maddə 7. Əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi
Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların səsvermə hüququ
Maddə 9. Paytaxt
Maddə 10. Naxçıvan muxtar dövlətinin rəmzləri

**II FƏSİL. QANUNVERİCİLİK HAKİMİYYƏTİ**

Maddə 11. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi
Maddə 12. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin say tərkibi
Maddə 13. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin əsasları
Maddə 14. Naxçıvan Muxtar Respublikası Ali Məclisi çağırışının səlahiyyət müddəti
Maddə 15. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədlərə aid tələblər
Maddə 16. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi
Maddə 17. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətinin bitməsi
Maddə 18. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları
Maddə 19. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi
Maddə 20. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının toxunulmazlığı
Maddə 21. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar
Maddə 22. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili
Maddə 23. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktları
Maddə 24. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar
Maddə 25. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər
Maddə 26. Qanunvericilik təşəbbüsü hüququ
Maddə 27. Qanunların və qərarların imzalanması

Maddə 28. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktlarının qüvvəyə minməsi
Maddə 29. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə aid tələblər
Maddə 30. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi
Maddə 31. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vəzifədən kənarlaşdırılması
Maddə 32. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin səlahiyyətləri
Maddə 33. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları

**III FƏSİL. İCRA HAKİMİYYƏTİ**
Maddə 34. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyəti
Maddə 35. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin statusu
Maddə 36. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi
Maddə 37. Naxçıvan Muxtar Respublikasının Baş naziri
Maddə 38. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclasları
Maddə 39. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri
Maddə 40. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları
Maddə 41. Naxcıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə aid tələblər
Maddə 42. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər

**IV FƏSİL. MƏHKƏMƏ HAKİMİYYƏTİ**
Maddə 43. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi
Maddə 44. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi
Maddə 45. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri
Maddə 46. Naxçıvan Muxtar Respublikası Prokurorluğu

**V FƏSİL. QANUNVERİCİLİK SİSTEMİ**
Maddə 47. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının hüquqi qüvvəsi
Maddə 48. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi
Maddə 49. Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktları

**VI FƏSİL. NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR**
Maddə 50. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin və əlavələrin qəbul edilmə qaydası

**KEÇİD MÜDDƏALARI**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASI

Naxçıvanın muxtariyyətinin əsasları hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri ilə qoyulmuşdur. Həmin beynəlxalq müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olması bir daha bəyan edilərək Naxçıvanın ərazi hüdudları dəqiqləşdirilmişdir.

Naxçıvan 1921-ci il martın 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

1926-cı ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının ilk, 1937-ci ildə ikinci, 1978-ci ildə üçüncü Konstitusiyası qəbul edilmişdir.

Naxçıvan Muxtar Respublikasının bu Konstitusiyasının əsasını Azərbaycan Respublikasının 1995-ci il 12 noyabrda ümumxalq səsverməsində – referendumda qəbul edilən Konstitusiyası təşkil edir.

Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikası Konstitusiyası ilə üzvi surətdə bağlı olan bu Konstitusiyası qəbul edilərkən təntənəli surətdə aşağıdakı niyyətlər bəyan edilir:

Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq;

haqq-ədalətə, qanuna əsaslanaraq Naxçıvan Muxtar Respublikasının əhalisinin layiqli həyat səviyyəsini təmin etmək, güzəranını yaxşılaşdırmaq;

Naxçıvan Muxtar Respublikasında Konstitusiya çərçivəsində demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat vermək, qanunun aliliyini qorumaq.

Yuxarıda göstərilən ülvi niyyətlərlə bu Konstitusiya qəbul edilir.

## I FƏSİL

## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Naxçıvan Muxtar Respublikasının statusu

I. Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır.

II. Naxçıvan Muxtar Respublikasının statusunu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixli Qars beynəlxalq müqavilələri müəyyən edir.

### Maddə 2. Muxtariyyətin əsasları

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

II. Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı olan bütün digər məsələlər Naxçıvan Muxtar Respublikası tərəfindən həll edilir, o şərtlə ki, bu məsələlərin həlli Azərbaycan Respublikasının dövlət orqanlarının səlahiyyətlərinə aid edilməyib.

III. Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır.

**Maddə 3. Hakimiyyətlərin bölünməsi**

I. Naxçıvan Muxtar Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir:

qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir;

icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir;

məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

II. Bu Konstitusiyanın müddəalarına əsasən qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı fəaliyyət göstərirlər.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikası məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

**Maddə 4. Dövlət hakimiyyətinin mənimsənilməsinə yol verilməməsi**

I. Naxçıvan Muxtar Respublikasında vətəndaşların hec bir hissəsi, sosial qrup, təşkilat və ya hec bir şəxs hakimiyyətin həyata keçirilməsi səlahiyyətini mənimsəyə bilməz.

II. Hakimiyyətin mənimsənilməsi xalqa qarşı ən ağır cinayətdir.

**Maddə 5. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi**

I. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir.

II. Bu Konstitusiya ilə müəyyən olunan hallarda və qaydada Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində aşağıdakı səlahiyyətləri həyata keçirir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkiləri təyin edir;

2) Naxçıvan Muxtar Respublikası dövlət hakimiyyət orqanlarının qarşılıqlı fəaliyyətini təmin edir;

3) Naxçıvan Muxtar Respublikasının qanunlarını imzalayır və dərc edir;

4) Naxçıvan Muxtar Respublikasının dövlət və ictimai-siyasi həyatının mühüm məsələləri barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə məlumat verir;

5) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;

6) Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi icra hakimiyyəti orqanlarını yaradır;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları arasındakı dövrdə Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin fəaliyyətini təmin edir;

8) Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil edir;

9) Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri hakimlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair təkliflər verir;

10) Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi haqqında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdimat verir;

11) Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;

12) ali xüsusi rütbələrin verilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təkliflər verir;

13) Naxçıvan Muxtar Respublikası prokurorunun, rayon, şəhər və ixtisaslaşdırılmış prokurorlarının vəzifəyə təyin və vəzifədən azad olunmasına dair təkliflər verir;

14) Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikasının hərbi doktrinasını həyata keçirir, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisində yerləşmiş birləşmələrinin komandan heyətləri haqqında təklif verir;

15) vətəndaşlıq məsələlərinə dair təklif verir;

16) əfv edilmə məsələlərinə dair təklif verir;

17) Təhlükəsizlik Şurasını təsis edir və ona rəhbərlik edir;

18) ümumi və qismən səfərbərliyin həyata keçirilməsini təmin edir;

19) vətəndaşların müddətli hərbi xidmətə çağırılmasının və müddətli hərbi xidmətdən tərxis olunmuş hərbi qulluqçuların sosial müdafiəsinin təmin olunması tədbirlərinin həyata keçirilməsinə yardım edir;

20) Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilmiş fövqəladə və hərbi vəziyyət rejiminin həyata keçirilməsinə yardım edir, Naxçıvan Muxtar Respublikasında fövqəladə və hərbi vəziyyət elan olunması məsələsinə dair təklif verir;

21) Naxçıvan Muxtar Respublikasının fəxri adlarını təsis edir, Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsinə dair Azərbaycan Respublikasının Prezidentinə təklif verir;

22) Azərbaycan Respublikasının Prezidenti tərəfindən Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin səlahiyyətlərinə aid edilmiş digər məsələləri icra qaydasında həll edir.

III. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası ilə müəyyən edilmiş həddə və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil edir.

IV. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikasının dövlətçiliyinin varisliyini təmin edir.

V. Bu Konstitusiya ilə onun səlahiyyətinə aid edilən məsələlər üzrə Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi fərmanlar, başqa məsələlər barəsində isə sərəncamlar qəbul edir.

**Maddə 6. Ərazi**

Naxçıvan Muxtar Respublikasının ərazisi Azərbaycan Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

**Maddə 7. Əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi**

Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, gözlənilməsi və Azərbaycan Respublikası vətəndaşlarının vəzifələrinin icrasını təmin etmək Naxçıvan Muxtar Respublikasının dövlət orqanlarının əsas vəzifəsidir.

**Maddə 8. Naxçıvan Muxtar Respublikasında vətəndaşların səsvermə hüququ**

Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan Azərbaycan Respublikasının vətəndaşları seçmək və seçilmək hüququna malikdirlər.

Məhkəmələr tərəfindən fəaliyyət qabiliyyətsizliyi təsdiq olunmuş şəxslərin seçkilərdə iştirak etmək hüququ yoxdur.

Hərbi qulluqçuların, hakimlərin, dövlət məmurlarının, din xadimlərinin, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərin, bu Konstitusiyada və qanunda nəzərdə tutulan digər şəxslərin seçkilərdə iştirak etmək hüququ qanunla məhdudlaşdırıla bilər.

**Maddə 9. Paytaxt**

Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəridir.

**Maddə 10. Naxçıvan muxtar dövlətinin rəmzləri**

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

## II FƏSİL

## QANUNVERİCİLİK HAKİMİYYƏTİ

**Maddə 11. Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi**

Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir.

**Maddə 12. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin say tərkibi**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 deputatdan ibarətdir.

**Maddə 13. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin əsasları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər.

**Maddə 14. Naxçıvan Muxtar Respublikası Ali Məclisi çağırışının səlahiyyət müddəti**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının səlahiyyət müddəti 5 ildir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər çağırışının seçkiləri hər beş ildən bir noyabr ayının birinci bazar günü keçirilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyət müddəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin çağırışının səlahiyyət müddəti ilə məhdudlaşır.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından çıxanların yerinə yeni seçkilər keçirilərsə, yeni seçilən deputatın səlahiyyət müddəti deputatlıqdan çıxanın qalan səlahiyyət müddəti ilə məhdudlaşır.

**Maddə 15. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədlərə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikasının ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilə bilər.

II. İkili vətəndaşlığı olan, başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə hakimiyyəti sistemlərində qulluq edən, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olan şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır

cinayətlərə görə məhkum olunmuş şəxslər, məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrumetmə yerlərində cəza çəkən şəxslər Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçilə bilməzlər.

**Maddə 16. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi**

Seçkilərin nəticələrinin düzgünlüyü qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən yoxlanılır və təsdiq edilir.

**Maddə 17. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətinin bitməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının səlahiyyətləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeni çağırışının ilk iclas günü bitir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddətinin bitməsinə 120 gündən az müddət qalarsa, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlığından cıxanların yerinə seçkilər keçirilmir.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın səlahiyyətləri təsdiq olunduqda səlahiyyətlidir.

**Maddə 18. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyaları**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi hər il iki növbəti sessiyaya yığılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının səlahiyyətləri təsdiq edildikdən sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası həmin gündən başlayaraq bir həftədən gec olmayaraq çağırılır.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyaları Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 deputatının tələbi əsasında və ya öz təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən çağırılır.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin növbədənkənar sessiyasının gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir. Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyalarının iclasları açıq keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 31 deputatının tələbi ilə və ya Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasının qapalı iclası keçirilə bilər.

**Maddə 19. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarının səlahiyyətlərinin itirilməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı aşağıdakı hallarda mandatından məhrum edilir:

1) seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda;

2) Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə;

3) cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda;

4) icra və məhkəmə hakimiyyəti sistemlərində qulluq etdikdə, din xadimi olduqda, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olduqda;

5) özü imtina etdikdə.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığından məhrumetmə haqqında qərar qanunla müəyyən edilmiş qaydada qəbul edilir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir. Bu haqda müvafiq qərarın qəbul edilmə qaydası qanunla müəyyən edilir.

**Maddə 20. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının toxunulmazlığı**

I. Səlahiyyət müddəti ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının şəxsiyyəti Naxçıvan Muxtar Respublikasında toxunulmazdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatını tutan orqan bu barədə dərhal Naxçıvan Muxtar Respublikası prokuroruna xəbər verməlidir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatının toxunulmazlığına yalnız Naxçıvan Muxtar Respublikası prokurorunun təqdimatına əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sadə səs çoxluğu ilə qəbul edilmiş qərarı ilə xitam verilə bilər.

**Maddə 21. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının məsuliyyətə cəlb olunmasına qoyulan qadağanlar**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları Naxçıvan Muxtar Respublikası Ali Məclisindəki fəaliyyətinə, səsverməyə və söylədiyi fikrə görə məsuliyyətə cəlb oluna bilməzlər. Razılığı olmadan onlardan bu hallarla əlaqədar izahat, ifadə tələb edilə bilməz.

**Maddə 22. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz iş qaydasını müəyyən edir və Ali Məclisin müvafiq orqanlarını yaradır, o cümlədən öz sədrini və onun müavinlərini seçir, komitələr və komissiyalar təşkil edir.

**Maddə 23. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktları**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi öz səlahiyyətlərinə aid məsələlər üzrə qanunlar və qərarlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunlar və qərarlar Azərbaycan Respublikasının Konstitusiyası və bu Konstitusiya ilə müəyyən edilmiş qaydada qəbul edilir.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları səsvermə hüququnu şəxsən həyata keçirirlər.

IV. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

**Maddə 24. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələlərə dair ümumi qaydalar müəyyən edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər;
2) Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının statusu;
3) Naxçıvan Muxtar Respublikası İnsan hüquqları üzrə müvəkkilinin statusu;
4) Azərbaycan Respublikasının iqtisadi və vergi siyasətinə uyğun olaraq vergilər;
5) Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;
6) sosial təminat;
7) ətraf mühitin qorunması;
8) turizm;
9) səhiyyə, elm və mədəniyyət;
10) Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

**Maddə 25. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;
2) Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;
3) Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;

4) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi və vəzifədən azad edilməsi;

5) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinin təsdiqi;

6) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə etimad;

7) Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təqdimatı ilə Naxçıvan Muxtar Respublikasının İnsan hüquqları üzrə müvəkkilinin seçilməsi;

8) Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsi;

9) bu Konstitusiyada nəzərdə tutulmuş hallarda Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanlarının təsdiqi;

10) Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onun səlahiyyətinə aid edilən digər məsələlər.

II. Bu maddənin I hissəsinin 1-ci və 2-ci bəndlərindən göstərilən məsələlərə dair qanunlar, qalan məsələlərə dair isə eyni qaydada qərarlar qəbul edilir.

**Maddə 26. Qanunvericilik təşəbbüsü hüququ**

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmək hüququ) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikasının Prokurorluğuna mənsubdur.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun qanunvericilik təşəbbüsü qaydasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verdiyi qanun və qərar layihələri müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur.

III. Belə qanun və ya qərar layihələrində dəyişikliklər qanunvericilik təşəbbüsü hüququndan istifadə edən orqanın razılığı ilə edilə bilər.

IV. Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etdiyi qanun və qərar layihələri iki ay ərzində səsə qoyulur.

V. Qanun və qərar layihəsini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatları, Naxçıvan Muxtar Respublikasının Baş naziri, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və Naxçıvan Muxtar Respublikasının Prokurorluğu təcili elan edibsə, bu müddət 20 gün təşkil edir.

VI. Qanun və qərar layihələri əsaslandırılmalı və onların qəbul edilməsinin məqsədləri göstərilməlidir.

**Maddə 27. Qanunların və qərarların imzalanması**

I. Qanunlar və qərarlar qəbul edildiyi gündən 10 gün müddətində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanır.

II. Təcili elan olunan qanun və qərar layihəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən qəbul edildiyi gündən 24 saat ərzində imzalanır.

**Maddə 28. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aktlarının qüvvəyə minməsi**

Qanunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarının özündə başqa qayda nəzərdə tutulmayıbsa, qanun və qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 29. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən seçilir, ona tabedir və ona hesabat verir. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən geri cağırıla bilər.

II. Yaşı otuzdan aşağı olmayan, Naxçıvan Muxtar Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilə bilər.

III. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçkisi qaydasını Naxçıvan Muxtar Respublikasının Ali Məclisi müəyyən edir.

**Maddə 30. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin öz səlahiyyətlərini daimi icra edə bilməməsi**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri istefa verdikdə, səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini itirdikdə, müəyyən edilmiş müddətdə yeni sədr seçilənə qədər onun səlahiyyətlərinin icrası Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin birinci müavini, o da olmadıqda müavini tərəfindən yerinə yetirilir.

**Maddə 31. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vəzifədən kənarlaşdırılması**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin vəzifədən kənarlaşdırılması qaydası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsi ilə müəyyən edilir.

**Maddə 32. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin səlahiyyətləri**

I. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri:

1) Ali Məclisin növbədənkənar sessiyalarını çağırır;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclaslarına sədrlik edir;

3) Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin edilməsi üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

4) Naxçıvan Muxtar Respublikasının Baş nazirinin təklifinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə üzvlüyə namizədləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinə təqdim edir;

5) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı öz mandatından imtina etdikdə və qanunla müəyyən edilmiş digər hallarda onu deputat mandatından məhrum edir;

6) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar qərar qəbul edir;

7) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədr müavinliyinə namizədlərin seçilməsi və Ali Məclisin Sədr müavinlərinin vəzifədən azad edilməsi barədə Ali Məclisə təklif verir;

8) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aparatını təşkil edir və onun rəhbərliyini təyin edir;

9) bu Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilən digər məsələləri həll edir.

**Maddə 33. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin aktları**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qərarlar qəbul edir.

## III FƏSİL

## İCRA HAKİMİYYƏTİ

**Maddə 34. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyəti**

I. Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının yuxarı icra orqanıdır.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tabedir və onun qarşısında müntəzəm hesabat verir.

**Maddə 35. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin statusu**

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir.

**Maddə 36. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibi**

I. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibinə Naxçıvan Muxtar Respublikasının Baş naziri, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının nazirləri və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

**Maddə 37. Naxçıvan Muxtar Respublikasının Baş naziri**

Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

**Maddə 38. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclasları**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin iclaslarına, bir qayda olaraq, Naxçıvan Muxtar Respublikasının Baş naziri sədrlik edir.

**Maddə 39. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin səlahiyyətləri**

I. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

muxtar respublikanın büdcəsini icra edir;

muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;

muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;

nazirliklər və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, onların aktlarını ləğv edir;

Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

II. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iqtisadi və mədəni sahələrdə Naxçıvan Muxtar Respublikasını Azərbaycan Respublikasının Nazirlər Kabinetində təmsil edir.

**Maddə 40. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları**

I. Ümumi qaydalar müəyyən etdikdə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərarlar, başqa məsələlər üzrə sərəncamlar qəbul edir.

II. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin aktları, başqa qayda müəyyən edilməmişsə, dərc edildiyi gündən qüvvəyə minir.

**Maddə 41. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlüyünə namizədlərə aid tələblər**

I. Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

II. Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

**Maddə 42. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvlərinə aid tələblər**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin üzvləri heç bir başqa seçkili və ya təyinatlı vəzifə tuta bilməzlər, elmi, pedaqoji və yaradıcılıq fəaliyyətindən başqa heç bir sahibkarlıq, kommersiya və digər ödənişli fəaliyyətlə məşğul ola bilməzlər, vəzifə maaşından, habelə elmi, pedaqoji və yaradıcılıq fəaliyyətinə görə aldığı vəsaitdən başqa məvacib ala bilməzlər.

## IV FƏSİL

## MƏHKƏMƏ HAKİMİYYƏTİ

**Maddə 43. Məhkəmə hakimiyyətinin həyata keçirilməsi**

I. Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr həyata keçirirlər.

II. Məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

III. Məhkəmə hakimiyyəti Azərbaycan Respublikasının Konstitusiyası, mülki və cinayət məhkəmə icraatı vasitəsi ilə və qanunla nəzərdə tutulan digər vasitələr ilə həyata keçirilir.

IV. Ədalət mühakiməsinin həyata keçirilməsində Naxçıvan Muxtar Respublikasının Prokurorluğu və müdafiə tərəfi iştirak edir.

V. Məhkəmə quruluşu və məhkəmə icraatı qaydası qanunla müəyyən olunur.

VI. Məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədi ilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin yaradılması qadağandır.

VII. Məhkəmə icraatı həqiqətin müəyyən edilməsini təmin etməlidir.

**Maddə 44. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi**

I. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, Naxçıvan Muxtar Respublikasının ərazisində apellyasiya qaydasında ədalət mühakiməsini həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini təmin edir. O, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin sədrinin və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun sorğusu əsasında aşağıdakı məsələləri həll edir:

1) Naxçıvan Muxtar Respublikasının qanunlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğunluğu;

2) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qərarlarının, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin sərəncamlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikasının qanunlarına uyğunluğu;

3) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarının, Naxçıvan Muxtar Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına uyğunluğu.

III. Hər kəs onun hüquq və azadlıqlarını pozan Naxçıvan Muxtar Respublikasının qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından bu maddənin II hissəsinin 1-3-cu bəndlərində göstərilən məsələlərin Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi tərəfindən həll edilməsi üçün, habelə bələdiyyə və məhkəmə aktlarından Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə qanunla müəyyən edilmiş qaydada şikayət verə bilər.

IV. Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətinin həyata keçirilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin aktlarından

qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə şikayət verilə bilər.

V. Naxçıvan Muxtar Respublikasının məhkəmələri insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Naxçıvan Muxtar Respublikası qanunlarının şərh edilməsi haqqında qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə müraciət edə bilər.

VI. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir.

VII. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin qərarları dərc edilməlidir.

**Maddə 45. Naxçıvan Muxtar Respublikasının ümumi və istisaslaşdırılmış məhkəmələri**

I. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə birinci instansiya məhkəmələridir.

II. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

**Maddə 46. Naxçıvan Muxtar Respublikası Prokurorluğu**

I. Naxçıvan Muxtar Respublikası Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir, məhkəmədə iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

II. Naxçıvan Muxtar Respublikası Prokurorluğu ərazi prokurorlarının Naxçıvan Muxtar Respublikası prokuroruna və Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqandır.

III. Naxçıvan Muxtar Respublikası prokurorunu Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təklifi əsasında Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin edir.

IV. Ərazi və ixtisaslaşdırılmış prokurorları Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Azərbaycan Respublikası Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Azərbaycan Respublikasının Baş prokuroru vəzifəyə təyin və vəzifədən azad edir.

## V FƏSİL

## QANUNVERİCİLİK SİSTEMİ

**Maddə 47. Naxçıvan Muxtar Respublikası Konstitusiyasının hüquqi qüvvəsi**

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yuksək hüquqi qüvvəyə malikdir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası birbaşa hüquqi qüvvəyə malikdir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasıdır.

**Maddə 48. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi**

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsidir.

II. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Azərbaycan Respublikası qanunvericilik sisteminə uyğundur.

III. Naxçıvan Muxtar Respublikasının qanunvericilik sistemi Naxçıvan Muxtar Respublikasının aşağıdakı normativ hüquqi aktlarından ibarətdir:

1) Naxçıvan Muxtar Respublikasının Konstitusiyası;

2) Naxçıvan Muxtar Respublikasının qanunları;

3) Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları;

4) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları;

5) Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları.

**Maddə 49. Naxçıvan Muxtar Respublikasının normativ hüquqi aktları**

I. Normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə, bərabər münasibətə) əsaslanmalıdır.

II. Naxçıvan Muxtar Respublikasının qanunları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına zidd olmamalıdır, yalnız dərc edilmiş qanunların tətbiqi və icrası Naxçıvan Muxtar Respublikasında bütün vətəndaşlar, icra hakimiyyəti və məhkəmə hakimiyyəti, hüquqi şəxslər və bələdiyyələr üçün məcburidir.

III. Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərmanları Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına zidd olmamalıdır, Naxçıvan Muxtar

Respublikasının Ali vəzifəli şəxsinin fərmanları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

IV. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına zidd olmamalıdır, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları yalnız dərc edildikdə Naxçıvan Muxtar Respublikasında onların tətbiqi və icrası vətəndaşlar, mərkəzi və yerli icra hakimiyyəti orqanları, hüquqi şəxslər üçün məcburidir.

V. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanlarının aktları Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına və qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarına, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinin fərman və sərəncamlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına və sərəncamlarına, Azərbaycan Respublikası mərkəzi icra hakimiyyəti orqanlarının aktlarına zidd olmamalıdır.

## VI FƏSİL

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYASINA DƏYİŞİKLİKLƏR VƏ ƏLAVƏLƏR

### Maddə 50. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərin və əlavələrin qəbul edilmə qaydası

I. Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir.

II. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir.

III. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra təklif, qanunlar üçün nəzərdə tutulmuş qaydada, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə imzalamaq üçün təqdim olunur.

IV. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikası Konstitusiyasının ayrılmaz hissəsidir və Naxçıvan Muxtar Respublikası Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

## KEÇİD MÜDDƏALARI

I. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qəbul edildikdən və Azərbaycan Respublikası Milli Məclisi tərəfindən təsdiq edildikdən sonra rəsmən dərc olunduğu gündən qüvvəyə minir. Bu Konstitusiyanın qüvvəyə mindiyi gündən 1978-ci il mayın 30-da qəbul edilmiş Naxçıvan Muxtar Respublikasının Konstitusiyası (Əsas Qanunu) qüvvədən duşur.

II. Naxçıvan Muxtar Respublikasının xalq deputatlarının səlahiyyətləri yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclas gunu başa catır.

Yeni seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk iclası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin azı 31 deputatının seçildiyinin elan edildiyi gündən sonra bir ay ərzində keçirilir.

III. 1995-ci il sentyabrın 12-də qəbul edilmiş "Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 79-cu maddəsi bu Qanun əsasında seçilmiş Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci çağırışının səlahiyyətləri bitənədək qüvvədədir.

IV. Bu Konstitusiyanın qəbul edildiyi günədək Naxçıvan Muxtar Respublikasının ərazisində qüvvədə olan Naxçıvan Muxtar Respublikasının qanunları və başqa normativ hüquqi aktları bu Konstitusiyaya zidd olmayan hissədə öz qüvvəsini saxlayır.

# AZƏRBAYCAN KONSTİTUSİYALARINDA NAXÇIVAN MUXTARİYYƏTİ İLƏ BAĞLI HÜQUQİ NORMALAR

# Azərbaycan Sosialist Sovet Respublikasının 1927-ci il Konstitusiyası

Müasir Azərbaycan Respublikasında çağdaş demokratik hüquq dövlətinin tarixinin 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını elan edən ilk hüquqi sənədi – Konstitusiya aktı statusuna malik İstiqlal Bəyannaməsi (Misaqi-Milli) ilə başladığını söyləsək, yanılmarıq. Azərbaycan Milli Şurası tərəfindən elan edilən 6 bənddən ibarət Bəyannamə bir hüquqi-siyasi sənəd kimi, tamhüquqlu müstəqil dövlətin yaradılması və onun idarəçilik formasının (xalq cümhuriyyəti) elan edilməsi ilə yanaşı, dövlətin əsas, fundamental fəaliyyət prinsiplərini də özündə ehtiva edirdi. Bütün millətlərlə, xüsusilə qonşu olduğu millətlər və dövlətlərlə mehriban münasibətlər yaratmaq əzmində olan Azərbaycan Cümhuriyyəti milliyyətindən, məzhəbindən, sinfindən, silkindən və cinsindən asılı olmayaraq öz sərhədləri daxilində yaşayan bütün vətəndaşlarına siyasi hüquqlar və vətəndaşlıq hüququnu tanıyır və təmin edir, öz ərazisi daxilində yaşayan bütün millətlərin sərbəst inkişafı üçün geniş imkanlar yaradırdı. Təbii ki, cəmi altı bənddən ibarət olan bu sənəd vahid və kamil Konstitusiyanı əvəz edə bilməzdi. Məhz bu baxımdan parlamentli respublika quruluşunu seçən Azərbaycan dövləti gələcəkdə Konstitusiyasının xalq tərəfindən seçiləcək Müəssislər Məclisində qəbul edilməsini nəzərdə tuturdu.

Lakin Azərbaycan Cümhuriyyətinin ətrafında baş verən beynəlxalq və regional hərbi-siyasi hadisələr, dünya güclərinin bölgədəki toqquşan maraqları, xarici qüvvələr tərəfindən dəstəklənən erməni təcavüzü və ən nəhayət, sovet Rusiyasının təcavüzü müstəqil Azərbaycan dövlətçiliyini arzu edilən, məqsədəmüvafiq istiqamətdə inkişaf etdirməyə imkan vermədi. 1920-ci il aprelin 27-dən 28-ə keçən gecə cümhuriyyət süqut etdi və Azərbaycan faktiki olaraq sovet Rusiyasının işğalı altına düşdü. İki ay sonra, 1920-ci il iyul ayının 28-də IX sovet Qızıl ordusu tərəfindən işğal edilən Naxçıvanda da sovet hakimiyyətinin yaradıldığı elan edildi.

1920-ci ilin sonları-1921-ci ilin əvvəllərindən Naxçıvanın Azərbaycanın tərkibində qalması istiqamətində aparılan mübarizə yekun mərhələyə daxil oldu. 1921-ci il yanvar ayının əvvəllərində Azərbaycan SSR, Ermənistan SSR və RSFSR nümayəndələrinin təşəbbüsü ilə Naxçıvanda keçirilən rəy sorğusunda bölgə əhalisinin 90 faizi Naxçıvanın muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi. Həmin il martın 16-da Moskvada Türkiyə hökuməti ilə sovet Rusiyası arasında bağlanmış müqavilənin 3-cü maddəsində, oktyabrın 13-də isə Qarsda bir tərəfdən Türkiyə hökuməti, digər tərəfdən Azərbaycan, Gürcüstan və Ermənistanın sovet hökumətləri arasında bağlanmış müqavilənin 5-ci maddəsində Naxçıvanın muxtar ərazi statusunda Azərbaycanın tərkibində qalması qəti olaraq razılaşdırılmışdı.

Azərbaycan konstitusionalizminin bilavasitə tarixi kommunist siyasi ideologiyası çərçivəsində proletariat diktaturasından avtoritar-totalitar, sərt təkpartiyalı siyasi rejimə doğru inkişaf edən sovet hakimiyyəti altında olduğu dövrdə başladı. 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər qurultayı 5 bölmə, 15 fəsil və 104 maddədən ibarət ilk Azərbaycan Konstitusiyasını qəbul etdi. Konstitusiya

Azərbaycanda sovet quruluşunun yarandığını, dövlət idarəçilik formasını isə kommunist diktaturasının ən demokratik siyasi forma hesab etdiyi formada – sovetlər respublikası formasında müəyyən etdi, ali hakimiyyətin fəhlələrə və əməkçi kəndlilərə, öz əməyi ilə yaşayanların hamısına məxsus olduğu bəyan edildi [70, s. 4]. Azərbaycanın bu ilk Konstitusiyası Naxçıvan məsələsi ilə bağlı danışıqların getdiyi bir mərhələdə qəbul olunmuşdu və görünür, bu səbəbdən də 1921-ci il Əsas Qanununa Naxçıvan və onun muxtariyyət statusu ilə bağlı heç bir müddəa daxil edilməmişdi. Belə ki, Konstitusiya qəbul olunanadək Naxçıvanın muxtariyyət statusunun təsbit olunduğu Moskva müqaviləsi imzalansa və 1921-ci il martın 20-də RSFSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən təsdiq edilsə də, Türkiyə Böyük Millət Məclisi müqaviləni həmin il iyulun 21-də təsdiqləmişdi [28, s. 305].

Konstitusiyanın 21-22-ci maddələri Azərbaycan Mərkəzi İcraiyyə Komitəsini (AzMİK) Ümumazərbaycan Sovetlər Qurultayları arasındakı dövrdə respublikanın ali qanunverici, sərəncam və nəzarət orqanı elan edirdi. Azərbaycan MİK-in sessiyaları arasındakı dövrdə isə ali dövlət hakimiyyəti orqanı Azərbaycan MİK Rəyasət Heyəti idi. Onun tərkibinə Azərbaycan MİK-in sədri, katibi və üzvlər daxil idilər. Sonralar daimi üzvlərdən başqa, Azərbaycan MİK-in Rəyasət Heyətinin tərkibinə həmçinin Naxçıvan SSR MİK-in sədri də daxil edildi [70, s. 4, 8].

Azərbaycanın daxil olduğu Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının təşkili və SSRİ-nin yaranması, respublikamızın inzibati ərazi bölgüsündə dəyişikliklər, onun ərazisində Naxçıvan SSR (artıq 1924-cü ilin aprelində Naxçıvan SSR haqqında Əsasnamə qəbul edilmişdi) və DQMV-nin təşkil edilməsi və s. ilə əlaqədar olaraq 1925-ci il martın 14-də Azərbaycan Konstitusiyasına çoxsaylı dəyişiklik və əlavələr edilməsinə dair qərarlar verilmişdi. Lakin baş verən ictimai-siyasi, sosial-iqtisadi və hüquqi yeniliklər yeni konstitusiyanın qəbul olunmasını zəruri edirdi. 1926-cı il aprelin 18-də Naxçıvan SSR-in ilk Konstitusiyası da belə mühüm yeniliklərdən idi.

Bütün bunlar 1927-ci il martın 26-da V Ümumazərbaycan Sovetlər qurultayı tərəfindən ikinci Azərbaycan Konstitusiyasının qəbul edilməsi ilə nəticələndi. Azərbaycanın 1927-ci il Konstitusiyası 5 bölmə, 9 fəsil və 101 maddədən ibarət idi [70, s. 18].

1921-ci il Konstitusiyasından fərqli olaraq Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasında [70, s. 21-34] Naxçıvan SSR-lə bağlı müəyyən müddəalar öz əksini tapmışdı. 2-ci maddəyə əlavə edilmiş qeyddə bildirilirdi ki, "Azərbaycan Sosialist Sovet Respublikasının tərkibinə Dağlıq Qarabağ Muxtar Vilayəti və Naxçıvan Sosialist Sovet Respublikası daxildir". Həlli Azərbaycan Sovetlər Qurultayının müstəsna səlahiyyətinə verilən məsələlərin 18-ci maddədə əks olunmuş sıralamasında: "b" bəndində "Naxçıvan Sosialist Sovet Respublikası Konstitusiyasının yekun təsdiqi" həmin məsələlərin sırasına daxil edilirdi. Azərbaycan Sovetlər Qurultayının və AzMİK-in səlahiyyətlərinin müəyyənləşdirildiyi 19-cu maddənin "b" bəndində "Naxçıvan Sosialist Sovet Respublikasının sərhədlərinin müəyyənləşdirilməsi" və "Naxçıvan Sosialist Sovet Respublikası Konstitusiyasının təsdiqi", həmçinin "m" bəndində "Naxçıvan Sosialist Sovet Respublikası Sovetlər Qurultaylarının qərarlarının ləğvi" səlahiyyətləri Azərbaycan SSR-in ali hakimiyyət orqanlarının hüququ kimi təsdiq edilirdi.

“Xalq Komissarları Soveti haqqında” adlanan fəslin 37-ci maddəsinə edilən “Qeyd”də isə bildirilirdi ki, sadalanan digər orqanlardan başqa, Xalq Komissarları Sovetinin (XKS) iclaslarında “Naxçıvan Sosialist Sovet Respublikası Xalq Komissarları Sovetinin sədri də həlledici səslə iştirak edir”. Büdcə hüququna dair müddəaların əks olunduğu IV bölmənin VIII fəslinin 88-ci maddəsində Azərbaycan SSR-in dövlət gəlir və xərclərinə daxil olan Naxçıvan SSR-in bütün gəlir və xərclərinin ümumdövlət büdcəsində birləşdiyi göstərilirdi. 92-ci maddədə isə Naxçıvan SSR-in dövlət gəlir və xərclərinin yerli XKS və MİK tərfindən qəbul edilməsindən və Azərbaycan SSR XKS tərəfindən baxılmasından sonra Azərbaycan MİK tərəfindən Azərbaycan SSR büdcəsinin tərkib hissəsi kimi təsdiqləndiyi bildirilirdi.

Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasının ayrı-ayrı maddələrində Naxçıvanla bağlı müddəaların yer alması ilə yanaşı, Konstitusiyanın II Bölməsinin (Sovet hakimiyyəti quruluşu) V fəslinin (Naxçıvan Sovet Sosialist Respublikası haqqında və Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında; maddə 52-57) 52-54-cü maddələri bilavasitə Naxçıvana həsr olunmuşdu. 1921-ci il Konstitusiyasından fərqli olaraq bu Əsas Qanunda Naxçıvanın Azərbaycanın tərkib hissəsi və protektoratlığı (qəyyumluğu) altında olduğu dəqiq göstərilmiş, Naxçıvan SSR-lə Azərbaycan SSR arasındakı münasibətlərin bu Konstitusiya ilə müəyyən edildiyi təsbit olunmuşdu. Beləliklə, Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasında Naxçıvan SSR-lə bağlı konkret maddələr və müddəalar əks olunmuş, 52-ci maddədə Naxçıvanın Azərbaycanın tərkibində və onun protektoratlığında (qəyyumluğunda) muxtariyyət hüquqlu respublika statusu Əsas Qanun səviyyəsində hüquqi norma kimi ilk dəfə təsbit edilmişdi.

Əsas Qanunda Naxçıvan SSR Sovetlər qurultayı tərəfindən qəbul edilən Naxçıvan SSR Konstitusiyasının Azərbaycan MİK-in təsdiqinə və Azərbaycan SSR Sovetlər qurultayının yekun təsdiqinə verildiyi də öz əksini tapmışdı. Konstitusiya Naxçıvan SSR-də dövlət hakimiyyətinin ən yüksək orqanının Naxçıvan SSR Sovetlər Qurultayı, qurultaylar arasındakı dövrdə isə qurultay tərəfindən seçilən Naxçıvan MİK olduğunu qeyd edirdi.

Qeyd edək ki, 1927-ci il Konstitusiyası qəbul edildikdən sonra Azərbaycan SSR hökumətinin tərkibinə XKS sədri, onun müavini və 11 xalq komissarı daxil idi. Həmçinin Naxçıvan XKS-nin sədri də Azərbaycan XKS-nin iclaslarında həlledici səslə iştirak edirdi.

1929-cu il aprelin 8-də keçirilən VI Ümumazərbaycan Sovetlər Qurultayının qərarı ilə respublikanın ərazisi dairələrə, rayonlara (iriləşdirilmiş nahiyələr) və kənd sovetlərinə bölündü. Bunun nəticəsində əvvəlki 13 qəzanın əvəzinə (Naxçıvan MSSR istisna olmaqla) 8 dairə – Bakı, Quba, Lənkəran, Şirvan, Muğan (Salyan), Zaqatala-Nuxa, Gəncə və Qarabağ dairələri yaradıldı. İri nahiyələrin sayı 108-dən 60-a endirildi. AzMİK və XKS-nin 1930-cu il avqustun 8-də verdiyi “Dairələrin ləğvi haqqında” qərarla respublikada dairə bölgüsü ləğv olundu və yeni inzibati-ərazi vahidləri – rayonlar yaradıldı. Rayonların sayı (Naxçıvan MSSR-in rayonları da daxil olmaqla) 63-ə qədər artırıldı [70, s. 18].

# AZƏRBAYCAN SOSİALİST SOVET RESPUBLİKASININ KONSTİTUSİYASI (ƏSAS QANUNU)

***1927-ci il martın 26-da V çağırış Ümumazərbaycan Sovetlər Qurultayı tərəfindən təsdiq edilmişdir.***

## III BÖLMƏ

## Sovet hakimiyyəti quruluşu haqqında

### V Fəsil

### Naxçıvan Sosialist Sovet Respublikası və Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında

52. Naxçıvan Sosialist Sovet Respublikası Azərbaycan Sosialist Sovet Respublikasının tərkib hissəsidir və onun protektoratlığı altındadır. Naxçıvan Sosialist Sovet Respublikası ilə Azərbaycan Sosialist Sovet Respublikası arasında qarşılıqlı münasibətlər bu Konstitusiya ilə müəyyən edilir.

53. Naxçıvan Sosialist Sovet Respublikasının Əsas Qanunu (Konstitusiyası) Naxçıvan Sosialist Sovet Respublikasının Sovetlər Qurultayı tərəfindən qəbul olunur, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin təsdiqinə təqdim edilir və Azərbaycan Sosialist Sovet Respublikası Sovetlər Qurultayının yekun təsdiqinə verilir.

54. Naxçıvan Sosialist Sovet Respublikasında dövlət hakimiyyətinin ən yüksək orqanı Naxçıvan Sosialist Sovet Respublikasının Sovetlər Qurultayı, Qurultaylar arasındakı dövrdə isə onun tərəfindən seçilən, hüquqları Naxçıvan Sosialist Sovet Respublikasının Konstitusiyası ilə müəyyən edilən Naxçıvan Mərkəzi İcraiyyə Komitəsidir.

# КОНСТИТУЦИЯ (ОСНОВНОЙ ЗАКОН) АЗЕРБАЙДЖАНСКОЙ СОЦИАЛИСТИЧЕСКОЙ СОВЕТСКОЙ РЕСПУБЛИКИ

***Утвержденная Всеазербайджанским С’ездом Советов V созыва 26-го марта 1927 года.***

## РАЗДЕЛ III

## Об устройстве Советской власти

### Глава V

### О Нахичеванской Социалистической Советской Республике и Автономной Области Нагорного Карабаха

52. Нахичеванская Социалистическая Советская Республика является составной частью Азербайджанской Социалистической Советской Республики и состоит под ее протекторатом. Взаимоотношения Нахичеванской Социалистической Советской Республики с Азербайджанской Социалистической Советской Республикой определяются настоящей Конституцией.

53. Основной Закон (Конституция) Нахичеванской Социалистической Советской Республики принимается С’ездом Советов Нахичеванской Социалистической Советской Республики, представляется на утверждение Азербайджанского Центрального Исполнительного Комитета и вносится на окончательное утверждение С’езда Советов Азербайджанской Социалистической Советской Республики.

54. Высшим органом государственной власти в Нахичеванской Социалистической Советской Республике является С’езд Советов Нахичеванской Социалистической Советской Республики, а в период между С’ездами — избираемый им Нахичеванский Центральный Исполнительный Комитет, права которого определяются Конституцией Нахичеванской Социалистической Советской Республики.

## Azərbaycan Sovet Sosialist Respublikasının 1937-ci il Konstitusiyası

1936-cı il dekabrın 5-də SSRİ-nin yeni Konstitusiyası qəbul edildikdən sonra Azərbaycan SSR Konstitusiyasının sovet dövlətinin yeni Əsas Qanununa uyğunlaşdırılması məsələsi gündəliyə gəldi. 1937-ci il martın 14-də Fövqəladə IX Ümumazərbaycan Sovetlər Qurultayı tərəfindən Azərbaycan SSR-in 14 fəsil, 155 maddədən ibarət yeni Konstitusiyası təsdiq edildi. İqtisadi sahədə, cəmiyyətin sinfi quruluşunda və qarşılıqlı milli münasibətlərdə əmələ gəlmiş əsaslı dəyişikliklər sosialist demokratiyası prinsipinə uyğun surətdə dövlət orqanları sistemində və seçki hüququ prinsipində bir sıra yeniliklərin təsbit edilməsinə səbəb oldu. Hakimiyyət orqanlarının hamısı gizli səsvermə yolu ilə ümumi, müstəqim və bərabər seçki hüququ əsasında seçilməyə başladı. Əvvəlki konstitusiyalardan fərqli olaraq Azərbaycanın 1937-ci il Konstitusiyasına bir sıra yeni fəsillər də daxil edilmişdi [7, s. 35].

1927-ci il Konstitusiyası ilə müqayisədə bu Əsas Qanunda Naxçıvan MSSR-lə bağlı bir çox maddələrdə hüquqi normalar yer almışdı. Bundan başqa, ilk dəfə olaraq Azərbaycan Konstitusiyasında iki fəsil; “Naxçıvan Muxtar Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanları” adlanan V fəsil (maddə 57-66) və “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının dövlət idarəsi orqanları” adlanan VI fəsil (maddə 67-74) Naxçıvan MSSR-də dövlət hakimiyyəti və siyasi idarəçiliklə bağlı birbaşa hüquqi müddəaları əhatə edirdi.

Azərbaycanın 1937-ci il Əsas Qanunu 4 il müddətinə seçilən Naxçıvan Avtonom* Sovet Sosialist Respublikasının Baş Sovetini** muxtar respublikada dövlət hakimiyyətinin ali və yeganə qanunverici orqanı elan edirdi. Naxçıvan ASSR-in Baş Soveti muxtar respublikanın Əsas Qanununu qəbul etdikdən və inzibati bölgüsünü müəyyənləşdirdikdən sonra təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edirdi. Bundan başqa, muxtar respublikanın ali qanunverici orqanına xalq təsərrüfat planını və büdcəni, muxtar respublikanın fəxri adlarını vermək səlahiyyətləri məxsus idi.

Naxçıvan ASSR Baş Soveti muxtar respublikanın hökuməti olan “ali icraiyyə və binagüzarlıx orğanı”nı – Naxçıvan ASSR Xalq Komissarları Sovetini təşkil edirdi. Naxçıvan ASSR Xalq Komissarları Sovetinin tərkibinə Xalq Komissarları Sovetinin sədri, onun müavinləri (Konstitusiyanın mətnində “əvəzləri” – E.C.), Dövlət Plan Komissiyasının sədri, 11 sahə üzrə yaradılan xalq komissarlıqlarının başçıları, iki idarə rəisi və Tədarük Komitəsinin müvəkkili daxil idi.

Bundan başqa, 1937-ci il Azərbaycan Konstitusiyasının “Dövlət quruluşu” adlanan II fəslinin 14-cü maddəsində Azərbaycan Respublikasının ərazisinə daxil olan inzibati rayonların siyahısı və Bakı şəhərinin adı qeyd olunmuşdu. Siyahıda ilk olaraq Naxçıvan ASSR-in adı çəkilirdi. 19-cu maddədə Azərbaycan SSR-in ali hakimiyyət və dövlət idarə orqanlarının səlahiyyətinə digər məsələlərlə yanaşı,

---

** Konstitusianın ilk mətnlərində “Avtonom” sözü işlədilirdi. 1945-ci ilə bu söz “Muxtar” sözü ilə əvəzləndi.*

*** Baş Sovet – sonralar Ali Sovet adlanırdı.*

Naxçıvan ASSR-in Konstitusiyasını təsdiq etmək ("b" bəndi), onun sərhədlərini və rayon bölgülərini təsdiq etmək ("c" bəndi), muxtar respublikanın büdcəsinin həyata keçirilməsinə rəhbərlik etmək ("h" bəndi) kimi məsələlər də daxil edilmişdi. Qeyd edilirdi ki, "Naxcıvan ASSR-in, Naxcıvan ASSR xüsusiyyətlərini nəzərə alan və Azərbaycan SSR ilə SSRİ-nin Konstitusiyalarına tamamilə müvafiq qurulmuş olan öz Konstitusiyası vardır. Azərbaycan SSR-in qanunları Naxcıvan ASSR-in ərazisində məcburidir. Naxcıvan ASSR qanunu Azərbaycan SSR qanunu ilə düz gəlmədikdə, Azərbaycan SSR-in qanununa əməl edilir" (maddə 20-21).

"Azərbaycan Sovet Sosialist Respublikası dövlət hakimiyyətinin ali orqanları" adlanan III fəslin 33-cü maddəsində Azərbaycan SSR Baş Sovetinin Rəyasət Heyətinə Naxçıvan ASSR XKS-in qərar və sərəncamları qanuna uyğun olmadıqda onları ləğv etmək səlahiyyəti verilirdi. "Azərbaycan Sovet Sosialist Respublikası dövlət idarəsi orqanları" adlanan IV fəslin 46-cı maddəsi Azərbaycan SSR XKS-ə Naxçıvan ASSR XKS-in işini istiqamətləndirmək və yoxlamaq ("d" bəndi), onun qərar və sərəncamlarını dayandırmaq (47-ci maddə) hüququ verirdi. Naxçıvan ASSR-də dövlət hakimiyyətinin yerli orqanları olan Əməkçi Deputatları Sovetlərinə SSRİ, Azərbaycan SSR və Naxçıvan ASSR qanunlarının onlara verdiyi hüquq daxilində qərarlar qəbul etməsi və sərəncamlar verməsi səlahiyyəti tanınırdı (maddə 89). 109-cu maddə yerli büdcələrə, o cümlədən muxtar respublikanın büdcəsinə yerli təsərrüfat gəlirlərinin, onun ərazisindəki dövlət gəlirlərindən ayırmaların və habelə SSRİ və Azərbaycan SSR qanunları ilə müəyyən edilən həcmdə yerli vergi və yığımlardan ibarət vəsaitin daxil olduğu təsbit edilmişdi.

Konstitusiyanın "Məhkəmə və prokurorluq" adlanan X fəslində Azərbaycanda ədalət mühakiməsini həyata keçirən məhkəmə orqanlarının sırasına Naxçıvan ASSR-in Baş Məhkəməsi də daxil edilmişdi. Azərbaycan SSR-in Baş Məhkəməsinə, digər aşağı məhkəmə orqanları ilə yanaşı, muxtar respublikanın da bütün məhkəmə orqanlarına nəzarət etmək tapşırılırdı. Naxçıvan ASSR Baş Soveti tərəfindən seçilən Naxçıvan ASSR Baş Məhkəməsinin səlahiyyət müddəti beş il idi. Konstitusiyada muxtar respublikada məhkəmə iclaslarının Azərbaycan dilində aparılması məsələsi də öz əksini tapmışdı. Naxçıvan ASSR Prokuroru SSRİ Prokuroru tərəfindən beş il müddətinə təyin edilirdi.

Seçki sisteminin və seçkilərin keçirilməsinin ümumi prinsiplərinin müəyyənləşdirildiyi Konstitusiyanın 141-ci maddəsində bütün Əməkçi Deputatları Sovetlərinə, o cümlədən Naxçıvan ASSR Baş Sovetinə deputatların seçicilər tərəfindən gizli səs verməklə ümumi, bərabər və müstəqim seçki hüququ əsasında seçildiyi təsbit olunurdu. Naxcıvan ASSR-in kənd Əməkçi Deputatları Sovetlərinə seçki normaları, həmin maddədə göstərilmiş seçki normaları daxilində, Naxcıvan ASSR Baş Soveti tərəfindən müəyyənləşdirilirdi.

Naxçıvan ASSR Fövqəladə X Sovetlər Qurultayının 1937-ci il sentyabrın 17-də qəbul etdiyi muxtar respublikanın yeni Əsas Qanunu Azərbaycan SSR-in 1937-ci il Konstitusiyası əsasında hazırlanmışdı. Naxçıvan ASSR Azərbaycanın ali dövlət hakimiyyəti orqanlarında öz nümayəndəliyi ilə təmsil olunurdu. Naxçıvan ASSR-in Baş Soveti Rəyasət Heyətinin sədri eyni zamanda Azərbaycan SSR Baş Soveti Rəyasət Heyəti sədrinin müavini sayılır, muxtar respublika XKS-nin sədri öz

vəzifəsinə görə Azərbaycan hökumətinin tərkibinə daxil edilirdi. Azərbaycan SSR Baş Sovetinin Naxçıvan Konstitusiyasını təsdiq etmək, onun SSRİ və Azərbaycan SSR Konstitusiyalarına uyğunluğu, Azərbaycan qanunlarının muxtar respublika qanunları ilə müqayisədə üstünlük hüququ və Azərbaycan qanunları ilə muxtar respublika qanunları arasında ziddiyyət olduğu halda, Azərbaycan qanunlarının qüvvəsinin üstünlüyü ilə qanunla yol verilən hüdudlarda məhdudlaşdırılırdı.

# AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİQASININ QONSTİTUSİYASI (ƏSAS QANUNU)

*1937-ci il martın 14-də IX Ümumazərbaycan Fövqəladə Sovetlər Qurultayı tərəfindən təsdiq edilmişdir*

## FƏSİL V

## NAXCIVAN AVTONOM SOVET SOSİALİST RESPUBLİQASI DÖVLƏT HAKİMİYYƏTİNİN ALİ ORĞANLARI

**Maddə 57.** Naxcıvan ASSR dövlət hakimiyyətinin ali orğanı Naxcıvan ASSR Baş Sovetidir.

**Maddə 58.** Naxcıvan ASSR Baş Soveti Naxcıvan ASSR-in Qonstitusiyası ilə qərarlaşdırılan nümayəndəlik normaları üzrə, respubliqanın vətəndaşları tərəfindən 4 il müddətinə seçilir.

**Maddə 59.** Naxcıvan ASSR Baş Soveti Naxcıvan ASSR-in yeganə qanunverici orğanıdır.

**Maddə 60.** Naxcıvan ASSR Baş Soveti:

a) Naxcıvan ASSR-in Qonstitusiyasını qəbul edir və onu təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edir;

b) Naxcıvan ASSR-in rayon bölgüsünü, rayon və şəhərlərin sərhədlərini qərarlaşdırır və təsdiq üçün Azərbaycan SSR Baş Sovetinə təqdim edir;

ç) Naxcıvan ASSR-in xalq-təsərrüfat planını və byudcetini təsdiq edir;

c) Naxçıvan ASSR-in fəxri adlarını verir.

**Maddə 61.** Naxcıvan ASSR Baş Soveti: Naxcıvan ASSR Baş Sovetinin Prezidiumu sədrindən, onun əvəzlərindən, Prezidium katibindən və Naxcıvan ASSR Baş Soveti Prezidiumu üzvlərindən ibarət Naxcıvan ASSR Baş Sovetinin Prezidiumunu seçir.

**Maddə 62.** Naxcıvan ASSR Baş Sovetinin Prezidiumu Naxcıvan ASSR Baş Sovetinə hesabat verir.

**Maddə 63.** Naxcıvan ASSR Baş Soveti Prezidiumunun səlahiyyəti Naxcıvan ASSR Qonstitusiyası ilə müəyən edilir.

**Maddə 64.** İclasları aparmaq üçün Naxcıvan ASSR Baş Soveti Naxcıvan ASSR Baş Soveti sədrini və onun əvəzlərini seçir.

**Maddə 65.** Naxcıvan ASSR Baş Soveti Naxcıvan ASSR Hökumətini – Naxcıvan ASSR Xalq Qomissarları Sovetini – təşkil edir.

**Maddə 66.** Naxcıvan ASSR Baş Sovetinin qəbul etdiyi qanunlar, Naxcıvan ASSR Xalq Qomissarları Sovetinin qərar və binagüzarlıxları Azərbaycan və erməni dillərində elan edilir.

## FƏSİL VI

## NAXCIVAN AVTONOM SOVET SOSİALİST RESPUBLİQASININ DÖVLƏT İDARƏSİ ORĞANLARI

**Maddə 67.** Naxcıvan ASSR-in ali icraiyyə və binagüzarlıx orğanı – Naxcıvan ASSR Xalq Qomissarları Sovetidir.

**Maddə 68.** Naxcıvan ASSR Xalq Qomissarları Soveti Naxcıvan ASSR Baş Soveti qarşısında məsuldur və ona hesabat verir, Naxcıvan ASSR Baş Sovetinin sessiyaları arasındakı dövrdə isə, Naxcıvan ASSR Baş Sovetinin Prezidiumu qarşısında məsuldur və ona hesabat verir.

**Maddə 69.** Naxcıvan ASSR Xalq Qomissarları Soveti SSRİ, Azərbaycan SSR və Naxcıvan ASSR qanunlarına, SSRİ və Azərbaycan SSR Xalq Qomissarları Sovetlərinin qərar və binagüzarlıxlarına əsasən və onların icrası üçün qərar və binagüzarlıxlar verir və onların icrasını yoxlayır.

**Maddə 70.** Naxcıvan ASSR Xalq Qomissarları Soveti Naxcıvan ASSR Xalq Qomissarlarının əmr və instruqsiyalarını, rayon və şəhər Əməkçi Deputatları Sovetləri icraiyə qomitetlərinin qərar və binagüzarlıxlarını ləğv etmək, habelə rayon və şəhər Əməkçi Deputatları Sovetlərinin qərar və binagüzarlıxlarını dayandırmaq hüququna malikdir.

**Maddə 71.** Naxcıvan ASSR Xalq Qomissarları Soveti Naxcıvan ASSR Baş Soveti tərəfindən bu heyətdə təskil edilir:

Naxcıvan ASSR Xalq Qomissarları Soveti sədri;
Xalq Qomissarları Soveti sədrinin əvəzləri;
Dövlət Plan Qomissiyası sədri;
Xalq Yeyinti Sənaye Qomissarı;
Xalq Torpax Qomissarı;
Xalq Finans Qomissarı;
Xalq Daxili Ticarət Qomissarı;
Xalq Daxili İşlər Qomissarı;
Xalq Ədliyə Qomissarı;
Xalq Səhiyə Qomissarı;
Xalq Maarif Qomissarı;
Xalq Yerli Sənaye Qomissarı;
Xalq Qommunal Təsərrüfat Qomissarı;
Xalq İctimai Təminat Qomissarı;
Yollar İdarəsi naçalniqi;
Tədarük Qomiteti müvəkkili;
İncəsənət işləri İdarəsi naçalniqi.

**Maddə 72.** Naxcıvan ASSR Xalq Qomissarları Azərbaycan SSR və Naxcıvan ASSR Qonstitusiyalarına görə, Naxcıvan ASSR-in qompetensiyasına daxil olan dövlət idarəsi sahələrinə rəhbərlik edirlər.

**Maddə 73.** Naxcıvan ASSR Xalq Qomissarları SSRİ, Azərbaycan SSR və Naxcıvan ASSR qanunlarına, SSRİ Xalq Qomissarları Sovetinin, Azərbaycan SSR Xalq Qomissarları Sovetinin, Naxcıvan ASSR Xalq Qomissarları Sovetinin qərar və

binagüzarlıxlarına, Azərbaycan SSR Xalq Qomissarlarının əmr və instruqsiyalarına əsasən və onların icrası üçün, müvafiq Xalq Qomissariatlarının qompetensiyaları daxilində əmrlər və instruqsiyalar verirlər.

**Maddə 74.** Naxcıvan ASSR Xalq Qomissariatları, həm Naxcıvan ASSR Xalq Qomissarları Sovetinə, həm də Azərbaycan SSR-in müvafiq Xalq Qomissariatlarına tabe olaraq, dövlət idarəsinin onlara tapşırılmış sahələrinə rəhbərlik edirlər.

# Azərbaycan Sovet Sosialist Respublikasının 1978-ci il Konstitusiyası

SSR İttifaqının 1977-ci il Konstitusiyası Azərbaycanın və Naxçıvanın da yeni Konstitusiyalarının qəbul edilməsi zərurətini ortaya çıxarmışdı. Azərbaycan SSR Ali Sovetinin 1978-ci il aprelin 21-də keçirilən IX çağırış növbədənkənar yeddinci sessiyası Azərbaycanın 11 bölmə, 22 fəsil, 185 maddədən ibarət yeni Əsas Qanununu qəbul etdi. Əvvəlki Konstitusiyadan fərqli olaraq, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında [70, s. 60-85] ayrı-ayrı fəsillər bölmələrdə birləşdirilmişdi.

Konstitusiyanın müxtəlif maddələrində Naxçıvan muxtariyyəti ilə bağlı hüquqi normalar əks olunmuşdu. Azərbaycanın sayca 4-cü olan bu Əsas Qanununda muxtar respublika ilə bağlı konstitusion müddəalar daha geniş şəkildə işlənmişdi. Belə ki, Konstitusiyanın "Azərbaycan SSR-in milli dövlət və inzibati ərazi quruluşu" adlanan III bölməsinə daxil olan 8-ci fəsli ("Naxçıvan Muxtar Sovet Sosialist Respublikası"; maddə 79-82) və "Naxçıvan MSSR-in ali dövlət hakimiyyəti və idarə orqanları" adlanan 15-ci ("Naxçıvan MSSR Ali Soveti"; maddə 131-132) və 16-cı ("Naxçıvan MSSR Nazirlər Soveti"; maddə 133-136) fəsilləri əhatə edən VI bölməsi bilavasitə muxtar respublikaya həsr edilmiş hüquqi normalardan ibarət idi.

İlk dəfə olaraq 1978-ci il Azərbaycan Konstitusiyası Naxçıvan MSSR-i Azərbaycan SSR-in tərkibində "sovet sosialist dövləti" elan etdi. Naxçıvan MSSR-in Konstitusiyası SSRİ və Azərbaycan SSR-in Əsas qanunlarına uyğun olmalı idi. Azərbaycan qanunları Naxçıvan MSSR ərazisində məcburi elan edilirdi. 81-ci maddədə qeyd olunurdu ki, "Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz".

Naxçıvan MSSR-də dövlət hakimiyyətinin ali orqanı Naxçıvan MSSR Ali Soveti idi. Ali Sovet sessiyalararası dövrdə özünün funksiyalarını həyata keçirən Rəyasət Heyətini seçir, habelə muxtar respublikada dövlət hakimiyyətinin ali icra və sərəncam orqanı olan Naxçıvan MSSR Nazirlər Sovetini (Naxçıvan MSSR Hökumətini) təşkil edirdi.

Konstitusiyanın III bölməsinə ("Azərbaycan SSR-in milli dövlət və inzibati ərazi quruluşu") daxil olan 7-ci fəslinin ("Azərbaycan SSR SSRİ-nin tərkibində müttəfiq respublikadır") 72-ci maddəsində Naxçıvan MSSR Konstitusiyasının Azərbaycan SSR Konstitusiyasına uyğunluğunu təmin etmək və Naxçıvan MSSR dövlət büdcəsinin yerinə yetirilməsinə rəhbərlik etmək Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanlarının səlahiyyətləri sırasına aid edilirdi.

78-ci maddədə Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibinə daxil olduğu qeyd edilmişdi. "Azərbaycan SSR Xalq deputatları Sovetləri və onların seçilməsi qaydası" adlanan IV bölməyə daxil olan 10-cu fəslin ("Xalq deputatları Sovetlərinin sistemi və fəaliyyət prinsipləri") 85-ci maddəsində Naxçıvan MSSR Ali Sovetinin dövlət hakimiyyəti orqanlarının vahid sisteminə daxil olduğu göstərilirdi. Azərbaycan SSR Ali Soveti ilə yanaşı muxtar respublika Ali Sovetinin vəkalət müddəti də beş il müəyyən olunurdu.

11-ci fəsildə ("Seçki sistemi") muxtar respublikada fəaliyyətdə olan Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi qaydasının SSR İttifaqı, Azərbaycan

SSR qanunları ilə yanaşı Naxçıvan MSSR qanunları ilə müəyyən edildiyi müddəası əks olunmuşdu (maddə 97). 102-ci maddə deputatların toxunulmazlığının, onların deputatlıq fəaliyyəti üçün digər təminatların deputatların statusu haqqında qanunla və SSR İttifaqının digər qanunvericilik aktları ilə, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunvericilik aktları ilə müəyyən olunduğunu hüquqi norma kimi təsbit edirdi (12-ci fəsil; "Xalq deputatı"). Təbii ki, burada Naxçıvan MSSR-in qanunvericilik aktlarının muxtar respublikanın əhatə etdiyi Xalq deputatları Sovetlərinin üzvü olan deputatların hüquqlarına şamil olunması nəzərdə tutulurdu.

Konstitusiyanın V bölməsinin ("Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanları") "Azərbaycan SSR Ali Soveti" adlanan 13-cü fəslində qanunvericilik təşəbbüsü hüququ "öz ali dövlət hakimiyyəti orqanları simasında Naxçıvan MSSR-ə" də şamil olunurdu (maddə 108). Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti sədrinin üç müavinindən biri Naxçıvan MSSR-dən olan deputatlar içərisindən seçilirdi. Naxçıvan MSSR Konstitusiyasının və qanunlarının Azərbaycan SSR Konstitusiyasına və qanunlarına uyğun olmasını təmin etmək, Naxçıvan MSSR-də rayon bölgüsünü, şəhərlərin təşkil edilməsini, şəhərlərin tabeliyinin dəyişdirilməsini, rayonlara, şəhərlərə ad verilməsini və onların adlarının dəyişdirilməsini, habelə digər yaşayış məntəqələrinin adlarının dəyişdirilməsini təsdiq etmək, Naxçıvan MSSR Nazirlər Sovetinin qərar və sərəncamları qanuna uyğun gəlmədikdə, onları ləğv etmək Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin səlahiyyətləri sırasına daxil idi. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ali Sovetin sessiyaları arasındakı dövrdə, sonradan növbəti sessiyada Ali Sovetin təsdiqinə verilməklə Naxçıvan MSSR-in sərhəd dəyişikliklərini təsdiq etmək, respublika tabeliyində olan rayonlar və şəhərləri təşkil etmək səlahiyyətinə də malik idi.

Azərbaycan SSR Nazirlər Soveti haqqında maddələrin əks olunduğu 14-cü fəsildə Naxçıvan MSSR Nazirlər Soveti sədrinin vəzifəsinə görə Azərbaycan hökumətinin tərkibinə daxil olduğu təsbit edilirdi (maddə 123). Azərbaycan SSR Nazirlər Sovetinin Naxçıvan MSSR Nazirlər Sovetinin işini istiqamətləndirmək və yoxlamaq, öz səlahiyyəti daxilində muxtar respublika hökumətinin qərar və sərəncamlarının icrasını dayandırmaq hüququ vardı.

Azərbaycan SSR-in yerli dövlət hakimiyyəti və idarə orqanlarının dövlət idarəetmə sistemindəki yeri, təşkili, hüquq və səlahiyyətlərinin müəyyən edildiyi VII bölmənin yerli Xalq deputatları Sovetləri haqqındakı 17-ci fəslində Naxçıvan MSSR ərazisindəki Xalq deputatları Sovetlərinə SSR İttifaqı, Azərbaycan SSR və Naxçıvan MSSR qanunvericiliyi ilə onların səlahiyyətinə aid edilmiş hər hansı məsələni öz sessiyalarında nəzərdən keçirib həll etmək, hər üç səviyyə üzrə qanunvericiliklə onlara verilmiş səlahiyyət daxilində qərarlar qəbul etmək hüququ verilirdi. Naxçıvan MSSR-də yerli Xalq deputatları Sovetlərinin icraiyyə komitələrinin tərkibindəki şöbə və idarələrin siyahısı və onların təşkili qaydasının SSR İttifaqı, Azərbaycan SSR qanunvericiliyi ilə yanaşı, Naxçıvan MSSR qanunvericiliyi ilə müəyyən edilməsinə yol verilirdi (18-ci fəsil, maddə 151).

VIII bölməyə ("Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planı. Azərbaycan SSR dövlət büdcəsi") daxil olan 19-cu fəsildə göstərilirdi ki, Azərbaycan SSR dövlət iqtisadi və sosial inkişaf planları iqtisadiyyat və sosial-mədəni quruculuq sahəsində vəzifələri müəyyən edir, Azərbaycan SSR ərazisində xalq təsərrüfatı

sahələrinin və iqtisadi rayonların məqsədli kompleks proqramlarını, inkişaf planlarını əhatə edir. Bu planlara Naxçıvan MSSR-in iqtisadi və sosial inkişaf planları da daxil edilirdi. Muxtar respublikanın Nazirlər Soveti Azərbaycan hökumətinə dövlət iqtisadi və sosial inkişaf planı layihəsi təqdim edə bilərdi. 20-ci fəsildə isə Naxçıvan MSSR büdcəsinin Azərbaycan SSR-in dövlət büdcəsinə birləşdiyi qeyd edilir, Azərbaycanın dövlət büdcəsinin yerli büdcələr, o cümlədən muxtar respublikanın dövlət büdcəsi üzrə bölüşdürülməsinin Azərbaycan SSR-in, Naxçıvan MSSR-in və yerli xalq deputatları Sovetlərinin büdcə hüquqları haqqında Azərbaycan SSR qanunu ilə müəyyən edildiyi bildirilirdi (maddə 159-160).

Konstitusiyanın 163-cü maddəsi Naxçıvan MSSR Ali Məhkəməsini Azərbaycan SSR məhkəmələri sırasına daxil edirdi. Muxtar respublika Ali Məhkəməsinin sədri vəzifəsinə görə Azərbaycan SSR Ali Məhkəməsinin tərkibinə daxil idi. Naxçıvan MSSR prokuroru SSRİ Baş prokuroru tərəfindən təyin edilirdi (maddə 177).

# AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ KONSTİTUSİYASI (ƏSAS QANUNU)

***1978-ci il aprelin 21-də doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin növbədənkənar yeddinci sessiyasında qəbul edilmişdir***

## III

## AZƏRBAYCAN SSR-in MİLLİ DÖVLƏT VƏ İNZİBATİ ƏRAZİ QURULUŞU

### 8-ci fəsil

### NAXÇIVAN MUXTAR SOVET SOSİALİST RESPUBLİKASI

**Maddə 79.** Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının tərkibində sovet sosialist dövlətidir.

Naxçıvan MSSR SSR İttifaqının və Azərbaycan SSR-in hüquqları istisna olmaqla, öz səlahiyyətinə aid məsələləri müstəqil həll edir.

Naxçıvan MSSR-in SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına müvafiq olan və Naxçıvan MSSR-in xüsusiyyətlərini nəzərə alan öz Konstitusiyası vardır.

**Maddə 80.** Naxçıvan MSSR Azərbaycan SSR-in və SSR İttifaqının səlahiyyətinə aid məsələlərin həllində müvafiq surətdə Azərbaycan SSR-in və SSR İttifaqının ali dövlət hakimiyyəti və idarə orqanları vasitəsilə iştirak edir.

Naxçıvan MSSR öz ərazisində kompleks iqtisadi və sosial inkişafı təmin edir, bu ərazidə SSR İttifaqı və Azərbaycan SSR səlahiyyətinin həyata keçirilməsinə kömək edir, SSRİ-nin və Azərbaycan SSR-in ali dövlət hakimiyyəti və idarə orqanlarının qərarlarını həyata keçirir.

Naxçıvan MSSR öz səlahiyyətinə aid məsələlərlə ittifaq və respublika (Azərbaycan SSR) tabeliyindəki müəssisə, idarə və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edir.

**Maddə 81**. Naxçıvan MSSR-in ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz.

**Maddə 82.** Azərbaycan SSR qanunları Naxçıvan MSSR ərazisində məcburidir. Naxçıvan MSSR qanunu Azərbaycan SSR qanununa uyğun gəlmədikdə, Azərbaycan SSR qanunu tətbiq edilir.

## VI

## NAXÇIVAN MSSR-in ALİ DÖVLƏT HAKİMİYYƏTİ VƏ İDARƏ ORQANLARI

### 15-ci fəsil

### NAXÇIVAN MSSR ALİ SOVETİ

**Maddə 131.** Naxçıvan MSSR dövlət hakimiyyətinin ali orqanı Naxçıvan MSSR Ali Sovetidir.

Naxçıvan MSSR Ali Soveti SSRİ Konstitusiyası Azərbaycan SSR Konstitusiyası və Naxçıvan MSSR Konstitusiyası ilə Naxçıvan MSSR-in səlahiyyətinə aid edilmiş bütün məsələləri həll etmək hüququna malikdir.

Naxçıvan MSSR Konstitusiyasının qəbul olunması, onda dəyişikliklər edilməsi; Naxçıvan MSSR dövlət iqtisadi və sosial inkişaf planlarının, dövlət büdcəsinin və onların yerinə yetirilməsi haqqında hesabatların təsdiq olunması; Naxçıvan MSSR Ali Sovetinə hesabat verməli olan orqanların təşkil edilməsi yalnız Naxçıvan MSSR Ali Soveti tərəfindən həyata keçirilir.

Naxçıvan MSSR qanunları Naxçıvan MSSR Ali Soveti tərəfindən qəbul edilir.

**Maddə 132.** Naxçıvan MSSR Ali Soveti Naxçıvan MSSR Ali Sovetinin daimi orqanını – özünün bütün fəaliyyətində ona hesabat verən və onun sessiyaları arasındakı dövrdə Naxçıvan MSSR ali dövlət hakimiyyəti orqanının funksiyalarını Konstitusiyanın nəzərdə tutduğu hüquqlar daxilində həyata keçirən Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətini seçir.

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin tərkibi və səlahiyyəti Naxçıvan MSSR Konstitusiyası ilə müəyyən edilir.

### 16-cı fəsil

### NAXÇIVAN MSSR NAZİRLƏR SOVETİ

**Maddə 133.** Naxçıvan MSSR dövlət hakimiyyətinin ali icra və sərəncam orqanı olan Naxçıvan MSSR Nazirlər Soveti – Naxçıvan MSSR Hökuməti Naxçıvan MSSR Ali Soveti tərəfindən təşkil edilir.

Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR Ali Soveti qarşısında məsuldur və ona hesabat verir, Naxçıvan MSSR Ali Sovetinin sessiyaları arasındakı dövrdə isə Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti qarşısında məsuldur və ona hesabat verir.

**Maddə 134.** Naxçıvan MSSR Nazirlər Soveti SSRİ-nin, Azərbaycan SSR-in və Naxçıvan MSSR-in qanunvericilik aktları, SSRİ Nazirlər Sovetinin və Azərbaycan

SSR Nazirlər Sovetinin qərar və sərəncamları əsasında və bunların yerinə yetirilməsi üçün qərarlar çıxarır və sərəncamlar verir, onların icrasını təşkil edir və yoxlayır.

**Maddə 135.** Naxçıvan MSSR Nazirlər Soveti öz səlahiyyəti daxilində rayon və şəhər (respublika (MSSR) tabeliyindəki şəhər) xalq deputatları Sovetləri icraiyyə komitələrinin qərar və sərəncamlarını ləğv etmək hüququna malikdir.

Naxçıvan MSSR Nazirlər Soveti Naxçıvan MSSR nazirliklərinin, dövlət komitələrinin, öz tabeliyindəki başqa orqanların aktlarını ləğv etmək hüququna malikdir.

**Maddə 136.** Naxçıvan MSSR Nazirlər Soveti nazirliklərin, dövlət komitələrinin və öz tabeliyindəki başqa orqanların işini birləşdirir və istiqamətləndirir.

Naxçıvan MSSR nazirlikləri və dövlət komitələri həm Naxçıvan MSSR Nazirlər Sovetinə, həm də Azərbaycan SSR-in müvafiq nazirliyinə və dövlət komitəsinə tabe olmaqla, özlərinə tapşırılmış idarəetmə sahələrinə rəhbərlik edir və ya sahələrarası idarəetməni həyata keçirirlər.

## Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası

XX əsrin 80-ci illərinin sonunda beynəlxalq aləmdə baş verən qlobal ictimai-siyasi hadisələr, habelə SSRİ daxilində cərəyan edən sosial-siyasi kataklizmlər və milli-etnik münaqişələr dünyanın ən böyük sosialist dövlətinin tənəzzülü ilə nəticələndi. SSR İttifaqına daxil olan respublikalar 1991-ci ildə daha da gərginləşən dövlətdaxili ziddiyyətlər dalğasında bir-birinin ardınca öz müstəqilliklərini elan etdilər.

Azərbaycanda sovet dövlətinin süqutu ərəfəsindəki bütün problemlər özünü ən qabarıq şəkildə göstərirdi. Bir tərəfdən dərinləşən ümumi sosial-iqtisadi böhranın yaratdığı narazılıqları sovet dövləti rəhbərliyinin birbaşa dəstəyi ilə ermənilərin tarixi Azərbaycan torpaqlarına qarşı XX əsrdə artıq dördüncü dəfə başlanan və geniş vüsət alan əsassız iddiaları və hərbi təcavüzü, Qərbi Azərbaycan torpaqlarından soydaşlarımızın deportasiya edilməsi daha da kəskinləşdirirdi. Nəticədə Azərbaycanda ilkin mərhələdə torpaqlarımızın müdafiəsi, ərazi bütövlüyümüzün qorunması uğrunda başlayan və sürətlə genişlənən xalq hərəkatı tezliklə milli-azadlıq mübarizəsinə çevrildi.

Yaranmış tarixi şəraitdə Azərbaycan Respublikasının Ali Soveti 1991-ci il avqustun 30-da özünün növbədənkənar sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında" Bəyannamə qəbul etdi. Ardınca müstəqil Azərbaycan dövlətinin konstitusion-hüquqi əsaslarını müəyyən etmək üçün Ali Sovet 1991-ci il oktyabrın 18-də 6 fəsil, 32 maddədən ibarət "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktını [70, s. 86-90] təsdiqlədi. Bu Akt 1920-ci il aprelin 27-28-də Azərbaycan Xalq Cümhuriyyətinə son qoyularaq Azərbaycanda sovet hakimiyyətinin qurulmasını sovet Rusiyasının beynəlxalq hüquq normalarını kobudcasına pozub, müharibə elan etmədən silah gücünə suveren Azərbaycan Respublikasının ərazisinin işğalı faktı kimi qeyd edərək 30 avqust Bəyannaməsini Azərbaycan xalqının öz dövlət müstəqilliyi uğrunda mübarizəsinin yekunu kimi qiymətləndirdi. Konstitusiya Aktı Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 30 avqust tarixli Bəyannaməsini rəhbər tutaraq müstəqil Azərbaycanın dövlət quruluşunun, siyasi və iqtisadi quruluşunun əsaslarını təsis edir, 2-ci maddədə Azərbaycan Respublikası 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan olunurdu. Sonuncu maddədə Konstitusiya Aktının Azərbaycan Respublikasının yeni Konstitusiyasının hazırlanması üçün əsas təşkil etdiyi bildirilirdi.

1991-ci ilin dekabrын 29-da keçirilmiş referendumda iştirak edənlərin 95 faizdən çoxu Konstitusiya Aktına səs verməklə müstəqilliyimizin bərpasına tərəfdar çıxdı.

1991-ci il fevral ayının 5-də Azərbaycan SSR Ali Soveti üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. 1992-ci il mayın 27-də müəllifləri Üzeyir Hacıbəyli və Əhməd Cavad olan Azərbaycan Respublikasının Dövlət himni, 1993-cü il fevralın 23-də Dövlət gerbi təsdiq edildi [70, s. 91]. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun

mərkəzində alov təsviri vardır [71].

Müstəqilliyin ilk illərində Azərbaycan dövlətinin təhlükəsizliyi ilə bağlı xarici və daxili təhdidlərin çoxalması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində ölkəmiz üçün yaranmış əlverişsiz hərbi vəziyyət, 1991-1993-cü illərdə ölkədə siyasi rəhbərliyin səriştəsiz və məsuliyyətsiz idarəçiliyi, bunun son nəticədə yeni qazanılmış müstəqilliyin itirilmək, cəmiyyəti vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoyması, ölkə iqtisadiyyatının uzun müddət böhran vəziyyətindən çıxa bilməməsi Azərbaycan Respublikasında, bütün sahələrdə olduğu kimi, təxirəsalınmaz zərurət duyulan siyasi-hüquqi islahatların da həyata keçirilməsini ləngidirdi.

Yalnız yaranmış obyektiv tarixi zərurət və xalqın təkidli istəyi ilə 1993-cü il iyunun 15-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkədə siyasi hakimiyyətə qayıdışı yeni istiqlaliyyət əldə etmiş Azərbaycan dövlətinin məhvi təhlükəsini aradan qaldırdı, sadalanan problemlərin kompleks həlli istiqamətində müstəqil milli dövlətçilik konsepsiyasının əsası qoyuldu və həmin konsepsiya uğurla real həyatda öz əksini tapdı.

Azərbaycan Respublikasının Konstitusiyasını hazırlayan Komissiyanın ümummilli lider Heydər Əliyevin bilavasitə rəhbərliyi və müəllifliyi ilə hazırlayıb cəmiyyətə təqdim etdiyi Əsas Qanunun layihəsi geniş ictimai müzakirələrdən sonra 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsində (referendumda) Azərbaycan seçki elektoratının böyük çoxluğu tərəfindən öz müstəqil dövlətinin Konstitusiyası kimi yekdilliklə təsdiqləndi. Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 27-də rəsmi dövlət mətbu orqanı olan "Azərbaycan" qəzetində dərc edilərək qüvvəyə mindi. 2002-ci il avqustun 24-də və 2009-cu il martın 18-də keçirilmiş ümumxalq səsverməsi (referendum) ilə Konstitusiyaya bir sıra əlavə və dəyişikliklər edildi.

1995-ci il Azərbaycan Konstitusiyasının III bölməsinin VIII fəsli "Naxçıvan Muxtar Respublikası" adlanır və bu fəsil 134-141-ci maddələri əhatə edir. İlk dəfə olaraq məhz müstəqil Azərbaycan dövlətinin Konstitusiyası Naxçıvan Muxtar Respublikasının Azərbaycan Respublikasının tərkibindəki statusunu qəti müəyyənləşdirir və onu ölkənin ayrılmaz tərkib hissəsi elan edir: "Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir" (maddə 134).

Ölkənin Əsas Qanunu Azərbaycan Respublikasının Konstitusiyasının, qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərmanlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının muxtar respublika ərazisində məcburi hüquqi qüvvəyə malik olduğunu bəyan edir. Bundan başqa, muxtariyyətin Əsas Qanunu Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya qanunu ilə təsdiq edilir.

Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini Naxçıvan MR Ali Məclisi, icra hakimiyyətini Naxçıvan MR Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan MR-in məhkəmələri həyata keçirir.

Konstitusiyaya görə, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

Səlahiyyət müddəti 5 il olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45

deputatdan ibarətdir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi muxtar respublika Ali Məclisinə seçkilər, vergilər, muxtar respublika iqtisadiyyatının inkişafı istiqamətləri, sosial təminat, ətraf mühitin qorunması, turizm, səhiyyə, elm və mədəniyyət məsələlərinə dair ümumi qaydalar müəyyən edir, qanunlar qəbul edir. Bundan başqa, Ali Məclisinin işinin təşkili, Naxçıvan Muxtar Respublikası büdcəsinin, iqtisadi və sosial proqramlarının təsdiqi, Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin və vəzifədən azad edilməsi, muxtar respublika Nazirlər Kabineti tərkibinin təsdiqi və Nazirlər Kabinetinə etimad məsələlərinə dair qərarların qəbul edilməsi də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyətinə daxildir.

Naxçıvan MR Nazirlər Kabinetinin tərkibini Naxçıvan MR Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir. Naxçıvan MR-də yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.

Konstitusiyanın II bölməsinə ("Dövlət hakimiyyəti") daxil olan və "Qanunvericilik hakimiyyəti" adlanan V fəsildə Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ Naxçıvan MR Ali Məclisinə də şamil edilir. Konstitusiyada əks olunmuş hüquqi normaya uyğun olaraq, Naxçıvan MR Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisinin müzakirəsinə verdiyi qanun və ya qərar layihələri iki ay ərzində müzakirəyə təqdim olunmuş şəkildə çıxarılır və səsə qoyulur. Qanun və ya qərar layihəsi Naxçıvan MR Ali Məclisi tərəfindən təcili elan edilibsə, bu müddət 20 gün təşkil edir.

Konstitusiyanın VI fəslinin ("İcra hakimiyyəti") 109-cu maddəsində Azərbaycan Respublikası Prezidentinə verilən səlahiyyətlər sırasına Naxçıvan MR Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv etmək hüququ da daxil edilir. Naxçıvan MR prokurorunu Azərbaycan Respublikası Baş prokurorunun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir (maddə 133).

VII fəsildə ("Məhkəmə hakimiyyəti") Naxçıvan MR Ali Məclisinin müxtəlif normativ hüquqi aktların ölkə Konstitusiyasına, qanunlarına, Azərbaycan Prezidentinin fərman və sərəncamlarına uyğun olub-olmamasının yoxlanılması, eləcə də Azərbaycan Respublikasının Konstitusiyasını və qanunlarını şərhi üçün Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək hüququ tanınır. 130-cu maddənin 7-ci bəndində "Naxçıvan MR Konstitusiyasının, qanunlarının, Naxçıvan MR Ali Məclisinin qərarlarının və Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu; Naxçıvan MR qanunlarının, Naxçıvan MR Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası qanunlarına uyğunluğu; Naxçıvan MR Nazirlər Kabinetinin qərarlarının Azərbaycan Respublikası Prezidentinin fərmanlarına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına uyğunluğu" da Konstitusiya Məhkəməsinin həll etdiyi məsələlərin sırasına daxil edilir.

V bölməyə ("Hüquq və qanun") daxil olan və "Qanunvericilik sistemi" adlanan X fəsildə Azərbaycan Respublikasının Konstitusiyasının Azərbaycan Respublikasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malik olduğu, ölkənin qanunvericilik sisteminin əsasını təşkil etdiyi təsbit edilmişdir. Azərbaycan

Respublikasının qanunvericilik sisteminə daxil olan bütün aktlarla bərabər Naxçıvan MR-də Naxçıvan MR Konstitusiyası və qanunları, Naxçıvan MR Nazirlər Kabinetinin qərarları hüquqi qüvvəyə malikdir. Naxçıvan MR-in qanunvericilik sistemi Azərbaycan Respublikasının qanunvericilik sisteminə uyğun olmalıdır (maddə 148). "Bələdiyyələrin qəbul etdikləri aktlar hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı, Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına (Naxçıvan Muxtar Respublikasında isə həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına, qanunlarına, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarlarına) zidd olmamalıdır" (maddə 150).

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASI

***Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEVİN sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiya tərəfindən hazırlanmış, 1995-ci il noyabrın 12-də keçirilən Azərbaycan Respublikası referendumunda qəbul olunmuşdur. 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir.***

***(24 avqust 2002-ci il və 18 mart 2009-cu il tarixli ümumxalq səsverməsi (referendum) ilə edilmiş dəyişikliklərlə)***

## ÜÇÜNCÜ BÖLMƏ

## DÖVLƏT HAKİMİYYƏTİ

### VIII fəsil

### NAXÇIVAN MUXTAR RESPUBLİKASI

***Maddə 134. Naxçıvan Muxtar Respublikasının statusu***

I. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.

II. Naxçıvan Muxtar Respublikasının statusu bu Konstitusiya ilə müəyyən edilir.

III. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

IV. Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburidir.

V. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi Naxçıvan Muxtar Respublikasının Konstitusiyası və qanunları müvafiq olaraq Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına; Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin qəbul etdiyi qərarlar Azərbaycan Respublikası Konstitusiyasına, qanunlarına, Azərbaycan Respublikası Prezidentinin fərmanlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına zidd olmamalıdır.

VI. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya qanunu ilə təsdiq edilir.

***Maddə 135. Naxçıvan Muxtar Respublikasında hakimiyyətlərin bölünməsi***

I. Naxçıvan Muxtar Respublikasının qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

II. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onların səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

***Maddə 136. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi***

Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

***Maddə 137. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi***

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 üzvdən ibarətdir.

II. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddəti 5 ildir.

III. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrini və onun müavinlərini seçir, daimi və digər komissiyalar təşkil edir.

***Maddə 138. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar***

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakılara dair ümumi qaydalar müəyyən edir:

1. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər;
2. vergilər;
3. Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı istiqamətləri;
4. sosial təminat;
5. ətraf mühitin qorunması;
6. turizm;
7. səhiyyə, elm, mədəniyyət.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qanunlar qəbul edir.

***Maddə 139. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər***

I. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi aşağıdakı məsələləri həll edir:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin işinin təşkili;
2. Naxçıvan Muxtar Respublikasının büdcəsinin təsdiqi;
3. Naxçıvan Muxtar Respublikasının iqtisadi və sosial proqramlarının təsdiqi;
4. Naxçıvan Muxtar Respublikası Baş nazirinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;
5. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərkibinin təsdiqi;

6. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad.

II. Bu maddədə göstərilən məsələlərə dair Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərarlar qəbul edir.

***Maddə 140. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti***

I. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təsdiq edir.

II. Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.

III. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

– muxtar respublika büdcəsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim edir;

– muxtar respublikanın büdcəsini icra edir;

– muxtar respublikanın iqtisadi proqramlarının həyata keçirilməsini təmin edir;

– muxtar respublikanın sosial proqramlarının həyata keçirilməsini təmin edir;

– Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

IV. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti qərar və sərəncamlar qəbul edir.

***Maddə 141. Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti***

Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyətlərinin başçılarını Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin təqdimatı əsasında Azərbaycan Respublikasının Prezidenti təyin edir.

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

# DÖVLƏT BAYRAĞI

Tarixən bayraq, gerb və nisbətən sonralar himn dövlətçilik simvolu kimi ölkələrin əsas rəmzlərini təşkil etmiş, konstitusiya və qanunlarda əks olunmuş xüsusi hüquqi normalarla dövlət atributu kimi möhkəmləndirilmişdir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası da yarandığı vaxtdan etibarən konstitusion səviyyədə özünün atributlarına malik olmuşdur. 1924-cü ildə qəbul edilmiş “Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə”də, Naxçıvan Sosialist Sovet Respublikasının 1926-cı il Konstitusiyasında, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci və 1978-ci il Konstitusiyalarında muxtariyyətin Dövlət gerbi və Dövlət bayrağı haqqında hüquqi müddəalar olmuş, onların təsvirləri verilmişdir. İlk dəfə olaraq 1998-ci il Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı və gerbi ilə yanaşı, Dövlət himni də təsbit edilmişdir.

Muxtariyyətin konstitusiyası statusunda olan “Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə”nin 69-cu maddəsində Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının (Əsas Qanununun) 104-cü maddəsinə (“Azərbaycan İctimai Şuralar Cümhuriyyətinin dövlət bayrağı, yuxarı sol küncündə, bayraq ağacı yanında yaşıl sahədə qızılı hərflərlə “AİŞC” və yaxud Azərbaycan İctimai Şuralar Cümhuriyyəti sözləri yazılmış qırmızı qumaşdan ibarətdir”) istinadən bayrağın təsviri verilmişdi: “Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin bayrağı, yuxarı sol küncündə, bayraq ağacı yanında yaşıl sahədə qızılı hərflərlə N.İ.Ş.C. və ya Naxçıvan İctimai Şuralar Cümhuriyyəti yazılmış al qırmızı rəngli qumaşdan ibarətdir”.

Əsasnamədəki bu maddəni, 1922-ci il dekabrın 30-da Azərbaycan SSR MİK yeni latın əlifbasının əski (ərəb) əlifba ilə eyni hüquqda işlədilməsi haqqında dekretini və Azərbaycan SSR-in ilk dövlət bayrağı nümunəsini əsas götürərək Naxçıvan SSR-in ilk bayrağının aşağıdakı şəkildə olduğunu qətiyyətlə demək olar.




Azərbaycan SSR MİK-in dördüncü çağırışının 1924-cü il dekabrın 8-də keçirilən üçüncü sessiyasında Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanununun) yeni redaksiyasını qəbul etdikdən sonra (Azərbaycan SSR Sovetlər Qurultayı tərəfindən 1925-ci il martın 14-də təsdiq edilmişdi) Naxçıvan SSR-in bayrağındakı dəyişiklik edilməsi barədə əlimizdə heç bir fakt yoxdur.

Naxçıvan SSR-in 1926-cı ildə qəbul edilmiş Konstitusiyasının 62-ci maddəsində Naxçıvan SSR-in bayrağının dəqiq təsviri verilir: “Naxçıvan İctimai

Şuralar Cümhuriyyətinin bayrağı qırmızı (al) rəngli, uzunluğu eninə 2:1 nisbətində olan, yuxarı sol küncündə, ağacın yanında, bayrağın eninin 1/6 radiusunda olan oraq və çəkic olan, onun üzərində diametri bayrağın eninin 1/10-nə bərabər olan, ucları sağa yönələn qızıl aypara və qızılla haşiyələnən beşguşəli ulduz olan, oraq və çəkicin sağ tərəfində yeni və köhnə türk əlifbası ilə "Naxçıvan İctimai Şuralar Cümhuriyyəti" yazılan qumaşdan ibarətdir". Bu təsvirə əsasən, 1926-cı ildən sonra Naxçıvan SSR-in Dövlət bayrağının aşağıdakı şəkildə olduğu aydın olur:




Qeyd edək ki, Azərbaycan SSR-in 1927-ci il Konstitusiyası qəbul edildikdən sonra Dövlət bayrağının üzərindəki əvvəlki "A.İ.Ş.C" abbreviaturası "A.S.Ş.C" şəklində verilmiş, başqa sözlə "İctimai" sözü "Sosialist" sözü ilə əvəz edilmişdi. Buna əsasən və Naxçıvan SSR-in Dövlət bayrağının Azərbaycan SSR-in Dövlət bayrağının nümunəsində hazırlandığına istinad edərək, Naxçıvan SSR-in 1926-ci il Konstitusiyasında təsviri verilmiş Dövlət bayrağının müvafiq abbreviatura dəyişikliyi nəticəsində 1927-ci ildən sonra aşağıdakı şəkildə olduğunu söyləmək olar:




1937-ci il sentyabrın 18-də X Fövqəladə Naxçıvan MSSR Sovetlər Qurultayında qəbul edilən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Konstitusiyasının 112-ci maddəsində dövlət bayrağının təsviri aşağıdakı şəkildə verilmişdir: "Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət bayrağı Azərbaycan SSR-in dövlət bayrağından ibarətdir ki, bu da sol bucağında, bayraq ağacı yanında yuxarıda, qızılla oraq və çəkic çəkilmiş və Azərbaycan dilində "AzSSR" sözləri yazılmış və "AzSSR" yazısı altında kiçik hərflərlə Azərbaycan dilində "Naxçıvan ASSR" sözləri əlavə edilmiş qırmızı qumaşdan ibarətdir".




1939-cu il iyulun 11-də “Azərbaycan yazısının latın əlifbasından rus əlifbasına keçirilməsi haqqında” Azərbaycan SSR Qanunu qəbul edildi. Qanuna əsasən 1940-cı il yanvarın 1-dən Azərbaycanda kiril (rus) əlifbasından istifadə edilirdi. Həmin qanuna uyğun olaraq Naxçıvan MSSR-in dövlət bayrağında da müvafiq dəyişiklik aparılmışdı.




1945-ci ildə Azərbaycan dilində “avtonom” sözünün “muxtar” sözü ilə əvəz edilməsindən sonra bayraqdakı “ASSR” abbreviaturası bayrağın üzərində “MSSR” şəklində əks olunmuşdu.




1952-ci il oktyabrın 7-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR-in Dövlət bayrağı haqqında Fərman verdi. Azərbaycan SSR-in 18 avqust 1953-cü il tarixli Qanunu ilə həmin bayrağın təsviri Azərbaycan SSR-in 1937-ci il Konstitusiyasının (Əsas Qanununun) 152-ci maddəsinə daxil edildi. Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 22 avqust 1953-cü il tarixli Fərmanı ilə

Azərbaycan SSR-in Dövlət bayrağı Naxçıvan MSSR-in Dövlət bayrağı elan olundu.

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 26 iyun 1956-cı il tarixli Fərmanı ilə müəyyən edildi ki, "Naxçıvan MSSR-in Dövlət bayrağında oraq və çəkic təsvirinin altında qızılı hərflərlə Azərbaycan dilində "Naxçıvan MSSR" yazısı vardır". 1956-cı il iyunun 30-da isə Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə"də muxtar respublikanın bayrağı aşağıdakı şəkildə təsvir edilmişdi: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı iki üfüqi şəkildə şəkildə yerləşmiş rəngli zolaqdan ibarət düzbucaqlı qumaşdan ibarətdir: yuxarıdakı zolaq qırmızı rəngdə olub bayrağın eninin 3/4 hissəsini təşkil edir, aşağıdakı göy rəngli zolaq isə bayrağın eninin 1/4 hissəsini təşkil edir, qırmızı zolağın yuxarı sol küncündə bayraq ağacı yanında qızılı oraq və çəkic vardır, oraq və çəkicin üzərində qızılı xətlə haşiyələnmiş beşguşəli ulduz yerləşir. Oraq və çəkic təsvirinin altında qızılı hərflərlə Azərbaycan dilində "Naxçıvan MSSR" yazısı vardır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir. Oraq və çəkic tərəfləri bayrağın eninin 1/4-nə bərabər olan kvadratın ölçüsündə təsvir olunur. Orağın iti ucu kvadratın yuxarı tərəfinin ortasına uyğun gəlir, oraq və çəkicin tutacaqları kvadratın aşağı künclərinə istiqamətlənir. Çəkicin tutacağı ilə birlikdə uzunluğu kvadratın diaqonalına bərabərdir. Beşguşəli ulduz bayrağın eninin 1/8-nə bərabər diametrdə təsvir olunur və kvadratın yuxarı hissəsi ilə kəsişir. Ulduzun, oraq və çəkicin şaquli oxunun bayraq ağacı ilə məsafəsi bayrağın eninin 1/3-nə bərabərdir. Bayrağın yuxarı tərəfindən ulduzun mərkəzinədək məsafə bayrağın eninin 1/8-nə bərabərdir".




1978-ci ildə qəbul edilmiş Naxçıvan MSSR Konstitusiyasının 160-cı maddəsində muxtar respublikanın Dövlət bayrağının aşağıdakı təsviri verilmişdi: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət bayrağıdır; bu bayraq iki rəngli üfüqi zolağı olan düzbucaqli parçadan ibarətdir: qırmızı rəngli yuxarı zolaq bayrağın eninin dörddə üç hissəsini və göy rəngli aşağı zolaq dörddə bir hissəsini təşkil edir, qırmızı zolağın yuxarı sol küncündə, bayrağın ağacı yanında zərli oraq və çəkic, bunların üstündə qızıl haşiyə içərisində beşgüşəli qırmızı ulduz təsviri vardır. Oraq və çəkic şəklinin altında Azərbaycan dilində qızıl hərflərlə "Naxçıvan MSSR" sözləri yazılmışdır. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir".

1981-ci il aprelin 2-də Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı

ilə “Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət bayrağı haqqında Əsasnamə”nin yeni redaksiyası təsdiq edildi. Yeni redaksiya 1956-cı il Əsasnaməsinin ilkin redaksiyasındakı təsviri dəyişikliklərsiz təkrar edirdi, yalnız çex bayraqşünası Pavel Foytik “Veksillologiya” (“Vexilologie”) bülleteninin 1987-ci ildə dərc edilmiş 68-ci sayında göstərirdi ki, bayrağın qrafiki təsvirində “Naxçıvan MSSR” yazısı oraq və çəkic embleminin aşağısında iki sətirdə balaca şriftlərlə verilmişdi. Bayraq qumaşının arxa tərəfində yazı, oraq, çəkic və ulduz təsvir edilməmişdi.




1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin yeni tərkibdə (seçkilər 1990-cı il sentyabrın 30-da keçirilmişdi) ilk sessiyası bir sıra tarixi qərarların qəbul edilməsi ilə əlamətdar oldu. İlk sessiyaya sədrlik edən, 2 saylı Naxçıvan şəhər M.F.Axundov seçki dairəsindən Naxçıvan MSSR Ali Sovetinin deputatı seçilən, görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən qərarla “Naxçıvan Muxtar Sovet Sosialist Respublikası” adından “Sovet Sosialist” sözləri çıxarıldı və muxtar respublika rəsmən “Naxçıvan Muxtar Respublikası” adlandırıldı. Digər bir qərarla muxtar respublikanın Ali Soveti həmin gündən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Nəhayət, 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il noyabrın 9-da qəbul edilmiş üçrəngli, ay-ulduzlu bayrağı Naxçıvan MR-in Dövlət bayrağı kimi qəbul edildi və həmin bayrağın Azərbaycanın Dövlət bayrağı kimi tanınması barədə Azərbaycan SSR Ali Sovetinə qanunvericilik təşəbbüsü qaydasında müraciət edildi.

Həmin sessiyada qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarında deyilirdi:

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1) İlk Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsis edilsin.

2) Naxçıvan Muxtar Respublikasının digər Dövlət rəmzi – Dövlət himni və gerbi haqqında məsələ öyrənilib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə verilsin.

3) Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağının bütövlükdə Azərbaycan SSR-in Dövlət rəmzi kimi təsis edilməsi məsələsi qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan SSR Ali Sovetindən xahiş edilsin” [24, s. 131] .

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI



# DÖVLƏT GERBİ

Latviyalı tədqiqatçı A.Y.Lukşinin məlumatına görə [bax: 72], "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə"nin 68-ci maddəsində Azərbaycan SSR-in 1921-ci il Konstitusiyasının 103-cü maddəsində əks olunmuş Azərbaycan SSR-in gerbinin oxşar təsviri verilmişdi: "Naxçıvan İctimai Şuralar Cümhuriyyətinin gerbi qırmızı fonda günəş şüalarında qızıl oraq və çəkicin, aşağıda çarpaz şəkildə yerləşdirilmiş beşguşəli ulduzlu ayparanın, sünbül çələngi ilə əhatə olunan təsvirin əksindən və aşağıdakı yazıdan ibarətdir: a) Naxçıvan İctimai Şuralar Cümhuriyyəti; b) Bütün ölkələrin proletarları, birləşin!"

Nəzərə alsaq ki, 1922-ci il dekabrın 30-da Azərbaycan SSR MİK yeni latın əlifbasının əski (ərəb) əlifba ilə eyni hüquqda işlədilməsi haqqında dekret qəbul etmişdi, o zaman ehtimal etmək olar ki, Naxçıvan SSR-in gerbində də yazılar, bayraqda olduğu kimi, latın və ərəb əlifbası ilə əks olunurdu. Azərbaycan SSR-in gerbi dördüncü çağırış Azərbaycan SSR MİK-in 1924-cü il dekabrın 8-də keçirilən üçüncü sessiyasında Azərbaycan SSR Konstitusiyasının yeni redaksiyada qəbul olunmasından (Azərbaycan SSR Sovetlər Qurultayı tərəfindən 1925-ci il martın 14-də təsdiq olunmuşdu) sonra da sabit qalmışdı.

1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan SSR Konstitusiyasının 62-ci maddəsində gerbin təsviri "Naxçıvan Sosialist Sovet Respublikası haqqında Əsasnamə"nin 68-ci maddəsində olduğu kimi saxlanılmışdı.

1931-ci il fevralın 14-də keçirilən VII Ümumazərbaycan Sovetlər Qurultayı Azərbaycan SSR-in yeni gerbinin təsvirinin əks olunduğu Azərbaycan SSR-in 1927-ci il Konstitusiyasının yeni redaksiyasını təsdiq etdikdən sonra da əvvəlki gerbin təsviri olduğu kimi saxlanılmışdı.

Naxçıvan MSSR-in ilk gerbinin təsvirini əldə edə bilməsək də, Azərbaycan SSR-in Dövlət gerbinin ilk iki təsviri* aşağıdakı şəkildədir:





** Hər iki gerbin təsviri Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının preslib.az saytından götürülmüşdür [bax: 70, s. 4, 18].*

Bir qayda olaraq Naxçıvan muxtariyyətinin Dövlət bayraqlarının və gerblərinin Azərbaycanın Dövlət bayraqları və gerblərinin nümunəsində hazırlandığını və bu təsvirləri əsas götürərək Naxçıvanın ilk gerblərinin də həmin təsvirlərin analogiyası olduğunu söyləmək olar.

1937-ci il sentyabrın 18-də Naxçıvan MSSR-in X Fövqəladə Sovetlər Qurultayı tərəfindən qəbul edilən Naxçıvan MSSR Konstitusiyasının (Azərbaycan SSR Ali Sovetinin 7 aprel 1941-ci il tarixli IV sessiyasında təsdiq olunmuşdu) 111-ci maddəsində Naxçıvan MSSR-in dövlət gerbinin aşağıdakı təsviri verilmişdi: "Naxçıvan Avtonom Sovet Sosialist Respublikasının dövlət gerbi Azərbaycan SSR-in dövlət gerbindən ibarətdir ki, bu da üzərində Azərbaycan və rus dillərində: "Azərbaycan Sovet Sosialist Respublikası" və "Bütün ölkələrin proletarları, birləşin!" sözləri yazılmış və doğmaqda olan günəş fonu üzərində təsvir edilib pambıq və sünbül əklili ilə haşiyələnmiş oraq və çəkicdən və qabaq planda neft vışkasından ibarət olaraq, gerbin yuxarısında beş bucaqlı ulduz vardır, gerbin aşağısında lenta üzərində kiçik hərflərlə Azərbaycan və rus dillərində "Naxçıvan ASSR" sözləri yazılmışdır".



1939-cu il iyulun 11-də qəbul olunmuş "Azərbaycan yazısının latın əlifbasından rus əlifbasına keçirilməsi haqqında" Azərbaycan SSR Qanununa əsasən 1940-cı il yanvarın 1-dən Azərbaycanda kiril (rus) əlifbasından istifadə edilirdi. Həmin qanuna uyğun olaraq Naxçıvan MSSR-in dövlət gerbində də müvafiq dəyişiklik edildi. 1945-ci ildə Azərbaycan dilində "avtonom" sözünün "muxtar" sözü ilə əvəz edilməsindən sonra dövlət gerbindəki "ASSR" abbreviaturası "MSSR" abbreviaturası ilə əvəz edildi.

Naxçıvan MSSR-in dövlət gerbi 1978-ci ildə Naxçıvan MSSR-in yeni Konstitusiyası (Əsas Qanunu) qəbul edildikdən sonra da dəyişilmədi. Lakin Konstitusiyanın 159-cu maddəsində gerbin əvvəlki Konstritusiyadakı nisbətən daha aydın təsviri verilmişdi: "Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Dövlət gerbi Azərbaycan SSR-in Dövlət gerbidir, bu gerb doğan günəş fonunda pambıq və sünbül çələngi ilə haşiyələnmiş oraq və çəkic, neft buruğu təsvirindən ibarətdir və üzərində Azərbaycan dilində: "Azərbaycan Sovet Sosialist Respublikası!", "Bütün

ölkələrin proletarları, birləşin!” və rus dilində “Азербайджанская Советская Социалистическая Республика”, “Пролетарии всех стран, соединяйтесь!” sözləri yazılmışdır. Gerbin yuxarısında beşgüşəli ulduz vardır, gerbin aşağısında lent üzərində kiçik hərflərlə Azərbaycan dilində “Naxçıvan MSSR” və rus dilində “Нахичеванская АССР” sözləri yazılmışdır”.



1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MR Ali Məclisinin yeni tərkibdə ilk sessiyasında ümummilli lider Heydər Əliyevin təşəbbüsü və imzası ilə bir sıra tarixi qərarlar qəbul olundu. Naxçıvan MR Ali Məclisinin məhz həmin sessiyasında qəbul olunmuş “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” qərarla sonra sovet hakimiyyəti illərindən qalma dövlət rəmzlərindən faktiki olaraq imtina edildi. Lakin Dövlət bayrağından fərqli olaraq Naxçıvan MR Ali Məclisi sonrakı fəaliyyəti dövründə digər dövlət rəmzləri – himn və gerb haqqında heç bir qərar qəbul etmədi. Naxçıvan Muxtar Respublikasının 1998-ci ildə qəbul edilmiş son Konstitusiyasının “Naxçıvan muxtar dövlətinin rəmzləri” adlanan 10-cu maddədə göstərilir: “Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir” [40, s. 11].

Beləliklə, Naxçıvan Muxtar Respublikası muxtar respublika parlamentinin 1990-cı il noyabrın 17-də qəbul etdiyi Dövlət bayrağı (Azərbaycan SSR Ali Soveti üçrəngli bayrağın Dövlət bayrağı kimi qəbul olunması haqqında qərarı 1991-ci il fevralın 5-də qəbul etmişdi – E.C.) ilə yanaşı, Azərbaycan Respublikasının Dövlət gerbinin timsalında özünün gerbinə malikdir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Qeyd edək ki, Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi

haqqında qərar çıxarmışdı. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti süqut etdiyinə görə gerb qəbul edilmədi.

Azərbaycan Respublikasının Dövlət gerbinin hazırlanması üçün müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illər ərzində müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuş, müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir. Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir [71].

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT GERBİ



# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin milli himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın milli himnini qəbul etməyə imkan vermədi.

1992-ci il mayın 27-də Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət himni haqqında" Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyli və şair Əhməd Cavad tərəfindən yazılmış "Azərbaycan marşı" Azərbaycanın Respublikasının Dövlət himni kimi təsdiq edildi.

Azərbaycan, Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üç rəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər!
Hərə bir qəhrəman oldu!
Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!
Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən, şanlı Vətən!
Azərbaycan, Azərbaycan!

# SSRİ KONSTİTUSİYALARINDA MUXTAR RESPUBLİKALARLA BAĞLI HÜQUQİ NORMALAR VƏ NAXÇIVAN MUXTARİYYƏTİ

1924-cü il yanvarın 31-də SSRİ II Sovetlər Qurultayının qərarı ilə 2 bölmə, 11 fəsil, 72 maddədən ibarət SSRİ Konstitusiyası (Əsas Qanunu) təsdiq edildi [67]. Konstitusiyanın ilk bölməsinə "Sovet Sosialist Respublikaları İttifaqının yaradılması haqqında Bəyannamə" daxil edilmişdi. "Müqavilə" adlanan ikinci bölmə 9 sovet respublikasının; RSFSR, Ukrayna, Belorus, ZSFSR (Azərbaycan, Gürcüstan və Ermənistan sosialist sovet respublikalarından ibarət tərkibdə), Türkmənistan, Özbəkistan və Tacikistan sosialist sovet respublikalarının Sovet Sosialist Respublikaları İttifaqında birləşdiyini bildirən cümlə ilə başlayır və Konstitusiyanın ikinci bölməsinin bütün qalan mətnini əhatə edirdi. Konstitusiyanın 4-cü maddəsində hər bir müttəfiq respublikanın İttifaqdan azad şəkildə çıxmaq hüququnu özündə saxladığını qeyd edilirdi. Başqa sözlə, SSRİ hüquqi cəhətdən formal olaraq federasiya kimi təşkil olunmuşdu.

1924-cü SSRİ Konstitusiyasında muxtariyyətlərlə bağlı hüquqi müddəalar geniş əks olunmamışdı. Yalnız 9-cu maddədə SSRİ-nin ali hakimiyyət orqanı olan Sovetlər Qurultayının şəhərlərdə 25 min nəfər seçiciyə 1, kəndlərdə isə 125 min nəfər əhaliyə 1 deputat seçilməklə təşkil edildiyi bildirilirdi. Əsas Qanunda muxtar respublika və vilayətlərin sovetlər qurultayında SSRİ Sovetlər Qurultayına nümayəndələrin seçilməsi məsələsi öz əksini tapsa da (maddə 10), Naxçıvan muxtariyyətinin həmin dövrdə SSRİ Sovetlər Qurultayında təmsilçilik hüququnun olmadığını söyləmək mümkündür. Çünki 1925-ci il yanvarın 1-ə olan məlumata görə, Naxçıvan SSR əhalisinin sayı 91079 nəfər (15054 nəfər şəhər, 76.025 nəfər kənd əhalisi olmaqla) idi [39, v. 16].

Bununla belə, ikipalatalı SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Millətlər Şurasının (digər palata İttifaq Şurası adlanırdı – E.C.) müttəfiq respublikaların və muxtar respublikaların hər birindən 5 nəfər, muxtar vilayətlərin isə 1 nəfər nümayəndə ilə təmsilçiliyindən təşkil olunması nəzərdə tutulmuşdu (maddə 15). Bu norma Naxçıvan MSSR-ə də SSRİ MİK-in Millətlər Şurası palatasında özünün 5 nəfər nümayəndəsi ilə iştirakına imkan verirdi. Çünki bu zaman Konstitusiyada Millətlər Şurasının təşkili üçün hər hansı seçici və ya əhali kvotası deyil, birbaşa təmsilçilik norması müəyyənləşdirilmişdi. SSRİ MİK-in İttifaq Şurasını isə SSRİ Sovetlər Qurultayı özünün müttəfiq respublikaların əhalisinin sayına proporsional olaraq müəyyən etdiyi nümayəndəlik norması üzrə seçirdi.

Konstitusiya SSRİ MİK-ə SSRİ MİK Rəyasət Heyətinin, müttəfiq respublikaların Sovetlər qurultaylarının, MİK-lərininvə SSR İttifaqı ərazisindəki başqa hakimiyyət orqanlarının dekretlərini, qərar və təlimatlarını ləğv etmək hüququnu tanıyırdı (maddə 20). Bundan əlavə, SSRİ Xalq Komissarları Soveti yanında Sovet Nəzarəti Komissiyası mərkəzdə öz aparatı, respublika, diyar və vilayətlərdə isə nümayəndələri vasitəsi ilə hökumət qərarlarının icrasına sistematik nəzarəti həyata keçirirdi (maddə 39). Hər iki konstitusion müddəa onu deməyə əsas verir ki, artıq 1924-cü il ilk SSRİ Konstitusiyası müttəfiq respublikaların, o cümlədən

də muxtariyyətlərin hakimiyyət orqanlarının qəbul etdiyi hərə hansı bir qərarı asanlıqla ləğv edə, mərkəzi hakimiyyətin istənilən qərarının məcburi icrasını təmin edə bilərdi.

1936-cı il dekabrın 5-də SSRİ Fövqəladə VIII Sovetlər Qurultayı SSRİ-nin 13 fəsil, 146 maddədən ibarət ikinci Konstitusiyasını [68] qəbul etdi. Əgər əvvəlki Əsas Qanunda SSRİ-yə daxil olan müttəfiq respublikaların sayı 9 idisə, bu Konstitusiya 13-cü maddəsində SSRİ-nin 11 "bərabərhüquqlu respublikanın könüllülük prinsipi əsasında yaranan ittifaq dövləti" olduğu qeyd edilirdi. Qazaxıstan və Qırğızıstan ittifaqa sonradan daxil edilən respublikalar idi.

Konstitusiyanın "Dövlət quruluşu" adlanan II fəslinin 14-cü maddəsində "yeni diyar və vilayətlərin, həmçinin ittifaq respublikasının tərkibində yeni muxtar respublikanın yaradılması" ali hakimiyyət və dövlət idarə orqanlarının simasında SSRİ-nin səlahiyyətinə aid edilirdi. Hər bir sovet respublikasının dövlət hakimiyyətini müstəqil həyata keçirdiyi qeyd olunub (maddə 15), SSRİ-dən sərbəst çıxmaq hüququ saxlanılsa da (maddə 17), bunun yenə də formal xarakter daşıdığı sirr deyildi.

Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının və Dağlıq Qarabağ Muxtar Vilayətinin olduğu göstərilirdi (maddə 24). Sovet dövləti Konstitusiyasının 35-ci maddəsində iki palatadan ibarət SSRİ Ali Sovetinin Millətlər Şurasında (digər palata İttifaq Şurası idi – E.C.) hər müttəfiq respublikanın 25, hər muxtar respublikanın 11, muxtar vilayətlərin 5, muxtar mahalların isə 1 deputat kvotası ilə təmsilçilik norması müəyyən edilirdi. Azərbaycanın ərazisində bir muxtar respublika və bir muxtar vilayətin olmasını nəzərə alaraq, Azərbaycan SSR-in Millətlər Şurasında 37 deputatla təmsil olunduğunu söyləmək olar. İttifaq Soveti isə hər 300 min seçiciyə bir deputat olmaqla bütün SSRİ üzrə yaradılan seçki dairələrində seçilirdi. Konstitusiya müttəfiq respublikalara öz tərkibindəki muxtar respublikaların Konstitusiyalarını təsdiq etmək, onun ərazisinin sərhədlərini müəyyənləşdirmək (maddə 60), respublikaların Xalq Komissarları Sovetlərinə muxtar respublikaların XKS-lərinin qərar və sərəncamlarının qüvvəsini dayandırmaq, onları ləğv etmək hüququ verirdi (maddə 82).

1936-cı il SSRİ Konstitusiyasının VII fəsli (89-93-cü maddələr) "Muxtar Sovet Sosialist Respublikalarında dövlət hakimiyyətinin yüksək orqanları" adlanırdı. Muxtar respublikada dövlət hakimiyyətinin yuxarı orqanı MSSR-in Ali Soveti idi. Muxtar respublikanın Ali Soveti respublikanın vətəndaşları tərəfindən muxtar respublikanın Konstitusiyası ilə müəyyənləşdirilən təmsilçilik normasına görə 4 il müddətinə seçilirdi. Muxtar respublikanın Ali Soveti MSSR-in yeganə qanunverici orqanı idi. Hər bir muxtar respublikanın özünün xüsusiyyətlərini nəzərə alan və Sovet İttifaqı Konstitusiyasına uyğun olaraq qəbul olunmuş Konstitusiyasına malik idi. MSSR-in Ali Soveti öz Konstitusiyasına uyğun olaraq muxtar respublika Ali Sovetinin Rəyasət Heyətini seçir və Xalq Komissarları Sovetini təşkil edirdi.

SSRİ-də ədalət mühakiməsini SSRİ Ali Sovetinin qərarı əsasında yaradılan SSRİ Ali Məhkəməsi, ittifaq respublikasının Ali Məhkəməsi, diyar, vilayət, muxtar respublika və muxtar vilayət, dairə məhkəmələri, SSRİ-nin xüsusi məhkəmələri, həmçinin xalq məhkəmələri həyata keçirirdi (maddə 102). Qeyd edək ki, Naxçıvan

MSSR-in 1937-ci il Konstitusiyasıın 73-cü maddəsində SSRİ Ali Sovetinin xüsusi məhkəmələr yaratmaq hüququ təsbit edilmişdi. Muxtar respublikaların Ali Məhkəmələri muxtar respublikaların Ali Sovetləri tərəfindən 5 il müddətinə seçilirdi (maddə 107). Məhkəmə işləri ittifaq respublikasının və ya muxtar respublikanın dilində aparılırdı, bu dili bilməyənlərin tərcüməçi vasitəsilə materiallarla tam tanış olması, həmçinin məhkəmədə öz ana dilində danışması təmin edilirdi (maddə 110).

Respublika, diyar, vilayət prokurorları, həmçinin muxtar respublika və muxtar vilayətlərin prokurorları SSRİ Prokuroru tərəfindən 5 il müddətinə təyin edilirdi. Dairə, rayon və şəhər prokurorları SSRİ Prokurorunun təsdiqi ilə ittifaq respublikalarının prokurorları tərəfindən təyin olunurdu. Prokuratura orqanları öz funksiyalarını hər hansı yerli orqanlardan asılı olmadan, müstəqil həyata keçiridilər və yalnız SSRİ Prokuroruna tabe idilər (maddə 115-117).

Bütün zəhmətkeş deputatları Sovetlərinə: SSRİ Ali Sovetinə, ittifaq respublikalarının Ali Sovetlərinə, diyar və vilayət zəhmətkeşlərinin deputatlar Sovetinə, muxtar respublikaların Ali Sovetlərinə, muxtar vilayətlərin, dairə, rayon, şəhər və kənd zəhmətkeşlərinin deputatlar Sovetinə deputatlar seçicilər tərəfindən ümumi, bərabər və birbaşa seçki hüququ əsasında gizli səsvermə ilə seçilirdi (maddə 134).

Beləliklə, 1936-cı il SSRİ Konstitusiyasının muxtar respublikalara dair hüquqi normalarından da görünür ki, həmin normalar muxtar respublikaların, o cümlədən Naxçıvan MSSR-in 1937-ci il Konstitusiyasında əks olunmuş müddəalarda tamamilə gözlənilmişdi.

XX əsrin 60-cı illərin sonunda kommunizm cəmiyyətinə sürətli keçid ideyası tədricən iflasa uğramış, 70-ci illərin əvvəllərində “inkişaf etmiş sosializm” cəmiyyəti üçün yeni Əsas qanunun işlənib hazırlanması zərurəti ortaya çıxmışdı [70, s. 58]. Sovet dövlətinin üçüncü, həm də sonuncu Konstitusiyası 1977-ci il oktyabrın 7-də SSRİ Ali Sovetinin IX çağırışının növbədənkənar yeddinci sessiyasında qəbul edildi. 9 bölmə, 21 fəsil, 174 maddədən ibarət bu Konstitusiyada [69] muxtar respublika, muxtar vilayət və mahallara dair çoxlu müddəalar yer almış, bundan başqa, “SSRİ-nin milli-dövlət quruluşu adlanan” III bölmənin X fəsli “Muxtar Sovet Sosialist Respublikası”na (82-85-ci maddələr), XI fəsli isə “Muxtar vilayət və muxtar mahal”a (86-88-ci maddələr), “Müttəfiq respublikalarda dövlət hakimiyyəti və idarəçilik orqanlarının qurulmasının əsasları” adlanan VI bölmənin XVIII fəsli “Muxtar respublikanın ali dövlət hakimiyyəti və idarəçilik orqanları”na birbaşa həsr olunmuş hüquqi müddəalardan ibarət idi.

SSRİ-nin 1977-ci il Konstitusiyası Xalq deputatları sovetlərini SSRİ-nin əsasını təşkil etdiyini və hjakimiyyətin mənbəyi olan xalqın öz hakimiyyətini bu sovetlər vasitəsilə həyata keçirdiyini bəyan edirdi. Bütün qalan dövlət hakimiyyəti orqanları xalq deputatları sovetinin nəzarətində olub, ona hesabat verirdi. 71-ci maddədə SSRİ-ni təşkil edən 15 respublikanın əlifba sırası ilə siyahısı verilmişdi.

SSRİ tərkibinə yeni respublikaların qəbul edilməsi, ittifaq respublikalarının tərkibində yeni muxtar respublikaların və muxtar vilayətlərin yaradılmasının təsdiqi yenə də özünün dövlət hakimiyyətinin yuxarı orqanlarının simasında SSR İttifaqının səlahiyyətində olan məsələ idi (maddə 73.1). 79-cu maddədə göstərilirdi ki, ittifaq respublikası özünün diyar, vilayət, dairə, rayon bölgüsünü müəyyən edir və inzibati-

ərazi quruluşu ilə bağlı digər məsələləri həll edir. İttifaq respublikasının ərazisi onun razılığı olmadan dəyişdirilə bilməzdi. İttifaq respublikaları arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı və SSR İttifaqının təsdiqi ilə dəyişdirilə bilərdi. Lakin 1988-ci ildə ermənilərin Azərbaycan torpaqlarına qarşı əsassız ərazi iddiaları başlayanda SSRİ rəhbərliyi bütün bu konstitusion normaları unudub birtərəfli şəkildə erməniləri müdafiə etdilər.

Maraqlıdır ki, əvvəlki iki Əsas Qanundan fərqli olaraq bu dəfə ittifaq respublikasının xarici dövlətlərlə münasibətlər qurmaq, onlarla müqavilələr bağlamaq və diplomatik və konsul təmsilçiləri ilə mübadilə etmək, beynəlxalq təşkilatların fəaliyyətində iştirak etmək hüququ konstitusion norma kimi təsbit olunmuşdu (maddə 80).

Konstitusiya muxtar respublikaların müttəfiq respublikanın tərkibində olduğunu təsbit edirdi. Muxtar respublikalara SSRİ və ittifaq respublikasının hüquqlarından kənarda öz səlahiyyətinə aid olan məsələlərin həllində müstəqillik tanınırdı. Muxtar respublikanın SSRİ-nin və tərkibində olduğu müttəfiq respublikanın konstitusiyalarına uyğun olan, muxtar respublikanın özünəməxsus xüsusiyyətlərini nəzərə alan öz Konstitusiyasına malik olmaq hüququ var idi. Muxtar respublika SSR İttifaqının və müttəfiq respublikaların səlahiyyətinə aid edilən məsələlərin həllində onların yüksək dövlət hakimiyyəti və idarəçilik orqanlarına müvafiq olan öz orqanları vasitəsi ilə iştirak edir, öz ərazisində SSRİ və ittifaq respublikasının səlahiyyətlərinin həyata keçirilməsinə vasitəçilik etməklə, onların qərarlarını həyata keçirir, öz ərazisinin kompleks iqtisadi və sosial inkişafını təmin edirdi. Muxtar respublika öz səlahiyyətinə aid olan məsələlərdə ittifaq və respublika tabeli müəssisələrin, idarə və təşkilatların fəaliyyətini əlaqələndirir və ona nəzarət edirdi (maddə 81-83).

Sovet İttifaqı Konstitusiyasının 84-cü maddəsində qeyd edilirdi ki, muxtar respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz. Təbii ki, formal federasiya olan sovet dövlətinin siyasi rejiminin sərt mərkəzləşdirilmiş avtoritar-totalitar xarakterini nəzərə alsaq, bu maddənin yalnız kağız üstündə formal xarakter daşıdığını qeyd etməliyik. Konstitusiyada RSFSR, Özbəkistan, Gürcüstan və Azərbaycanın tərkibinə daxil olan muxtar respublikalar göstərilmişdi. Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibində mövcud olduğu öz əksini tapmışdı (maddə 85). Yeni muxtar respublikaların və muxtar vilayətlərin yaradılması SSRİ-də ən yüksək dövlət hakimiyyəti orqanı olan SSRİ Ali Sovetinin səlahiyyətinə daxil edilirdi (maddə 108).

Xalq deputatları Sovetləri – SSRİ Ali Soveti, ittifaq respublikalarının Ali Sovetləri, muxtar respublikaların Ali Sovetləri, diyar, vilayət xalq deputatları Sovetləri, muxtar vilayət və muxtar dairələrin, rayon, şəhər, şəhər rayonlarının, qəsəbə və kəndlərin xalq deputatları Sovetləri – dövlət hakimiyyəti orqanlarının vahid sistemini təşkil edirdi. SSRİ Ali Sovetinin, ittifaq respublikalarının və muxtar respublikaların Ali Sovetlərinin səlahiyyət müddəti 5 il, yerli xalq deputatları Sovetlərinin səlahiyyət müddəti isə 2,5 il müəyyən edilirdi. Xalq deputatları Sovetlərinə seçkilərin keçirilməsi qaydası SSR İttifaqının, ittifaq respublikalarının və muxtar respublikalrın qanunları ilə müəyyən olunurdu. Həmçinin deputatların toxunulmazlığı, eləcə də deputat fəaliyyətinin digər təminatları da SSR İttifaqının, ittifaq respublikasının və muxtar respublikanın deputatların statusu haqqında qanunla

və digər qanunvericilik aktları ilə müəyyənləşdirilirdi.

SSRİ Ali Soveti bərabərhüquqlu iki palatadan ibarət qanunvericilik orqanı idi. İttifaq Şurası bərabər əhali sayı olan seçki dairələri üzrə seçilirdi. Millətlər Şurası isə hər ittifaq respublikasından 32 deputat, hər muxtar respublikadan 11 deputat, hər muxtar vilayətdən 5 deputat olmaqla seçilirdi (maddə 110). 1936-cı il Konstitusiyası ilə müqayisədə 1977-ci il SSRİ Əsas Qanununa görə Azərbaycan Millətlər Şurasında 37 deyil, 48 deputatla təmsil olunmaq hüququ qazanmışdı. Lakin muxtar respublikalar üzrə nümayəndəlik kvotası sabit saxlanılmış (11 deputat), respublika üzrə 25-dən 32-yə, muxtar vilayət üzrə isə 1-dən 5-ə qaldırılmışdı.

SSRİ Konstitusiyası ittifaq respublikasının Nazirlər Sovetinə muxtar respublikaların Nazirlər Sovetlərinin qərar və sərəncamlarının icrasını dayandırmaq hüququ verirdi (maddə 141).

Konstitusiyaya görə, muxtar respublikada dövlət hakimiyyətinin ən yüksək orqanı muxtar respublikanın Ali Soveti idi. Muxtar respublikanın Konstitusiyasını qəbul və ona dəyişikliklər etmək, iqtisadi və sosial inkişaf üzrə dövlət planlarını, eləcə də muxtar respublikanın dövlət büdcəsini təsdiq etmək, özü qarşısında hesabat verən orqanları yaratmaq kimi səlahiyyətlər müstəsna olaraq muxtar respublikanın Ali Sovetinə məxsus idi. Muxtar respublika Ali Soveti muxtar respublikanın bütün qanunlarını qəbul edirdi. Muxtar respublika Ali Soveti özünün Rəyasət Heyətini seçir və muxtariyyətin Nazirlər Sovetini – muxtar respublikanın hökumətini təşkil edirdi (18-ci fəsil; maddə 143-144).

SSRİ-də ədalət mühakiməsini yalnız məhkəmələr həyata keçirirdi. Ölkədə SSRİ Ali Məhkəməsi, ittifaq respublikalarının Ali Məhkəmələri, muxtar respublikaların Ali Məhkəmələri, diyar, vilayət, şəhər məhkəmələri, muxtar vilayətlərin, muxtar dairələrin məhkəmələri, rayon (şəhər) xalq məhkəmələri, həmçinin Silahlı Qüvvələrdə hərbi tribunallar fəaliyyət göstərirdi (maddə 151). Məhkəmə işləri ittifaq və ya muxtar respublikanın, muxtar vilayətin, muxtar dairənin dilində və ya həmin yerin çoxluq təşkil edən əhalisinin dilində aparılırdı. İşdə iştirak edən, lakin məhkəmə işinin aparıldığı dili bilməyən şəxslərin işin materialları ilə tam tanış olmaq, məhkəmə hərəkətlərində iştirak etmək və məhkəmədə ana dilində çıxış etmək hüququ tərcüməçi vasitəsilə təmin olunurdu (maddə 159).

İttifaq respublikalarının, muxtar respublikaların, diyarların, vilayətlərin və muxtar vilayətlərin prokurorları SSRİ Baş prokuroru tərəfindən təyin edilirdi. Muxtar dairələrin, rayonların və şəhərlərin prokurorları ittifaq respublikalarının prokurorları tərəfindən təyin olunur, SSRİ Baş prokuroru tərəfindən təsdiq edilirdi. SSRİ Baş prokurorunun və bütün aşağı prokurorların səlahiyyət müddəti 5 il idi (maddə 166-167).

# XƏRİTƏLƏR

# ARAZ-TÜRK RESPUBLİKASI

## (noyabr 1918-mart 1919)




Araz-Türk Respublikasının ərazisinə Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi – Uluxanlı (Zəngibasar), Qəmərli (Gərnibasar), Vedi (Vedibasar), Şərur-Dərələyəz qəzası, Naxçıvan qəzası, Ordubad qəzası, Mehri bölgəsi daxil olmuşdur. Mərkəzi Naxçıvan şəhəri idi. Sahəsi 8696 km$^2$-ə çatırdı. Əhalisi bir milyon nəfərdən artıq olmuşdur.

---

*QEYD: Bütün xəritələr və xəritələrə dair mətnlər Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya Fabriki tərəfindən nəşr olunmuş "Naxçıvan tarixi atlası" kitabından (Bakı: 2010) götürülmüşdür.*

# ŞƏRUR-DƏRƏLƏYƏZ QƏZASI

**(1918-1920-ci illər)**




# NAXÇIVAN QƏZASI

**(1918-1920-ci illər)**



# NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASI

## (1920-1922-ci illər)




---

*QEYD: Bu və bundan sonrakı xəritələrdə ştrix xətlərlə Ermənistana verilmiş Azərbaycan torpaqları göstərilmişdir.*

# NAXÇIVAN SOVET SOSİALİST RESPUBLİKASI

**(1924-1929-cu illər)**




Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsi özünün 18 fevral 1929-cu il tarixli qərarı ilə Moskva və Qars müqavilələrinin şərtlərini birtərəfli və kobudcasına pozaraq Naxçıvan MSSR-in 9 kəndindən ibarət 657 km$^2$ ərazisini – Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz kəndlərini, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, Sultanbəy, İtqıran kəndlərini, Ordubad qəzasının Karçevan kəndini və Kilit kəndinin torpaqlarının bir hissəsini Ermənistan SSR-ə vermişdir.

# NAXÇIVAN ÖLKƏSİ

**(1924-cü il)**




# NAXÇIVAN MUXTAR SOVET SOSİALİST RESPUBLİKASI

**(1930-1991-ci illər)**



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI

## (2009-cu il)



## Naxçıvan Muxtar Respublikasının 1937-ci il Konstitusiyasında izaha ehtiyacı olan sözlər

| Sıra №-si | Konstitusiyanın mətnində | İfadənin əks olunduğu fəsil və ya maddə | Müasir Azərbaycan dilində mənası və ya izahı |
|---|---|---|---|
| 1 | abadanlıq | m. 18 | avadanlıq |
| 2 | artel | m. 7 | sosialist tipli kollektiv təsərrüfat (istehsal sahəsində) forması, birləşmə |
| 3 | avtonom | m. 1, 13, 18, 38 | muxtar |
| 4 | binagüzarlıq | m. 30, 38, 40, 41, 43, 47, 52-54, 61, 62 | sərəncam |
| 5 | dokument | m. 32 | sənəd |
| 6 | ekonomik | m. 4 | iqtisadi |
| 7 | fabrika | m. 6 | fabrik |
| 8 | flaq | f. X, m. 112 | bayraq |
| 9 | instruksiya | m. 43, 47 | təlimat |
| 10 | interes | m. 11, 42, 89, 92, 93, 96 | maraq, mənafe |
| 11 | inventar | m. 7 | avadanlıq, vasitə |
| 12 | kandidat | m. 109 | namizəd |
| 13 | kolxoz | m. 5, 7, 8 | kollektiv təsərrüfat (kənd təsərrüfatında) forması |
| 14 | kolxozçu | m. 7 | kollektiv təsərrüfatın üzvü |
| 15 | komissariat | m. 20, 42, 44, 47, 48, 64, 65, 68, 81 | komissarlıq |
| 16 | komitet | m. 42, 43, 53, 55, 56, 61-63, 65, 66-68 | komitə |
| 17 | kompetensiya | m. 20, 46, 47 | səlahiyyət |
| 18 | kontrol | m. 18 | nəzarət |
| 19 | kontrrevolyusiya | m. 2 | əksinqilab |
| 20 | kultura-maarif | m. 18 | mədəni-maarif |
| 21 | lenta | m. 111 | lent |
| 22 | qarantiya | m. 85, 92 | təminat, təmin etmək |
| 23 | qerb | f. X, m. 11 | gerb |
| 24 | müstəqim | m. 106 | birabaşa, bilavasitə |
| 25 | naçalnik | m. 44 | rəis |
| 26 | okruq | m. 22, 108, 109 | dairə |
| 27 | posyolok | m. 18, 49-51, 55, 78, 108 | qəsəbə |
| 28 | prezidium | m. 20, 24, 27, 28, 29, 30, 33-36, 39 | rəyasət heyəti |
| 29 | produksiya | m. 7 | məhsul |
| 30 | propaqanda | m. 91 | təbliğat |
| 31 | sistema | m. 4, 88, f. 9 | sistem |
| 32 | sovxoz | m. 6 | sovet təsərrüfatı (aqrar sahədə) |
| 33 | sport | m. 18, 93 | idman |
| 34 | stipendiya | m. 88 | tələbə təqaüdü |
| 35 | şpionluq | m. 100 | casusluq |
| 36 | territoriya | m. 15, 16, 41, 51, 55, 72, 81 | ərazi |
| 37 | transport | m. 18 | nəqliyyat |
| 38 | ustav | m. 7 | nizamnamə |
| 39 | vışka | m. 111 | neft buruğu |
| 40 | yadro | m. 93 | nüvə (əsas mənasında) |
| 41 | yasli | m. 89 | körpələr evi |
| 42 | Abrakunis | m. 14 | Əbrəqunus |
| 43 | Noraşen | m. 14 | Şərur |

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

1. Allahverdiyev S.S. Azərbaycan Respublikası Konstitusiyasının və hüququnun əsasları. Bakı, 2005.
2. ARPİİSSA. F. 277, siyahı 2, iş 57-58.
3. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı: Qartal, 1998, 280 s.
4. Atnur İ.E. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan: Qeyrət, 1999, 442 s.
5. Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. “Azərbaycan” cildi. Bakı: 2007, 854 s.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, 68 s.
7. Azərbaycan Sovet Ensiklopediyası. II cild. Bakı: 1978, 592 s.
8. Azərbaycan tarixi (Uzaq keçmişdən 1870-ci illərə qədər). Bakı: Azərbaycan, 1996, 872 s.
9. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
10. Cəfərli E.Y. Naxçıvanda erməni-Azərbaycan münaqişəsi. Bakı: Nurlan, 2008, 280 s.
11. Əkbərov B.S. Heydər Əliyev milli Konstitusiyamızın yaradıcısı və banisidir. Bakı: Azərbaycan Ensiklopediyası” NPB, 1998, 96 s.
12. Əliyev Ə. Biz əzablı ömür yaşadıq. Bakı: Yazıçı, 1994, 64 s.
13. Əsgərov Z.A. Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları. Bakı: 2005.
14. Əsgərov Z. Naxçıvan Muxtar Respublikasının Konstitusiya statusu. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, 156 s.
15. Əsgərov Z., Nəsirov E., İsmayılov M. Azərbaycan Respublikasının Konstitusiyası və hüququnun əsasları (dərslik). Bakı: “QAPP-POLİQRAF” Korporasiyasının nəşriyyatı, 2005, 376 s.
16. Əsgərov Z., Nəsirov E., İsmayılov M., Məmmədov X. Azərbaycanın dövlət və hüququnun əsasları (dərs vəsaiti). Bakı: “QAPP-POLİQRAF” Korporasiyası, 2003, 440 s.
17. Gümrü, Moskva və Qars müqavilələri (Azərbaycan, türk, rus və fransız dillərində). Naxçıvan: 2004, 140 s.
18. Hacıyev İ. Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasəti və bunun ağır nəticələri // Naxçıvan Dövlət Universitetinin “Elmi əsərlər”i (Tarix və ictimai elmlər seriyası). № 1 (29). Naxçıvan: Qeyrət, 2010, s. 75-82.
19. Hacıyev İ. Qondarma yolla yaradılan müvəqqəti inzibati-idarəetmə vahidi: “Erməni vilayəti” // AMEA Naxçıvan Bölməsinin “Xəbərlər”i (İctimai və humanitar elmlər seriyası). Cild 7, № 1. Naxçıvan: 2011, s. 11-17.
20. Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90 (Quruculuq salnaməsi). Naxçıvan: Əcəmi, 2014, 184 s.
21. Hacıyev İ. Naxçıvan Muxtar Respublikası Azərbaycanın dövlətçilik tarixində. Tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya. Bakı: 1999, 335 s.
22. Hacıyev İ. Naxçıvanın muxtariyyət statusu və müasir dövr // AMEA Naxçıvan Bölməsinin “Xəbərlər”i (İctimai və humanitar elmlər seriyası). Cild 10, № 1. Naxçıvan: Tusi, 2011, s. 9-24.
23. Qafarov V. Batum konfransı və Azərbaycan // “Tarix və onun problemləri” jurnalı. № 1-2. Bakı: 2009, s. 81-89.
24. Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
25. Quliyev C.B., Mədətov Q.Ə., Nadirov A.A. Sovet Naxçıvanı. Bakı: Azərnəşr, 1984, 136 s.
26. Məhərrəmov N. Daşnaksütyun və Azərbaycanın taleyi. Bakı: Azərbaycan, 1995, 96 s.
27. Məmmədov İ., Əsədov S. Ermənistan azərbaycanlıları və onların acı taleyi. Bakı: Azərbaycan, 1992, 71 s.
28. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər). Bakı: BDU nəşriyyatı, 1998, 385 s.

29. Naxçıvan Avtonom Sovet Sosialist Respublikasinin Konstitusiyası (Əsas Qanunu). Naxçıvan ASSR Baş Soveti tərəfindən 1938-ci il iyulun 25-də və 1939-cu il iyulun 28-də qəbul edilmiş dəyişiklik və əlavələrlə. Bakı: Azərnəşr, 1941, 27 s.
30. Naxçıvan Ensiklopediyası. 2 clddə. Cild 2. İstanbul: 2005, 381 s.
31. Naxçıvan MSSR – 50. Bakı: İşıq, 1974, 78 s.
32. Naxçıvan Muxtar Respublikası – 75. Yubiley statistik məcmuə. Naxçıvan: 1999, 96 s.
33. Naxçıvan Muxtar Respublikası – 80. Tarixi-statistik məcmuə. Bakı: Səda, 2004, 221 s.
34. Naxçıvan Muxtar Respublikası – 85. Naxçıvan: Əcəmi, 2009, 104 s.
35. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi, 2014, 104 s.
36. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi. F. 40, siyahı 4, iş 15, vərəqə 1-10.
37. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi. F. 40, siyahı 1, iş 84, vərəqə 1-21.
38. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi. F. 314, siyahı 5, iş 1-72.
39. Naxçıvan Muxtar Respublikasının Dövlət Arxivi. F. 314, siyahı 5a, iş 66, v. 1-229.
40. Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2012, 40 s.
41. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasinin Konstitusiyası (Əsas Qanunu). Bakı: Azərnəşr, 1978, 47 s.
42. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasinin Konstitusiyası (Əsas Qanunu). Bakı: Azərnəşr, 1982, 45 s.
43. Naxçıvan tarixi atlası. Bakı: Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya Fabriki, 2010, 56 s.
44. Sadıqov S. H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: 1995, 144 s.
45. Səfərli F. Kazım Qarabəkir Paşa və Naxçıvanın erməni təcavüzündən müdafiəsi // "Naxçıvan" jurnalı, 2001, № 5, s. 75-77.
46. Səmyuel A. Uimz. Ermənistan – terrorçu "xristian" ölkənin gizlinləri (Ermənilərin böyük fırıldaq seriyaları). Bakı: 2004, 386 s.
47. Talıbov V. Deportasiya tarixi və Naxçıvan // Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i (xüsusi buraxılış). Naxçıvan: Qeyrət, 2001, № 8, s. 8-17.

*Qəzet materialları*

48. Bağırov Z. Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələrin subyekti olması onu qoruyur, möhkəmləndirir // "Şərq qapısı" qəzeti, № 60 (20961), 5 aprel 2014-cü il.
49. Daimi Komissiyanın iclası // "Şərq qapısı" qəzeti, № 018 (16110), 5 fevral 1992-ci il.
50. Hacıyev İ. Qədim türk torpağı Naxçıvanın muxtariyyət salnaməsi // "Şərq qapısı" qəzeti, № 25 (20926), 8 fevral 2014-cü il.
51. Hacıyev İ. Naxçıvanın muxtariyyət statusunu rəsmiləşdirən beynəlxalq müqavilə // "Şərq qapısı" qəzeti, № 49 (20950), 15 mart 2014-cü il.
52. Köçərli T. Amerikanlar Azərbaycanı "kəşf edirlər", Ceyms bəy! // "Naxçıvan" qəzeti, 1, 8, 15 may 1996-cı il.
53. Qarayev S. Muxtariyyət illərində Naxçıvanda Konstitusiya qəbulu tarixindən // "Şərq qapısı" qəzeti, № 58 (20959), 3 aprel 2014-cü il.
54. Naxçıvanın muxtariyyət modeli Avropada nümunə kimi göstərildi. Naxçıvan MR Ali Məclisinin deputatı, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin rəhbəri A.İbrahimovla müsahibə // "Şərq qapısı" qəzeti, № 212 (20866), 13 noyabr 2013-cü il.

*Türk dilində*

55. Ermeni Araştırmaları. 1. Türkiye Kongresi Bildirileri. I cilt. Avrasya Stratejik Araşdırmalar Merkezi, Ermeni Araşdırmaları Enstitüsü Yayınları. Ankara: 2003, 634 s.
56. Hacıyev İ. Moskova ve Kars Antlaşmalarında Nahcıvan // 21. Yüzyıla Girerken Tarihe Dostça Bakış: Türk-Ermeni İlişkileri Uluslararası Sempozyumu. Ankara: Atatürk Araştırma Merkezi, 2000, s. 137-143.
57. Şıhaliyev E.A. Türkiye ve Azerbaycan Açısından Ermeni Sorunu. Ankara: 2002, 231 s.
58. Sevinç N. Arşiv Belgeleriyle Tehcir. Ermeni İddiaları ve Gerçekler. Ankara: Avrasya-Bir Vakfı Yayınları, 2003, 210 s.
59. Azerbaycan Belgelerinde Ermeni Sorunu (1918-1920). Ankara: T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü, 2001, 682 s.
60. Ermeniler Tarafından Yapılan Katliam Belgeleri (1914-1919). I cilt. T.C. Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşiv Dairesi Başkanlığı. Ankara: 2001, Yayın No 49, XXII+740 s.
61. Karacakaya R. Kaynakçalı Ermeni Meselesi Kronolojisi (1878-1923). İstanbul: Başbakanlık Devlet Arşivleri Genel Müdürlüğü Osmanlı Arşivi Daire Başkanlığı, Yayın No 52, 2001, 261 s.

*Rus dilində*

62. Итоги выборов и состав депутатов Верховного Совета Азербайджанской ССР, Верховного Совета Нахичеванской АССР одиннадцатого созыва местных советов народных депутатов Азербайджанской ССР 1985 г. Статистический сборник. Баку: Азернешр, 1986, 146 с.
63. Конституция (Основной Закон) Нахичеванской Автономной Советской Социалистической Республики. Баку: Азернешр, 1978, 46 с.
64. Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье. СПб.: 1911.
65. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху её присоединения к Российской империи. СПб.:Типография Императорской Академии Наук, 1852.

*İnternet saytları*

66. Hacıyev İ. Naxçıvan Muxtar Respublikasının yaradılması ölkəmizin həyatında mühüm hadisədir. http://525.az/site/?name=xeberprint&kecid=1&news_id=15367
67. http://constitution.garant.ru/history/ussr-rsfsr/1924/
68. http://constitution.garant.ru/history/ussr-rsfsr/1936/red_1936/3958676/
69. http://constitution.garant.ru/history/ussr-rsfsr/1977/red_1977/5478732/
70. http://files.preslib.az/projects/remz/pdf/atr_kons.pdf
71. http://www.azerbaijan.az/portal/General/Symbols/stateSymbols_01_a.html
72. http://www.heraldicum.ru/azerbaij/nahicevan.htm
73. http://www.vexillographia.ru/azerbaij/nahic.htm
74. www.e-qanun.az
75. www.meclis.gov.az
76. www.president.az

# MÜNDƏRİCAT

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ HÜQUQİ-SİYASİ ƏSASLARININ KONSTİTUSİYALARDA ƏKSİ .................................................. 6

MÜƏLLİFDƏN ..........................................................................................10

MUXTARİYYƏTƏ DOĞRU GƏLƏN YOL ..........................................................11

MÜSTƏQİLLİK DÖVRÜNDƏ NAXÇIVANDA MUXTAR DÖVLƏT QURUCULUĞU PRİNSİPLƏRİ VƏ İDARƏETMƏ MODELİ .............................. 23

NAXÇIVANIN MUXTARİYYƏT STATUSU VƏ ƏRAZİSİ BEYNƏLXALQ MÜQAVİLƏLƏRDƏ .................................................................. 28
Moskva müqaviləsi ........................................................................................ 28
Qars müqaviləsi ............................................................................................ 29

NAXÇIVAN SOSİALİST SOVET RESPUBLİKASI HAQQINDA ƏSASNAMƏ ............................................................................ 30

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ KONSTİTUSİYALARI ................ 49
Naxçıvan Sosialist Sovet Respublikasının 1926-cı il Konstitusiyası ........................ 51
Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1937-ci il Konstitusiyası .......... 72
Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 1978-ci il Konstitusiyası .......... 90
Naxçıvan Muxtar Respublikasının 1998-ci il Konstitusiyası .................................. 122

AZƏRBAYCAN KONSTİTUSİYALARINDA NAXÇIVAN MUXTARİYYƏTİ İLƏ BAĞLI HÜQUQİ NORMALAR .................................... 151
Azərbaycan Sosialist Sovet Respublikasının 1927-ci il Konstitusiyası .................. 153
Azərbaycan Sovet Sosialist Respublikasının 1937-ci il Konstitusiyası .................. 158
Azərbaycan Sovet Sosialist Respublikasının 1978-ci il Konstitusiyası .................. 164
Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyası .......................................... 170

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ .............. 177
Dövlət bayrağı ................................................................................................ 179
Dövlət gerbi .................................................................................................... 185
Dövlət himni .................................................................................................. 189

SSRİ KONSTİTUSİYALARINDA MUXTAR RESPUBLİKALARLA BAĞLI HÜQUQİ NORMALAR VƏ NAXÇIVAN MUXTARİYYƏTİ ............... 190

XƏRİTƏLƏR ................................................................................................ 195

Naxçıvan Muxtar Respublikasının 1937-ci il Konstitusiyasında izaha ehtiyacı olan sözlər ................................................................................ 203
Ədəbiyyat ...................................................................................................... 204

**«Елм вя тящсил» няшриййатынын директору:**
**профессор Надир МЯММЯДЛИ**

Чапа имзаланмыш **29.08.2014**
Шярти чап вяряги **13.** Сифариш **№ 111**
Каьыз форматы **70х100 1/16.** Тираj **300**

Китаб **«Елм вя тящсил»** няшриййат-полиграфийа
мцяссисясиндя щазыр диапозитивлярдян чап олунмушдур.
**E-mail:** ***nurlan1959@gmail.com***

Тел: 497-16-32; 050-311-41-89
Цнван: Бакы, Ичяришящяр, 3-сц Магомайев дюнэяси 8/4.

Azf-282473

ELM VƏ TƏHSİL